# MÜASİR AZƏRBAYCAN DİLİ

FONETİKA, ORFOEPİYA, ORFOQRAFİYA

**BİRİNCİ HİSSƏ**

ÜÇÜNCÜ NƏŞR

LÜĞƏT VƏ ENSİKLOPEDİYALAR

LÜĞƏT VƏ ENSİKLOPEDİYALAR

Ш163
Д47

ƏBDÜLƏZƏL DƏMİRÇİZADƏ

# MÜASİR AZƏRBAYCAN DİLİ

FONETİKA, ORFOEPİYA, ORFOQRAFİYA

2522264

**BİRİNCİ HİSSƏ**

ÜÇÜNCÜ NƏŞR

*Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB

BAKI 2007

*Bu kitab "Müasir Azərbaycan dili Fonetika, orfoepiya, orfoqrafiya" (Bakı, Maarif, 1972) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

*Dərslik Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür*

Redaktoru **Ağamusa Axundov**
*akademik*

**ISBN 978-9952-34-153-9**

**494.361-dc22**
Azərbaycan dili – Fonetika

**Əbdüləzəl Dəmirçizadə. Müasir Azərbaycan dili.** I hissə. Fonetika, orfoepiya, orfoqrafiya
Bakı, "Şərq-Qərb", 2007, 256 səh

Ali məktəblərin filoloji fakültələrinin müəllimləri və tələbələri üçün nəzərdə tutulmuş bu dərslik üç hissədən ibarətdir Birinci hissədə – "Müasir Azərbaycan ədəbi dilinin fonetikası" bəhsində fonetik qanunlar, vurğu, intonasiya və eləcə də hecaların növləri haqqında geniş məlumat verilir İkinci hissə "Müasir Azərbaycan dilinin orfoepiyası" bəhsidir. Burada müasir Azərbaycan dilinin orfoepiyasının əsasları, saitlərin, samitlərin və mürəkkəb sözlərin tələffüz qaydaları izah olunur Üçüncü hissədə – "Müasir Azərbaycan dilinin orfoqrafiyası" bəhsində Azərbaycan dilinin yazısı və orfoqrafiyası haqqında qısa məlumat verilir

© "Şərq-Qərb", 2007

# GİRİŞ

Azərbaycan dili Azərbaycanda və bir sıra qonşu ölkələrdə əsrlərdən bəri yaşayan azərbaycanlılara ünsiyyət vasitəsi kimi xidmət edən ana dilidir Azərbaycan dili türk dilləri ailəsinin qərb qrupuna mənsub olmaqla bu qrup daxilində mərkəzi mövqe tutan və geniş nüfuz dairəsinə malik olan bir dildir Həm də bu qrupa mənsub dillər arasında ən əvvəl, yəni təqribən VII-IX əsrlər arasında ümumxalq dili halında formalaşmışdır.

Ümumxalq dili kimi özünün ilk formalaşma dövründən başlayaraq həm danışıq dili, həm də ədəbi dil qolları üzrə azərbaycanlılara xidmət etmiş olan Azərbaycan dili XIX əsrdən tamamilə milli dilə çevrilmiş və Azərbaycan milli mədəniyyətinin forması halında xeyli təkmilləşmişdir. Azərbaycan ədəbi dilinin hər iki növü – şifahi və yazılı növü təqribən XI-XII əsrlərdən mövcuddur. Əlbəttə, şifahi ədəbi dil nisbətən daha əvvəllər formalaşmışdır, lakin yazılı ədəbi dil yaradılandan sonra da şifahi ədəbi dil ilə yanaşı işlənilir və ümumi qanunauyğun yolla inkişaf edir. Məhz bu baxımdan Azərbaycan ədəbi dilinin inkişaf tarixini nəzərdən keçirdikdə belə məlum olur ki, Azərbaycan ədəbi dilinin hər iki növü daima müvazi surətdə işlənilmişdir. Əlbəttə, ilk dövrlərdə şifahi ədəbi dilin işlənilmə dairəsi daha geniş, yazılı ədəbi dilin işlənilmə dairəsi isə nisbətən məhdud olmuşdur. Bununla belə, ədəbi dilin şifahi və yazılı növləri zənginləşmə, dəqiqləşmə mənbələri kimi daima bir-birinə qarşılıqlı təsir göstərmişlər. Bu isə Azərbaycan ədəbi dilinin vahid milli dil halında formalaşmasının və ümumi normaların qanuniləşməsinin zəminini yaratmışdır

Dil onu yaradan və yaşadanlara xidmət edən ünsiyyət vasitəsi olduğu üçün, onun qayda-qanunları da həmin dildə danışanların inkişafı ilə əlaqədar surətdə dəyişir və təkmilləşir.

Ədəbi dil normalarının müəyyənləşdirilməsində istifadə olunan meyarın əsasları, şərtləri aydınlaşmış olur ki, bunlar əsasən aşağıdakılardır. d ü r ü s t l ü k, d ü z g ü n l ü k, d ə q i q l i k, a s a n l ı q, s a d ə l i k, v a h i d l i k, e y n i l i k, s a b i t l i k, a h ə n g d a r l ı q, s ə l i s l i k, f ə s i h l i k v ə d a v a m l ı l ı q

Məhz buna görə də belə xüsusiyyətləri ilə şərtlənən normalar əsasında qurulmuş ədəbi dil pozulmaz sayılır və onun pozulmasına da yol verilmir

Müasir Azərbaycan ədəbi dilinin belə normalar əsasında sabitləşərək milli mədəniyyətimizin forması halında qabaqcıl dünya dilləri ilə ayaqlaşması müasir dövrlə üzvi surətdə bağlıdır

Azərbaycan ədəbi dili rəsmi dövlət dilidir Azərbaycan ədəbi dilinin belə bir yüksək hüquqa malik olması onun şifahi qolunun qurultay, konfrans, məruzə, mühazirə dili kimi də tam halda formalaşmasına imkan yaratmışdır Beləliklə də müasir Azərbaycan ədəbi dili təlim-təhsil ocaqlarında təhsil vasitəsinin və təlim-təhsil fənlərinin əsası olmuşdur Müasir Azərbaycan ədəbi dili bütün üslub qolları üzrə şaxələnərək hərtərəfli inkişaf etmiş dillərdəndir

Hazırda Azərbaycan dilində minlərlə elmi, texniki, siyasi və bədii kitablar, yüzdən çox qəzet və məcmuə nəşr olunur Kino ekranlarından, teatr səhnələrindən, qurultay salonlarından, ali məktəblərdən, elmi-tədqiqat institutlarından, idmançı şərqilərindən, gənclərin nəğmələrindən Azərbaycan dilinin hər gün, hər saat məğrur, şaqraq və dərin məzmunlu avazı eşidilir Azərbaycan dili bir sıra radiostansiyalarda veriliş hüququna malik bir dil kimi dünyada səslənir

İndi Azərbaycan ədəbi dilində dünya elm və sənət xəzinəsinin ən qiymətli əsərlərini oxumaq mümkündür. Azərbaycan xalqının hər bir oğlu, qızı dünya elm və ədəbiyyat klassikləri – Aristoteli, Firdovsini, Nizamini, Homeri, Şekspiri, Puşkini, Tolstoyu, Darvini və başqalarını öz ana dilində oxuya bilir

Müasir Azərbaycan ədəbi dili çox tərəqqi və inkişaf etmiş dillər sırasındadır. Azərbaycan ədəbi dilində yalnız bədii əsərlər deyil, elmin, texnikanın, fəlsəfi və ictimai düşüncələrin ən son nailiyyətlərindən bəhs edən çoxcildli, dərin məzmunlu əsərlər də yazılır

Burada belə bir faktı da qeyd etmək lazımdır ki, Azərbaycan dili keçən əsrlərdə də ümumən Orta Asiyada, xüsusən Qafqazda yaşayan müxtəlif dilli xalqlar arasında ümumi anlaşma vasitəsi olmuş, hətta Qafqazın bir sıra xalqlarından olan aşıqlar, əsasən öz qoşmalarını Azərbaycan dilində söyləmişlər Son zamanlarda aparılmış tədqiqat nəticəsində məlum olmuşdur ki, XVI-XVIII əsrlərdə yaşayıb-yaratmış 35 erməni aşığı azərbaycanca qoşmalar düzəldib el arasında oxumuşlar

Azərbaycan dilinin Qafqazda və Orta Asiyada xalqlar arasında anlaşma vasitəsi kimi geniş dairədə istifadə olunduğunu XIX əsrin məşhur adamları – Lermontov, Marlinski, Lazarev, Budaqov dəfələrlə qeyd etmişlər Hətta Lermontov Azərbaycan dilinin Qafqazda, ümumiyyətlə, Asiyada gəzib-dolaşmaq üçün ən əlverişli bir anlaşma vasitəsi olduğunu, o zaman Avropada çox işlənilən fransız dili kimi mahiyyət daşıdığını xüsusi qeyd etmişdir

Beləliklə, aydın olur ki, müasir Azərbaycan ədəbi dilinin tarixi kökləri vardır. Buna görə də müasir Azərbaycan ədəbi dilindən düzgün istifadə etmək üçün onun qayda-qanunlarının əsaslarını dəqiq bilmək və onun normalarının pozulması səbəbləri haqqında ümumi təsəvvürə malik olmaq



hər bir azərbaycanlının müqəddəs borcudur Müasir Azərbaycan ədəbi dili dedikdə əsasən müasir dövrdə yüksək səviyyəli, hərtərəfli inkişaf etmiş və bütün sahələr üzrə hər cür anlayışı ifadə etmək imkanları olan Azərbaycan ədəbi dili nəzərdə tutulur

"Müasir Azərbaycan ədəbi dili" fənni indi azərbaycanlıların bütün sahələrdə istifadə etdikləri anlaşma vasitəsinin – Azərbaycan ədəbi dilinin əsasını təşkil edən vahidlərin qayda-qanunlarını və əsas normalarını öyrədən fənnə deyilir.

"Müasir Azərbaycan ədəbi dili" fənninin əsas şöbələri və bəhsləri aşağıdakılardır fonetika, orfoepiya, orfoqrafiya, leksikologiya, frazeologiya, morfologiya, sintaksis

1) **Fonetikada** müasir Azərbaycan ədəbi dilinin fonemlər sistemindən, fonetik qanunlarından, fonetik hadisələrindən və parçalarından bəhs olunur

2) **Orfoepiyada** müasir Azərbaycan ədəbi tələffüz normalarından, qayda və qanunlarından bəhs olunur

3) **Orfoqrafiyada** müasir Azərbaycan ədəbi dilində düzgün yazı qaydalarından bəhs olunur

4) **Leksikologiyada** müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibindən, sözlərin quruluş və məna növlərindən bəhs olunur.

5) **Frazeologiyada** müasir Azərbaycan dilindəki frazeoloji ifadələrin tiplərindən və məna növlərindən bəhs olunur

6) **Morfologiyada** sözlərin dəyişilməsindən və qrammatik kateqoriyanın morfoloji əlamətlərindən bəhs olunur.

7) **Sintaksisdə** söz birləşmələrindən, cümlələrdən bəhs olunur

Bunlardan başqa bu və ya digər əsas bəhslərlə əlaqədar olaraq müasir Azərbaycan yazısından, əlifbasından, durğu işarələrindən və leksikoqrafiyasından da məlumat verilir

Beləliklə, aydın olur ki, "Müasir Azərbaycan ədəbi dili" adlanan fənn düzgün danışmaq, düzgün yazmaq, düzgün oxumaq və deyiləni, yazılanı düzgün başa düşmək üçün ən mühüm anlaşma vasitəsi olan dilin normalarını, qayda-qanunlarını əsaslı surətdə tədqiq və təlim edən bir fəndir

# BİRİNCİ HİSSƏ

## MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN FONETİKASI

### ÜMUMİ FONETİKA MƏSƏLƏLƏRİ

***§1. Fonetikanın mövzusu və növləri.*** Fonetika dilçiliyin bir bölməsidir. Bu bölmədə dilin əsas tərkibindən, səs qanunlarından, daha ümumiləşmiş halda desək, dilin səs sistemindən bəhs olunur.

Ümumi və xüsusi dilçilik olduğu kimi, onun bir bölməsini təşkil edən fonetika da ümumi fonetıka və xüsusi fonetika olmaq üzrə iki növdur

Səslərın ümumi akustik və fizioloji cəhətləri, səslərın təsnifində tətbiq olunan ümumı prinsiplər, eləcə də vurğu, heca, ıntonasiya, səs, fonem, səs sistemi, səslərın dəyişməsi, əvəzlənməsi kımi bır sıra məsələlərın nəzərı əsasları ümumi fonetikanın mövzusunu təşkil edır Xüsusi fonetikada isə bu məsələlər ayrıca olaraq bu və ya digər konkret bir dil əsasında tədqiq olunur və həmin dilin özünə xas olan cəhətlərı aydınlaşdırılır, hətta məxsusi qanunları müəyyənləşdirilir Ümumi fonetikada ümumiləşdirilmiş halda verılmiş bir sıra qanunlar, təsnifat bu və ya digər dilin materıalları əsasındakı nümunələrlə xüsusi fonetıkada bir qədər də dəqiqləşdirilir

Beləliklə, hər bir dilin öz adı ilə müəyyənləşən xüsusi fonetika formalaşmış olur. Məsələn, Azərbaycan dilinin fonetikası, rus dilinin fonetikası, gürcu dilinin fonetikası, turk dilinin fonetikası, ərəb dilinin fonetikası, alman dilinin fonetikası və s.

Dilin səs vahidlərı əməli və nəzərı məqsədlərlə müxtəlif cəhətlərdən, müxtəlif istiqamətdə tədqiq olunur, beləliklə də fonetikanın müxtəlif bəhslərı və müxtəlif növləri formalaşır. Bu baxımdan fonetikanın aşağıdakı növlərini xüsusi qeyd etməyi lazım bilirık

**1. Təsviri fonetika.** Bu və ya digər konkret bir dilin muasir səviyyədə malik olduğu səs tərkibini, səs qanunlarını və muəyyən şəraitdən asılı olaraq yaranan fonetik dəyişmələrın qanunauyğunluğunu aydınlaşdırmaq, təsbit etmək və bunlardan əməli nəticələr çıxarmaq təsvirı fonetikanın mövzusunu və məqsədini təşkil edir. Belə nəticələr isə dil təlimi işini faydalı və səmərəli qurmaqda, əlifbanı təkmilləşdirməkdə, orfoqrafiya qaydalarını elmi-nəzəri əsaslar üzrə dəqiqləşdirməkdə, təkmilləşdirməkdə, orfoepiya əsaslarını muəyyənləşdirməkdə mütəxəssislərı və eləcə də dil muəllimlərini nəzərı cəhətdən silahlandırır.

Əlbəttə, təsviri fonetikanın bir sıra nəticələrı fonetıkanın digər növləri üçün də faydalı ola bilər Bu nəticələr – dilin musiqi, xususən təğənni[1] işi ilə əlaqədar bəzi məsələlərıni də aydınlaşdırmaq uçün istifadə oluna bilər

**2. Tarixi fonetika.** İnkişaf tarixi boyu müəyyən dilin səs tərkibində, fonetik qanun və qaydalarında baş vermiş dəyişmələri öyrənib, həmin dilin fonetik sistemının inkişaf tarixini muəyyənləşdirmək tarıxi fonetıkanın mövzu və məqsədini təşkil edir.

Tarıxi fonetikada səs tərkibinın təkmilləşməsi, müəyyən səsin və ya fonetik qanunun tədrıcən geniş dairədə işləkolma prosesi, yeni bir səsin törəmə, digər bir səsin yoxolma prosesi tədqiq olunur.

Tarıxi fonetika təsviri fonetikadan tədqiqat obyektınə və mənbəyinə görə də fərqlənır. Təsviri fonetikada muasir ədəbi dilə, canlı danışığa və nəhayət, canlı şivələrə əsasən nəticələr çıxarılır, daha doğrusu, təsviri fonetikada hazırkı dövrdə səslənən, eşidilən dil tədqiq olunur. Burada təbii (qulaqla) eşitmədən başqa, alətlər vasitəsi ilə də tədqiqat aparılır və nəticələr əldə edilir.

Tarixi fonetikada vəziyyət başqa cürdür Burada əsasən yazılı abidələr və qohum dillər fonetık cəhətdən tədqiq edilsə də, müasir dil, onun müxtəlif şivələrı, müxtəlif üslub növləri də tədqiqat obyekti ola bilər. Bu tədqiqatda isə müqayisəli tarıxi üsul tətbiq olunur Deməli, tarixi fonetika öz tədqiqat usuluna görə də təsvirı fonetıkadan fərqlənır

Butün bunlara baxmayaraq, həm təsvirı, həm tarıxi fonetika birbirıni tamamlayır və əslində təsvirı fonetika da tarixi fonetikanın bir hissəsini təşkil edir Çunki tarıxi inkişaf nöqteyi-nəzərindən muasir dilin fonetik sistemi inkişaf tarixində müəyyən mərhələnin fonetik sistemindən başqa bir şey deyildir.

Buna baxmayaraq, təsvirı fonetika müstəqil istiqamətli və müəyyən tədqiqat obyckti olan müstəqil bir sahədir

[1] Təğənni hava ilə oxumaq, zümzümə etmə

Fonetikanın, dilçilik ədəbiyyatında adları çəkilən digər növlərinə gəldikdə, deməliyik ki, *təcrübi fonetika, fizioloji fonetika, müqayisəli fonetika* kimi adlarla tanınan butun bu fonetika növləri əslində təsviri və tarixi fonetikalarda tətbiq olunan üsul ilə, vasitə ilə, ya da tədqiq olunan sahə ilə bağlı olaraq fərqlənən növlərdir.

**3. Təcrübi, yaxud eksperimental fonetika** daha çox təsviri fonetikadır. Lakın burada müxtəlif alətlər vasitəsi ilə səsin məxrəci, səsin uzanma, qısalma dərəcəsi və sairə, xüsusən müasir fizika, texnika imkanları – maşınları əsasında laboratoriyada tədqiq olunur

**4. Fizioloji fonetika** əslində fonetikanın əsas tədqiqat obyekti olan səslərin yaranmasında fəaliyyət göstərən bədən üzvlərinin tələffüz prosesindəki vəziyyətinin tədqiqi ilə bağlı bir sahədir və həm təsviri, həm də tarixi fonetikada bu cəhətlər nəzərə alınır

**5. Müqayisəli fonetikada** bir dilin şivələrindəki, bir ailəyə mənsub dillərdəki və hətta müxtəlif dillərdəki səs sistemi müqayisə yolu ilə tədqiq olunur. Buna görə də muqayisəli fonetikanın əsasını təşkil edən tədqiqat üsulu həm tarixi fonetikada, həm də təsviri fonetikada (daha ümumiləşmiş halda desək, həm ümumi, həm də xüsusi fonetikada) tətbiq olunur Beləliklə də təkcə bir dilin səsləri haqqında deyil, bir sıra qohum və ya yad dillərin fonetik sistemi haqqında ətraflı məlumat verilmiş olur

***§2. Fonetikanın əhəmiyyəti.*** Dil dedikdə biz, birinci növbədə, səslənmə ilə təzahür edən bir hadisəni başa düşürük. Əslində dünya dillərinin bir qismində danışığın ümumi şəkildə səslənmə hadisəsində fəal vəzifəsi olan bir üzvün adı ilə, yəni rusca *язык*, fransızca *langue*, ərəbcə لسان, farsca زبان, əfqanca ژبه, türk dillərində *til, dil* adlanması da dil üçün səslənmənin və danışıq üçün dilin nə qədər vacib olduğunu göstərən bir dəlildir Axı, ağız boşluğuna gələn hər cür səs axınından müxtəlif səslərin yaranmasında iştirak edən ən mühüm üzv ağız boşluğunda hərəkət edə bilən dildir. Elə buna görə də dildən, yəni danışıqdan bəhs edərkən, biz ancaq səslənmə ilə bağlı olan və danışıq üzvləri vasitəsi ilə formalaşan səsli dili başa düşürük.

Dil tələffüz olunur və eşidilir, şərti işarələrlə – hərflərlə yazılır və oxunur. Beləliklə, dil tələffüz olunan, yazılan, oxunan və eşidilən nitq kimi müxtəlif formalarda olsa da, yenə əsasən səslərlə təzahur edir. Buna görə də səs dilin maddi qabığı hesab olunur və dil səslərlə maddiləşən bir ictimai hadisə sayılır.

Hər bir dildəki səslər müxtəlif olduğu kimi, müxtəlif dillərdəki, hətta oxşar səslər də tam eyniyyət təşkil etmir.



Bundan başqa, dil dəyişdikcə, inkişaf etdikcə dildəki səslərdə də az-çox dəyişiklik ola bilir. Cəmiyyətin inkişafı ilə bağlı olaraq dəyişən dilin maddi vasitəsi olan səslərin dəyişməsi, dilin bir sıra fonetik qanun və hadisələrinin dəyişməsinə, hətta yeni fonetik qanunların yaranmasına səbəb ola bilir. Məhz buna görə də dili həm əməli məqsədlə öyrənmək üçün, həm də nəzəri məqsədlərlə tədqiq etmək üçün onun maddi hissəsini, yəni səsləri bilmək, səslərlə əlaqədar bir sıra hadisələri və qanunları başa düşmək zəruridir.

Sadə şəkildə desək, əlifba düzəltmək, orfoqrafiya qaydalarını tənzim etmək, həm də bunları təlim etmək, düzgün tələffüz əsaslarını müəyyənləşdirmək və öyrətmək, başqa dilləri öyrənmək, loqopedləri (dili nöqsanlı olan uşaqları: pəltək, kəkələyən və ya müəyyən səsləri tələffüz edə bilməyən) təlim etmək və daha bir sıra sırf əməli məqsədlər üçün dilin səslərini və fonetik qanunlarını öyrənmək çox zəruridir.

Bunlar eyni zamanda səslərin dəyişmə, əvəzlənmə, düşmə, artma qanunlarını, tarixi inkişaf yollarını nəzəri cəhətdən tədqiqetmənin zəruriliyini doğurur. Bundan başqa, dillərin tarixi tədqiqində tətbiq olunan müqayisəli tarixi usul daha çox tarixi fonetikaya əsaslanır, bu isə qohum dillərin tərkibinin öyrənilməsi zərurətini bir daha aydın göstərir.

Bütün bunlar ümumən dilçilik elminin, xususən onun bir bölməsini təşkil edən fonetikanın əhəmiyyətini nümayiş etdirən konkret faktlardır Buna görə də hər bir mədəni adam nitq mədəniyyətinə yiyələnmək üçün əvvəlcə dilin fonetik əsaslarını bilməlidir.

***§3. Fonetik transkripsiya*** Məhdud miqdarda hərflərdən ibarət olan əlifba əsasında qurulmuş yazıda nitq səsləri dəqiq işarə olunmur, çünki yazının vahidləri olan hərflər nitq vahidləri olan səslərlə tam eyniyyət təşkil etmir

Orfoqrafik qaydaya görə müəyyən sözlərdə eyni hərf bəzən müxtəlif səslər kimi, bəzən də eyni səsin müxtəlif variantı kimi tələffüz olunur. Məsələn, *hoqqa, toqqa* sözlərində yanaşı yazılın *qq* hərflərindən birincisi karlaşmış halda (*ka* kimi), ikincisi isə cingiltili – dilarxası samit kimi tələffüz olunur. Yaxud *kolxoz, kino, katib, çiçək* sözlərində *k* hərfi uç səsin işarəsi halında tələffüz olunur; *kolxoz* sözündə *k* hərfi dilarxası – kar samit (*ka*) kimi, *kino, katib* sözlərində *k* hərfi dilortası – partlayan kar (*ke*) samit kimi, *çiçək* sözünün sonundakı *k* hərfi isə dilortası – novlu kar samit kimi tələffüz olunur.

Beləcə də *sovet, kolxoz* sözlərində ilk hecanın tərkibindəki *o* hərfi *a* kimi, *alim, aciz* sözlərinin əvvəlindəki *a* hərfi uzun *a* halında, *alma, ağac* sözlərindəki *a* hərfi isə adi orta kəmiyyətli *a* saiti halında tələffüz olunur və s

Belə misalların sayını artırmaq mümkündür, lakin elə bu nümunələrdən də aydın olur ki, hərflər hər zaman səslərlə eyniyyət təşkil etmir. Buna görə də dildəki səsləri tələffüz olunduğu kimi dəqiq surətdə öz məxrəcinə uyğun halda yazmaq üçün həmin dilin yazı vasitəsini təşkil edən əlifbadakı hərflərdən əlavə, başqa yazılarda istifadə olunan əlifbalardakı hərflərdən də, hətta hərflərin sağında, solunda, üstündə, altında qoyulan bir sıra şərti işarələrdən də istifadə etmək lazım gəlir.

Beləliklə, əlavə hərflərdən və bir sıra şərti işarələrdən istifadə etməklə xüsusən şifahi dildə olan səsləri daha dəqiq halda yazıya köçürmək mümkün olur Dildəki səsləri və səs variantlarını dəqiq surətdə yazıya köçürmək üçün istifadə edilən xüsusi hərflər və işarələr sistemi ümumiləşmiş halda fonetik transkripsiya[1] adlanır.

Fonetik transkripsiyadan muxtəlif məqsədlərlə aparılan tədqiqat işlərində istifadə olunur, xüsusən dillərin muqayisəli tədqiqində, dialektoloji tədqiqat işlərində, fonetikada, orfoepiya normalarının dəqiqləşdirilməsində fonetik transkripsiyadan daha çox istifadə edilir.

Biz bu kitabda fonetik transkripsiya kimi, əsasən muasir əlifbamızdan və bəzi şərti işarələrdən istifadə etmişik ki, bunlar aşağıdakılardan ibarətdir:

| | |
|---|---|
| **N,** | Dilarxası ***n*** samitinin sağır ***n***, səsinin hərfi işarəsidir: *man,a, san,a* |
| **K'** | Dilarxası kar samiti, *q* samitinin kar qarşılığını – *ka* samitini bildirən işarə: *k'ollek'tiv* |
| **X'** | Dilortası - partlayan kar samitin işarəsi: *çiçəx', küləx'* |
| **a: ə:** | Sait səsi bildirən hərfdən sonra qoyulan qoşa nöqtə həmin saitin uzunluğunu bildirir: *a ləm, tə:rif* |
| **ı. i.** | Sait səsi bildirən hərfdən sonra qoyulan tək nöqtə həmin saitin qısa olduğunu bildirir: *bacı.sı, əmi.si* |
| **ḅ Ḍ Ṭ Ḳ** | Samit səsləri bildirən hərflərin altında qoyulan tək nöqtə həmin hərflə ifadə olunan kar samitin cingiltiləşdiyini, cingiltili samitin isə karlaşdığını bildirir *kitaḅ, keçiḍ, hətṭa, mutəkkə* |
| **⁀** | Yanaşı iki hərfin üstündə qoyulan bu işarə həmin hərflərlə ifadə olunan səslərin qovuşuq halda – diftonqvarı tələffüz olunduğunu bildirir. *t͡oux, q͡ourma.* |
| **˜** | Sait səsi bildirən hərfin üzərində qoyulan bu işarə həmin saitin burunda azacıq uzun tələffüz olunduğunu bildirir: *atã, sã, ağlĩ.* |
| **pʰ** | Bəzi kar samitin nəfəsli tələffüzunü bildirmək uçün samiti bildirən hərfin uzərinə kiçik *h* hərfi qoyulur *pʰul, sapʰ* və s |

[1] T r a n s k r i p s i y a – latınca *trans* (köçürmə) və *criptio* (yazı) sözləri tərkibindən düzəldilmiş termin; sözləri yazıda deyilişinə daha uyğun əksetdirmə üsuludur



## SƏSİN FORMALAŞMA MƏNBƏLƏRİ VƏ ƏLAMƏTLƏRİ

***§4. Səsin akustik fiziki əlamətləri*** Səs çox mürəkkəb və geniş bir anlayışdır. Səs dedikdə, təbiətdə mövcud hər cur səs fikrə gələ bilər. Əslində biz nəyi eşidiriksə, onu da ümumiləşmiş halda səs adlandırırıq. Doğrudur, müasir fizika sübut etmişdir ki, təbiətdə insan qulağı eşitməyən səslər də vardır Həmin səslər fizikanın "akustika" bəhsində öyrənilir Buradan belə bir nəticə çıxır ki, eşitmə üzvü ilə – qulaqla dərk olunan hər şey səsdir

Lakin bütün bunlarla bərabər, belə bir cəhəti qeyd etməliyik ki, səsin varlığı bizim qulağımızdan asılı deyil və biz eşitməsək də, təbiətdə səs mövcuddur. Səsin törəmə mənbəyi və səbəbi başqadır, yayılma mühiti də müxtəlifdir Buna görə bizim qulağımız da bir cur səs deyil, çox müxtəlif növ səs eşidir

Bunu necə başa düşməli və necə izah etməli? Bu suallara cavab vermək üçün fizikanın səs (akustika) bəhsinə müraciət edək

Cisimlər bu və ya digər qüvvənin təsiri nəticəsində rəqsə gəlir. Bu, rəqsli hərəkət adlanır Rəqslənmə isə həmin cismin muhitini, yəni havanın və ya başqa qazın hissəciklərini rəqsə gətirir, lakin tədricən zəifləşir və nəhayət yox olur. Buna görə də hava və ya başqa qaz muhiti olmayan yerdə nə rəqslənmə əmələ gələ bilər, nə də yayıla bilər; halbuki hava eyni zamanda muxtəlif rəqslənməni çox müxtəlif istiqamətə keçirib yaya bilər.

İnsanda və heyvanların çoxunda hava rəqslənməsini son dərəcə həssaslıqla duyan xüsusi bir uzv – cihaz mövcuddur ki, bu uzv qulaq adlanır Əşyanın rəqsi – hərəkəti nəticəsində hava hissəciklərində əmələ gələn rəqslənmə istiqamətində olan hava dalğaları qulağa çatacaq xüsusi bir təəssürat yaradır ki, buna biz səs deyirik Səs, bu və ya digər mühitdə (adətən havada) yayılıb eşitmə üzv ilə qəbul olunan və beyində müəyyən təəssürat yaradan rəqslənmədir İnsan səsləri qulağı ilə eşidir



Şəkil 1 İnsan qulağının quruluşu

Qulaq başlıca üç hissədən ibarətdir: çöl, orta və iç hissə.

Səs dalğaları əvvəlcə qulağın çöl hissəsinə – çöl qulağa, yəni qulaq seyvanına gəlir və buradan çöl qulaqla orta qulaq arasında olan qulaq pərdəsinə çatır. Bu zaman qulaq pərdəsi ona toxunan dalğaların təsiri ilə həmin dalğaların rəqslənmə tezliyinə bərabər tezlikdə[1] rəqslənir.

Qulaq pərdəsinin rəqslənməsi ling kimi işləyən oynaq sümüklər sistemi, yəni çəkic, zindan, üzəngi tipli sümüklər sistemi vasitəsi ilə qulağın daxili hissəsinin boşluğunu örtən uzunsov pəncərəyə verilir Qulaq yolunun mexaniki qıcıqlanmaya qarşı çox həssas olan sinir ucları yerləşən hissəsi endoloimf deyilən maye ilə doludur. İçəridə əsas membran adlanan hissə vardır. Bu membran hər biri müəyyən tona köklənmiş bir neçə min (4500-ə qədər) müxtəlif uzunluqda liflərdən ibarətdir.

[1] Tezlik – rəqslənmənin bir saniyədəki sayı



İç qulağa gələn səs dalğaları onun tezliyinə köklənməli olan liflərini rəqsə gətirir Beləliklə, müəyyən liflər rəqsə gəlir və onlara uyğun olan əsəb ucları qıcıqlanır, bu əsəblər isə qıcıqlanmanı beyinə aparır. Mürəkkəb səs təsir etdikdə bir sıra əsəb ucları qıcıqlanır və bunun nəticəsində də insan mürəkkəb səsin, məsələn, musiqi akkordunun ayrı-ayrı tonlarını dərk edə bilir

Səs dalğalarının yayılma istiqamətlərinin dəqiq təyin edilməsində insan qulağının cüt olmasının da çox böyük əhəmiyyəti vardır. Səs dalğalarının istiqamətini təyin etməyi bacarmaq hissi isə beyin mərkəzlərinin qulaqlara çatan rəqslənmələrdəki kəmiyyət fərqini hesaba ala bilmək qabiliyyəti sayəsində əmələ gəlir.

Hər iki qulağı bərabər eşidən şəxsin, adətən, səs mənbəyinə üzünü düz tuta bilməsi və bir qulağı bir az ağır eşidən və ya kar olan şəxsin isə səs gələn tərəfə üzünü düz istiqamətləndirə bilməməsi də qulağın cüt olmasının əhəmiyyətini göstərən bir faktdır.


Şəkil 2 Hər iki qulağı ilə bərabər eşidən şəxs başını səs mənbəyinə düz döndərmiş olur

İnsanın eşitmə üzvü səsləri bir-birindən asanlıqla fərqləndirir; səsin zil – uca, pəst – alçaq, gur – zəif olduğunu, yaxud rəngarəng növlərini ayırd edə bilir Hətta, insan eyni dərəcədə ucalıqda, gurluqda danışan iki tanış adamın səsini və ya eyni dərəcədə zillikdə və pəstlikdə çalınan zurnanın, kamançanın, klarnetin və başqa musiqi alətlərinin səsini məhz tembrinə, səsin boyasına görə fərqləndirə bilir Eyni əsasda dildəki *a* səsi *o* səsindən, *i* səsi *ü* səsindən ayırd edilir

Bu nə üçün belədir və səslərin fərqlənməsini nə ilə izah etmək olar?

Yuxarıda aydınlaşdırdıq ki, səs – rəqslənmədir. Akustikada rəqslənmənin, yaxud səs dalğalarının forma və xarakterinə görə fərqlənən səsin başlıca üç növündən danışılır: zərbələr, gurultular və tonlar.

Zərbələr atəş açılışından, partlayışdan, elektrik qığılcımından, hər hansı bir ağır cismin zərbəsindən çıxan səslərdir Belə səslərə uyğun gələn zərbə rəqslənməsi təkcə bir dalğadan ibarət olur

Küy yaxud gurultulu rəqslənmə qeyri-ahəngdar (qeyri-bərabər, qeyri-periodik) olanda, yəni rəqslənmənin zaman vahidi –

miqdarı dəyişkən olduqda yaranan səsə deyilir. Məsələn, ağac sınanda əmələ gələn çartıltı və s.

İnsanın danışıq üzvlərindən dodaqların, dilin, dilçəyin rəqslənməsində də kuy ola bilər. Ağız boşluğunda və ya qırtlaqda da belə kuy yarana bilir.

T o n, yaxud m u s i q i s ə s i (avaz) rəqslənmə ahəngdar (bərabər, periodik) olanda, yəni rəqslənmənin zaman vahidi miqdarı sabit qaldıqda yaranan səsə deyilir. Məsələn, musiqi alətlərinin, müğənnilərin səsi belə səslərdəndir.

Nitq prosesində səs tellərinin rəqslənməsi və bununla ağız və burun boşluğundakı havanın rəqslənməsi də belə ahəngdar rəqslənmədir.

Ümumiyyətlə, tonda az da olsa küy ünsürü, küydə də azacıq ton ünsürü mövcuddur. Buna görə də saf tona və ya saf küyə nadir hallarda təsadüf edilir.

Səsin bir sıra keyfiyyət xüsusiyyətləri küyə nisbətən tonda daha parlaq surətdə özünü göstərir və məhz buna görə də səsin gücü (şiddəti) ucalığı, uzunluğu və tembri kimi çox mühüm keyfiyyətləri də əsasən tonlar üzərində daha asan müşahidə və tədqiq oluna bilər

Səsin ucalığı rəqslənmənin tezliyindən asılıdır, yəni bir saniyədə rəqslənmə miqdarı çox olarsa, səsin ucalığı çoxalar və səs də ucalar Əksinə, bir saniyədə rəqslənmə miqdarı azalarsa, səsin ucalığı azalar və səs də alçalar.

İnsan qulağı ən alçaq səs olaraq saniyədə rəqslənmə miqdarı 16 və ən uca səs olaraq saniyədə rəqslənmə miqdarı 20 000 olan səsi eşidə bilir

Səsin gücü rəqslənmənin amplitudundan[1] (bır ucundan o biri ucuna genişlənmə sahəsindən), yəni səs dalğasının qalxıb düşmə nöqtələri arasındakı məsafədən asılıdır.

Rəqslənmə amplitudu böyük olduqda, səs də güclü, rəqslənmə amplitudu kiçik olduqda, səs də zəif olur.

Səsin uzunluğu rəqslənmənin kəsilərək və ya uzadılaraq davametmə müddəti ilə ölçulur.

Adətən, nitq səslərinin, xüsusən sait səslərin davamlılıq dərəcəsinə görə növləri məhz səsin uzunluğu əsasında müəyyənləşdirilir

Səsin tembri[2] səsin xüsusi keyfiyyəti və məxsusi boyaları deməkdir Bərabər ucalıqda və gurluqda olan səslər tembrinə görə bir-

[1] A m p l i t u d a - genişlik (*lat*)

[2] T e m b r – zəng kilsəsi, zəng vuran (*frans*)



birindən fərqlənə bilir Tembrə görə eyni not uzrə oxumaq da, müxtəlif musiqi alətlərində çalmaq da, müxtəlif şəxslərin səslərini fərqləndirmək də olur Buna görə, tembr səsin fərdiləşmə əlaməti kimi qiymətləndirilir.

Səs rezonansı[3] və rezonatoru əslində əks-səda adlandırdığımız hadisədir, yəni bir cismin rəqslənməsinə cavab olaraq digər cismin rəqslənməsi səs rezonansıdır.

Rezonans, adətən, qapalı hava mühitində baş verir Bu cəhətdən ağız və burun boşluğu nitq səsləri üçün (məsələn, qırtlaqda yaranma tonlar üçün) rezonans mühiti vasitəsi, yəni rezonator ola bilər Bir qayda olaraq, ağız boşluğunda müxtəlif rezonans şəraiti yaranmaqla, səs dalğalarından müxtəlif saitlər formalaşır.

Əsas ton – mürəkkəb musiqi səsindəki ən aşağı tona deyilir.

Oberton[4] böyük tezliklərə malik olan qalan sadə tonlarla deyilir ki, bu da yüksək ahəngdar tonlar deməkdir

Əsas tona nə qədər oberton qarışarsa, səsin tembri də bir o qədər dolğun və zəngin olar.

Bəzən əsas ton olmadan da rezonatorda ton yaranır ki, belə ton şərti olaraq rezonator tonu adlanır.

Adətən rezonator tonu hər hansı bir hərəkətə gətirici quvvə ilə (üfürməklə, tənəffüslə) rezonatorda olan havanın rəqslənməsindən yaranır.

Yeni alətlər vasitəsi ilə səslərin üzərində aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, rezonans hava dalğası keçən rezonatorların (ağız boşluğunun) hər yerində birdən baş vermir və eləcə də ağız boşluğunun ön və arxa hissəsində ayrı-ayrı rezonans olur

Eyni zamanda rezonatorun uzadılması, qısaldılması da tonun kökünü dəyişdirir.

Rezonans sahəsi (ön, arxa) və rezonans nəticəsi (alçaq, yuksək tonlar) f o r m a n t adlanır.

Beləliklə, akustika baxımından səslərin ümumi xarakterini nitq səslərinə tətbiq etdikdə başlıca olaraq aşağıdakı umumi nəticələr əldə edilir:

1. Nitq səslərinin çoxu küylüdur və saf ton deyildir

2. Səsin gücü – şiddəti səs tellərində havanın (nəfəsvermə zamanı) sıxılma gücündən asılı olur (vurğulu və vurğusuz saitlərdə olduğu kimi).

[1] R e z o n a n s əks-səda (səsə səs vermə) (*frans*)

[2] O b e r t o n – yüksək ton (*alm*)



252264
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

3. Səsin ucalığı səs tellərinin uzunluğundan və gərginliyindən asılı olur.

4 Saitlərin davamlılığı çox, samitlərin davamlılığı az olur

5. Səsin boyası, tembri ağız, burun boşluqlarının həcmindən və formasından asılı olur

Buradan isə nitq hissələrinin akustik xarakteri ilə nitq səslərinin fizioloji şəraiti arasında sıx bağlılıq olduğu aydınlaşır. Bu isə o deməkdir ki, rezonans üçün rezonator lazımdır

***§5. Səsin fizioloji mənbələri və əlamətləri.*** Nitq vahidləri olan səslərin formalaşması fizioloji mənbələrlə daha çox əlaqədardır Səslərin fizioloji mənbələri dedikdə, səslərin əmələ gətirilmə prosesində iştirak edən bədən üzvləri, insanın bioloji və fizioloji orqanizminin ən mühüm hissələri nəzərdə tutulur. Bu hissələr isə ümumiləşmiş halda danışıq üzvləri, yaxud nitq orqanizmi adlanır.

Qeyd etmək lazımdır ki, insan varlığını idarə edən əsəb sistemi danışıq üzvlərinin də idarəedicisidir və buna görə də əsəb sistemi danışıq uzvləri sırasında birinci yeri tutur. Digər üzvlər isə bədəndəki mövqelərinə görə üç qrupa bölünür. 1) Aşağı üzvlər (aşağı hissə); 2) Orta üzvlər (orta hissə); 3) Yuxarı uzvlər (üst hissə).

Aşağı üzvlər əslində tələffüz cihazını təşkil edən üzvlərdən ibarətdir və bu üzvlərin vəzifəsi səsin əmələ gəlməsi üçün lazım olan quvvəni hərəkətə gətirməkdir

Orta üzvlər əsasən boğazda yerləşən üzvlərdən ibarətdir və bunların vəzifəsi rəqslənmə ilə səs törətməkdir.

Yuxarı üzvlər ağız və burun boşluqlarının ayrıldığı yerdən başlayaraq burun boşluğundan, ağız boşluğundan, ağız boşluğunda yerləşən uzvlərdən və dodaqlardan ibarətdir. Bu hissənin əsas vəzifəsi danışıq səslərini formalaşdırmaqdır.

Danışıq uzvləri haqqında nisbətən dəqiq və geniş təsəvvürə malik olmaq üçün 3-cü şəkli nəzərdən keçirmək və başlıca üzvlər haqqında az da olsa, bəhs etmək vacibdir.

Ümumən səslərin yaranmasında və müxtəlif nitq səslərinin formalaşmasında bu üzvlərdən hər birinin müəyyən və məxsusi vəzifəsi vardır.

***§6. Aşağı üzvlər.*** Aşağı hissənin başlıca üzvu ağ ciyərdir Ağ ciyər səslərin əmələ gəlməsində doğrudan doğruya deyil, səs əmələ gətirən digər uzvlərə köməkçi və vasitəçi olaraq iştirak edir.



Məlum olduğu uzrə, müxtəlif səslərin əmələ gətirilməsi müxtəlif tezlikli rəqslənmələrlə əlaqədardır Belə rəqslənmələrdə isə xaricə buraxılan havanın da miqdarı müxtəlif olmalıdır. Danışıqda lazım olan hər cür səsin tələbinə görə xaricə buraxılmalı havanın miqdarını muəyyənləşdirməkdə ağ ciyərin muhüm rolu vardır; çünki ağ ciyər xaricə buraxılan havanı avtomatik surətdə azaldıb artıra bilir. Ağ ciyərin bu qabiliyyəti pozulduqda danışıqda kəkələmə, topuqlama kimi hallar əmələ gəlir. Adi tənəffüsdə hava ağ ciyərə tədricən və bərabər ölçüdə muntəzəm surətdə daxil olduğu halda, danışıq zamanı, əksinə olaraq, hava ağ ciyərdən xaricə müxtəlif ölçüdə buraxılır Ağ ciyər havanın bronxlardan və nəfəs borusundan keçərək qırtlağa gəlməsinə təsir göstərir və bu hava oradakı səs tellərini hərəkətə gətirir. Beləliklə, hava dalğaları tərkibindəki səslənmiş dalğalar ağız və ya burun boşluğuna keçir və oradan da xaricə çıxır.



Şəkil 3 Danışıq üzvləri

1 Ağ ciyərlər 2 Bronxlar 3 Nəfəs borusu. 4 Qırtlaq 5 Səs telləri 6 Ağız boşluğu 7 Burun boşluğu. 8 Yuvaqlar 9 Sərt damaq 10 Damaq pərdəsi (yaxud yumşaq damaq) 11 Dil 12 Dişlər 13 Dodaqlar 14 Alt çənə 15 Əsəb sistemi - beyin 16 Udlaq boşluğu

Buradan aydın olur ki, nitq səslərinin əmələ gəlməsində iştirak edən aşağı hissədəki üzvlərin əsası ağ ciyər olsa da bu prosesdə diafraqma, bronxlar və nəfəs borusu da iştirak edir.

***§7. Orta üzvlər*** Orta hissə əsasən qırtlaqdan ibarətdir. Qırtlaq (xirtdək) qısa borudan ibarət olmaqla bir neçə qığırdağın birləşməsindən əmələ gəlmişdir. Bu qığırdaqlardan ikisi öz həcm və şəklinə görə başqalarından xeyli fərqlənir. Bunlardan birincisi, aşağı üzükvari qığırdaqdır ki, onun dar ucu qırtlağın ön tərəfinə, enli ucu isə arxa tərəfinə uzanmışdır. İkincisi, üzükvarı qığırdağın üstündə yerləşmiş olan qalxanvarı qığırdaqdır. Qalxanvarı qığırdağın arxasında isə bir cüt, o qədər də böyuk olmayan, uçbucaq quruluşlu və hərəkətedici çalovvarı (piramidal) qığırdaq da vardır (4 və 5-ci şəkillərə bax)




Şəkil 4




Şəkil 5

Qırtlaqda olan bu qığırdaqların hamısı bir-birinə əzələ lifləri ilə bitişmişdir. Qırtlağın içərisində hər iki tərəfdən onun divarlarına yapışmış olan ət çıxıntıları burada üfüqi vəziyyətdə uzanmışdır. Bu ət çıxıntıların başlanğıc ucu qalxanvarı qığırdağın içəri küncünə, son ucu isə çalovvarı qığırdaqlara bitişmişdir. Qırtlaqdakı qığırdaqların hərəkətedici olmaları sayəsində bu ət çıxıntılarının ucu bir-birindən tamamilə uzaqlaşaraq, nəfəsalma zamanı ağ ciyərə gedən və nəfəsvermə zamanı ağ ciyərdən gələn havanın heç bir maneə ilə rastlaşmadan keçib getməsinə imkan yaradırlar ki, bu zaman heç bir səs əmələ gəlmir. Bu ət çıxıntılarının ucu bir-birinə yaxınlaşa və hətta, bir-biri ilə kipləşərək birləşə bilir və beləliklə, ağ ciyərdən gələn hava ət çıxıntılarının uclarına toxunaraq ona təsir edir, bunun nəticəsində də həmin çıxıntılarda rəqslənmə əmələ gəlir, bu rəqslənmə, yaxud səs dalğası isə udlaq boşluğundan keçərək ağız və burun boşluqlarında müxtəlif səslərin formalaşması üçün əsas olur (6 və 7-ci şəkillərə bax).






Şəkil 6




Şəkil 7

*ST* – Səs tellərinin ucları.
*ÇQ* – Çalovvarı qığırdaqlar
*SK* – Səs tellərarası keçid – ikinci keçid
*QK* – Qığırdaqlararası keçid – birinci keçid

Səslərin əmələ gəlməsində əsas vasitə olan həmin telə bənzər ət çıxıntıları səs telləri adlanır. Bu səs tellərinin arasındakı açıqlığa səs keçidi, çalovvarı qığırdaqlar arasındakı açıqlığa isə qığırdaq keçidi deyilir (6-cı şəklə bax)

Çalovvarı qığırdaqların, səs tellərinin vəziyyətini və fəaliyyətini daha yaxşı təsəvvür edə bilmək üçün, bir çox fonetistlər tərəfindən məqbul görülən aşağıdakı sxemlərdən istifadə etməyi biz də məqsədəmüvafiq bilirik.

Qırtlaqdan hava axını keçərkən çalovvarı qığırdaqlar və səs telləri başlıca olaraq aşağıdakı vəziyyətlərə düşür



Şəkil 8

1 Danışmayaraq sərbəst surətdə nəfəsalma zamanı geniş keçidlər əmələ gəlir. Danışmayaraq sərbəst surətdə nəfəsvermə zamanı keçidlər nisbətən bir az daralmış olur



Şəkil 9

2 Hava axını birinci gen keçiddən ötüb, ikinci dar keçidə düşdükdə, xışıltı və ya xırıltı yaranır. Belə vəziyyət adətən kar samitlərin formalaşmasında da olur

Nitq səslərinin formalaşması üçün səs tellərinin başlıca olaraq üçüncü və beşinci vəziyyətdə rəqslənməsindən alınan səslər əsas olur



Şəkil 10

3 Hər iki keçid bağlı olub, hava axını təzyiq edərək yol açanda, qırtlaqda hıçqırtını andıran səs əmələ gəlir Bununla da bir sıra dillərdə olan *h* tipli səslər yaranır



Şəkil 11

4 Qığırdaqlararası keçid açıq, səs tellərarası keçid isə bağlı olanda pıçıltı əmələ gəlir



Şəkil 12

5 Qığırdaqlararası keçid bağlı, gərgin vəziyyətdə olan səs tellərarası keçid isə azacıq açıq olduqda, bu keçiddən keçən hava axını səs tellərini rəqsləndirir və bununla da səs (sövt) əmələ gəlmiş olur

***§8. Yuxarı üzvlər.*** Orta hissədə əmələ gələn səslər hələ tam nitq səsləri deyil; əsil mənada nitq səsləri – nitq səslərinin müxtəlif növləri tam halda üst hissədə formalaşır Üst hissədə yerləşən danışıq üzvləri, əsasən ağızla əlaqədar olan üzvlərdir və burun boşluğu da bu hissəyə daxildir. Şərti olaraq bu üzvləri "ağız üzvləri" adlandırmaq mümkündür.

### Ağız üzvlərinin sxemi

**Ağız.** Səsin əmələ gəlib müəyyən şəklə düşməsində mühüm rol oynayan üzvlərdən biri də ağızdır.

Ağız da qırtlaq kimi mürəkkəb bir danışıq cihazıdır. Ağız dedikdə, əsasən, aşağıdakı üzvlər nəzərdə tutulur:

**Fəal üzvlər** *L* – alt dodaq, *A* – dilin ön hissəsi, *M* – dilin orta hissəsi, *P* – dilin arxa hissəsi, *N* – dilçək, *V* – yumşaq damaq.

**Vasitəçi üzvlər**: *b* – üst dodaq, *d* – üst ön dişlərin kənarı, *e* – üst ön dişlərin arxa səthi, *f* – yuvaqlar, *g* – sərt damağın ön hissəsi, *h* – orta damaq, *i* – yumşaq damağın ön hissəsi, *j* – yumşaq damağın arxa hissəsi.






Şəkil 13

a) ağız boşluğu, b) dil, c) damaq, ç) dilçək, d) dişlər, e) dodaqlar, ə) alt çənə

Bu üzvlərin hər birinin həm təklikdə, həm də bir-birinə köməkçi olaraq, səslərin bu və ya digər şəklə düşməsində müəyyən vəzifəsi vardır.



Şəkil 14 Başın şaqqa kəsiyi (yumşaq damaq qaldırılmış vəziyyətdə)

***Fəal üzvlər:*** *L* – alt dodaq, *A* – dilin ön hissəsi, *M* – dilin orta hissəsi, *P* – dilin arxa hissəsi, *N* – dilçək, *V* – yumşaq damaq

***Vasitəçi üzvlər:*** *b* – üst dodaq, *d* – üst ön dişlərin kənarı, *e* – üst ön dişlərin arxa səthi *f* – yuvaqlar, *g* – sərt damağın ön hissəsi, *h* – orta damaq, *i* – yumşaq damağın ön hissəsi *j* – yumşaq damağın arxa hissəsi



Şəkil 15 Başın şaqqa kəsiyi (yumşaq damaq aşağı düşürülmüş vəziyyətdə)

I Ağız boşluğu II Udlaq boşluğu. III Burun boşluğu. IV Qırtlaq
1 Nəfəs borusu 2 Səs telləri 3 Yalançı səs telləri 4 Çalovvarı qığırdaq 5 Üzükvarı qığırdaq 6 Dilaltı sümük. 7 Qırtlaq qapağı. 8 Dil 9 Sərt damaq 10 Yumşaq damaq 11 Dilçək. 12 Damaq vəzi

Məlum olduğu üzrə, müəyyən həcmdə olan hər bir boşluqdakı hava rəqslənmə zamanı səs əmələ gətirir. Buna görə də səs tellərində rəqslənməklə səsə dönmüş hava dalğaları ağızda, ağız boşluğunun həcmindən asılı olaraq, müxtəlif avazlı səslərə çevrilə bilir. Yəni boğazdan ağız boşluğuna verilən səsləri ağız boşluğu öz həcmini dəyişməklə müxtəlifləşdirir. Lakin ağız boşluğu daha çox səsləri, demək olar ki, kəmiyyətcə dəyişir və səslərin mənalı və müxtəlif keyfiyyətli olmalarına çox az təsir edir. Buna görə də belə səsləri tam yetkin səs (sövt) kimi qəbul etmək olmaz

Əslində ağız boşluğu adi mənada boşluqdan ibarət xali bir məkan deyildir. Ağız boşluğu səslərin formaya salınmasında çox mühüm rol oynayan bir sıra üzvlərin yerləşmiş olduğu mürəkkəb bir rezonator və səsləri tənzim edən requlyatordur.

Üst hissədə yerləşmiş olan bir sıra danışıq üzvləri (dil, dodaqlar, dişlər) bir-birinə yaxınlaşaraq və ya biri digərinə toxunaraq, biri digərini sıxaraq qırtlaqdan gələn axının sərbəst surətdə xaricə çıxmasına manеə törədir, beləliklə də, müxtəlif növlü səslər əmələ gəlir.



Dilin və dodaqların müxtəlif vəziyyət alması, çənələr və dişlər arasındakı açıqlığın çox və ya az olması və s. səslərin gah partıltı ilə, gah fışıltı ilə, gah da fısıltı ilə çıxmasını təmin edir və bununla da qırtlaqdan gələn rəngsiz səslər ağızda müxtəlif rənglərdə formalaşır




Şəkil 16 Ağız boşluğu və damaq (ağız bucaqları kəsilərək ağız tamam açılmış)

Beləliklə, ağız boşluğunda ağız üzvlərinin bu və digər şəkildə iştirak etməsi sait, samit səsləri və bunların müxtəlif növlərini (kıpləşən, küylü, titrək və s. samitləri) yaradır

**Dil**. Dil özünün mütəhərrikliyi və asanlıqla şəklini dəyişə bilməsi sayəsində danışıq işində son dərəcə mühüm fəaliyyət göstərir. Dil ağız boşluğunun həcmini müxtəlif şəkildə dəyişə bilir ki, bunun nəticəsində də müxtəlif sait səslər əmələ gəlir. Eyni zamanda dil müxtəlif şəkillərdə sövtı axına manеə yaratmaqla (arx şəkli almaqla, uc hissəsinin qatlanması və ya titrəməsi ilə, dişlərə toxunmaqla və s.) müxtəlif samitlərin əmələ gəlməsinə səbəb olur. Hətta bir sıra səslər vardır ki, bunlar sadəcə dil səsləri adlanır.




Şəkil 17 Dilin fonetik bölümü

Nitq səslərinin formalaşmasında iştirakına görə, dili əsasən üç hissəyə bölmək olar ki, belə bölgunu xüsusən fonetist-dilçilər "dilin fonetik bölümü" adlandırırlar.

Fonetik bölünməyə görə dil aşağıdakı hissələrdən ibarətdir·

**DÖ** – *dilönu* – dilin qabaq hissəsidir ki, sakit vəziyyətdə dişlərin yanında və ya aşağı ön dişlərin yuvaqları (alveolları) yanında yerləşir. Dilönündə ən fəal hissə dilucudur

**DU** – *dilucu* – dilin ən çevik və həcmcə ən kiçik hissəsidir. Bu hissə müxtəlif səslərin formalaşmasında ya müstəqil surətdə, ya da ön dişlərə, bəzən dişlərə və dodaqlara toxunaraq fəal iştirak edir.

**DO** – *dilortası* – dilin orta hissəsidir ki, bəzən fonetistlər bu hissənin ön damağa qarşı olan bir hissəsi kimi izah edirlər Bu hissə

dilönünə nisbətən az çevikdir, lakin dilarxasına nisbətən çevikdir, çünki dilin arxa hissəsi bir o qədər də hərəkət edə bilmədiyi halda, dilortası bir az mütəhərrik olduğundan sərt damağa doğru qalxa bilir və qalxma dərəcəsindən asılı olaraq, müxtəlif səslərin formalaşmasında (*y, g* səslərinin) mühüm rol oynayır.

**DA** – *dilarxası* – dilin arxa hissəsidir ki, yumşaq damağa və qismən sərt damağa doğru qalxaraq, ya arxaya, ya da enə hərəkət edərək müxtəlif səslərin formalaşması üçün şərait yaradır.

Müxtəlif səslərin formalaşmasında, dilin iştirakında həmin başlıca hissələrlə birlikdə dilyanları (*DY*), dildibi, yaxud dilkökü (*DD*) və diluzununa dil cığırı (*DC*) da müəyyən dərəcədə rol oynayır.

**Damaq** – Ağız boşluğunun tavanını, burun boşluğunun isə fərşini – alt səthini təşkil edir və qübbə şəklində olub, iki əsas hissəyə bölünür.

**SD** – *sərt damaq* – damağın dilönü və dilarxasına qarşı duran hissəsidir və damağın öndən $^2/_3$ hissəsini təşkil edir.

**YD** – *yumşaq damaq* – damağın dilarxasına qarşı duran hissəsidir ki, ön damaqdan sonra xırtdəyə doğru arxada yerləşmişdir. Yumşaq damağın ucu damaq pərdəsi, yaxud dilçəkdir.




Şəkil 18 Damağın fonetik bölümü

**D** – Dilçək müstəqil surətdə hərəkət edə bilir və yuxarı qalxdıqda qırtlaqdan burun boşluğuna gedən yolu bağlayır, aşağı endikdə isə bu



yol açılır və beləliklə, sövti axının burun boşluğuna getməsi nəticəsində *m, n* kimi bir sıra səslərin formalaşması üçün şərait yaranır.



Şəkil 19 Dilçək yuxarı qalxmış, burun boşluğuna gedən yolu tutmuşdur.



Şəkil 20 Dilçək aşağı enmiş, burun boşluğuna gedən yol çox, ağız boşluğuna gedən yol isə az açıq qalmışdır

Dişlər ayrılıqda səslərin müxtəlifləşməsi üçün heç bir müstəqil vəzifəyə malik deyildir. Dişlər yalnız dil və dodaqlara köməkçi olaraq səslərin müxtəlifləşməsində iştirak edir. Məsələn, *s, z* səslərinin əmələ gəlməsi üçün dişlər dilə, *f, v* səslərinin yaranması üçün dişlər alt damağa kömək edir. Dişlərin alt və üst çənələrdə yerləşdikləri yerlərin – yuvaqların da səslərin formalaşmasında rolu vardır

Dodaqlar bəzən dairəvi bir şəkil almaqla, bəzən bir-birindən uzaqlaşmaqla, bəzən əksinə, bir-birinə yaxınlaşmaq və ya kipləşməklə bir sıra müxtəlif sait və samit səslərin formalaşmasında fəal iştirak edən üzvlərdəndir.

Çənələr səslərin formalaşmasında iştirak edən üzvlərdəndir. Xüsusən alt çənənin iştirakı gözə çarpacaq dərəcədədir. Əlbəttə, alt çənə dodaqlar qədər çox iş görmür, lakin alt çənə, mütəhərrik olması



Şəkil 21

nəticəsində muxtəlif dərəcədə üst çənədən uzaqlaşa bilir. Beləliklə də, bir tərəfdən ağız boşluğunun muxtəlif həcmdə olmasına, digər tərəfdən də dodaqların müxtəlif məsafədə aralanıb yaxınlaşmasına imkan yaratmış olur Bu isə səslərin müxtəlif rənglərə düşməsindən ötrü zəruridir.

Bura qədər verdiyimiz izahatdan məlum olur ki, nitq səslərinin formalaşmasında nitq orqanizminin hissələrini təşkil edən üzvlərin hər birinin bu və ya digər dərəcədə müəyyən vəzifəsi vardır.

Buna görə də səslərin formalaşmasında iştirakına görə bu üzvləri üç qrupa ayırmaq olar:

1 Fəal (əsas) üzvlər
2. Köməkçi (vasitəçi) üzvlər.
3 Avazlayan (rezonator) üzvlər.

Səs telləri, arxa damaq, dil, dilçək və dodaqlar fəal; dişlər, yuvaqlar, ön damaq, nəfəs borusu və ağ ciyərlər köməkçi; qırtlaq, udlaq boşluğu, ağız boşluğu, burun boşluğu və çənələr avazlayan üzvlərdən sayılır

Əlbəttə, bunların hamısı əsəb sistemi ilə idarə olunur.

*§9. Səsin ictimai əlamətləri* Dünyada neçə cür səs var? – deyə hər kəs sual verə bilər Lakın heç kəs bu suala qənaətbəxş cavab verə bilməz. Elə buna görə də hər hansı bir şəxs özündə neçə cur səs haqqında təsəvvür olduğunu hesaba almaq istəsə, bunu hesablaya bilməz və hətta hesablaya bildiyini adlandırmaq uçün dildə lazımi miqdarda söz də tapa bilməz Axı biz rəngarəng musiqi səsləri eşidirik, həm də müxtəlif musiqi alətinə, ayrı-ayrı muğənniyə görə bu səslərin keyfiyyəti, kəmiyyəti, təsiri müxtəlif olur Göy gurultusu, su şırıltısı, quş civiltisi, qab cingiltisi, vıyıltı, uğultu, qurultu, şaqqıltı, şappıltı, zıqqıltı, hıqqıltı, fısıltı, fışıltı, mələmə, ulama, xışıltı, qıjıltı, vızıltı və s bunların hamısı səsdir Danışıq da səsdir. Bir sözlə, biz səslər aləmində yaşayırıq və hər tərəfdən səslərlə əhatə olunmuşuq. Əvvəlki bəhslərdən bizə məlum oldu ki, insanın qulağı bu səsləri dərk edir və təbiətdə insan qulağının dərk edə bilmədiyi səslər də mövcuddur. Eyni zamanda məlum oldu ki, hər cur səs fiziki hadisədir və beləliklə, səslərin hamısı fiziki səslər kimi tanına bilər Lakin bu səslər öz mənbəyinə və mahiyyətinə görə müxtəlif olur. Ahəngdar səslər – avaz, ahəngdar olmayan səslər – küy, gurultu adlanır İnsan fikirlərinin ifadəsinə xidmət edən səslər isə danışıq səsləridir.



Səslərin fiziki mahiyyəti, ümumiyyətlə, fizikanın "akustika" bəhsində tədqiq olunur; danışıq səsləri isə əsasən fonetikada öyrənilir

Əvvəlki bəhsdən bizə məlum oldu ki, hər növ səsi əmələ gətirən rəqslənmənin bir mənbəyi olduğu kimi, danışıq səslərinin də mənbəyi insanın danışıq üzvləridir. Belə ki, bizim ciyərlərimizdən gələn hava dodaqlarımızdan bayıra çıxıncaya qədər bir çox maneələrlə rastlaşır. Beləliklə, rəqslənmə əmələ gəlir, səs törəyir və formalaşır, ağızdan çıxaraq bizi əhatə edən havada yayılır Bu səslərin ictimai vəzifə və mənasını tam anlamaq, təyin etmək uçun cəmiyyətin digər üzvlərinin eşitməsi lazımdır ki, bundan ötrü də insanda eşitmə uzvü – qulaq vardır Həm səslərin əmələ gətirilməsi, həm də eşidilməsi, yəni insanın danışma fəaliyyəti isə mərkəzi əsəb sistemi ilə idarə olunur.

Danışıq səsləri, yaxud fonetikanın tədqiq obyekti olan səslər, hər şeydən əvvəl, ictimai ünsiyyətin ən kəskin silahı olan dilə məxsusdur və dilin maddi qabığıdır.

"Səs" fonetik bir termin olaraq, geniş mənada danışıq üzvləri vasitəsi ilə əmələ gələn səslər, dar mənada isə danışıq səsləri deməkdir.

Məlum olduğu uzrə, hər bir dildə müəyyən miqdar səs vardır və hər bir səs danışıq üzvlərinin müxtəlif istiqamətdə fəaliyyəti nəticəsidir Danışıq üzvlərinin fəaliyyəti nəticəsində fonetik axın müxtəlif nöqtələrdən keçərək danışıq səsi halında formalaşır. Buna görə də səslərin formalaşma nöqtələri sistemi, ümumiyyətlə, məxrəc (artikulyasiya)[1] və ya səs məxrəci adlanır.

Məxrəc etibarı ilə fərqlənən səslər isə hər bir dildə ümumiləşmiş halda, müəyyən adla bizə məlum olan səslərin miqdarından çox olur və belə səslərin bəzisi ilk və bir az da səthi təəssüratda adamın qulağına eyni və ya oxşar səslər kimi gəlir Lakin bu səslərin hamısı nitq üçun – dil üçün bərabər dərəcədə zəruri deyildir

Eləcə də bir dildə birinci dərəcəli qiyməti olan bu və ya başqa bir səs digər dildə ikinci dərəcəli ola bilər, ya da zəruri səs sayılmaz.

Bəzən müxtəlif dildə (xüsusən rus dilinin və ya hər hansı bir xarici dilin təlimində) eyni adlı hərflə işarə olunan səslərin də eyni, fərqli adlı hərflə işarə olunan səslərin isə hər bir dil uçün spesifik xüsusi səslər olmasından bəhs edilir və yanlış da nəticələr çıxarılır

Məhz belə yanlış anlayışın nəticəsində, hətta bir zaman rus əlifbasından *я, ю, е* hərfləri ilə ifadə olunan rus dili fonetik sisteminə

[1] Artikulyasiya – aydın, üzvlərinə ayrılmış halda söyləmək, danışmaq (*lat*)

xas səsləri biz dilimizdəki *y* səsi ilə *a, u, e* səsləri tərkibinə bərabər səs sayıb, həmin mənada da qəbul etmişdik.

Yaxud indi də bir sıra dərsliklərdə göstərilir ki, guya ruscadakı *а, б, в, г, д, з, о, ш, ч* və s Azərbaycan dilindəki *a, b, v, q, d, z, o, ş, ç* eyni səslərin hərfi işarələridir. Həqiqətdə isə belə deyildir.

Əslində hər bir dildə məxrəccə az-çox yaxın olan səs qrupları əsasında dilin fonetik sistemini yaradan məxsusi məxrəc özülü vardır və bu məxrəc özulunə görə hər bir dilin səsləri ancaq o dilin özünəməxsus əlamətlərinə malık olur

Danışığımızdakı səslərə, tələffüz edərkən, diqqətlə qulaq assaq, burada bir sıra xususiyyətlərin olduğunu aydınlaşdıra bilərik. Məsələn *aç, ağ, at* sözlərindəki *a* ilə *aləm, adi, alim* sözlərindəki *a* səsinin; *iş, it, ıp* sözlərindəki *i* səsi ilə *imiş, sədri, hərbi* sözlərindəki *i* səsinin tələffüzcə fərqləndiyini, müxtəlif kəmiyyətdə tələffüz edildiyini bir o qədər çətinlik çəkmədən duymaq mümkündür. Bunların fərqli eşidilmələrinə baxmayaraq, bu səslər Azərbaycan dilində bir sövti növ kimi tanınır və yazıda da müxtəlif *a*, müxtəlif *i* kimi qiymətləndirilmir. Bunun səbəbi isə Azərbaycan dilində bu incə fərqli muxtəlif səslərin ayrı-ayrı yeni mənalı sözləri yarada bilmək keyfiyyətinə yox, ancaq fonetik kəmiyyətə (yəni qısa, ya adi *a, i* və uzun *a, i* kimi) malık olmasıdır.

Lakin başqa bir dildə bu incə fərqli *a, i* və s. müxtəlif mənalı sözləri yaradan səslərdir. Türkmən dilində adi *a* və uzun *a* iki müstəqil səsdir Çunki bu səslərdən birini digəri ilə (yəni adi *a* səsi ilə uzun *a* səsini) əvəz etməklə söz öz mənasını da dəyişir Məsələn, "*aq*" *aqmaq* felinin II şəxs təkə aid əmr şəklidir, "*a q*" isə rəng mənasında "ağ" deməkdir. Yaxud *daş* "uzaq" demək olduğu halda, *da ş* "daş" deməkdir[1].

Dəqiq yoxlasaq aydın olar ki, *kəpənək* sözündəki birinci *k* və sonuncu *k* tam eyni məxrəcli səslər olmadığı kimi, *qığırdaq* sözündəki birinci *q* ilə sondakı *q* da tam eyni məxrəcli səslər deyildir. Bu qayda ilə tutuşdursaq, *dad* sözündəki əvvəlinci və sonuncu *d, bal* sözündəki *b* ilə *qab* sözündəki *b, cücə* sözundəki *c* ilə *uc, guc* sözlərindəki *c* səslərinin məxrəccə tam eyni səslər olmadığını söyləyə bilərik.

Beləliklə, aydın olur ki, hər bir dildə olduğu kimi Azərbaycan dilində də məxrəccə fərqlənən xeyli miqdar səs vardır

[1] Проф А Поцелуевский "Фонетика туркменского языка", Ашхабад, 1936, стр 12



Doğrudan da, əgər *kəpənək* sözündəki birinci *k* sonuncu *k*-dən fərqlidirsə, yaxud dilimizdə məxrəccə fərqli bir neçə *q* varsa, bəs nə üçün bu səslərin hamısını sözün maddi qabığı kimi qiymətləndirib fərqləndirməyə ehtiyac duymuruq və hətta, bu səslərin hamısı üçun yazı əlaməti olaraq ayrıca hərflər deyil, bunların ancaq məhdud miqdarını ifadə edən hərflərdən istifadə edə bilirik? Çünki dildə olan səslərin hamısında məna fərqini ifadəetmə qabiliyyəti eyni dərəcədə deyildir, yəni dildə olan səslərin hamısı yox, ancaq muəyyən miqdarı fərqləndirici məna ifadə edən səslərdir Belə səslər isə dilçilik ədəbiyyatında ümumiləşmiş halda fonem adlanır

***§10. Fonemin əsas əlamətləri.*** Fonemlər bu və ya digər dildə olan sözlərin maddi qabığını təşkil edən və bir sözu başqasından nitq vahidi kimi, yəni ictimai mənalı vahid kimi fərqləndirən səslərdir. Dildəki belə səslərin, yəni fonemlərin bir sıra əlamətdar xüsusiyyətləri vardır ki, onları digər səslərdən, xüsusən fonemlərin müxtəlif çalarlıqlı variantlarından fərqləndirir

Fonemlərin əlamətdar xüsusiyyətlərinin başlıcası aşağıdakılardır·

1. Fonem dilin sisteminin müstəqil bir həlqəsidir.

2 Fonem sözdən ayrı deyil, ancaq söz daxilində ola bilən mənalı vahiddir.

3. Fonem dilin məna fərqi yarada bilən ən kiçik vahididir.

4. Fonemlər sistemi hər bir dilin məxsusi əlamətlərinə görə müəyyənləşir. Buna görə də, müəyyən bir dildə fonem fərqləndirici əlamət ölçüsü sayılır, başqa bir dildə isə əksinə, sayılmır. Məsələn, rus dilində samit fonemləri fərqləndirən əlamətlər sırasında yumşaqlıq, bərklik (*мягкость, твердость*) bir meyar kimi nəzərə alınır Azərbaycan dili fonemlərini muəyyənləşdirmədə isə belə əlamətlər nəzərə alınmır.

5. Bir fonem bir səsdən, iki səsdən, hətta üç səsdən ibarət ola bilər (monoftonq, diftonq, triftonq). Məsələn, Azərbaycan dilindəki *a, b, v, d, ə, i* və s. bir səsli fonem olduğu kimi, *ç, c* samitləri *tş, dj* olmaq üzrə iki səs əsasında formalaşmış fonemlərdir.

6. Sözdən, ifadədən və daha bir sıra başqa şəraitdən asılı olaraq bir fonem digər bir fonem çalarlığında işlənildikdə, yeni fonem formalaşması və ya fonem variantı formalaşması mümkündür

7. Fonemlər silsiləsi qarşılıqlı cütlükdən ibarət olur. Belə qarşılıqlı cütluklər isə müxtəlif əlamətlərlə müəyyənləşir:

Saitlərdə. açıq saitlər – qapalı saitlər, qalın saitlər – incə saitlər, dodaqlanan saitlər – dodaqlanmayan saitlər və s

Samitlərdə· kar samitlər – cingiltılı samitlər, ağız samitlən – burun samitlən, dilönü samitlər – dilarxası samitlər və s

Səslərin fonem halında formalaşmasını müəyyənləşdirən daha bir sıra əlamətdar cəhətlər də vardır. Lakin yuxarıda qeyd etdiklərimiz, xüsusən Azərbaycan dilindəki fonemləri müəyyənləşdirmək üçün birinci dərəcəli əlamətlərdəndir. Məhz belə əlamətlərə malik səslən fonem hesab etmək olar.

***§11. Səslərin təsnifi meyarı haqqında.*** Ümumi dilçilikdə, xüsusən onun fonetika bəhsində səslərin təsnifində iki əsas meyar nəzərə alınır: a) fizioloji meyar, b) akustik meyar. Buna görə də ümumiləşmiş halda, birinci meyar əsasında səslərin təsnifi fizioloji təsnif, ikinci meyar əsasında səslərin təsnifi akustik təsnif adlanır.

Birinci növ təsnifdə səslərin əmələ gəlməsində danışıq üzvlərinin vəzifə və vəziyyəti nəzərə alınır. Səslərin əmələ gəlməsində danışıq üzvlərinin iştirakı daha çox əyani və təcrübi mahiyyətli olduğundan, xüsusən təlim-tədris işində daha əlverişli sayılır.

Dunya dillərinin, demək olar ki, hamısında səslərin yaranmasında dil və dodaqlar ən fəal və gözəçarpan danışıq üzvlərindən olduğuna görə səslərin, xüsusən sait səslərin fizioloji təsnifində bu iki üzv· dil və dodaqlar əsas meyar sayılır. Bəzi dillərin əlamətdar cəhətlərini nəzərə alaraq fizioloji təsnifdə burun boşluğu da üçüncü meyar sayılır və saitlər, burun saitləri, ağız saitləri olmaq üzrə iki qrupa bölünür Azərbaycan ədəbi dilində belə saitlər, yəni burun saitləri olmadığından, Azərbaycan ədəbi dili saitlərinin təsnifində belə bölgüdən bəhs açmaq lazım gəlmir. Lakin Azərbaycan dili şivələrindən bəhs edərkən, əlbəttə, belə bölgünün nəzərə alınması lazımdır Çünki Azərbaycan şivələrinin bəzisində (Şəki şivəsində) burun saitləri vardır Bu şivə ilə danışan şəxs ədəbi dildəki *mənə, sənə* əvəzinə *mã, sã* deyir, yəni *a* səsini burunda tələffüz edir. Deməli, bu sözlərdəki *a* ağız saiti deyil, burun saitidir. Belə saitlər dilimizin fonetik inkişaf tarixi ilə əlaqədar səslərdir və muasir ədəbi dilimizdə müstəqil fonem kimi işlənilmir.

Dilin fonetik tərkibində həm saitlərin, həm də samitlərin bəzi əlamətdar cəhətləri də vardır ki, bunları aydınlaşdırmaq və ya nəzərə çarpdırmaq üçün akustik meyardan da istifadə etmək lazım gəlir Hətta bəzi dillərdəki saitlərin müəyyənləşdirilməsi üçün akustik meyardan istifadə mütləq və zəruri sayılır Buna görə də belə dillərdəki səslər, xüsusən saitlər akustik meyarla da təsnif olunur Məsələn, ingilis dilindəki uzun, qısa, diftonq saitləri digər saitlərdən fərqləndirmək üçün akustik təhlil və təsnif daha əlverişlidir.



Akustik təsnifdən bu və ya digər dilin fonetik tərkibində olan fonem variantlarını, orfoepik normaları, təğənni və dilin fonetik tərkibi məsələlərini aydınlaşdırmaq üçün də istifadə olunur.

***§12. Səslərin əsas növləri.*** Dildə olan səslər müxtəlif məxrəclərdə formalaşır. Lakin məxrəcləri ümumiləşdirən bir sıra əlamətdar cəhətlər olduğu kimi, dildəki səslərin də formalaşmasında bir sıra ortaqlı cəhətlər vardır. Məhz belə ortaqlı cəhətlərə görə də dildəki səslər başlıca olaraq aşağıdakı əsaslar üzrə qruplaşdırılır.

I Səslərin yaranmasında səs tellərinin iştirakı, əsasən, iki halda təzahür edir və buna görə də səslər iki növ olur. *ünlü səslər, ünsüz səslər.*

Birinci halda səs telləri son dərəcə gərginləşmiş və bir-birinə kipləşmiş olur. Beləliklə, son dərəcə daralmış olan səs cığırından keçən havanın təsiri ilə səs telləri də titrəyir və bununla muntəzəm rəqslənmədən musiqili tonu üstün olan səs yaranır ki, belə səslər ünlü səslər adlanır *a, i, r, l, m, n*

İkinci halda isə səs telləri kipləşmir, gərginləşmir və səs cığırı geniş – açıq olur Beləliklə, hava heç bir maneəyə rast gəlmədən geniş səs cığırından keçir və nəticə etibarilə ancaq küydən ibarət səs yaranır. Belə səslər ünsüz səslər adlanır. *p, f, t, s, ş, k*

II. Səslərin müxtəlif rənglərə düşməsində ağız üzvlərinin iştirakında əsasən iki vəziyyət həlledici olur və buna görə də səslər iki növə bölünür: *sait səslər, samit səslər*

S a i t  s ə s l ə r ağız boşluğunda heç bir ciddi maneəyə rast gəlmədən formalaşıb tələffüz olunan ünlü səslərdir *a, ö, e, i, o, u, ü, ə, ı*

S a m i t  s ə s l ə r ağızda olan bu və ya digər bir üzvün, ya da bu üzvlərdən bir neçəsinin maneçiliyinə rast gələrək formalaşıb tələffüz olunan ünlü, yaxud unsüz səslərdir· *n, m, r, b, p, z, s, c, ç, q, x, d, t* və s.

III. Səsdə tonun və ya küyun üstunlüyunə görə də nitq səsləri iki qrupa bölünür: *sonor səslər, küylü səslər.*

S o n o r  s ə s l ə r rezonator tonlarına görə müəyyənləşir, yəni sonor səslərdə musiqili ton – avaz ustün olur, kuy isə ya heç olmur (sait səslərdəki kimi), ya da azacıq olur: *l, r, n, m*

Qeyd etmək lazımdır ki, sonor samitlərdə musiqili ton ustunluk təşkil etdiyi üçün sait səslərə daha çox oxşayır, elə buna görə də

bəzi dillərdə sonor samitlər saitlər kimi hecadüzəldən səslərdən sayılır. Lakin belə samitlərdə, ümumiyyətlə samit səslərə xas olan əsas əlamət üstünlük təşkil edir, yəni belə səslər ağızda, burun boşluğunda ciddi maneəyə rast gələrək formalaşır. Belə nəticəyə gəlmək olur ki, sonor səslər sait və samit səslər arasında yerləşən, lakin əsasən samitlər qrupuna daxil olan səslərdəndir.

Küylü səslərdə musiqili ton az olur, küy isə çox olur: *b, p, t, z, s, f, q, c, ç* və s.

Belə ümumi təsnifatdan başqa, dildə olan səslər bir sıra əlamətdar cəhətlərinə görə də müxtəlif prinsiplər əsasında da təsnif olunur Belə təsnifat isə daha çox konkret şəraitdə bu və ya digər konkret bir dilin səs tərkibini aydınlaşdırmaq məqsədi ilə aparılır. Buna görə də həm saitlər bəhsində, həm də samitlər bəhsində belə təsnifat aparılmışdır

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏKİ SAİTLƏR SİSTEMİ (VOKALİZM)

***§13. Saitlərin təsnifi əsasları.*** Məlum olduğu üzrə, ağ ciyərdən gələn hava axını gərgin vəziyyətdə olan səs tellərinə toxunub rəqslənmiş dalğalar halına düşərək səs cığırından ağız boşluğuna keçir və avaza (musiqili tona) çevrilir. Dil səslərinin əsası məhz belə avazlardan ibarətdir. Saitlərdə isə belə avazlar üstünlük təşkil edir. Lakin saitlərin müxtəlif növlərinin yaranması üçün bu əsas avaza daha bir sıra avaz rəngləri də əlavə olunmalıdır. Belə əsas avazlar xüsusən ağız boşluğunda əlavə avazlanma ilə rənglənir və bu yolla da müxtəlif saitlər yaranır. Bu isə ağız boşluğunun, dilin, dodaqların və digər ağız üzvlərinin vəziyyəti ilə əlaqədardır. Ağız boşluğunda dilin müxtəlif vəziyyətdə olması – önə uzanması, arxaya çəkilməsi, yuxarı qalxması, dodaqların az və ya çox açılması, dairəvi şəkil alması və daha bir sıra hallar muxtəlif saitlərin yaranmasında mühüm rol oynayır. Məhz buna görə də saitlərin təsnifində, xüsusən dilin və dodaqların iştirakı əsas əlamətdar ölçü vahidləri kimi nəzərə alınır.

Azərbaycan ədəbi dilinin fonetik sistemində tək-tək hallarda nəzərə çarpan fonem-mənalı səs variantlarını, Azərbaycan şivələrindəki bəzi səsləri və eləcə də, ədəbi tələffüz normaları məsələlərini aydınlaşdırmaq üçün saitlərin akustik meyar əsasında təsnifindən də istifadə olunur Bundan əlavə, son zamanlarda Azərbaycan dilinin fonetikası məsələləri ilə əlaqədar yazılmış bəzi əsərlərdə, xüsusən akustik meyar əsasında Azərbaycan dilindəki səslərin növləri və miqdarı haqqında da müxtəlif mülahizələr söylənilmişdir. Məhz buna görə də formalaşma mənbələri, şəraiti və bəzi akustik əlamətləri nəzərə alınaraq sait səslər aşağıdakı prinsiplər əsasında təsnif olunur:

1. Dilin üfüqi vəziyyətinə görə.
2. Dilin şaquli vəziyyətinə görə
3. Dodaqların vəziyyətinə görə.
4. Məxrəc sabitliyinə görə
5. Kəmiyyətə görə.
6. Gərginliyə görə.

***§14. Dilin üfüqi vəziyyətinə görə.*** Dilin üfüqi vəziyyətinə görə saitlər üç növə bölunürlər. *dilönü saitlər, dilortası saitlər, dilarxası saitlər*

Dilönü saitlərin əmələ gətirilməsində dilin orta hissəsi ön damağa doğru qalxmış olur ki, bunun nəticəsində ağız boşluğu iki bərabər olmayan hissəyə bölünür böyük hissə arxada, kiçik hissə öndə qalır Beləliklə, dilönü saitlər əmələ gəlir. Ön hissədə rezonator kiçik həcmli və səs axınının xaricə çıxma yolu dar olduğundan səs də incəlir. Buna görə də belə saitlər qrammatika kitablarında dilönü saitlər və ya incə saitlər adlanır.

Azərbaycan ədəbi dilindəki dilönü (incə) saitlər bunlardır: *ə, i, ö, ü*

Dilortası saitlərin əmələ gətirilməsində dilin ön və orta hissəsi bütövlükdə damağa doğru qalxmış olur ki, belə vəziyyətdə ağız boşluğu təqribən iki bərabər hissəyə bölünür Rezonansın bərabərləşməsi nəticəsində dilortası saitlər əmələ gəlir Azərbaycan dilində yalnız bir dilortası sait vardır ki, bu da *e* saitidir

Dilarxası saitlərin əmələ gətirilməsində dilin ön hissəsi alt çənənin içində yan dişlər boyunca sərt damaq dairəsində geri yığılmış olur. Belə vəziyyət isə dilin arxa hissəsinin dil dibinə doğru daha çox yığılmasına və sərt damağın arxa hissəsinə, yumşaq damağın ön hissəsinə doğru qalxmasına səbəb olur. Bunun nəticəsində də iki bərabər olmayan hissəyə ayrılan ağız boşluğunun böyük hissəsi öndə qalır ki, burada da dilarxası saitlər əmələ gəlir Ön hissədə rezonator böyük həcmli və səs axınının xaricə çıxma yolu geniş

olduğundan səs də qalınlaşmış olur. Buna görə də belə saitlər, xüsusən məktəb qrammatikalarında qalın saıtlər adlanır. Azərbaycan ədəbi dilindəki dilarxası saitlər bunlardır: *a, i, o, u*.

Təlim-tədrıs işlərində və ya məktəb qrammatıkalarında, orfoqrafiya işlərində – ümumən əməli işlərdə dilortası saitlər xüsusi olaraq ayırd edilmır və saitlərın hamısı ıncə (*ə, e, i, ö, ü*), qalın (*a, ı, o, u*) olmaq üzrə ikı qrupa ayrılır

***§15. Dilin şaquli vəziyyətinə görə*** Dilin şaquli vəziyyətinə görə fərqlənən saitlərın formalaşmasında dilin qalxma dərəcəsi əsas olsa da, alt çənənin açılma dərəcəsinin də belə səslərin formalaşmasında rolu vardır

Saitlərın formalaşmasında dilın damağa doğru qalxma və alt çənənin açılma dərəcəsi bərabər olmur. Bəzən dilin önü və ya arxası damağa doğru çox, bəzən isə xüsusən dılın ön hıssəsi az qalxmış olur

Beləcə də alt çənə aşağı bəzən çox, bəzən də az düşür. Beləlıklə, dilin damağa doğru qalxma və alt çənənın aşağıdüşmə dərəcəsınə görə sait səslər əsasən uç növ olur: açıq (genış), qapalı (dar), yarımqapalı (yarımaçıq)

Qapalı saitlərin əmələ gətirilməsındə dıl damağa doğru çox qalxır, alt çənə isə aşağı az düşmüş olur. Azərbaycan dilindəki qapalı saitlər bunlardır *u, ü, ı, i*. Qapalı saitlərdən ikısi qalın (*u, ı*), ikısi isə incə (*ü, i*) saitlərdır.

Açıq saitlərın əmələ gətirılməsındə dilin ön hissəsi yuxarı qalxmır, alt çənə isə aşağı düşmüş olur. Azərbaycan ədəbi dilındəkı açıq saitlər bunlardır *o, ö, a, ə*.

Açıq saitlərdən ikisi qalın (*a, o*), ikisi isə incə (*ə, ö*) saitlərdır

Azərbaycan ədəbi dilindəkı açıq və qapalı saitlərdən başqa bir sait də vardır kı, qapalıya yaxın məxrəcli olduğundan bu, yarımqapalı sait hesab olunur. Azərbaycan ədəbi dilindəkı *e* yarımqapalı saitdir Məhz buna görə də bəzən *ə* saitindən sonra *i* saiti gəldikdə, bu saitlərın hər ikısi də *e* kımi tələffüz olunur və bəzən *ə* əvəzinə *e* yazılır *nöqteyi-nəzər* (*nöqtəyi-nəzər* əvəzinə).

Lakın məktəb qrammatıkalarında saitlər açıq (*a, o, ö, e, ə*) və qapalı (*ı, i, u, ü*) olmaq uzrə ikı növə ayrılır

***§16. Dodaqların vəziyyətinə görə saitlərin növləri.*** Sait səslərin müxtəlif növlərdə formalaşmasında dodaqların da xüsusi rolu vardır. Belə ki, bəzi saitlərin son forma kəsb etməsində dodaqlar fəal təsir



göstərdiyi halda, bəzi saitlərin son formalaşmasında dodaqlar bitərəf qalır. Buna görə də dodaqların iştirak edib-etməməsindən asılı olaraq saitlər iki növə bölünur. dodaqlanan, dodaqlanmayan.

Bəzi saitləri tələffüz edərkən dodaqlar kiçik və ya böyük həcmdə nisbətən daırəvi şəkil alır və müxtəlif dərəcədə önə doğru uzanmış olur. Beləliklə, səs axını dodaqlar arasında əmələ gəlmiş boruvarı açıqlıqdan xarıcə çıxarkən müxtəlif tembr kəsb edır Dodaqların dairəviləşməsi ilə əmələ gələn saitlərə dodaqlanan saitlər (yaxud dodaq saitləri) deyilır

Azərbaycan ədəbi dilindəkı dodaqlanan saitlər bunlardır: *o, u, ö, ü*.

Dodaqlanan saitlərdən ıkisi (*o, u*) dilarxası (qalın), ikısi isə (*ö, ü*) dilönü (incə) saitlərdir.

Bəzən dodaqlar bitışmə küncləriнə tərəf dartılmış halda (gülmə, gülumsəmə zamanında duşdüyü vəziyyətdə) olur və beləliklə də, bir sıra saitlərin formalaşmasında iştirak etmır

Dodaqların iştirakı olmadan yaranan saitlərə dodaqlanmayan saitlər (yaxud damaq saitləri) deyilır

Azərbaycan ədəbi dilindəki dodaqlanmayan saitlər bunlardır: *a, ı, ə, e, i*.

Dodaqlanmayan saitlərdən ikisi (*a, ı*) qalın, üçü isə (*ə, e, i*) incə saitlərdir.

***§17. Məxrəc sabitliyinə görə.*** Sait səslər məxrəc sabitliyinə görə əsasən ikı növ olur: təkavaz (monoftonq) saitlər, cütavaz (diftonq) saitlər.

Sait səsin əmələ gəlmə yerı səs ağızdan çıxana qədər dəyişməyib sabit qaldıqda, yəni bu və ya digər sait səsi əmələ gətirən üzv axıra qədər bir vəziyyətdə, müəyyən bir quruluşda qaldıqda təkavaz saitlər formalaşır Azərbaycan ədəbi dilındəkı saitlərın hamısı, əsasən, təkavaz saitlərdir.

Cütavaz (diftonq) saitlər iki sait məxrəcində yaranıb, bir hecada formalaşaraq tələffüz olunan saitlərə deyilır Deməli, cutavaz saitin formalaşmasında iştirak edən üzvlər birləşməsi bir vəziyyətdən ıkinci vəziyyətə duşmuş olur, yəni belə səsin formalaşması prosesi birinci saitin məxrəci ilə başlanır, ikinci saitin məxrəci ilə tamamlanır. Diftonqların formalaşmasında bəzən bırıncı sait ünsürü, bəzən isə ikinci sait unsürü hecadüzəldici qüvvədə olur Beləliklə, enən və qalxan diftonqlar formalaşır.

İlk ünsürü hecadüzəldici qüvvədə olan diftonq enən diftonqdur. Belə diftonqlarda gərginlik əvvəl güclü olur, sonra zəifləşir, aşağı enir. Məsələn, almanca *mein* (mənim) sözündəki *ei* diftonqu kimi.

Son ünsürü hecadüzəldici qüvvədə olan diftonq qalxan diftonqdur. Belə diftonqlarda gərginlik əvvəl zəif olur, lakin ikinci məxrəcə keçərkən güclənib yuxarı qalxaraq tamamlanır. Məsələn, fransızca *moi* (mən) sözündəki *oi* kimi.

Azərbaycan ədəbi dilində tam formalaşıb monoftonq saitlərlə qarşılıq təşkil edən diftonq fonemlər yoxdur Lakin sərbəst üslub normaları üzrə bir sıra sözlərin və ifadələrin səs tərkibində, eləcə də Azərbaycan dilinin bir sıra şivələrində xüsusən saitlər birləşməsinin, bəzən də əvvəl gələn saitlərlə *y, v, f* kimi samitlər birləşməsinin diftonqvari tələffüzünə yol verilir ki, bununla da şivələrdə bir sıra diftonqlar formalaşır. Məsələn, Şəki şivəsində *to͡ux* (toyuq), *çu͡al* (çuval), *bö͡üx* (böyük), Bakı şivələrinin bəzisində *kö͡ül* (könül), *nö͡üt* (neft), *qo͡um* (qohum) və s. işlənir.

Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, cütavaz saitlər iki sait məxrəclərində bir sait kəmiyyətində formalaşan sait fonemdir Buna görə də Azərbaycan dilində *oy, ay, uy, öy, əy, iy, üy, ov, av, uv, öv, əv, iv, üv* kimi sait-samit birləşmələrinin diftonqvari tələffüzünə əsaslanaraq Azərbaycan ədəbi dilində fonem halında belə diftonqların varlığından danışanlar həm nəzəri, həm də faktik səhvə yol verirlər.

Çünki belə diftonqvarı tələffüz olunan tərkibin əsli bir sait məxrəcli və bir samit məxrəclidir Belə sait-samit tərkiblərinin orfoepik normaya görə bəzən diftonqvarı tələffüz olunması, hətta şivələrdə bunların əsasında diftonqların formalaşma prosesi, ümumiyyətlə, Azərbaycan ədəbi dilində diftonq fonemlərin varlığına dəlalət etmir Belə faktlar ancaq diftonqvari sait variantların ədəbi tələffüzdə işləndiyini göstərir.

***§18. Kəmiyyətə görə.*** Kəmiyyətə görə saitlər üç növdür. *adi saitlər, uzun saitlər, qısa saitlər*

Azərbaycan ədəbi dilində tam sabitləşmiş və fonem keyfiyyəti kəsb etmiş uzun və qısa saitlər yoxdur Lakin şivələrdə belə saitlər olduğu kimi, ədəbi tələffüzdə də orfoepik normalar ilə müəyyən dərəcədə bağlı olan uzanmalar və qısalmalar, daha doğrusu, saitlərin uzun və qısa variantları mövcuddur. Məsələn, *çətin* sözünün anto-



nimi olan *asan* sözündəki ilk *a* ilə *asmaq* məsdərinin əsası olan *as* felindən düzələn *asan* feli sifətindəki ilk *a* arasında kəmiyyətcə fərq vardır. Birinci sözdəki *a* uzun, ikinci sözdəki *a* isə adi halda tələffüz olunur. Eləcə də *ağız* sözündəki *ı* ilə *ağzına* sözündəki birinci *ı* kəmiyyətcə, əlbəttə, fərqlidir, yəni əvvəlinci sözdəki *ı* adi, ikinci sözdəki birinci *ı* isə qısadır. Elə buna görə də tələffüzdə ikinci sözdəki birinci *ı* düşür və bu söz *ağzına* kimi işlənir

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, müasir Azərbaycan ədəbi dilində ədəbi tələffüzdə saitlərin kəmiyyətcə fərqlənməsi ayrı-ayrı sözlərin mənaca fərqləndirilməsinə əsasən səbəb ola bilmir Lakin bir sıra dillər var ki (türkmən, alman, ingilis dilləri), sait səslərin kəmiyyət dəyişməsi ilə birgə olaraq sözün mənası da dəyişir Məsələn, türkmən dilində *daş* sözü (adi *a* ilə) "uzaq" mənasını verdiyi halda, *da.ş* sözü (uzun *a* ilə) "daş" mənasında işlənir

Azərbaycan dili şivələrində bəzən kəmiyyətcə fərqlənməyə görə sözlərin mənaca fərqlənməsi hadisəsinə rast gəlmək olur. Məsələn, Şəki şivəsində uzun *a·* ilə tələffüz olunan *ya·ğı* sözü "düşmən", adi *a* ilə tələffüz olunan *yağı* sözü *yağ* sözünün təsirlik halındakı mənasını bildirir. Buradan aydın olur ki, kəmiyyətcə fərqlənən səslər Azərbaycan şivələrində vardır. Hətta belə uzun saitlərə ədəbi dildə işlənilən bəzi alınma sözlərin orfoepik norma əsasında tələffüzündə də yol verilir. Saitlərin belə uzadılaraq tələffüz olunduğunu bildirmək üçün yazıda bəzən eyni saitin hərfi işarəsi qoşa yazılır: *saat*. Lakin burada yazılan qoşa *aa* heç də iki adi normal *a* kəmiyyətində tələffüz olunmur, qoşa *aa* bir uzun *a* kəmiyyətində (*a* kimi) tələffüz olunur (*sa·t*). Bəzi sözlərdə isə ilk sait sonrakı saitin növündən asılı olaraq uzun tələffüz edildiyi üçün belə saitləri bildirən hərfi işarə bir hərf halında yazılır: *alim* (a:lim), *katib* (ka:tib) və s

Belə bir sual verilə bilər ki, *saat* (sa:t), *katib* (ka:tib), *qalib* (qa:lib), *alim* (a:lim) sözlərinin əsli nə cür olmuşdur? Əlbəttə, bu sözlər alınmadır və əslində başqa cür tələffüz olunur Lakin iş burasındadır ki, həmin sözlərin tərkibində olan bu səslər ədəbi tələffüz normalarına görə uzun tələffüz edilir Bu səslərin həmin sözlərdə adi kəmiyyətdə tələffüzü mənaya ciddi xələl gətirmir

Qısa saitlər adi vəziyyətdə tələffüz olunan saitlərdən daha qısa, yəni adi, normal dərəcədən də az kəmiyyətdə tələffüz olunan saitlərə deyilir, belə saitləri yarımsaitlər adlandırmaq da olar

Bəzi sözlərdə şəkilçi qəbul edərkən, xüsusən kökdəki bu və ya digər saitin düşməsi, fikrimizcə, düşən saitin əsasən qısa sait olmasına dəlalət edir: *burun – burnu, ağız – ağzı, boyun – boynu* və s.

Lakin belə faktlar əsasən orfoepik və orfoqrafik mahiyyətlidir, sözdə əsaslı məna dəyişikliyi ilə əlaqədar deyildir. Buna görə də uzun və qısa saitlər Azərbaycan ədəbi dilində tam fonem sayılmır.

***§19. Gərginliyə görə.*** Gərginliyə görə saitlər iki qrupa bölünür: *gərgin saitlər, qeyri-gərgin saitlər*

Gərgin saitlərin tələffüzündə dil, dodaq, damaq, qırtlaq çox gərgin olur və belə vəziyyətdə saitlərin məxrəci və əsas rəngi də aydın olur. Adətən uzun saitlər və uzadılaraq tələffüz olunan saitlər gərgin sayılır.

Qeyri-gərgin saitlərin tələffüzündə dil, dodaq, damaq, qırtlaq az gərginləşmiş olur və belə vəziyyətdə saitlərin məxrəci və əsas rəngi bir o qədər aydın olmur Ümumiyyətlə, adi və qısa saitlər, eləcə də qısaldılaraq tələffüz olunan saitlər qeyri-gərgin sayılır.

Azərbaycan ədəbi dilindəki saitləri ümumiləşdirilmiş halda belə təsnif etmək mümkün deyildir, lakin bəzi şivələrdə və ya danışıq prosesində saitlər gərgin və ya qeyri-gərgin variantlarda tələffüz olunur.

***§20. Ağız, burun saitləri və müxtəlif sait variantları.*** Hava axınının ağız boşluğundan, burun boşluğundan çıxmasına görə də saitlər iki növ olur *ağız saitləri, burun saitləri*

Azərbaycan ədəbi dilindəki sait fonemlərin hamısı ağız saitləridir Lakin bəzi şivələrdə, xüsusən müəyyən sözlərdə *n* samitindən sonra gələn sait *n* samitinin təsirinə düşərək onun yolunu izləyir və burun boşluğundan xaricə çıxır, beləliklə də, burun saiti formalaşır. Adətən burun saiti ikiməxrəcli səsə oxşayır, yəni burada sait səs *n* samiti məxrəcində rənglənir. *aldī z (aldınız), sā· (sənə), mā (mənə)* Bu nümunələrdəki *ī, ā* saitləri burun saitləridir Belə saitlər, bir qayda olaraq, azacıq uzadılmış halda tələffüz olunur. Burun saitləri əsasən şivələrdə mövcuddur və səslərin tarixini, eləcə də şivələri tədqiq edərkən belə səslərin nəzərə alınması zəruridir.

Beləliklə, aydın olur ki, Azərbaycan ədəbi dilində əsasən 9 sait fonem vardır. Bu fonemlərin müxtəlif səslər halında təzahür edən variantları da vardır ki, bunlardan bəzən ümumi canlı danışıqda və bəzi şivələrdə istifadə olunur. Bunların bir qismindən, xüsusən uzun, qısa və diftonqlaşmış variantlarından ədəbi tələffüzdə də istifadə olunur. Buna görə də Azərbaycan ədəbi dilindəki saitlərin təsnifi cədvəlinə nəzər salaq.



**Azərbaycan ədəbi dilindəki saitlərin təsnifi cədvəli**

| Dilin üfüqi vəziyyətinə görə / Dilin şaquli vəziyyətinə görə | İncə | | Qalın | Dodaqların vəziyyətinə görə |
|---|---|---|---|---|
| | Dilönü | Dilortası | Dilarxası | |
| Qapalı | *i* \|*i*·\| \|*i*.\| | | *ı* \|*ı*.\| | Dodaqlanmayan saitlər |
| Yarımqapalı | | *e* \|*e*·\| | | |
| Açıq | *ə* \|*ə*·\| | | *a* \|*a*·\| | |
| Qapalı | *ü* \|*ü*·\| | | *u* \|*u*·\| | Dodaqlanan saitlər |
| Açıq | *ö* \|*ö*·\| \|*öü*\| | | *o* \|*o*·\| \|*ou*\| | |

Qeyd Cədvəldə mötərizə arasında qeyd olunmuş müəyyən işarəli hərflər mötərizə xaricində verilmiş hərflərlə ifadə olunan fonemlərin uzun |·|, qısa |.|, diftonq |⌒| variantlarını bildirir.

## SAİTLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***§21. İ saiti.*** *İ* dilönü (incə), qapalı və dodaqlanmayan bir saitdir. *İ* saitinin tələffüzündə alt çənə azacıq aşağı düşmüş, ağız bacası uzununa daralmış halda, dil ucu isə alt dişlərin üstünə azacıq toxunma vəziyyətində olur, dodaqların hər iki bucağı yanlara doğru dartılır və ön dişlər gülümsəyən şəxsin dişləri kimi görünə bilir. Bu zaman dilin ön hissəsi ilə bərabər orta hissəsi də sərt damağa doğru o qədər qalxır ki, səs axını sərt damaqla dilin üst səthi arasındakı dar cığırdan süzülərək dişlər arasından xaricə çıxır; məs . *iş, dil, iki* və s.

Azərbaycan dilində *i* saiti ən çox işlənən və sözün hər yerində ola bilən bir səsdir Təkhecalı sözlərin əvvəlində (*il, iş, ip, iz, iv*) və ortasında (*dil, bil, şiş, biz, siz*) eyni kəmiyyətdə işlənir, yəni belə sözlərdəki *i* saitini adi saitlərdən saymaq lazım gəlir Lakin iki və çoxhecalı sözlərdə *i* saitinin söz daxilindəki yeri qeyri-məhdud, kəmiyyəti



Şəkil 22 *İ* saitinin tələffüzündə dilin vəziyyəti

isə müxtəlif olur, yəni *i* saiti sözlərin həm əvvəlində (*iki, inci, ilan, isti, iplik, ilik*), həm ortasında (*bilik, kimi, səkkiz*), həm də sonunda (*iki, yeddi, iyirmi, diri, kirpi, kəndli*) işlənir və əsasən adi halda, bəzən isə müəyyən məqamda qısa (*əmi si, bi.lik, ki.tab*), bəzən də xüsusən alınma sözlərdə uzun (*i zah, i.fa, di.ni*) tələffüz olunur. Lakin *i* saitinin belə çalarlıqlarda tələffüzü heç də Azərbaycan ədəbi dilində *i i. i:* kimi üç fonemin varlığına dəlalət etmir Bunlardan ancaq birincisi adi normal orta kəmiyyətli *i* saiti Azərbaycan ədəbi dilində müstəqil fonemdir, digərləri, yəni *i:* və *i.* isə adi *i* foneminin variantlarıdır.

Azərbaycan sözlərinin daxilində *i* saiti, demək olar ki, *q, ğ, x, j* samitlərindən başqa, hər cür samit səslə yanaşı işlənir. Bəzi alınma sözlərdə isə *q, ğ, x, j* samitləri ilə yanaşı ola bilir. *İ* saiti yalnız söz köklərində deyil, şəkilçilərdə də işlənən fonemlərdəndir: *-çi, -di, -lik, -ir, -iş, -i* və s.

*§22. E saiti. E* ön sıra, dilortası (incə), yarımqapalı, dodaqlanmayan bir saitdir. Azərbaycan dilində *e* saiti *ə* saitindən qapalı, *i* saitindən isə açıqdır. Bu saitin tələffüzündə dilin orta hissəsi sərt damağa



Şəkil 24 *E* səsinin tələffüzündə dilin vəziyyəti



doğru xeyli yuxarı qalxır, dilucu ön alt dişlərə doğru uzanır, lakin dişlərə toxunmur, ağız boşluğunun arxa hissəsinə nisbətən ön hissəsində kiçik bir nov əmələ gəlmiş olur Dodaqlar isə yan künclərə doğru az dartılmış bir vəziyyət alır; alt çənə *i* saitinin tələffüzündə olduğundan azca aşağı düşmüş, ağız bacası isə *i* səsinin tələffüzündəkindən bir az gen açılmış olur və dişlər dodaqların arasında azacıq görünür.

Azərbaycan ədəbi dilində *e* saiti məhdud məqamda, həm də ən az işlənilən saitlərdəndir. Əsil Azərbaycan sözlərində *e* saiti ancaq birinci hecada (*el, ev, sel, yel, get, yeddi, beş*), alınma sözlərdə isə digər hecalarda da ola bilir (*epos, elektrik, telefon, televizor*).

Lakin son zamanlarda *e* saitinin sonrakı hecalarda işlənilməsi prosesi artmaqda və Azərbaycan dilinin fonetik əlaməti kimi bir az da sabitləşməkdədir. Məhz buna görə də təkcə alınma sözlərdə deyil, Azərbaycan sözləri əsasında, yaxud azərbaycancalaşmış sözlərin əsasında düzəldilən bəzi mürəkkəb sözlərdə, ifadələrdə *e* saitinin sonrakı hecalarda işlənilməsi, nəinki orfoqrafiyada, hətta orfoepiyada da qanunиləşmişdir. Məsələn, *nöqtə, nəzər* sözlərindən düzələn *nöqteyi-nəzər, Əli, Heydər* adlarından düzələn *Əliheydər* kimi mürəkkəb adlar, *ev-eşik, gethaget, elbəel* kimi ifadələr məhz *e* saitinin sonrakı hecalara keçməsini göstərən nümunələrdəndir

Burada belə bir cəhəti də yada salmalıyıq ki, Azərbaycan dilində *e* saiti ancaq söz köklərində işlənilən saitlərdəndir, şəkilçilərdə isə işlənmir. Lakin Azərbaycan dilinin bəzi şivələrində *e* saiti şəkilçilərdə də işlənir. Məsələn, Qazax şivəsində *aleyram*, Bakı şivəsində *aleyduz*, Naxçıvan şivələrində *almiyek, almeyəsüz.*

Müasir Azərbaycan ədəbi dilində *e* saiti, əsasən, adi, orta kəmiyyətdə işlənilən bir sait fonemdir Lakin bəzi sözlərdə, xüsusən alınma sözlərdə, şəraitindən, məqamından asılı olaraq *e* saiti bəzən qısaldılmış halda, bəzən də uzadılaraq tələffüz edilir. Müasir Azərbaycan dilində ərəbcədən keçmə iyirmiyə qədər sözdə və bunlardan düzəldilən bəzi düzəltmə və mürəkkəb sözlərdə *e* saiti bir qədər uzadılmış halda tələffüz olunur; məsələn, *e.tiraz – etiraz, e tiraf – etiraf, e·lan – elan, e:timad – etimad, e tiqad – etiqad* və s.

Bəzi alınma sözlərin, xüsusən çoxhecalı sözlərin ikinci hecasındakı *e* saiti qısa tələffüz olunur; hətta belə saitlər sərbəst üslubda ixtisara düşür. Məsələn, *telefon, teleqraf* sözlərindəki ikinci hecalarda olan *e* sərbəst üslubda ixtisar edilir və bu sözlər *telfon, telqraf* kimi tələffüz olunur

Belə numunələr isə Azərbaycan ədəbi dilındə *e* məxrəcinə uyğun uç və ya iki fonemin olduğuna dəlalət etmir, əksinə. bir əsas adi kəmiyyətli *e* fonemininin varlığını təsdiq edir, tələffüzdə istifadə olunan uzun və qısa *e* səsləri isə *e* foneminin variantlarıdır.

*§23. Ə saiti.* Azərbaycan dilində ən çox işlənilən və Azərbaycan dilini bir sıra türk dillərindən fərqləndirən əlamətdar vahidlərdən biri də *ə* saitidir. *Ə* saiti dilönü (incə), dodaqlanmayan, açıq saitdir. *Ə* saitinin tələffüzündə dilucu ön-alt dişlərin üstünə toxunma vəziyyətində olur, *i* saitinin tələffüzündə olduğu kimi, dilin orta hissəsi ilə bərabər ön hissəsi də sərt damağa doğru çox qalxır. Beləliklə də dilortası səthi ilə sərt damaq arasında yaranan dar cığırdan ötən səs axını alt çənənin aşağı daha çox düşməsi ilə yaranan geniş rezonatordan keçib dişlərin üstü ilə süzülür və yanlara doğru dartılmış olan dodaqların maneəsinə rast gəlmədən xaricə çıxanda *ə* saiti tam halda formalaşmış olur.




Şəkil 26 *Ə* saitinin tələffüzündə dilin vəziyyəti

Azərbaycan ədəbi dilində *ə* saiti əksərən adi kəmiyyətdə (*əl, ət, sən, cəm*), bəzən qısa (*sə.adət, fə.al*), bəzən isə uzun (*ə.la, mə:lum, tə.sir, nə·rə, tə nə*) tələffüz olunur Xüsusən alınma sözlərdə işlənən uzun və qısa *ə* səsi adi kəmiyyətli *ə* foneminin variantlarıdır.

Azərbaycan ədəbi dilində, eləcə də şivələrdə *ə* saiti ən çox işlənən və həm söz əvvəlində (*əl, əz, ət, əlac, əmi*), ortasında (*həlim, dəmir, tələb, çiçək, səngər*), sonunda (*dədə, çənə, pəncərə, dərəcə, küçə, tikə, meşə*), həm də şəkilçilərdə (*-lə, -də, -yə, -cə, -lər, -ər* və s ) işlənə bilən bir fonemdir.

*§24. Ü saiti Ü* dilönü (incə) qapalı, dodaqlanan saitlərdəndir. Dilin və alt çənənin vəziyyətinə görə *ü* saiti *i* saitindən, demək olar ki, fərqlənmir. Bu səslərin fərqli olmasının əsil səbəbi budur ki, *i*






Şəkil 28. *Ü* saitinin tələffüzündə dilin vəziyyəti

saitini tələffüz edərkən dodaqlar iştirak etmir və ağız küncləri yanlara çox dartılmış olur, *ü* saitinin tələffüzündə isə dodaqlar azacıq önə doğru uzanmaqla dairəviləşərək dar bir boru halına düşür, həmin borudan süzülərək xaricə çıxan səs axını *ü* səsi halında formalaşır. Beləliklə, aydın olur ki, *ü* saitinin formalaşmasında dodaqlar fəal iştirak edir. Buna görə də *u* saiti dodaqlanan, *i* saiti isə dodaqlanmayan saitlərdən sayılır.

Azərbaycan ədəbi dilində *u* səsi də çox işlənən və sözün hər yerində – söz əvvəlində (*üz, üç, üfürmək, ürək, uzük*), söz ortasında (*gül, bülbül, sünbül, ömür, dünya, duz*), söz axırında (*ütü, süru, kuru*) və şəkilçilərdə (*-üş, -dü, -ür, -müş, -lü, -suz*) gələ bilən fonemlərdəndir.

Azərbaycan ədəbi dilinin tələffüzündə *u* foneminin də qısa və uzun variantlarından istifadə olunur. Məsələn, *bütöv* sözündə *ü* qısa, *gül, bülbül* sözlərində isə *u* adi kəmiyyətdə tələffüz olunur. Lakin *gül, bülbül* sözlərini sadalama tonunda tələffüz edəndə sondakı *ü* səsi bir qədər uzadılır.

***§25. Ö saiti.*** *Ö* səsi açıq, dodaqlanan, dilönü (incə) saitdir. *Ö* saitinin tələffüzündə dilin orta hissəsi azacıq yuxarı qalxmış olur, ağız boşluğunun ön hissəsində arxa hissəyə nisbətən kiçik bir nov yaranır, dodaqlar isə azacıq önə doğru uzanmaqla dairəvi bir şəkil alır. Beləliklə, ağız boşluğunun önündəki nova gəlib çatmış olan səs axını azacıq önə uzanmış dodaqların dairəvi vəziyyət alaraq yaratmış olduğu borudan süzülüb xaricə çıxdıqda, *ö* saiti formalaşır Burada da *ö* ilə *e* saitləri dodaqlara qədər həmməxrəc olur. Buna görə də demək olar ki, *ö* dodaqlanan, yarımaçıq *e*-dir

Azərbaycan ədəbi dilində *ö* saiti, əsasən, sözün birinci hecasında – hecanın əvvəlində (*öd, öz, özül, ölç, ördək, öhdə*), hecanın




Şəkil 30 *Ö* saitinin tələffüzündə dilin vəziyyəti.

ortasında (*dön, göz, söz, gövdə, dövr, qövs*), hecanın sonunda (*böyük, könül, şölə, şöbə*) olur.

Buna görə də ikinci hecasında *ö* saiti olan *kösöv, bütöv, bənövşə, bülöv, bunövrə* kimi bir neçə söz müstəsnalıq təşkil edir. Bununla belə, nəzərə almaq lazımdır ki, son zamanlarda dilimizdə formalaşan düzəltmə və mürəkkəb sözlərin hesabına ikinci və ya üçüncü hecalarda *ö* saitinin işlənmə halları müstəsnalığı aradan qaldırmaqda və qanunilәşdirməkdədir: *gömgöy, Göygöl, göygöz, alagöz, dilönü, yerkökü, yerölçən* və s.

Tərkibində *ö* saiti olan sözlərin bir qismi alınma sözlərdir: *qövs, qövr, dövr, dövran, dövlət, ömür, hökm* və s.

Lakin buradan belə nəticə çıxarmaq doğru olmaz ki, *ö* saiti Azərbaycan dilində bu sözlərlə birgə dillərdən götürülmüşdür. Əksinə, bu sözlərin əslində *ö* saiti olmamışdır və bu sözlər *ö* saiti ilə bir növ azərbaycancalaşdırılmışdır. Çünki *ö* saiti nisbətən az işlənilən saitlərdən olsa da, Azərbaycan dilinin məxsusi saitlərindəndir və hətta Azərbaycan dilinin bəzi şivələrində *ö* saiti ikinci, üçüncü hecalarda, xüsusən şəkilçilərdə də işlənir; məsələn, *görsöz, öydödü* (Bakı), *görörum, göröysün* (Ayrım), *görör, bədöy* (Qazax), bir sıra şivələrdə· *ərkəsöyün* (*ərköyün*), *ərkövön* və s

Azərbaycan ədəbi dilində *ö* saiti əsasən adi kəmiyyətdə tələffüz olunan bir müstəqil fonemdir. Lakin bəzi alınma sözlərdə *ö* saiti uzun tələffüz olunur ki, bu da müstəqil fonem deyildir Bu adi orta kəmiyyətli *ö* foneminin bir variantıdır. Uzun tələffüz olunan sözlərə şəkilçi bitişdirildikdə əksərən *ö* saiti adi halda tələffüz olunur: *şöbə – şöbənin, şöbəyə, şöbədə* və s.

Xüsusən sərbəst üslubda belə tələffüz normal sayılır.



***§26. I saiti.*** *I* səsi dilarxası (qalın) dodaqlanmayan, qapalı bir saitdir. *I* saitinin tələffüz prosesinin formalaşmasına dilin orta və arxa hissəsi dildibinə doğru çəkilib bir az şişmiş halda yumşaq damağa doğru qalxır, alt çənə və dodaqlar isə *i* saiti məxrəcinə nisbətən azacıq gen açılmış olur. Beləliklə, səs axını dilin arxa və orta hissələri səthi ilə damaq arasındakı cığırdan keçib üst və alt ön dişlərin arasındakı dar açıqlıqdan süzülərək xaricə çıxanda *ı* saiti formalaşır. Buna görə də *ı* saiti dodaqlanmayan, dilarxası saitlər sırasına daxil edilir və *i* saitinin qalın qarşılığı hesab olunur




Şəkil 32 *I* saitinin tələffüzündə dilin vəziyyəti

Azərbaycan ədəbi dilində *ı* saiti söz başında işlənmir Tək və çoxhecalı sözlərin həm ortasında, həm də sonunda işlənir: *qır, qız, qış, cındır, cığır, cıdır, qılınc, qızıl, ağı, yağı, qırğı, ilxı, çalğı* və s. Ahəng qanununa görə dodaqlanmayan qalın saitli hecalara bitişən qapalı saitli şəkilçilərdə *ı* saiti ola bilər: *-dı, -ır, -çı, -ğın, -lı, -lıq* və s. Buna görə də *ı* saiti də çox işlənən fonemlərdən sayılır Müasir Azərbaycan ədəbi dilində *ı* saiti əsasən adi kəmiyyətli bir fonemdir. *I* saiti bəzi sözlərdə qısa, bəzi sözlərdə isə azacıq uzadılmış halda tələffüz olunur ki, bunlar da *ı* saitinin qısa və uzun variantlarıdır. Məhz buna görə də bəzi sözlərdə işlənən qısa *ı* müəyyən məqamda ixtisara düşür: *ağız – ağzında, qarın – qarnında, alın – alnında* və s

***§27. U saiti.*** *U* dilarxası (qalın), dodaqlanan, qapalı saitdir.

Tələffüz prosesində *u* saitinin formalaşmasında alt çənə təqribən *i* saitində olduğu qədər aşağı düşür, dilin arxa hissəsi azacıq arxaya çəkilmiş halda yumşaq damağa doğru qalxır, dilucu isə ön alt dişlərdən uzaqlaşır. Beləliklə, ağız boşluğunun həcmi də daralmış olur. Bu zaman dodaqlar bir az önə doğru uzanaraq dairəvi şəkil




Şəkil 34 *U* saitinin tələffüzündə dilin vəziyyəti

alır və *ö* saitində olduğundan bir az dar (təqribən *ü* saitində olduğu kimi) bir boru yolu yaratmış olur.

Məhz qırtlaqdan gəlib dil və damaq arasındakı cığırdan süzülərək ağız boşluğuna çatmış olan səs axını dodaqların yaratmış olduğu borudan keçib xaricə çıxdıqda *u* saiti formalaşır.

Muasir Azərbaycan ədəbi dilində *u* saiti geniş dairədə istifadə olunan və sözün hər yerində işlənən bir səsdir: *uca, uzun, yuva, yun, qoyun, quzu, su, qurşun, hücum* və s.

Saitlərin ahəng qanununa görə tərkibində dodaqlanan, qapalı sait olan hər cür hecaya bitişən qapalı saitli şəkilçilərdə daima *u* saiti ola bilər. Beləliklə, bir sözdə *u* saiti ilə formalaşan şəkilçilər silsiləsi yaranmış olur: *uğursuzluqdur, uzunluğunun* və s.

Müasir Azərbaycan ədəbi dilində *u* saiti, demək olar ki, həmişə adi kəmiyyətdə işlənir və yalnız bəzi ikihecalı sözlərin ikinci hecasında sonor samitlə yanaşı gələn *u* bir qədər qısa tələffüz olunur: *burun* (*buru.n*), *oğul* (*oğu l*) və s. Buna görə də belə sözlərə saitlə başlanan nisbət şəkilçisi artırdıqda qısa *u* saiti ixtisara düşur, tələffüz olunmur və yazılmır: *onun burnu, sənin oğlun* və s.

Bəzən orfoepik normaya muvafiq olaraq sadalama məqamında sondakı *u* saiti uzun tələffüz olunur: *quru:, sulu:, duru:* və s.

Beləliklə, aydın olur ki, Azərbaycan dilində *u* saiti səs fonemidir, *u.* və *u.* isə şərti məqamlarla əlaqədar variantlardır.

*§28. O saiti. O* dodaqlanan, açıq, dilarxası (qalın) saitdir. Tələffüz prosesində bu saitin formalaşmasında dilin ön hissəsi ağız boşluğunun alt tərəfində arxaya doğru çəkilmiş olur. Dilin arxa hissəsi yumşaq damağa doğru qalxır, ağız boşluğu isə arxası böyük, önü






Şəkil 36 *O* saitinin tələffüzündə dilin vəziyyəti

kiçik olmaq üzrə iki hissəyə ayrılır, dodaqlar da azacıq önə doğru uzanıb dairəvi şəkil alır. Bu zaman alt çənə *u* saitinin tələffüzündəki nisbətən bir az çox aşağı düşmuş olur və bununla da həm ağız boşluğu, həm də dodaqlar arasında formalaşan dairəvi cığır bir qədər genişlənir. Məhz səs axını həmin dairəvi cığırdan süzülüb xaricə çıxdıqda *o* saiti də tam halda formalaşmış olur

Müasir Azərbaycan ədəbi dilində *o* saiti də *ö* saiti kimi məhdud dərəcədə, müəyyən məqamlarda işlənilir və əsasən, birinci hecanın tərkibində – hecanın başında, ortasında və sonunda olur: *od, ox, ol, oğul, qol, yol, çox, tox, qo-yun, so-yuq, do-lu, bo-ran, to-ran* və s Azərbaycan dilinin öz şəkilçilərində *o* saiti işlənmir. Lakin dilimizdə çoxdan işlənən *plov, buzov* kimi sözlərin ikinci hecasında, eləcə də alınma sözlərin ikinci, uçüncü və s. hecalarında (*kolxoz, pedaqoq, professor, hidroloq*) və bəzi alınma şəkilçilərdə (*Həmid-ov, Məmməd-ov*) *o* saiti işlənir

Belə bir faktı da yada salmaq olar ki, son zamanlarda dilimizdə sayı artmış mürəkkəb sözlərin, ifadələrin içərisində ikinci, üçüncü və s. hecalarda *o* saitinin işlənməsi qanunilaşməkdədir; məs.: *dəvəboynu, dəvəotu, kəklikotu, dəmiryol, dəlisov, Koroğlu, tozsoran, ortaboy, dopdolu* və s.

Bəzi şivələrdə də *o* saiti ikinci, uçüncü hecalarda və şəkilçilərdə işlənilir.

Azərbaycan ədəbi dilində *o* saiti adi kəmiyyətli fonemdir, bəzi alınma sözlərdə, xüsusən vurğulu *o* saiti bir az uzun tələffüz olunur. Belə uzadılmış halda *o* saitinin tələffüzünə sual və sadalama məqamlarında da yol verilir. Buna görə də belə uzun *o* adi *o* foneminin variantı sayılır.

*§29. A saiti. A* dilarxası (qalın), açıq, dodaqlanmayan bir saitdir. Azərbaycan dilindəki *a* saitinin formalaşması prosesində dil bir qədər arxaya çəkildiyi üçün arxa hissə azacıq şişərək yumşaq damağa doğru qalxmış vəziyyətdə olur, ağız boşluğunun böyük hissəsi öndə, kiçik hissəsi arxada qalır, alt çənə isə digər saitlərdəkinə nisbətən daha çox aşağı düşür, alt və üst çənənin ön hissəsində yerləşən dişlər arasında da çox geniş yol açılır. Beləliklə də, ağız boşluğunda müəyyən çalarlıqda qurulmuş avazlı səs axını bir-birindən xeyli uzaqlaşmış dodaqlar və ön dişlər arasında yaranmış olan açıqlıqdan süzülüb xaricə çıxarkən dodaqlanmayan, qalın, açıq bir səs halında *a* saiti formalaşmış olur.




Şəkil 38 *A* saitinin tələffüzündə dilin vəziyyəti

Müasir Azərbaycan ədəbi dilində *a* saiti hər cür məqam və şəraitdə ola bilir; yəni həm söz başında (*ay, aş, as, az, al, at, ad, ağ, aç, ax*), həm söz ortasında (*var, qar, baş, çal, şal, xal, bal, yavaş, bahar, papaq*), həm söz sonunda (*ata, ana, bala, tala, çala, qara, dalğa*), həm də şəkilçilərdə (*-lar, -da, -dan, -ma, -maq, -malı, -ar, -acaq*) işlənir.

Azərbaycan ədəbi dilindəki *a* saiti əsasən adi – orta kəmiyyətdə tələffüz olunur. Lakin müəyyən məqamdan asılı olaraq, eləcə də bəzi alınma sözlərdə *a* saiti bir qədər uzadılmış halda, adətən, uzun *a* kimi tələffüz olunur Məsələn, sadalama və sual tonunda vurğulu *a* saiti uzadılmış halda tələffüz olunur. *ata·, ana., baba., harda·?, dağda·?* və s Bəzi alınma sözlərin əslindəki müəyyən fonetik xüsusiyyətlərlə əlaqədar olaraq əksərən ilk hecada *a* uzun tələffüz edilir: *ali* (a:li), *alim* (a·lim), *dava* (da:va), *saat* (sa.t), *asan* (a:san), *tale* (ta:le) və s.

Hətta bəzi şivələrdə də müəyyən sözlərin, xüsusən ilk hecasındakı *a* saiti bir qədər uzadılmış halda tələffüz olunur. *yağı* (ya:ğı), *ağı* (a.ğı), *qarı* (qa:rı), *mənə* (ma:), *sənə* (sa:) və s.



Lakin belə faktların varlığına baxmayaraq, demək olmaz ki, Azərbaycan ədəbi dilində uzun *a* bir müstəqil fonem kimi tam halda formalaşmışdır. Buna görə də uzun *a* səsi Azərbaycan ədəbi dilində adi *a* foneminin bir variantıdır

***§30. Saitlərin qarşılıqlı qoşalığı*** Azərbaycan ədəbi dilindəki saitlərin növləri, xüsusən məxrəcləri haqqında verilmiş məlumatı yekunlaşdırarkən Azərbaycan dilinin bir sıra fonetik qanunlarını, fonetik xüsusiyyətlərini daha aydın dərk etmək baxımından çox mühüm olan belə bir əlamətdar cəhəti yada salmağı lazım bilirik

Azərbaycan dilindəki saitləri diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, bu saitlər, əsasən qarşılıqlı qoşalıq təşkil edirlər, yəni dildə olan hər bir incə saitin qalın qarşılığı olduğu kimi, hər bir açıq saitin də qapalı qarşılığı vardır Bunu aşağıdakı sxemdə daha aydın surətdə nəzərdən keçirə bilərik:




Qarşılıqlı qoşalıqdan zahirən kənarda qalan *e* saiti əslində *i, ə* arasında formalaşdığına görə, həmin saitlərin qalın qarşılığı olan *ı* və *a* ilə nisbi qarşılıqlı qoşalıq təşkil edir. Məhz buna görə də bir sıra fonetik hadisə və qanunlarda *e* saiti ilə formalaşan hecalar *i* və *ö* saiti ilə formalaşan hecalarla, demək olar ki, eyniləşir. Məsələn, *iç, gəl, keç, get, bil* kimi sözlərin şəkilçiləşməsində tam eyniyyət vardır: *iç-ir, gəl-ir, keç-ir, gəl-miş, get-miş, bil-miş* və s.

Azərbaycan dilindəki saitlərin belə qarşılıqlı qoşalığı haqqında daha aydın təsəvvürə malik olmaq üçün onların tələffüzündən dilin vəziyyətini müqayisəli surətdə əks etdirən aşağıdakı rentgen-foto əsasında hazırlanmış sxemləri nəzərdən keçirmək faydalı olar




Şəkil 40 *U* və *u* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi




Şəkil 41 *O* və *o* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi




Şəkil 42 *Ə* və *e* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi






Şəkil 43 *A* və *ə* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi




Şəkil 44 *I* və *i* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi




Şəkil 45 *I ı ə e* saitlərinin tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi



Şəkil 46 Azərbaycan dilindəki saitlərin hamısının tələffüzündə dilin vəziyyətinin müqayisəli sxemi

## AZƏRBAYCAN DİLİNDƏKİ SAMİTLƏR SİSTEMİ (KONSONANTİZM)

*§31. Samitlərin təsnifi əsasları.* Samit səslən sait səslərdən fərqləndirən ən mühüm əlamətlərdən biri samitlərin xüsusən ağız boşluğundakı danışıq üzvlərinin müxtəlif tərzdə iştirakı ilə yaranan səslər olmasıdır. Belə səslərin isə əksəriyyəti küy əsasında, bir qismi küy və avaz əsasında formalaşır. Buna görə də muasir Azərbaycan dilindəki samitlər aşağıdakı əsaslar üzrə təsnif olunur:

1 Küyün kəmiyyətinə görə.

2. Küyun yaranma yerinə görə.

3 Küyün yaranma usuluna görə.

*§32. Küyün kəmiyyətinə görə.* Azərbaycan ədəbi dilindəki samitlər küyun kəmiyyətinə görə *sonor* və *küylü* olmaq üzrə, əsasən, iki növə bölunur:

1 Samitlərin bır qismi, səs axınının ağız boşluğunda azacıq maneəyə rast gəlməsinə baxmayaraq, ağız və ya burun boşluğundan təzyiq göstərmədən xaricə çıxması ilə yaranır Belə səslərdə ton əsas təşkil etdiyi halda, küy cuzi miqdarda ola bilir Belə samitlər saitlər kimi tonlu səslərdir ki, bunlar *sonor samitlər* adlanır. Müasir Azərbaycan ədəbi dilində başlıca dörd sonor samit vardır: *l, r, m, n.*

2. Samitlərin digər qismi isə səs axınının ağız boşluğunda qarşısını kəsən maneəni az-çox aradan qaldırmaq üçün güc göstərib açdığı yoldan süzulərək xarıcə çıxması ilə yaranır. Bu zaman, ton – musiqili səs deyil, kuy törənmiş olur. Buna görə belə səslər *küylu samitlər* adlanırlar

Azərbaycan ədəbi dilindəki küylü samitlər bunlardır: *b, p, v, f, g, k, z, s, j, ş, ğ, x, q, (k'), d, t, i, (x'), h*

Küylü samitlər ikı qrupa bölunur. *cingiltili samitlər, kar samitlər*

a) Bəzən sait səslərin əmələ gəlməsində olduğu kimi, samit səslərin də əmələ gəlməsində səs telləri gərgınləşmiş və bir-birinə daha çox yaxınlaşmış olur. Beləliklə də unlu-küylü samitlər əmələ gəlir ki, bunlara *cingiltili samitlər* deyilir

Müasir Azərbaycan ədəbi dilindəki cingiltili samitlər bunlardır: *b, v, q, ğ, d, z, j, y, g, c.*

Belə bir cəhəti də qeyd etməliyik ki, çox zaman, xususən məktəb qrammatikalarında, sonor samitlər də cingiltili samitlər qrupuna daxil edilir Bunun əsası isə sonorların da ünlü samit olmasıdır.



b) Bəzən səslərin əmələ gəlməsində səs telləri gərginləşmir, səs cığırı daralmır və səs tellərinin ucları bir-birinə çox az yaxınlaşmış olur Beləliklə, hava axını səs cığırından sərbəst keçir və səs tellərinin iti titrəməsinə o qədər də səbəb olmur. Səs tellərinin belə zəif rəqslənməsi ilə əmələ gələn unsüz küylü səslərə kar samitlər deyilir.

Müasir Azərbaycan ədəbi dilindəki kar samitlər bunlardır: *(k'), k, p, s, t, f, x, h, ç, ş, (x').*

Küyün kəmiyyətinə görə samitlərin təsnifini aşağıdakı cədvəldə ümumiləşmiş halda belə göstərmək olar:

| | | | |
|---|---|---|---|
| Sonorlar | | *r, l, m, n* | |
| Küylülər | Cingiltili | *b, v, q, d, c, z, ğ, g, y, j* | Ünlülər |
| | Kar | *p, f, (k'), t, ç, s, x, k, (x'), ş, h* | Ünsüzlər |

*§33. Küyün yaranma yerinə görə.* Samitlərin təsnifində, əsasən, uç fəal üzv nəzərə alındığı üçün samit səslər də üç qrupa bölünür *dodaq, dil, ağız* və *burun samitləri.*

I. D o d a q  s a m i t l ə r i. Dodaqların fəal iştırakı ilə əmələ gələn samitlərə dodaq samitləri deyilir. Dodaq samitlərinin iki növu vardır:

a) *qoşadodaq samitləri.* Bu samitlər alt dodaqla üst dodağın kipləşib birdən açılması nəticəsində yaranır. Azərbaycan ədəbi dilində qoşadodaq samit üçdür: *b, m, p*

b) *dodaq-diş samitləri.* Bu samitlər üst çənədəki ön dişlərin alt dodağa yaxınlaşması nəticəsində yaranır. Azərbaycan ədəbi dilində dodaq-diş samiti ikidir *v, f.*

II D i l  s a m i t l ə r i. Dil samitləri dilin fəal iştirakı ilə yaranan samitlərdir ki, bunun da aşağıdakı növləri vardır:

a) *dilönu samitləri* Dilönü samitləri dilin ön hissəsində əmələ gələn samitlərə deyilir. Dilönü samitləri də iki cur olur

1. *Dil-diş samitləri* Bunlar dilin ön hissəsinin, xususən onun yanlarının və dil ucunun yuxarı ön dişlərə ya toxunması, ya da çox yaxınlaşması ilə əmələ gəlir

Azərbaycan ədəbi dilindəki dil-diş samitləri bunlardır: *d, t, z, s, l, n*

2 *Dil-yuvaq samitləri*. Bu samitlər dil önü yanlarının və ya dil ucunun yuvaqlara (alveollara) və ön damağa toxunması ılə əmələ gəlir. Azərbaycan ədəbi dilindəki dil-yuvaq samitlərı aşağıdakılardır. *j, ş, c, ç, r*.

Bunlardan ikisi (*j, ş*) saf, fişıltılıdır, birı (*r*) sonordur, ikisi isə (*c, ç*) dil-diş samitləri ilə dil-yuvaq samitlərınin qovuşuğuna *ç* (*tş*), *c* (*dj*) bənzəyir;

b) *dilortası samitləri* Dilortası samitlərı dilin orta hissəsinin ön damağa doğru qalxması ilə əmələ gələn samitlərə deyilir.

Azərbaycan ədəbi dılındə dörd dılortası samit vardır: *y*, (*x'*), *k*, (*k'*);

c) *dilarxası samitləri* Dilarxası samitləri dilin arxa hissəsi ilə arxa damağın – yumşaq damağın bir-birınə yaxınlaşması və ya toxunması nəticəsində əmələ gələn samitlərə deyilir. Azərbaycan ədəbi dilində ikı dilarxası samit vardır *q*, (*k'*);

ç) *dildibi – boğaz samitləri* Qırtlağın ön hissəsi ilə dilçək və dildibının arxasında əmələ gələn samıtlərə dildibi boğaz samitləri deyilir. Müasir Azərbaycan ədəbi dilində dildibi-boğaz samiti üçdür: *ğ, x, h*.

III. A ğ ı z  v ə  b u r u n  s a m i t l ə r i. Məlum olduğu üzrə, nitq səslərinin boyanmasında iki rezonator – ağız boşluğu və burun boşluğu – muhum rol oynayır.

a) əgər damaq pərdəsi yuxarı qalxıb burun boşluğu yolunu kəsərsə, səs axını ağız boşluğundan keçib xarıcə çıxar və bu zaman ağız səsləri, bu cümlədən ağız samitlərı formalaşar.

Muasir Azərbaycan ədəbi dilində *m, n* sonorlarından başqa bütun səslər (sait və samitlər) ağız səslərıdir;

b) damaq pərdəsi aşağı düşərək ağız boşluğu yolunu kəsirsə, səs axını əsasən burun boşluğundan keçib xaricə çıxır ki, bu zaman burun samitləri formalaşır Muasir Azərbaycan ədəbi dilində iki burun samiti vardır: *m, n*

Bunlardan *m* qoşadodaq sonorudur, *n* isə dil-diş sonorudur.

***§34. Küyün yaranma üsuluna görə***. Azərbaycan ədəbi dilindəki samitlər kuyun yaranma üsuluna görə üç qrupa bölünür:

I. K i p l ə ş ə n  (v ə  y a  p a r t l a y a n)  s a m i t l ə r d i r.

Kipləşmiş danışıq üzvlərinin birdən-birə açılması ilə partlayışla ağızdan çıxan səs axınının törətdiyi samitlərə k i p l ə ş ə n (və ya partlayan) s a m i t l ə r deyilir.

Azərbaycan ədəbi dilindəki *b, p, d, t, g, k, q,* (*k'*), *m, n* kipləşən samitlərdir.



**Azərbaycan ədəbi dilindəki samitlərin təsnifi cədvəli**

| Küyün yaranma üsuluna görə | Küyün yaranma yerınə görə | | | | | | | | | Küyün kəmiyyətinə görə | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | dodaq samitlərı | | | dil samitlərı | | | | | | | |
| | qoşadodaq samitlərı | | dişdodaq samitlərı | dilönü samitlərı: dil-diş | | dilönü samitlərı: dil-yuvaq | dılortası | dılarxası | dıldibı / dıldibı qırtlaq | | |
| | ağız | burun | ağız | ağız | burun | ağız | ağız | ağız | ağız | | |
| kipləşən | | | | *t* | | | *k* | (*k'*) | | kar | küylülər |
| | *b* | | | *d* | | | *g* | *q* | | cıngiltili | |
| novlu | | | *f* | *s* | | *ş* | (*x'*) | | *x h* | kar | |
| | | | *v* | *z* | | *j* | *y* | | *ğ* | cıngiltili | |
| qovuşuq | | | | | | *ç* | | | | kar | |
| | | | | | | *c* | | | | cingiltili | |
| kipləşən | | *m* | | | *n* | | | | | sonorlar | |
| novlu: süzgün | | | | *l* | | | | | | | |
| novlu: titrək | | | | | | *r* | | | | | |

II N o v l u  (y a x u d  s ü r t ü n ə n)  s a m i t l ə r d i r

Kipləşmiş üzvlərın bir-birındən tədrıcən aralanması ilə və ya müəyyən üzvlərın bir-birınə yaxınlaşması ilə arada əmələ gələn cığırdan küylü səs axınının surtünərək xarıcə çıxması nəticəsində formalaşan samitlərə novlu (yaxud sürtünən) samitlər deyilir Azərbaycan ədəbi dilindəki *v, f, j, ş, z, s, l, r, ğ, x, h, y* (*x'*) novlu, yaxud surtunən samitlərdir.

III. S a f  v ə  q o v u ş u q  s a m i t l ə r d i r  Azərbaycan ədəbi dilindəki küylü samitlər saf və qovuşuq (affrikat) olmaq üzrə iki növə ayrılır: *ç* və *c* samitlərı qovuşuq, digər samitlər isə safdır. Ümumiyyətlə, Azərbaycan ədəbi dilindəki novlu samitlərə və kiplə-

şən samitlərə s a f  s a m i t l ə r, yarımnovlu və yarımkipləşən samitlər qovuşuğuna oxşayan samitlərə isə q o v u ş u q (affrikat) s a m i t l ə r deyilir. Buna görə də, müasir dilimizdə işlətdiyimiz *ç* samitini təqribən yarım *t* və yarım *ş* kimi, *c* samitini isə yarım *d* və yarım *j* tərzində yarımkipləşən və yarımnovlu samitlərə ayırmaq olar. Məhz buna görə də alınma sözlərdə olan *c* samiti ruscada əksərən *dj* tərkibində yazılır: *caz – джаз, Azərbaycan – Азербайджан* və s.

Azərbaycan ədəbi dilindəki samitlərin təsnifini göstərən yuxarıdakı cədvəli nəzərdən keçirək.

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏKİ SAMİTLƏRİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***§35. P və B samitləri*** kipləşən, qoşadodaq, saf, küylü samitlərdir; *p* və *b* samitlərinin tələffüzündə alt dodaq üst dodaqla möhkəm surətdə kipləşir, səs axınının təzyiqi ilə dodaqların bir-birindən aralanması ani olur və bu zaman qüvvətli surətdə təzyiq edən səs axını dodaqların birdən-birə açılması nəticəsində partıltı ilə xaricə çıxır. Buna görə də fonetistlərin bir qrupu *p* və *b* səslərini k i p l ə ş ə n, bir qrupu isə p a r t l a y a n  s a m i t l ə r adlandırır. Bu samitlərdən *p* kardır, *b* isə cingiltilidir

1. Azərbaycan ədəbi dilindəki *p* samiti bəzən bir qədər cingiltiliəşmiş halda, əksərən isə azacıq nəfəsli tələffüz edilir; məsələn: *$p^h$ul, $p^h$endir, çap$^h$, map$^h$, səp$^h$* və s




Şəkil 47 *P* və *b* samitlərinin tələffüzündə dodaqların vəziyyəti

Azərbaycan ədəbi dilində *p* samiti sözün hər yerində – söz əvvəlində, söz ortasında, söz sonunda işlənir Qeyd etmək lazımdır ki, Azərbaycan dilində sonu *p* ilə bitən çoxhecalı söz yoxdur. Sövti təqlid əsasında formalaşan *tarap-turup* sözü müstəsnalıq təşkil edir. Ümumiyyətlə, *p* samiti sözün tərkibində hər cür sait səslə yanaşı – saitdən əvvəl (*papaq, pıçıltı, pozmaq, pusqu*),



saitdən sonra (*qapqara, dopdolu, qupquru, qıpqırmızı*) işlənir. Bir sıra sözlərin başında ağız sonorlarından və *y, s* samitlərindən əvvəl – yanaşı (*plov, plan, probka, protokol, pyes, psixoloq*), bəzi sözlərin də sonunda sonorlarla yanaşı (*alp, qulp, turp*) işlənir.

Azərbaycan dilində bir neçə sözün daxilində işlənən qoşa *p* səslərindən birincisi nəfəssiz, ikincisi isə cingiltiləşmiş halda (təqribən *b* səsi kimi) tələffüz olunur; məsələn: *hoppanmaq, tappıltı, toppuz* (*hopbanmaq, tapbıltı, topbuz*) və s.

2. Azərbaycan ədəbi dilində *b* samitinə sözün daxilində hər cür vəziyyətdə təsadüf olunur. Söz və ya heca əvvəlində (*bal, bel, bir, bol, bürü, başla, böl, bıçqı, buz..* ), söz və ya heca ortasında (*oba, bəbə, yaba, baba, qaba, daban*), söz və ya heca sonunda (*qab, corab, dib, cib*) Çoxhecalı sözlərin sonunda *b* samiti müəyyən dərəcədə karlaşır, lakin belə karlaşan *b* qətiyyən nəfəsli *p* səsinə oxşamır; məs.: *kitab, məktəb, corab* və s.

Təkhecalı sözlərin sonunda olan *b* azacıq karlaşır və buna görə də söz başında və ya saitlər arasında olan *b* səsi qədər cingiltili tələffüz edilmir. Məsələn, *qab, cib, bağ, bığ, qaba, oba* sözlərində *b* səsini müqayisə edin

Azərbaycan dilində *b* samiti də sözün tərkibində hər cür sait ilə yanaşı – saitdən əvvəl (*baba, bol, bıçqı*) və saitdən sonra (*qab, tələbə, şöbə*) işlənir. Azərbaycan ədəbi dilində *b* samiti bir neçə alınma sözün başında *r, l* sonorlarından əvvəl, həmin sonorlarla yanaşı (*brilyant, briqadir, blok, blank*) işlənildiyi kimi, bəzi alınma sözlərin sonunda da bir sıra samitlərlə yanaşı (*qəlb, cəlb, qeyb, eyb, kəsb, gerb*) işlənir

Azərbaycan dilində bir neçə alınma sözün daxilində qoşa *b* samiti də işlənir ki, umumi qaydaya müvafiq olaraq bunlardan birinci *b* bir qədər karlaşmış halda tələffüz olunur *qubbə, dabbağ, dəbbə, tibbi* və s.

Ümumiyyətlə, Azərbaycan dilində *b* çox işlənilən samitlərdəndir, *p* samiti isə orta dərəcədə işlənən samitlərdəndir.

***§36. T və D samitləri*** dilönü, dişarxası, kipləşən, saf, küylu samitlərdir Azərbaycan ədəbi dilindəki *t, d* samitləri dilin öz hissəsinin üst-ön dişlərin arxa səthinə kipləşməsindən törəyən kuy əsasında yaranan səslərdir Bu səslərin tələffüzündə dilucu alt-ön dişlərin üstünə sürtünmə vəziyyətində olur Məhz buna görə də fəal uzvlərin iştirakı baxımından bu samitləri d i l ö n ü  s ə s l ə r adlandırmaq mümkün olduğu kimi, passiv üzvlərin iştirakı baxımından d i ş a r x a s ı

səslər də adlandırmaq olar Adətən, *t* səsinin tələffüzundə səs telləri sakit vəziyyətdə, *d* səsinin tələffüzundə isə səs telləri gərgin vəziyyətdə olur. Buna görə də *t* kar samitdır, *d* cingiltili samitdir




Şəkil 48 *T* və *d* samitlərinin tələffüzündə dilin, dilucunun və ön dişlərin vəziyyəti




Şəkil 49 *T* və *d* samitlərinin tələffüzündə dilin üst damağa toxunma vəziyyəti

Burada belə bir prosesi də yada salaq kı, kipləşmiş üzvlərın bir-birindən aralanma anında *d* səsi kimi formalaşmış səs axını azacıq patıltı ilə, *t* səsi kimi formalaşmış səs axını isə azacıq nəfəslə örtülür və belə nəfəslənmə *t* samitinın söz başında və söz sonunda tələffüzundə təzahür edir; məs.: *$t^h$ap, $t^h$op, $t^h$ək, a$t^h$, kaina$t^h$* və s.

Müasır Azərbaycan ədəbi dilindəkı *t* samitı sözün hər yerində, yəni həm söz başında (*tar, top, tunc, tin*), həm söz ortasında (*ata, ütü, iti, qatı, artıq, ortaq*), həm də söz sonunda (*at, ot, öt, kainat, camaat, töhmət*) işlənir.

Azərbaycan ədəbi dilindəki sözlərin tərkibində *t* samiti saitlərin hamısı ilə yanaşı – həm saitdən əvvəl, həm də saitdən sonra işlənır: *tək, tik, tük, ot, tut, get* və s. Ancaq alınma sözlərin başında *t* samiti *r* samiti ilə yanaşı ola bilər· *traktor, tramvay, trikotaj, trest* və s Bəzi sözlərin sonunda *t* samiti *s, ş, l, r* samitləri ilə də yanaşı işlənir: *məst, puşt, alt, tort* və s

Bır sıra sözlərin ortasında qoşa *t* də işlənir kı, belə şəraitdə birinci *t* adi halda, ikinci *t* isə bir qədər cingiltılı halda tələffüz olunur· *hətta, ittiham* və s.

2. *D* samiti əmələ gəlmə yerinə görə əsasən *t* samitindən fərqli deyil, lakin bu iki samiti fərqləndirən əlamətdar cəhət *t* samitinin



kar, *d* samitinin isə cingiltili olmasıdır, yəni *d* samiti səs tellərinin gərginləşməsi ilə törəyən səs axını əsasında *t* məxrəcində formalaşan samitdir. Buna görə də *d* samitı dilönü, dişarxası, kipləşən, küylü, saf, cingıltılı samitdir

*D* samitı müasır Azərbaycan ədəbi dilində ən çox işlənən samitlərdəndir. Bu samitə sözlərin başında, ortasında və sonunda rast gəlmək olur: *dağ, dərə, dil, düz, ada, qardaş, odun, ad, yad, azad, yurd* və s Azərbaycan dilindəkı saitlərin hamısı ilə *d* samiti yanaşı – saitdən əvvəl (*dolu, duz, dəniz, düz, deyil*), saitdən sonra (*adam, od, cıdır, uduş, ədəb*) işlənir. Bəzi sözlərin sonunda *d* samiti bir sıra samitlərlə, xüsusən *l, n, r, y, s, z* samitləri ilə yanaşı bir heca tərkibində də işlənir: *cəld, cild, qənd, mərd, yurd, qeyd, qəsd, muzd* və s.

Bir neçə alınma sözün başında da *d* samitı *r* ilə yanaşı işlənir: *dram, drap* və s

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, bəzi sözlərin tərkibində, həm söz ortasında, həm də söz sonunda qoşa *d* işlənir Nəzərə almaq lazımdır ki, söz ortasında olan qoşa *d*-dən birincisi azacıq karlaşmış halda tələffüz olunur. Söz sonundakı qoşa *d*-dən isə ancaq birincisi tələffüz olunur və belə sözlərə saitlə başlanan şəkılçi bitişdirildikdə və ya söz qoşulduqda, sondakı qoşa *d*-dən birincisi azacıq karlaşır, ikincisi isə normal halda tələffüz olunur *həddindən, rədd etmək* və s.

Ümumiyyətlə, *d* samiti söz əvvəlində və ya saitlər arasında tam cingiltili olur, lakin söz sonunda bir qədər karlaşır. Burada belə bir cəhəti də qeyd etməliyik kı, karlaşma *d* səsinin məqamına görə müxtəlif dərəcədə olur Əgər *d* çoxhecalı sözlərin sonundadırsa, karlaşma çoxalır: *azad, qanad, Məmməd, Səməd*. Əgər *d* çoxhecalı sözün sonunda başqa bir samit səslə yanaşıdırsa, karlaşma azalır *qəsd, cəld, qeyd, mərd* Əgər *d* təkhecalı sözlərin sonunda sait səslə yanaşıdırsa, karlaşma son dərəcə azalır: *ad, yad, dad* və s.

Azərbaycan dilindəkı *d* samitinin əlamətdar xüsusiyyətlərindən biri də onun şəkılçilərin tərkibində olmasıdır: *-dı, -da, -dan, -dıqca, -dır* ..

***§37. M və n samitləri*** *M, n* samitləri muasir Azərbaycan ədəbi dilində nisbətən çox işlənən sonor səslərdəndir Bu sonorların hər ikisi də səs axınının burun boşluğundan xaricə çıxması ilə formalaşdığına görə burun sonorları qrupuna daxildir. Lakin səslərin formalaşdırılmasında fəal iştirak edən uzvlərə görə bunlar fərqlənir və biri (*m*) dodaqlanan, digəri (*n*) dodaqlanmayan samitlərdən sayılır

1 *M* samiti dodaqlanan burun sonorudur, çünkı *m* samıtinin tələffüzundə dodaqlar *b, p* samitlərinin formalaşmasında olduğu kimi kipləşir, lakin damaq pərdəsi aşağı duşub ağız boşluğuna gedən yolu tutduğu uçün hava – səs axınının süzülərək burun boşluğundan xarıcə çıxması ilə *m* samiti formalaşmış olur. Məhz buna görə də səs axınının az bir hissəsi həm damaq pərdəsinin aşağı duşməsi ilə, həm də dodaqların kipləşməsi ilə yaranan maneələrlə rastlaşır və buradan da azacıq kuy yaranır, səs axınının əsası isə avaz halında qalır, belə keyfiyyətdə olan səs axını sərbəst suretdə burun boşluğundan xarıcə çıxır, bu anda kıpləşmiş dodaqların aralanması da vacib deyildir. Məhz bu xususiyyətlərınə görə də *m* samiti dodaqların kipləşməsi ilə formalaşan *b, p* samitlərındən fərqlənirlər, çünki *b, p* samitlərinın formalaşması üçun ağız boşluğundan süzülüb gələn səs axınının təzyiqi ilə dodaqların aralanması və patıltı yaranması zərurıdir, *m* səsinın formalaşmasında isə belə proses olmur və buna görə də *m* patıltılı samitlərdən sayılmır.

*M* samitinın tələffüzündə patıltının olmadığını və bu cəhətdən patıltılı *b, p* samitlərındən fərqləndiyini yoxlamaq üçun aşağıdakı sözlərı muqayisəli surətdə tələffüz edək:

Söz sonunda: *kım-kıp, küm-küp, cim-cib, əcəm-əcəb* və s.

Söz ortasında *b, p* samitlərı ilə yanaşı və onlardan əvvəl gələn *m*: *domba, omba, hambal, amper, gumbultu, gombul, kömbə* və s.

Bu sözlərın tələffüzündən aydın olur kı, *m* səsinin formalaşmasında kipləşmiş dodaqların açılmasına ehtiyac olmur, buna görə də sözlərin sonundakı *m* səsini tələffüz edərkən dodaqları kıpləşmiş halda saxlaya bilirik. Lakın sözün tərkıbində *m* səsindən sonra başqa bir səsin tələffüzündə kipləşmiş dodaqları aralamaq lazımdır, xüsusən *m* samitindən sonra *b, p* samitlərini tələffüz edərkən kipləşmiş dodaqlar həmin səslərın ruşeymini yaratdıqdan sonra səs axınının şiddətli təzyiqi ilə aralanır, beləliklə də patıltı ilə xarıcə çıxan səs *p* və *b* samitləri halında formalaşır Məhz buna görə də dodaqları aralamadan *m* səsini davamlı tələffüz etmək mümkündür,



Şəkil 50 *M* samitinin tələffüzündə dodaqların və damaq pərdəsinin vəziyyəti



lakin *b, p* səslərini tam formalaşmış keyfiyyətdə davamlı tələffüz etmək mümkün deyil.

*M* samitini *b, p* samitlərindən fərqləndirən ən əlamətdar cəhət *m* samitinin burun boşluğundan xarıcə çıxan səs axını əsasında, *b, p* samitlərının isə ağız boşluğundan xaricə çıxan səs axını əsasında formalaşmasıdır Buna görə də *m* burun samiti, *b, p* isə ağız samiti kimi tanınır.

Burun və ağız samitləri arasındakı fərqin əsil mahiyyətini aydınlaşdırmaq üçün aşağıdakı sözlərın tərkibində olan *m* və *b* samitlərıni iki şəraitdə – burun yolunu bağlayaraq, dodaqları kipləşdirərək tələffüz edək: *mal-bal, mil-bil, miz-biz, mala-bala.*

Burun yolunu bağlayaraq tələffüz etdikdə *m* samiti təqribən *b* kimi səslənir, ikinci şəraitdə isə *b* samiti təqrıbən *m* kimi səslənir.

Bu səslər bir-birinə çox yaxın olduğu üçün, xüsusən şivələrımizdə bəzən biri digərinin əvəzinə də işlənir Məsələn, *bunu* əvəzinə *munu* işlənir və s.

Müasir Azərbaycan ədəbi dilində *m* samiti sözlərın hər yerində işlənə bilir. Buna görə də *m* samitı saitlərın hamısı ilə yanaşı – saitlərdən əvvəl (*mahnı, mən, mey, min*), saitlərdən sonra (*dəmir, yemək, kimi, koma, kömək*) işlənir

Hətta bır neçə alınma sözün sonunda *m* səsi bəzi samitlərlə yanaşı (*zülm, rəhm, film*), bir neçə sözün isə daxilində qoşa halda (*amma, qrammatika, mükəmməl, hummət, ümman, kommutator*) işlənir.

Müasir Azərbaycan ədəbi dilində *m* samitı yalnız sözlərdə deyil, şəkilçilərdə də işlənilən fonemlərdəndir: *-ma, -mə, -maq, -mək, -m, -əm , -malı, -məli, -mı, -mi, -ım, -im, -ımız, -imiz, -mış, -miş* və s

2. Burun sonoru olan *n* səsinin yaranmasında dil və dişlərın vəziyyəti əsasında *d, t* samitlərının tələffüzundəki kimi olur, yəni dilin ön hissəsi, xüsusən dil ucu ön damağa sıxılaraq ust ön dişlərın arxasına toxunur, lakin fərq burasındadır ki, *n* samitinin tələffüzündə də, *m* samitındə olduğu kimi, damaq pərdəsi aşağı düşub ağız boşluğuna gedən cığırı bağladığı üçün səs axını burun boşluğu cığırı ilə suzülüb xarıcə çıxır, məhz bu prosesdə də *n* samiti formalaşır. Qeyd etmək lazımdır ki, prosesin sonunda dil ucu dişlər arxasından bir qədər geri çəkilir və səs axınının bir qismi ağız boşluğunda yaranan cığır ilə xarıcə çıxır. Lakin burada da heç bir patıltı yaranmır, buna görə *n* samiti də *m* samiti kimi patıltısız olur Ümumiyyətlə, *n* samitinin tələffüzundə səs tellərı gərgin olur, səs cığırı daralır, səs axını

zəifləşir, burun boşluğu cığırı ilə süzülüb ciddi maneəyə rast gəlmədən xaricə çıxan səs axınında kuylü səs azlıq, avaz isə çoxluq təşkil edir. *N* samitinin tələffüzündə bir-birinə sıxılmış halda olan dil ucu və ön dişlərin aralanması vacib deyil, lakin *n* samitindən sonra başqa bir səsin tələffüzü lazım olarsa, dil və diş vəziyyətini dəyişməlidir Məhz buna görə də *n* samiti dil ucunun ön-üst dişlər arxasına sıxılması anında səs axınının ağız boşluğundan deyil, burun boşluğundan xaricə çıxması prosesində tamam formalaşmış olur; dil ucunun dişlər arxasından uzaqlaşması *n* samitinin formalaşmasından sonrakı prosesdir. Bunu yoxlamaq üçün aşağıdakı sözlərin sonunda, eləcə də sözlərin ortasında *d, t* samitlərindən əvvəl işlənilən *n* samitini tələffüz edək *on-od-ot, an-ad-at, indi-intiqam, sandıq-çanta* və s.

Bu sözlərin sonundakı *n* səsini tələffüz edərkən dili dişlər arxasından uzaqlaşdırmağa ehtiyac duyulmur. Halbuki bunlarla yanaşı sözlərin sonundakı *d, t* səslərini tələffüz edərkən dil ucunu dişlər arxasından uzaqlaşdırmaq zəruridir, əks təqdirdə *t, d* samitləri tam halda formalaşmır. Eləcə də söz ortasındakı *n* samiti ilə bitən heca dil ucunun dişlər arxasına sıxılması ilə tələffüz edilir. Lakin sonrakı hecanın baş səsləri *d* və *t* samitlərini tələffüz edərkən dil ucunun dişlər arxasından uzaqlaşması mütləq zəruri olur, əks təqdirdə səs axını ağız boşluğundan xaricə çıxa bilməz və *t, d* kimi ağız samitləri də formalaşa bilməz. Deməli, dil ucunun ön dişlərə sıxlaşması *n* samitinin formalaşması üçün zəruridir Dil ucunun ön dişlərə sıxlaşıb səs axını təzyiqi ilə ön dişlərin arxasından aralanması isə *t, d* samitlərinin formalaşması üçün zəruridir. Buna görə də *n* səsi *d* və ya *t* səsi ilə yanaşı olduqda, yəni *nt, nd* kimi səs birləşməsinin tələffüzündə dil ucu ilə ön dişlərin sıxlaşması *n* səsini formalaşdırır, həmin üzvlərin aralanması isə *t, d* səslərini formalaşdırır. Burada damaq pərdəsinin qalxıb burun boşluğu cığırını tutması ilə *n* səsindən *d* və ya *t* səsinə keçid yaranır.



Şəkil 51 *N* samitinin tələffüzündə dilin damağa toxunmavəziyyəti

*N* samitinin belə şəraitdə formalaşması onun davamlı tələffüzünə də imkan yaradır· *annn, cannnn, minnnn* çalarlığında *n* səsini uzadaraq tələffüz etmək mumkun olar.



Müasir Azərbaycan ədəbi dilində *n* samiti sözlərin hər yerində işlənə bilir

Bəzi alınma sözlərin ortasında davamlı *n* samiti də işlənir· *minnət, cənnət, müğənni, tərənnüm* və s.

Müasir Azərbaycan ədəbi dilində *n* samiti yalnız sözlərin tərkibində deyil, şəkilçilərin də tərkibində işlənən fonemlərdəndir· *-dan, -dən, -ın, -in, -un, -ün, -an, -ən, -lan, -lən, -san, -sən, -sın, -sin, -sun, -sün, -anda, -əndə, -gen, -ıntı, -inti, -anaq, -ənək* və s

***§38. L və r samitləri.*** *L, r* muasir Azərbaycan dilində nisbətən az işlənilən sonorlardandır. Bu sonorlar səs axınının, əsasən ağız boşluğundan süzülüb xaricə çıxması ilə formalaşdığına görə a ğ ı z s o n o r l a r ı adlanır. Lakin səslərin yaranmasında fəal iştirak edən üzvlərin tam eyni olmaması, müxtəlif vəziyyətdə fəaliyyət göstərməsi bu sonorları iki müxtəlif fonem kimi formalaşdırmışdır

1 *L* səsi novlu, cingiltili, dilönu-dilyanı, sonor samitdir *L* samitinin formalaşmasında dil ucu yuxarı qalxaraq üst-ön dişlərə və yuvaq kənarına toxunur, dilin arxa hissəsi azacıq qalxmış vəziyyətdə olur, dilin orta və ön hissəsi arasında dalanvarı bir cığır yaranır, udlaq boşluğundan ağız boşluğuna keçmiş səs axını dilin üzəri ilə hərəkət edərək ciddi maneə ilə qarşılaşmadan dalanvarı cığırın ilk yanı ilə[1] suzülüb xaricə çıxır Bu prosesdə azacıq küy yaransa da *l* samiti avazlı səs axını əsasında tam halda formalaşmış olur. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, tələffüz prosesində üst-ön dişlərin arxasına və yuvağına yaxınlaşmış olan dilucu *l* səsi tam formalaşandan sonra aşağı enir. Buna görə də yaxınlaşan üzvlərin aralanması *l* samitinin formalaşması uçun zəruri deyildir və belə yaxınlaşmış üzvlərin aralanması prosesində yaranan zəif patıltının isə *l* səsinə təsiri yoxdur. Məhz buna görə də *l* samiti patıltılı deyil, novlu-dilyanı-suzgun samitlərdəndir *L* samitinin belə məxrəcdə formalaşması onun davamlı tələffüzünə də imkan yaradır *L* samitinin patıltısız və davamlı tələffüz imkanına malik olduğunu yoxlamaq üçun aşağıdakı sözləri tələffüz edək: *al, lal, mal, bal, alt, balta, dildar* və s. Əgər bu sözləri tələffüz edərkən barmağımızı dişlər arasına kipləşdirsək, belə bir prosesin şahidi olarıq. *L* ilə bitən sözlərin tələffüzündən sonra dil ucu ust-ön diş arxasına yaxınlaşmış halda olduğu kimi qalır və dil ucunun alt səthi dişlər arasından barmağa

[1] Buna görə də *L* cütkeçidli samitlərdən sayılır

toxunur; *l* sesinin tam formalaşmasına baxmayaraq dil ucu aşağı düşmür və geri çəkilmir. Lakin söz ortasında *t, d* samitlərindən əvvəlki *l* səsinin tələffüzünün ardınca *t, d* samitlərini tələffüz etmək lazım olduğu üçün dilucu vəziyyətini dəyişdirir. Buna görə də *l* samitini davamlı tələffüz etmək üçün onun heca sonunda olması zəruridir.




Şəkil 52 *L* samitinin tələffüzündə dil ucunun və üst-ön dişlərin vəziyyəti




Şəkil 53 *L* samitinin tələffüzündə dilin vəziyyəti

Muasır Azərbaycan dilində *l* samiti sözün hər yerində və saitlərin hamısı ilə yanaşı işlənir: *ləzzət, lazım, qala, əla, gəl, gül, il, ol* və s.

Müasir Azərbaycan dilində işlənilən bir sıra sözlərin daxilində davamlı – qoşa *l* samitinə də tez-tez rast gəlmək olur: *bəlli, güllə, sillə, kollektiv, çillə, pillə, təvəllüd, novella* və s.

Azərbaycan dilində *l* samiti ilə bitən sözlərə *l* samiti ilə başlanan şəkilçilərin bitişdirilməsi nəticəsində qoşa *l* samitinin işlənilmə dairəsi getdikcə artır *yollamaq, dilli, əlli, güllük, gözəlləşmək, bolluq, kolluq, yallı, ballı, elli, ellik* və s.

*L* samiti yalnız sözlərdə deyil, şəkilçilərin tərkibində də işlənilən fonemlərdəndir: *-l, -ıl, -al, -əl, -il, -ul, -ül, -lıq, -lı, -li, -lu, -lü; -lən, -malı, -ıltı, -ultu, -ültü* və s

2. *R* səsi novlu, titrək, dilönü, cingiltili, sonor samitdir.

*R* samitinin tələffüzündə dil ucu yuxarı qalxıb ön dişlərin yuvağına toxunaraq iki-üç dəfə dönüb titrəyir Beləliklə, ardıcıl və müntəzəm halda dil ucunun yuvağa toxunub uzaqlaşması nəticəsində yaranan kuy ağız boşluğundakı avazla qarışır və bu qovuşuq səs axını əsasında *r* samiti tam halda formalaşır Qeyd etmək lazımdır ki, *r* samitinin yaranmasında kuy digər sonorlara nisbətən bir az çox olsa da, *r* samitinin əsasını avaz musiqili səs təşkil edir.






Şəkil 54 *R* samitinin tələffüzündə dilin vəziyyəti




Şəkil 55 *R* samitinin tələffüzündə dil ucunun titrəmə vəziyyəti

Ümumiyyətlə, *r* samitinin formalaşmasında dil ucunun çevrilmə, titrəmə miqdarı *r*-ın söz daxilindəki məqamına görə bir qədər fərqli olur, yəni söz başında, söz ortasında, xüsusən saitlər arasında titrəmə az olur, dil ucu bir-iki dəfə çevrilir, lakın söz sonunda titrəmə çoxalır, dil ucu təqribən üç dəfə çevrilir.

Müasir Azərbaycan ədəbi dilində *r* samiti nisbətən az işlənilən sonorlardandır. Ümumən türk dillərinin, o cümlədən Azərbaycan dilinin ilk dövrlərdəki əlamətdar cəhətlərindən biri də *r* samitinin söz başında işlənməməsidir. Buna görə də alınma sözlərin başındakı *r*-dən əvvəl bir sait əlavə etmək canlı danışıqda – şivələrdə ümumi, hətta qanuni bir hal olmuşdur. Elə bu əsasda da *rəng* əvəzinə *irəng, razı* əvəzinə *irazı* deyilir Lakın muasır dövrdə belə hal getdikcə azalır, çünki indi ədəbi dil – ədəbi tələffüz normaları ümumiləşir və beləliklə də sözlərin fonetik tərkibində bu cür dəyişikliklərə yol verilmir. Buna görə də müasir Azərbaycan ədəbi dilinin fonemlərindən bəhs edərkən, cəsarətlə deyə bilirik ki, *r* samiti də müasir Azərbaycan dilində hər məqamda – söz başında (*rabitə, radio, razı, rayon, raket*), söz ortasında (*arı, qara, iri, sərçə*), söz sonunda (*qar, açar, bir, cığır*) və hər cur saitlə yanaşı (*rahət, rəng, rica, rol, ruh, rütbə, rıtsar, reyhan, röya*) işlənir.

*R* samiti yalnız söz köklərində deyil, bir sıra şəkilçilərdə də işlənilən fonemlərdəndir: *-ar, -ər, -ır, -ir, -ur, -ür, -lar, -lər, -dır, -dir, -dur, -dür, -raq, -rək, -araq, -ərək, -arı, -əri* və s.

***§39. K və g samitləri*** Müasir Azərbaycan ədəbi dilində *k, g* səsləri çox işlənilən samitlərdəndir Bu samitlərin ən əlamətdar

xüsusiyyətlərindən biri budur ki, saitlər silsiləsindəki *ə, i, ö, ü, e* kimi incə saitlərin samitlər silsiləsindəki qarşılığı halında işlənilərək Azərbaycan dilinin ahəng qanununu daha da sabitləşdirir Beləliklə də ahəngdarlıq dilin daxili qanunları və təbiəti ilə uzlaşmış bir hal kəsb etmiş olur *K, g* samitləri əsasən eyni məxrəcli səslərdir, lakin bunların hər birinin fərqləndirici xüsusiyyətləri də vardır.

1. *K* kipləşən, dilortası, sərt damaq, saf, küylu və kar samitdir. Bu səsi tələffüz edərkən dilin orta hissəsi sərt damağın ön hissəsinə doğru qalxır və bu iki üzv müəyyən dərəcədə kipləşmiş bir vəziyyət alır, dil ucu isə ön alt dişlərə yaxınlaşır. Belə şəraitdə ağız boşluğu cığırı ilə süzülüb gələn səs axını kipləşmiş olan sərt damaqla dil ortasını ayırır və ağzın içində törəyən pıçıltılı küy əsasında *k* samiti formalaşır.

Müasir Azərbaycan ədəbi dilində *k* samiti sözün hər yerində işlənir: *kül, kitab, kəs, təknə, iki, təkər, ək, çək, çiçək, bilək, birlik* və s.

Qeyd etməliyik ki, söz sonunda daha çox *k* yox, bəlkə novlu *y* samitinin kar qarşılığı hesab etdiyimiz *x'* işlənir Buna görə də qrammatika kitablarımızda söz sonunda olan belə *k* samitinin saitlər arasında *y* səsinə keçməsindən bəhs edilir: *çiçək – çiçəyi, kəklik – kəkliyə, güllük – güllüyün* və s.

Muasir Azərbaycan ədəbi dilində *k* samiti söz daxilində əsasən incə saitlərlə yanaşı işlənir *əkin, kötük, kiçik, keçi, küçə* və s.

Mənşəyi naməlum *kol, kos* kimi bir neçə sözdə və ərəb, fars mənşəli sözlərdə *k* səsi qalın saitlərlə də yanaşı işlənir: *kaman, sukunət, məhkum, nakam, kosa, kor, kaş, nankor* və s



Şəkil 56 *K g* samitlərinin tələffüzündə dilin damağa toxunma vəziyyəti

Qeyd etmək lazımdır ki, *k* samiti şəkilçilərin də tərkibində işlənilən fonemlərdən sayılır *-lik, -rək, -mək, -dək, -əcək, -ki, -ənək* və s.

2 *G* samiti əmələ gəlmə yerinə görə *k* samitindən əsasən fərqlənmir (bax: şəkil 56, 57). Yalnız fərq burasındadır ki, *g* samiti səs tellərinin gərgin vəziyyətində tələffüz olunur və buna görə də cingıltili samit sayılır Bu səslərin fərqini təcrübi yolla dərk etmək üçün aşağıdakı sözləri tutuşdurmaq kifayət edər. *gor – kor, gül – kül, göz – köz, gir – kir, gəl – kəl* və s.



Müasir Azərbaycan ədəbi dilində *g* samitinin işlənilmə dairəsi məhduddur. *G* samiti söz başında nisbətən çox işlənir (*gun, gil, get, gəl, göz, güc, gah, gur*) Söz ortasında *g* səsi əksərən alınma sözlərdə, ya saitlər arasında (*agah, segah, şagird, digər, əgər, məgər*), ya da bəzi sonor səslə, xüsusən *n* samiti ilə yanaşı (*mürgu, əngəl, səngər, zəngin, çəngəl*) ola bilir. Söz sonunda isə *n* samiti ilə yanaşı işlənir *zəng, cəng, dəng, ləng, tüfəng, nəhəng, pələng, ahəng, çələng* və s.

*G* samiti şəkilçilərin tərkibində də çox məhdud halda işlənir· *-gin* (*əzgin*), *-gə* (*özgə*), *-gi* (*silgi*), *-gu* (*bölgü*) və s.

***§40. K' və q samitləri.*** Azərbaycan dilində *k', q* səsləri digər samitlərdən dil vahidləri tərkibində işlənilmə nisbətinə görə fərqlənir Belə ki, bu samitlərdən birincisi, yəni kar qarşılıq olan *k'* çox az və məhdud məqamlarda işlənildiyi halda, ikincisi, yəni cingiltili qarşılıq olan *q* çox və hər cur məqamda işlənilir Buna görə də *q* samiti ahəng qanunu uzrə dəyişən şəkilçilərdə qalın saitlərlə uzlaşan səs kimi işlənilə bildiyi halda, *k'* samiti belə şəraitdə işlənilmə keyfiyyətinə malik deyildir. Beləcə də kar-cingiltili qarşılıq təşkil edən samitlər uçün ümumi olan bəzi əlamətlər qarşılıq təşkil edən *k'-q* samitlərində yoxdur

1 Müasir Azərbaycan ədəbi dilində ən az işlənilən samitlərdən biri də kipləşən, dilarxası, küylu, kar *k'* səsidir. *K'* səsini tələffüz edərkən, dilin ön və orta hissəsi arxaya doğru çəkilir və beləliklə, geri sıxılmış olan dil arxası yumşaq damağın ön hissəsi ilə, yəni sərt damaqla yumşaq damağın birləşmə nöqtəsi ilə kipləşir, dil ucu isə ön alt dişlərin yuvağına söykənmiş halda olur. Məhz belə şəraitdə udlaq boşluğundan ağız boşluğuna keçmiş səs axını kipləşmiş üzvləri aralayıb azacıq patıltılı – küy halında süzulərək xaricə çıxdıqda *k'* samiti tam halda formalaşır.

Müasir Azərbaycan ədəbi dilində *k'* səsi son dərəcə az işlənildiyinə görə bu səs mustəqil fonem kimi tanınmamış və yazıda bu səsi xüsusi hərfi işarə ilə yazmaq zəruri olmamışdır Bu səs bəzi sözlərdə, xususən yeni alınma sözlərdə *k* hərfi ilə (*kolxoz, kommunist, kadr*), bəzi sözlərdə isə, xususən söz ortasında *q* samiti ilə qoşa gəldikdə (*saqqal, hoqqa, baqqal*), eləcə də ərəb dilindən alınma bir sıra sözlərdə (*məqsəd, iqtisad*) *k'* samiti *q* hərfi ilə yazılır Bunu da qeyd etməliyik ki, ərəb mənşəli bəzi sözlərin sonunda *q* hərfi ilə yazılan səslər karlaşaraq *k'* kimi tələffüz olunur, lakin bu səslər müvəqqəti karlaşır və öz əslini itirmir, yəni *q* samiti olaraq qalır

*K'* samiti, ümumiyyətlə, qalın saitlərlə yanaşı işlənir (*kolxoz, kommuna, kosmos*), ancaq bir neçə sözdə incə saitlə də yanaşı olur (*tərək'qi, fizik, fonetik* .)

2 *Q* samiti *k'* samitinin cingiltili qarşılığıdır, çünki *q* samitinin tələffüzündə danışıq üzvlərinin vəziyyəti əsasən *k'* səsinin tələffüzundəkı kimi olur, fərq yalnız burasındadır ki, *k'* səsinin tələffüzündə səs telləri sakıt vəziyyətdə, *q* səsinın tələffüzündə isə səs tellərı gərgın vəziyyətdə olur.




Şəkıl 57 *K'* və *g* samitlərının tələffüzündə dilin, dişlərin və damaq pərdəsinin vəziyyəti




Şəkıl 58 *K' – q* və *k – g* samıtlərinin tələffüzündə dilin vəziyyəti




Şəkil 59 *K'* və *q* samitlərinin tələffüzündə dilın damağa toxunma vəziyyəti

Müasir Azərbaycan ədəbi dilində *q* samiti sözün başında və ortasında çox, sonunda isə nisbətən az işlənir.

Muasır Azərbaycan ədəbi dilindəki *q* samitinin söz daxilindəki şəraitini diqqətlə nəzərdən keçırdikdə, belə bir nəticəyə gəlmək olur ki, bu *q* səsi əksərən qalın saitlərlə yanaşı işlənır: *qara, qorxu, quzu, qızıl, halqa, çınqıl* və s

Məhz bu xüsusiyyətlərınə görə də *q* samıtı şəkılçi tərkıbındə ancaq qalın saitlərlə yanaşı işlənə bilir. Belə şəkilçilər incə saitli hecalara bitişdirıldikdə *q* samiti *k* samiti ilə əvəzlənir. Beləliklə də, şəkılçi iki varıantlı olur: *-maq, -mək, -lıq, -lik, -acaq, -əcək, -dıq, -dik* və s.



Lakin buradan belə nəticə çıxarmaq olmaz ki, *q* samiti incə saitlərlə yanaşı işlənilmir. Müasir Azərbaycan ədəbi dilində bır sıra sözlər vardır ki, bunların tərkibində *q* samiti incə saitlərlə yanaşı işlənir ki, belə sözlərin çoxu alınmadır: *qənaət, qiymət, iqlim, muqəssir, qeyd* və s.

Müasir Azərbaycan ədəbi dilində işlənilən sıra alınma sözlərin başında *q* samiti *r* sonoru ilə də yanaşı işlənır: *qram, qrip, qrup* və s.

***§41. F və v samitləri.*** Azərbaycan dilində *f, v* qoşa-qarşılıq keyfiyyətli samitlərı tam fonem halında sonralar formalaşmış səslərdəndir Buna görə də müasir Azərbaycan ədəbi dilində bu samitlər çox az işlənir və əsasən alınma sözlərın tərkibində olur. Lakın bu səslərin məhdud dərəcədə işlənilməsinə baxmayaraq, qoşa-qarşılıq mahiyyətli samitlər kımi tam formalaşmış fonemlərdir və muasir Azərbaycan ədəbi dilinin fonetik vahidləri kimi artmaqdadır

1. *F* səsi novlu, diş-dodaq, saf, kuylü və kar samitdir. *F* səsinin tələffüzündə fəal iştırak edən alt dodaq yuxarı ön dişlərə doğru istiqamətlənərək alt ön dişlərın ustünü örtur, üst ön dişlər aşağı enərək alt dişlərin ustünü örtən alt dodağa toxunma vəziyyətində olur və bunların arasında cığır yaranır Qeyri-gərgin vəziyyətdə olan səs tellərının iştırakı ilə səsə çevrılmış hava axını həmin cığırdan süzülərək keçib üst dodağa toxunduqda güclü küy yaranır və həmin küy *f* samitini formalaşdırır.

Müasir Azərbaycan ədəbi dilındə *f* samıtı sözün hər yerındə – söz başında, söz ortasında, söz sonunda işlənir: *fikir, famılıya, fəlsəfə, fərasət, fənn, fürsət, səfər, vəfa, səfa, dəfə, vaqif, saf, dəf, hərf, kıf, tərəf, neft* və s.

Müasir Azərbaycan ədəbi dilindəki sözlərin tərkıbındə *f* samitı hər cur saitlə yanaşı (*faiz, ifadə, fel, kef, fəhlə, iftıxar, fit, qıfıl*) ola bildiyi kımi, bır sıra sözlərın başında *r, l* sonorları ilə yanaşı (*frank, fraksiya, fleyta, flora*), bir neçə sözün sonunda isə *l, r, q* samitləri ilə yanaşı (*zülf, hərf, vəqf, səqf*) işlənir.

F samiti şəkilçilərın fonetik tərkibində işlənilmir.




Şəkil 60 *F* və *v* samitlərinin tələffüzündə dilin, üst ön dişlərın və dodaqların vəzıyyəti

2. *V* səsi də novlu, dodaq-diş samitidir və *f* samitindən əsasən cingiltili olması ilə fərqlənir

Müasir Azərbaycan ədəbi dilində *v* samiti *f* samitinə nisbətən çox işlənir, həm də yalnız alınma sözlərdə deyil, mənşəcə əsil Azərbaycan sözlərinin tərkibində də hər məqamda – söz başında, söz ortasında, söz sonunda işlənir: *var, ver, vur, nəvə, yuva, davar, yava, yavaş, sev, av, ov, ev, alov* və s.

Müasir Azərbaycan ədəbi dilindəki sözlərin tərkibində *v* samiti, demək olar ki, bütün samitlərlə yanaşı ola bilir (*avar, dəvə, divar, qıvraq, qıvırcıq, qovurma, suvaq, dövr, vücud, sevgi, veriliş*) və eləcə də bəzi sözün ortasında (*qüvvə, əvvəl*) qoşa halda da işlənir.

Müasir Azərbaycan dilində *v* samiti sonradan formalaşmış və ya alınma bəzi şəkilçilərin tərkibində də işlənir: *-sov* (*uzunsov*), *-lov* (*oxlov*), *-ov, -yev* (*Həsənov, Əliyev*), *-vi* (*kütləvi*) və s

***§42. S və z samitləri.*** Muasir Azərbaycan dilində qarşılıq-qoşalıq təşkil edən bu səslər tam formalaşmış halda həm tarixən söz daxilindəki məqamına görə, həm də müasir ədəbi dildə işlənilmə kəmiyyətinə və keyfiyyətinə görə fərqlənən fonemlərdir.

1 *S* səsi novlu, dilönü-dişarxası, saf, küylü, təkkeçidli kar samitdir. *S* samitinin tələffüzü prosesində dilin ön hissəsi sərt damağa doğru yaxınlaşır, dilin ucu isə alt ön dişlərin üstü (ucları) ilə, təqribən bir səviyyədə durur Məhz belə şəraitdə səs tellərinin sakit titrəyişi nəticəsində səsə çevrilmiş olan hava axını dil ilə sərt damaq və alt ön dişlər arasında yaranan arxdan (novdan) süzülüb xaricə çıxdıqda *s* samiti tam halda formalaşır. Belə bir xüsusiyyəti də burada qeyd etmək lazımdır ki, *s* samitinin tələffüzündə dil ilə damaq arasında yaranmış olan arx səs axını xaricə çıxana qədər eyni üfüqi vəziyyətdə qalır və səs axını ikinci bir keçidlə rastlaşmır. Buna görə də *s* təkkeçidli samitlərdən sayılır.

Müasir Azərbaycan ədəbi dilində *s* samiti sözün hər yerində – söz başında (*sağ, sər, söylə, sev* və s.), söz ortasında (*asan, istək, təsvir, proqressiv, professor*) və söz sonunda (*as, tas, tələs, tərs, əbəs, bəhs, həvəs, dərs*) işlənildiyi kimi saitlərin hamısı ilə yanaşı ola bilir. *sağ, sol, su, suz, siz, söz, sən, sel, qısqanc* və s.

*S* samiti muasir Azərbaycan ədəbi dilindəki bir sıra alınma sözlərin başında *n, m, l, t, k', g, p* samitləri ilə (*snayper, smeta, slavyan, stəkan, skripka*), sonunda isə *n, m, l, r, b, k, k', g, p, h, v, y, x* samitləri ilə (*rels, dərs, həbs, əks, boks, gips, bəhs, qövs, reys, şəxs*) yanaşı



işlənir. Bəzi alınma sözlərin ortasında *s* samiti qoşalaşmış halda da işlənir: *hissə, kassa, həssas, təbəssüm* və s.

Orfoqrafiya qaydasına əsasən bəzi alınma sözlərin başında (*ssenari*), sonunda (*miss, hiss*) qoşa *s* yazılsa da, bunlar şərti mahiyyətlidir, çünki ancaq saitlə başlanan şəkilçi bitişdirildikdə belə sözlərin sonundakı qoşa *s* davamlı tələffüz olunur. Adi halda işlənildikdə həm başda, həm də sonda bir *s* kimi tələffüz olunur.

Müasir Azərbaycan dilində bir sıra şəkilçilərin fonetik tərkibində də *s* samiti işlənir *-sız, -siz, -suz, -suz, -san, -sən, -sın, -sin, -sun, -sün, -sa, -sə, -ası, -əsi* və s.

2 *Z* səsi novlu, dilönü, dişarxası, saf, kuylü, təkkeçidli, cingiltili samitdir *Z* samitinin tələffüzu prosesində səs tellərindən başqa digər danışıq uzvlərinin iştirakı – vəziyyəti *s* samitinin tələffüzü prosesindəki vəziyyəti ilə eyniyyət təşkil edir Lakin *z* samiti gərgin vəziyyətdə səs tellərinin titrəməsi ilə səsə çevrilmiş hava axını əsasında formalaşan səs olaraq kar qarşılığı *s* samitindən cingiltili samit kimi fərqlənir.


S-Z

Şəkil 61 *S* və *z* samitlərinin tələffüzündə dilin üst damağa və dişlərə toxunma vəziyyəti

Muasir Azərbaycan dilində *z* samiti də sözlərin hər yerində işlənir Sözlərin tərkibində *z* samiti hər cur saitlə yanaşı (*az, qızıl, zoğal, uzun, zinət, zər, zövq, zulf, uzuk, zeytun, tez*) ola bilir. Hətta bəzi alınma sözlərin sonunda *r, ğ, h* samitləri ilə yanaşı (*tərz, fərz, məğz, məhz*), bəzi sözlərin isə daxilində qoşa halda (*izzət, ləzzət*) işlənir.

Müasir Azərbaycan dilində *z* samiti də şəkilçilərin fonetik tərkibində işlənilən fonemlərdəndir: *-sız, -siz, -suz, -süz, -ınız, -iniz, -unuz, -ünüz, -maz, -məz, -cığaz, -ciyəz* və s.

***§43. Ş və j samitləri.*** *Ş, j* samitləri kar və cingiltili qarşılıq təşkil edən səslər olmaqla bərabər, işlənilmə dairəsinə və hətta tarixinə görə Azərbaycan dilində bu səslərin mövqeyi fərqlidir Belə ki, *ş* samiti qədimdən Azərbaycan dilinin məxsusi fonemi kimi işlənilmiş səslərdən olduğu halda, *j* samiti, demək olar ki, alınma sözlər vasitəçiliyi ilə sonralar formalaşmış bir fonemdir

1 *Ş* səsi novlu, dilönü-yuvaq, cutkeçidli, küylü, kar samitdir *Ş* samitini tələffüz edərkən, dil ucu üst dişlərin yuvaqlarına doğru

azacıq uzanmış olur, dilin ön üst hissəsi isə özünün geniş sahəsi ilə yuvaq arasında müəyyən arx yaradır, dilin arxa hissəsi də bir qədər yuxarı qalxmış olur Beləliklə də səs tellərinin sakit titrəməsi ilə səsə çevrilmiş olan hava axını iki keçiddən, yəni həm dilin arxasından, həm də dilin ön hissəsindən süzülərək xaricə çıxdıqda *ş* formalaşır Buna görə də *ş* səsi cütkeçidli fışıltılı samit kimi təkkeçidli, fısıltılı *s* samitindən fərqlənir.

Müasir Azərbaycan ədəbi dilində *ş* samiti hər cür sövti vəziyyətdə, sözün hər yerində işlənir və sözün daxilində hər cür saitlə yanaşı (*düş, beş, iş, şal, şor, şırıltı, şur, şubhə, şövq*) ola bilir.

Müasir Azərbaycan ədəbi dilində *ş* samiti bəzi alınma sözlərin başında *t, r, p, l, k'* samitləri ilə (*ştat, şrift, şpris, şlanq, şkaf*), sonunda isə *r* samiti ilə (*arş, fərş, marş*) yanaşı, bəzi sözlərin ortasında isə qoşa halda da (*meşşan*) işlənir

Bunu da xüsusi qeyd etmək lazımdır ki, *ş* samiti təkcə sözlərin tərkibində deyil, şəkilçilərin də tərkibində işlənilən fonemlərdəndir: *-ış, -iş, -uş, -üş, -mış, -miş, -muş, -müş, -daş, -ləş* və s.

2 *J* səsi novlu, dilönü-yuvaq, cütkeçidli, küylü samitdir, cingiltili olması ilə *ş* samitindən fərqlənir.

Müasir Azərbaycan ədəbi dilində *j* samiti çox məhdud miqdarda, xüsusən alınma sözlərin tərkibində işlənilən bir səsdir.

Ümumiyyətlə, Azərbaycan dilində bu səsin varlığı, əsasən bəzi səs təqlidi əsasında formalaşmış *qıjıltı, vıjıltı, qıjhaqıj* kimi sözlərdə və bəzi şivələrdə *c* əvəzinə (*bacı – bajı, hacı – hajı*) işlənən *j* səsi ilə bağlıdır. Buna görə də əgər belə faktlar və bəzi alınma sözlər nəzərə alınmazsa, bu səsin ədəbi dildəki yeri heçə enə bilər. Lakin son zamanlarda alınma sözlər hesabına *j* səsli sözlərin artması, bəzi şivələrdə *j* səsinin varlığı, ümumiyyətlə, bu səsin get-gedə inkişaf edərək fonem kimi sabitləşməsinə şərait yaratmışdır. Məhz buna görə də bir səsin yazıda xüsusi əlamətlə işarə edilməsi, xüsusi hərflə göstərilməsi zəruri olmuşdur.


Ş-J

Şəkil 62 *Ş* və *j* samitlərinin tələffüzündə dilin üst damağa toxunma vəziyyəti

Qeyd etmək lazımdır ki, *j* samiti məhdud miqdarda olsa da, sözlərin hər yerində işlənir· *jurnal, əjdaha, tiraj* və s.



***§44. Ç və c samitləri.*** Bu səslər iki məxrəc qovuşması əsasında formalaşmasına görə müasir Azərbaycan ədəbi dilindəki digər küylü samitlərdən əsaslı surətdə fərqlənən samitlərdir Məhz buna görə də digər küylü samitlər saf məxrəcli, *ç* və *c* isə qovuşuq məxrəcli səslərdən sayılır. Belə əsaslı fərqdən başqa *ç* və *c* samitlərinin daha bir sıra əlamətdar xüsusiyyətləri də vardır.

1. *Ç* səsi kipləşən-novlu, dilönü-yuvaq, küylü, qovuşuq bir samitdir. *Ç* samitinin tələffüzü prosesində dil önü üst çənədən ön dişlərin yuvağına doğru qalxıb kipləşərək *t* səsinin məxrəci vəziyyətində olur, lakin ağız boşluğu ilə süzülərək kipləşən üzvlərə səs axını yaxınlaşdıqda, kipləşən üzvlər birdən-birə deyil, tədricən aralanır və bunların arasında yaranan novdan hava axını süzülərək xaricə çıxır. Məhz belə şəraitdə səs axını əvvəlcə *t* çalarlığında formalaşarkən aralanan üzvlər arasındakı novda *ş* çalarlığında səslə qovuşur və beləliklə də, süzülüb xaricə çıxarkən qovuşuq *c* samiti tam halda formalaşmış olur. Buna görə də, demək olar ki, *ç* samitinin başlanğıcı *t*, sonu *ş* olur. Bunu yoxlamaq üçün *tş* səs birləşməsini sürətlə tələffüz etmək olar ki, belə tələffüzdə *ç* çalarlıqlı bir səs eşidilir. Görünür elə bu xüsusiyyətinə görə də latın əlifbası əsasında olan yazıların bəzisində və transkripsiyada *ç* samiti məhz *t* və *ş* səslərini bildirən hərfi işarələr tərkibində yazılır *tsch* (*t – t, sch – ş*), *ts* (*t – t, s – ş*). Məhz belə xüsusiyyətinə əsasən *ç* samitini yarım *t* və yarım *ş* qovuşuğu əsasında formalaşan samit hesab etmək olar

Müasir Azərbaycan ədəbi dilindəki *ç* samiti hər cür sait ilə yanaşı (*aç, çox, qıç, uç, çənə, iç, çillə, keç, çöl, uç*), bir neçə sözün sonunda isə *r, n, t* samitləri ilə yanaşı (*març, linç, matç*) ola bilir.

*Ç* samiti muasir Azərbaycan ədəbi dilindəki sözlərin hər yerində – söz başında, söz ortasında, söz sonunda işlənir.

Müasir Azərbaycan ədəbi dilində məhdud halda olsa da, bəzi şəkilçilərin fonetik tərkibində *ç* samiti müstəqil fonem kimi işlənir: *-çı, -çi, -çu, -çu, -ça, -çə* və s.

Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan dilinin orfoqrafiyasına görə iki və ikidən artıq hecalı sözlərin axırında *ç* tələffüz edilsə də yazılmaz və ancaq *c* yazılar


Ç-C

Şəkil 63 *Ç* və *c* samitlərinin tələffüzündə dilin üst damağa toxunma vəziyyəti

2 *C* samiti öz məxrəcinə görə *ç* samitindən yalnız cingiltili olması ilə fərqlənir Buna görə də demək olar ki, *c* samiti yarım *d* və yarım *j* samitinin qovuşuğudur.

Müasir Azərbaycan ədəbi dilində *c* samiti çox işlənən qovuşuq samitdır. *C* samiti hər cur sövti şəraitdə sözün hər yerində – söz başında, söz ortasında, söz sonunda və hər cur saitlə yanaşı (*can, cod, cummaq, cib, cücü, sac, alıcı, gec, guc, kərpic*) işlənir.

Bunu da qeyd edək ki, *c* samiti bəzi sözlərin ortasında qoşa halda (*münəccim, təəccüb*), bəzi sözlərin isə sonunda *r, n* samitləri ilə yanaşı (*xərc, dinc, qılınc*) işlənir.

Muasir Azərbaycan dilindəki şəkilçilərin də fonetik tərkibində *c* samiti *ç* samitinə nisbətən daha çox işlənilən bir fonemdir: *-ca, -cə, -ıcı, -ici, -acaq* və s

***§45. X, ğ və h samitləri.*** Bu səslər dilin arxa hissəsində, dil dibi ilə udlaq arasında formalaşan samitlərdir. Ümumiyyətlə, Azərbaycan dilində ancaq udlaqda formalaşan səs yoxdur, lakın udlağa yaxın bir məqamda, xususən dilarxasının və dil dibinın fəal iştirakı ilə formalaşan üç samit vardır ki, bunlar bir sıra xüsusiyyətləri ilə fərqlənən fonemlərdir.

1 *X* səsi novlu, dilçək-dildibi, saf, küylü, kar samitdir. X səsini tələffüz edərkən dilin arxa hissəsi ilə dilçək yumşaq damaq arasında bir arx əmələ gəlir və səs axını həmin arxdan keçərək, dilçəyi də tərpədir və xəfif bir xırıltı eşidilir.

Müasir Azərbaycan ədəbi dilində *x* samiti sözün hər yerində işlənir. Çoxhecalı sözlərin sonunda yazılan *q* samiti də Azərbaycan ədəbi tələffüz normalarına uyğun olaraq *x* halında tələffüz olunur və ancaq saitlə başlayan şəkilçi bitişdirildiyi zaman *x* səsi cingiltili qarşılığı olan *ğ* samiti ilə əvəz edilir



**H-X,Ğ**

Şəkil 64 *H, x, ğ* samitlərinin tələffüzündə dil dibinin və qırtlağın vəziyyəti

Müasir Azərbaycan ədəbi dilində *x* samiti hər cür saitlə yanaşı (*ax, xal, ox, xor, çıx, xırda, yuxu, xörək, xəbər, ıxtira, daxil, xeyir*) işlənir və bəzi sözlərin başında *r, l* samitləri ilə (*xrom, xlor*) və bəzi sözün sonunda isə *l, r, n* sonorları ilə (*qalx, arx, bronx*) yanaşı ola bilir.



2. *Ğ* samiti *x* samitindən əmələ gəlmə yerinə görə deyil, sadəcə cingiltili olması ilə fərqlənir

Müasir Azərbaycan ədəbi dilində *ğ* səsi söz başında olmur, lakın söz ortasında (*ağac, yorğan, dağdağan*) və təkhecalı sözlərin sonunda (*ağ, dağ, çağ*) işlənir.

Başqa dillərdən keçmiş sözlərin başında olan *ğ* səsi *q* ilə əvəz edilir: *ğəzəb, ğələbə, ğürur* əvəzinə *qəzəb, qələbə, qürur* işlənir.

Müasir Azərbaycan ədəbi dilində *ğ* samiti bir-iki söz nəzərə alınmazsa, demək olar ki, ancaq qalın saitlərlə yanaşı işlənir.

Müasir Azərbaycan ədəbi dilində *ğ* samiti bəzən şəkılçinin tərkibində variant samit kimi, hətta heca başında işlənir: *-ğın* (azğın), *-ğun* (vurğun), *-dığı* (aldığı), *-duğu* (olduğu), *-cığaz* (uşaqcığaz), *-ağan* (qaçağan) və s.

3. *H* samiti cingiltili qarşılığı olmayan kar, novlu, kuylü, qırtlaq-dildibi samitdir. Tələffüz prosesində səs tellərinin sakıt titrəyişi ilə səsə çevrilmiş olan hava axını qırtlaq və dil dibi arasında əmələ gələn cığırdan keçib ağız boşluğu ilə süzülərək xaricə çıxdıqda *h* samiti tam halda formalaşır.

Müasir Azərbaycan ədəbi dilində *h* samiti sözlərin hər yerində – söz başında, söz ortasında, söz sonunda işlənir və hər cur saitlə yanaşı (*hara, hucum, hoqqa, hökm, zahir, ah, gah, ahu, yəhər, mehman, möhür, öhdə*) ola bilir.

Bəzi ərəb mənşəli sözlərin ortasında *h* samiti qoşalaşmış halda da işlənir: *təəhhüd, müsəhhih*

Ümumiyyətlə, *h* samiti Azərbaycan dilində çox az işlənən səslərdəndir

***§46. Y samiti.*** *Y* səsi sərt damaq-dilortası, novlu, yarımkuylu-yarımsonor, saf, cingiltili samitdir. *Y* səsinin tələffüzündə dilin orta hissəsi sərt damağa doğru yaxınlaşır, bunların arasındakı açıqlıq, eləcə də dodaqların arasındakı açıqlıq təqribən *i, e* samitlərinin tələffüzündəki vəziyyətdə olur Dilin ucu isə aşağı ön dişlərin sırasında yuvağa azacıq yaxınlaşır.

Gərgin vəziyyətdə olan səs tellərinin titrəyişi ilə yaranmış səs axını ağız üzvlərinin belə vəziyyətində sərt damağın arasında əmələ gələn arxdan keçib ciddi maneə ilə rastlaşmadan dil ilə damaq arasındakı novdan suzulərək dişlərin və dodaqların arasından xaricə çıxdıqda *y* samiti formalaşır



Şəkil 65 *Y* və *x'* samitlərinin tələffüzündə dilin üst damağa toxunma vəziyyəti

Bunu da qeyd etmək lazımdır ki, *y* samiti küylü olsa da digər küylülərdən sonor səslərə yaxın olması ilə fərqlənir. Buna görə də *y* səsi yarımküylü-yarımsonor səs kimi tanınır. Hətta dilçilik ədəbiyyatında *y* səsi yarımsait səs kimi də qiymətləndirilir

Lakin Azərbaycan dilindəki *y* səsi digər sonorlardan məxsusi kar qarşılıqlı olmasına görə fərqlənir və küylü samitlərdən sayılır. Müasir Azərbaycan əlifbasında *y* samitinin kar qarşılığı kimi işlənən səsin xüsusi hərfi işarəsi yoxdur. Dildə olan bu səs *k* hərfi ilə yazılır. Məsələn, *çiçək, çörək* və bu kimi sözlərin sonundakı *k* əslində *k* deyil, *y* samitinin kar qarşılığıdır. Biz şərti olaraq bu səsi *x'* işarəsi ilə göstəririk və buna görə də yuxarıdakı sözləri *çiçəx', çörəx'* şəklində tələffüz edirik.

Müasir Azərbaycan dilindəki *y* səsi hər cür fonetik şəraitdə sözün hər yerində – söz başında, söz ortasında, söz sonunda və bütün saitlərlə yanaşı işlənir: *ay, oynaq, qıyqac, qeyrət, əyri, düymə, dəymək, yağ, yox, yığ, yun, yemək, yəhər, yük* və s.

Müasir Azərbaycan ədəbi dilindəki alınma sözlərin bir qismində qoşa *y* söz ortasında işlənir· *əyyam, ədəbiyyat, müəyyən* və s.

Şəkilçilərin tərkibində *y* səsi məhdud halda, həm də əsas fonem kimi yox, variant halında və bitişdirici – artırılan samit kimi işlənir: *-ciyəz* . , *-yən* ., *-y* (dinlə-y-ir, anla-y-acaq) və s.

Lakin *y* səsinin kar qarşılığı kimi tanıdığımız *x'* samiti heca başında, heca ortasında işlənmir, bu samit ancaq heca sonunda ola bilir. Buna görə də əgər hecanın və ya sözün sonunda *k* yazılarsa, belə hecalarda və sözlərdə saitlərdən sonra *k* hərfi *x'* kimi tələffüz olunur: *çiçəx', çörəx', gələx', kəx'lix'* və s.

Ümumiyyətlə, belə bir nəticəyə gəlmək olar ki, *x'* səsini hələlik tam halda formalaşmış fonem hesab etmək olmaz.



## NİTQİN FONETİK PARÇALARI

***§47. Nitq parçaları haqqında.*** İnsan fikirlərinin ifadəsi olan dil – nitq öz maddi qabığına görə zamanca bir-birini izləyən müxtəlif səslərin axınıdır, yaxud zamanca biri digərini izləyən fonetik həlqələrdən ibarət bir fonetik zəncirdir Bu fonetik zənciri təşkil edən həlqələr isə müxtəlif böyüklükdə olur. Çünkü nitq prosesində fonetik axın bəzən qısa, bəzən uzun parçalara bölünür və hər parça az və ya çox davam edən fasilələrlə və müxtəlif dərəcəli zərbələrlə bir-birindən ayrılır. Bu fasilələrin bəzisi yazıdakı durğu işarələri ilə (nöqtə, vergül və s.) qismən uyğun gəlirsə də, bir qismi durğu işarələri ilə uyğun gəlmir.

Fonetik əsasda formalaşan nitq zəncirini müxtəlif dərəcəli zərbə və fasilələrlə ayrılan həlqələri n i t q i n   f o n e t i k   p a r ç a l a r ı adlanır

Nitq zənciri məzmunca müxtəlif məna həlqələrinə, yəni cümlə, söz və fonem kimi mənalı vahidlərə parçalandığı kimi, maddi varlığına, yəni fonetik təzahürünə görə də müxtəlif fonetik həlqələrə parçalanır ki, bunlar əsasən aşağıdakılardan ibarətdir *ibarə, qitə, heca, səs.*

Məhz belə bir baxımdan aşağıdakı mətnin fonetik parçalarını nəzərdən keçirək.

*Axşam qaranlığı çökür, qaş qaralır, sanki bütün kainat qara bir pərdəyə bürünür. uzaq boşluqlarda bir ulduz yanır O, əfsanəvi bir xəyal kimidir* (M.İbrahimov).

Bu mətn bir neçə cümlədən ibarətdir və bu cümlələri söyləyərkən və oxuyarkən hasil olan fonetik axın təqribən fikri bütövləşmələrə, yəni cümlələrə müvafiq olaraq nitq prosesində əmələ gələn fasilələrlə kəsilir. Beləliklə də, nitqin ümumi fonetik axını davamlı fonetik birləşmələrə parçalanır. Belə davamlı fonetik birləşmə halında parçalanma əlamətləri müxtəlif təzahürlərə malik olsa da, burada ən mühüm əlamət fasilə edib nəfəsalma prosesi hesab olunur. Lakin bunu da qeyd etməliyik ki, nəfəsalma hər zaman vacib deyil, vacib olan budur ki, təqribən cümləyə bərabər olan fonetik birləşmə xüsusi növlü vurğu ilə nitqin fonetik zəncirində bir durğunluq nöqtəsi yaradır, təqribən bir nəfəsalma zamanı qədər fasilədən sonra nitqin fonetik axını (əgər varsa) yenə davam etdirilir.

Nitq axınının ən böyük fonetik parçası olan belə birləşməyə f o n e t i k   i b a r ə deyilir. Hər bir fonetik ibarə də ya bir, ya da bir

neçə ritmik hissədən ibarət olur. Fonetik ibarənin tərkibində olan belə ritmik hissəyə **fonetik qitə** deyilir.

Nitqin belə fonetik qitələri əslində nitqdə məna bütövlüyünə görə fərqlənən nitq vahidlərinə müvafiq gəlir; buna görə də cümlə, söz birləşməsi, ifadə və söz fonetik qitə ola bilər. Eyni zamanda söz bir məqamda fonetik qitənin bir hissəsini təşkil etdiyi halda, başqa bir məqamda müstəqil bir fonetik qitə ola bilər

Fonetik qitələr də, öz növbəsində, müəyyən zərbələrlə formalaşan parçalara ayrılır ki, belə fonetik parçalar hecalar halında təzahür edir

Hecanın da fonetik parçaları ola bilir ki, bunlar ayrı-ayrı səslərdir və nitq axınının ən kiçik fonetik parçası sayılır.

Bir sıra sözlər təkcə bir heca əsasında formalaşdığına görə müəyyən məqamda belə təkhecalı söz fonetik qitə halında nitq zəncirinin fonetik parçasını təşkil edir və fonetik qitənin bir parçası kimi heca halında, başqa bir məqamda isə hecanın bir parçası halında səslənir.

Burada belə bir cəhəti qeyd etməliyik ki, fonetik qitənin bitkin mənalı fonetik vahidi söz olduğundan, hecalar da əsasən sözün fonetik parçaları kimi müəyyənləşdirilir.

Beləliklə, yuxarıdakı mətnin fonetik parçalarını təqribən aşağıdakı şəkildə göstərə bilərik: (qeyd· ibarələr arasında //, qitələr arasında /, hecalar arasında - işarəsi qoyulur.)

*Ax-şam / qa-ran-lı-ğı / çö-kür // qaş / qa-ra-lır // san-ki / bu-tun / ka-i-nat / qa-ra / bir pər-də-yə / bu-rü-nur // u-zaq/ boş-luq-lar-da / bir ul-duz / ya-nır // o / əf-sa-nə-vi / bir / xə-yal / ki-mi-dir //.*

Buradan bir sıra nəticələr çıxarmaq olar:

1. Fonetik ibarələr əksərən fikri bitkinliklə uzlaşır. Buna görə də aşağıdakı formulu ümumiləşdirici əsas formul kimi məqbul saymaq olar: *ibarə* = *cümlə* (*i* = *c*)

Burada belə bir cəhəti yada salmalıyıq ki, bəzən ibarə tam halda formalaşmış cümlə ilə deyil, az-çox fikri bitkinlik çalarlığında olan ifadələr birləşməsi ilə də uyğun olur. Məsələn, yuxarıda nümunə üçün nəzərdən keçirdiyimiz mətndə *//sanki /bütün kainat//* ifadəsi iki qitəli bir ibarədir və burada cümlə tamamlanmamışdır, lakin mətnin ümumi fonetik axını mətnin bütün məzmunu ilə çox bağlı olduğundan *//sanki, bütün kainat//* ifadəsi fonetik ibarə halında səslənir Belə hal, əlbəttə, ibarə üçün ümumi hal deyil, ancaq müstəsnalıqdır.



2. Hər ibarənin tərkib hissəsini təşkil edən qitə müxtəlif növlü məna bütövlüyünə müvafiq gəlir. Buna görə *qitə* = *ifadə* (söz birləşməsi, söz) *q*=*if.* (*sb.s*) formulunu məqbul saya bilərik.

3. Hər qitənin daha sabit parçası sözdür və sözün də (yaxud ümumən qitənin) fonetik parçası olan heca fonetik tərkibcə bir fonemə və ya bir neçə fonemə bərabər olur, buna görə də ümumiləşmiş halda belə bir formulu məqbul saymaq olar:

*Qitə = söz = heca = səs*
*Söz = hecalar*
*Söz = heca*
*Heca = səslər*
*Heca = səs*

Belə bir cəhəti qeyd etmək lazımdır ki, fonetik axının parçaları – ibarələr, qitələr, hecalar və səslər, adətən, ya vurğu və ya intonasiya ilə bir-birinə bağlanır. Beləliklə də, nitqin fonetik həlqələri arasında məqsədəuyğunluğu təmin edən rəngarəng ahəngdar bağlılıq yaranmış olur

## HECA

***§48. Heca haqqında.*** Nitqin fonetik parçası, sözün hissəsi və fonetik bir vahid olma baxımından hecanın hərtərəfli öyrənilməsi həm nəzəri, həm də əməli əhəmiyyətə malikdir.

Nitqin fonetik parçalarından bəhs edərkən nəzərdən keçirilən cümlələrin ibarə, qitə və heca kimi fonetik parçalara ayrılmasından belə bir nəticə çıxarıla bilər ki, heca fonetik axının kiçik parçası olsa da, bir sıra xüsusiyyətlərinə görə çox mühüm nitq vahididir və nitqin fonetik zəncirində ən çox yer tutan həlqəcikdir. Belə həlqəciyin parçaları da var və bu parçaların tələffüzündə zərbə, fasilə yox dərəcəsində olur, buna görə də belə fonetik parçalar bir zərbə ilə qovuşaraq heca halında formalaşır. Belə həlqəcik, yəni heca ya bircə səsdən, ya da bir neçə səs qovuşmasından ibarət olur. Bu baxımdan *ana* və *traktor* sözlərini təhlil edək. Bu sözlərdən birincisi (*a-na*) iki hecaya bölünür, birinci heca bircə *a* səsindən ibarətdir, ikinci

heca (*na*) isə iki səsin – *n* və *a* səslərinin qovuşması ilə formalaşmışdır. İkinci söz (*trak-tor*) iki hecaya bölunür, birinci heca *t, r, a, k* kimi dörd səsin (*trak*) halında qovuşması ilə, ikinci isə *t, o, r* kimi üç səsin (*tor*) halında qovuşması ilə formalaşmışdır.

Bu nümunələri diqqətlə və hərtərəfli nəzərdən keçirdikdən sonra belə nəticəyə gəlmək olur ki, hecanın tərkibində hecanı formalaşdıran səsləri nitq axınının fonetik parçası halında birləşdirən, güclənmədən və zəifləşmədən uzana bilən, qısala bilən bir səs hecanın əsasını təşkil edir ki, belə səs, ümumiyyətlə, h e c a d ü z ə l d ə n səs adlanır.

Bir qayda olaraq hecanın tərkib hissələrini təşkil edən səslərdən bəzisi hecadüzəldən səsdən əvvəl gəlir və tədricən güclənərək hecadüzəldən səsə qovuşur, bəzisi isə hecadüzəldən səsdən sonra gəlir və tədricən zəifləşmiş halda hecadüzəldən səslə qovuşmuş olur. Buna görə də belə səslərdən əvvəlincisi hecadüzəltməyən güclənən səs, sonrakı isə hecadüzəltməyən zəifləşən səs adlanır.

Bu baxımdan bir hecadan ibarət olan *kənd* sözünün heca quruluşunu nəzərdən keçirək. Burada *ə* saiti hecadüzəldən səsdir, bundan əvvəl gələn *k* və sonra gələn *n, d* samitləri isə hecadüzəltməyən səslərdir. Buna görə də bu samitlər hecadüzəldən e saiti ilə qovuşduqda hecanın tərkib hissələrinə çevrilmiş olur Qovuşma prosesində *ə*-dən əvvəl gələn *k* samiti *ə* saitinə yaxınlaşdıqca güclənir, *ə*-dən sonra gələn *n, d* samitləri isə *ə* saitindən uzaqlaşdıqca zəifləşir.

Beləliklə, tamamılə aydın olur ki, nitq prosesində hər dəfə nəfəsalma zərbəsinə ya təkcə bir sait, ya da sait ətrafında bir, yaxud bir neçə samit qovuşması əsasında müəyyən nitq vahidləri, yeni sözün parçaları formalaşır ki, ümumiləşmiş halda sözün belə parçaları heca adlanır. Buna görə də hecaya müxtəsər halda belə tərif vermək olar. Sözün bir sait əsasında formalaşmış parçasına h e c a deyilir.

Dünya dillərinin hamısında sait səslər hecadüzəldən səslər kimi tanınır. Lakin bəzi dillərdə (ingilis, serb, çex dillərində) *l, n* sonorları da hecadüzəldən səslərdən sayılır.

Azərbaycan dilində ancaq saitlər hecadüzəldən səslərdir. Buna görə də hər bir sait sözün tərkibində təklikdə bir heca halında işlənildiyi kimi, samitlər ilə qovuşma əsasında da müxtəlif növ hecanın formalaşmasında hecadüzəldən səs kimi iştirak edir. Buradan isə belə bir nəticəyə gəlmək olur ki, sözün tərkibində neçə sait iştirak edərsə, bir o qədər də heca yaranar. Məsələn, *al* sözündə bir sait olduğuna görə birhecalı, *Azərbaycan* sözündə dörd sait olduğuna görə dördhecalıdır.



***§49. Heca növləri.*** Hecadüzəldən səsin, yeni saitin mövqeyinə və saitlə qovuşan samitlərin yerinə görə hecalar müxtəlif növlərdə olur.

Azərbaycan dilindəki hecalar fonetik tərkibinə görə əsasən saf heca və qovuşuq heca olmaq üzrə iki qrupa bölünür.

1. Təkcə bir saitdən ibarət olan hecaya s a f h e c a deyilir Məsələn, *ata* sözündəki birinci heca (*a-ta*) təkcə bir saitdən ibarətdir.

Azərbaycan ədəbi dilində saf heca, əsasən sözün başında ola bilir.

2. Sait və samit birləşməsindən duzələn hecaya q o v u ş u q h e c a deyilir. Məsələn, *oğlan* sözündəki birinci heca (*oğ*) bir saitlə bir samitin birləşməsindən, ikinci heca (*lan*) isə bir samit, bir sait, bir samit olmaq üzrə bir saitlə iki samit birləşməsindən düzəlmiş qovuşuq hecalardır.

Azərbaycan ədəbi dilində qovuşuq hecalar sözün hər yerində ola bilir.

Azərbaycan dilindəki qovuşuq hecaların müxtəlif növləri vardır ki, bunlar sait və samitin mövqeyinə görə iki qrupa bölünür

1) **Saitin mövqeyinə görə.** Qovuşuq hecalar heca düzəldən səsin, yeni saitin mövqeyinə görə iki növ olur: *örtüsüz heca, açıq heca*

Saitlə başlanan hecaya ö r t ü s ü z h e c a deyilir. Məsələn, *alma* sözündəki birinci heca (*al-ma*) *a* saiti ilə başlanır, *l* samiti ilə bitir.

Saitlə bitən hecaya a ç ı q h e c a deyilir Məsələn *alma* sözündəki ikinci heca (*al-ma*) *m* samiti ələ başlanır, *a* saiti ilə bitir.

2) **Samitin mövqeyinə görə.** Qovuşuq hecalar hecadüzəltməyən səslərin, yeni samitlərin mövqeyinə görə üç növ olur: *örtulü heca, qapalı heca, örtülü-qapalı heca.*

Samitlə başlanan hecaya örtülü heca deyilir Məsələn, *baba* sözünü təşkil edən (*ba-ba*) hecaları *b* samiti ilə başlanan örtülü hecalardır.

Samitlə bitən hecaya q a p a l ı h e c a deyilir. Məsələn, *almaq* sözünü təşkil edən (*al-maq*) hecalarından birincisi *l* samiti ilə, ikincisi isə *q* samiti ilə bitən qapalı hecalardır.

Samitlə başlanıb samitlə bitən hecaya ö r t ü l ü - q a p a l ı h e c a deyilir. Məsələn, *yaz-maq* sözündəki hecalardan birincisi *y* samiti ilə başlanır və *z* samiti ilə bitir (*yaz*), ikinci isə *m* samiti ilə başlanır, *q* samiti ilə bitir (*maq*), örtülü-qapalı hecalardır.

Beləliklə, aydın olur ki, hecaların başındakı səsə görə örtusuz, örtülü və sonundakı səsə görə açıq, qapalı kimi növləri vardır. Lakin belə növlər ancaq hecaların bir tərəfini əks etdirir, buna görə də belə növləri hecaların yarımnövləri hesab etmək olar Hər bir heca

başlanğıcı və sonu olan bir vahiddir, bu isə hecanın ikitərəfli əlamətlə fərqlənən fonetik vahid olduğuna dəlalət edir. Buna görə də hecaların əsas növlərini müəyyənləşdirmək üçün hecaların əlamətlərini təkbətək öyrənmək məqsədi ilə yuxarıda birtərəfli tətbiq etdiyimiz meyarı burada qarşılıqlı tətbiq etmək lazımdır, yəni heca növlərini hecanın ancaq baş səsinə və ya ancaq son səsinə görə deyil, başı və sonu olan bir vahid kimi hər iki tərəfdəki əlamətinə görə müəyyənləşdirmək lazımdır. Bu baxımdan yuxarıda verilən növləri qarşılıqlı əsasda ümumiləşdirdikdə, yəni hecaların həm başındakı, həm sonundakı səslərin növünə görə qruplaşdırdıqda hecaların, əsasən, aşağıdakı dörd növü aydınlaşır.

1. Saf örtüsüz-açıq heca, yəni təkcə bir saitdən ibarət olan heca: *a-na, ə-zız, o-taq* və s.

2. Örtüsuz-qapalı heca, yəni saitlə başlanan, samitlə bitən heca: *al-ma, el, əl, iş* və s.

3. Örtülü-qapalı heca, yəni samitlə başlanan, samıtlə bitən heca: *qar-tal, göz-lük, bol-luq* və s.

4. Örtülü-açıq heca, yəni samitlə başlanan, saitlə bitən heca: *ba-la, qa-ra, sa-rı, də-də, ba-ba* və s.

***§50. Heca tipləri.*** Müasir Azərbaycan dilindəki müxtəlif növlü hecalar onların formalaşmasında hecadüzəldən saitlə qovuşan samıtin sayına və mövqeyinə görə bir-birindən fərqlənir və beləliklə də, müxtəlif heca tipləri formalaşır[1].

Müasır Azərbaycan dilindəki müxtəlif növ hecaların əsas tipləri aşağıdakılardır:

I. Saf heca: *0* (*a-ta, o-ğul* və s.)

II Örtüsüz-qapalı hecanın tipləri:

a) sait + bir samit – *0I* (*al, ol, ot, üç, iç* və s.)

b) sait + ikı samit – *0II* (*alt, üst, eşq, akt* və s.)

c) sait + üç samit – *0III* (*Omsk, ole-andr* və s.)

III. Örtülü-açıq hecanın tipləri:

a) bir samit + sait – *I0* (*bu, ba-la, nə-nə* və s.)

b) iki samit + sait – *II0* (*bri-qadir, qra-fik* və s )

c) üç samit + sait – *III0* (*skle-ra, skle-roz* və s.)

IV. Örtülü-qapalı hecanın tipləri:

a) bır samit + sait + bir samit – *I0I* (*gəl, bir, can, qan* və s.)

[1] Heca tiplərinin formullarında sait səs *0* ilə, samit səs *I* ilə işarə edilir



b) bir samit + sait + iki samit – *I0II* (*kənd, qənd, yurd, dörd* və s )

c) iki samit + sait + bir samit – *II0I* (*plan, plov, trak-tor* və s.)

ç) iki samit + sait + iki samit – *II0II* (*frank, spirt, sport* və s.)

d) bir samit + sait + uç samit – *I0III* (*Marks, Çarlz* və s )

e) uç samit + sait + bir samit – *III0I* (*skrıpka, şpris* və s.)

ə) üç samit + sait + iki samit – *III0II* (*sprint* və s.)

f) iki samit + sait + üç samit – *II0III* (*spektr, Dnestr* və s.)

g) üç samit + sait + üç samit – *III0III* (*Bryansk* və s.)

ğ) bir samit + sait + dörd samit – *I0IIII* (*Voljsk* və s.)

Beləliklə, aydın olur ki, müasir Azərbaycan ədəbi dilində işlənilən sözlərin tərkibində 17 heca tipi mövcuddur. Bunlardan yeddisi, yəni *0, 0I, I0, I0I, 0II, I0II, II0I* tipləri həm əsil Azərbaycan sözlərində, həm də alınma sözlərdə çox işlək olan ümumi tiplərdir, 10-u isə, yəni *II0, III0, 0III, II0II, I0III, III0I, III0II, II0III, III0III, I0IIII* tipləri ancaq alınma sözlərdə olan xüsusi tiplərdır. Buna görə də müasir Azərbaycan ədəbi dilində ümumi tiplərdən olan hecalar işlənilmə baxımından, demək olar ki, 90 faiz təşkil edir.

***§51. Heca tiplərində samitlər.*** Heca tiplərini daha dəqiq müəyyənləşdirmə baxımından samit qovuşması ilə formalaşan hecaların tərkibindəki samitlərin növlərinin də nəzərə alınması vacibdir. Xüsusən hecanın tərkibindəkı samitlərin ancaq kuylü olması, küylü və sonor olması, saitdən əvvəl və ya sonra yerləşməsi, saitlə yanaşı olub-olmaması müxtəlif tıp hecanın, hecalarla formalaşan sözlərin bir sıra xüsusiyyətlərinin, orfoepiya, poeziya, təğənni və orfoqrafiya ilə əlaqədar məsələlərin aydınlaşdırılması nöqteyi-nəzərindən olduqca əhəmiyyətli faktorlardır. Bu baxımdan xüsusən tərkıbində iki, uç yanaşı samit olan hecaları nəzərdən keçirmək faydalı olar.

Tərkıbində çox yanaşı samit olan hecalar, əsasən, xüsusi tipli hecalardır. Belə hecaların tərkibindəki yanaşı samitləri yoxladıqda aydın olur kı, belə hecaların təqribən 90 faizinin tərkibindəki yanaşı samitlərdən bırı sonor samitdir; *qra-fik, dram, trak-tor, Ştra-us, şpris, Marks, spektr* və s.

Bəzən bir hecanın tərkıbində ıki və ya üç sonor da olur. Hətta bir heca tərkibində iki sonor yanaşı gəlir: *blank, frank, Çarlz, Kreml* və s.

Yalnız alınma sözlərdə deyil, Azərbaycan dilinin öz sözlərində olan yanaşı samıtlər qovuşması ilə formalaşmış, *0II, I0II, II0I* tipli hecalarda da bir sonor varlığı diqqəti cəlb edir.

**Müasir Azərbaycan ədəbi dilindəki heca növlərini**
**və heca tiplərini göstərən cədvəl**

| Heca növləri | Heca tipləri | | | |
|---|---|---|---|---|
| | səsin sayı | hecaların formulu | nümunələr | sıra №-si |
| I Örtüsüz-açıq | bir | 0 | *a-ta, ü-tü, ö-zü, i-ki* | 1 |
| | iki | 0I | *al, ot, uç, iz, öz, üç, əl, el* | 2 |
| II Örtüsüz-qapalı | üç | 0II | *alt, üst, əzm, eşq, ilk, elm* | 3 |
| | dörd | 0III | *Omsk, ole-andr* | 4 |
| III Örtülü-açıq | iki | I0 | *bu, ba-la, nə-nə, ye-ni, bo-ru* | 5 |
| | üç | II0 | *qra-fik, stə-kan, pro-letar* | 6 |
| | dörd | III0 | *skle-ra, Ştra-us, knya-ginya* | 7 |
| | üç | I0I | *baş, qaz, qız, qol, dur, gəl, gör* | 8 |
| | dörd | I0II | *cəld, yurd, hərf, mart, turş* | 9 |
| | dörd | II0I | *plan, xrom, dram, stul, plov* | 10 |
| | beş | II0II | *blank, şlanq, spirt, sport* | 11 |
| | beş | I0III | *Marks, Tomsk, Çarlz, filtr* | 12 |
| IV Örtülü-qapalı | beş | III0I | *knyaz, şpris, plyaj, ştrix* | 13 |
| | altı | III0II | *sprint, splanx-nologiya* | 14 |
| | altı | II0III | *Dnestr, Şvarts, spektr* | 15 |
| | yeddi | III0III | *Bryansk* | 16 |
| | altı | I0IIII | *Voljsk* və s. | 17 |

Məlum olduğu üzrə, ümumən türk dillərində, bu cümlədən Azərbaycan dilində bir heca daxilində yanaşı samitlərin olması qeyri-qanuni bir haldır və buna görə də belə hecalar müstəsnalıq sayılır. Lakin alınma sözlərdə olan belə hecaların yoxlanması göstərdi ki, belə hecalar əksərən sonor samitlərin iştirakı ilə formalaşır. Məhz bu baxımdan Azərbaycan dilinin öz sözlərində olan hecaları nəzərdən keçirdikdə əsasən eyni hal ilə rastlaşırıq: yeni bir neçə söz (üst) müstəsna olmaq şərti ilə, demək olar ki, Azərbaycan dilində olan bu tip hecaların hamısında yanaşı samitlərdən birisi sonordur: *alt, ilk, yurd, turp, turş, qırx, dörd, plov* və s.

Belə faktlar bir daha sübut edir ki, sonor samitlərin fonetik keyfiyyətinə görə, yəni avaz üstünlüyünə görə saitlərə daha çox yaxın olması bir heca tərkibində iki-üç samitin yanaşı halda qovuşması



üçün əlverişli şərait yaradır. Belə şərait sait dərəcəsində olduqda (ingilis dilində olduğu kimi) sonor səs heca da formalaşdıra bilir

Sonor samitin olması belə hecaların tələffüzündə öz təsirini daha aydın göstərir. Belə ki, hecanın sonunda ancaq küylu samitlər yanaşı olduqda, sonuncu samit ya son dərəcə zəiflənmiş halda tələffüz olunur (*məşq, şəxs, səhv* və s.), ya da ixtisara duşür, tələffüz olunmur (*üs – üst*), (*vax – vaxt, ras – rast*). Lakin heca sonundakı yanaşı samitlərdən biri sonor olduqda, samitlər əksərən adi halda tələffüz olunur: *alt, ilk, əmr, kənd, bənd, dinc* və s.

Beləliklə, aydın olur ki, Azərbaycan dilindəki qovuşuq hecalar samitlərin növünə görə uç cürdür: *küylü heca, sonorlu heca* və *küylü-sonorlu heca.*

Tərkibində ancaq küylü samit olan hecaya k ü y l ü  h e c a deyilir. Küylü hecanın tərkibində ya bir (*az, və*), ya iki (*üst, səs*), ya üç (*dost, şəxs, taxt, ştat*) küylü samit ola bilər Tərkibində iki və ya üç sait olan belə hecalarda ya saitdən əvvəl, ya da samitdən sonra ancaq iki samit yanaşı gələ bilər.

Tərkibində ancaq sonor samit olan hecaya s o n o r l u  h e c a deyilir. Sonorlu hecanın tərkibində ya bir, ya iki sonor samit ola bilər və hecadakı tək sonor ya saitdən əvvəl (*nə-nə, la-kin, ra-zı, ma-lik*), ya da saitdən sonra (*al, on, ər, um*) gələ bilər Hecada iki sonor olduqda biri saitdən əvvəl, digəri saitdən sonra gələr: *nar, mal, ram, nəm* və s.

Tərkibində həm küylü, həm də sonor samit olan hecaya k ü y l u - s o n o r l u  h e c a deyilir. Küylü-sonorlu hecaların bəzisi təksonorlu, bəzisi isə cütsonorlu olur.

Təksonorlu hecaların tərkibində ya bir küylü samit (*qır, yan, cəm, ruh, mat, naz, alt, and, ilk, ört*), ya iki küylü samit (*plov, qrup, plaş, stol, dörd, kənd, səmt, cild, cəbr, neft*), ya üç küylü samit (*sport, şpris, plyaj, şrift*), ya da dörd küylü samit (*spektr, Voljsk* ) ola bilər

Cütsonorlu hecaların tərkibində ya bir küylü samit (*mərd, ləng, nərd*), ya da iki küylü samit (*trans, şlanq*), ya da üç, dörd küylü samit (*Bryansk, sport*) olur. Nadir hallarda bir hecanın tərkibində üç sonor da olur: *Kreml* və s.

***§52. Heca tiplərində saitlər.*** Azərbaycan dilindəki hecaları hecadüzəldən saitin növünə görə də qruplaşdırmaq zərurıdir Azərbaycan dili iltisaqi quruluşlu bir dil olduğundan və burada ahəng qanunu adlanan fonetik qanunun dilin bütün vahidlərində bu və ya digər

şəkildə öz hökmünü surməsi və nitqin ahəngdarlığını idarə etməsi hecadüzəldən saıtlə uzvi surətdə bağlıdır. Əslində ahəng qanunu, birıncı növbədə, hecadüzəldən saitlərdə ifadə olunur və həm heca tərkibindəki samitlərə, həm də qonşu hecalara öz təsirını göstərir. Məgər *işləmək* sözündə *lə-mək* hecalarında hecadüzəldən saitin (*ə*) olması, *mək* hecasında sonuncu samitin *k* olması ahəng qanununun hecalardakı təzahürü deyilmi? Hecadüzəldən *a* və ya başqa bir qalın sait olsa idi, şəkılçi *mək* hecası halında formalaşardımı? Əlbəttə, yox Əgər sözün kökü *iş* yox, *baş* olsa idi, bu zaman ikinci heca *lə* deyil, *la*, üçuncu heca isə *mək* deyil, *maq* fonetık tərkibində, söz isə bütövlükle *başlamaq* şəklində formalaşardı.

Deməli, Azərbaycan dilində belə bir qanun var ki, əsas mənanı ifadə edən nitq vahidinə başqa məna əlavə etmək üçün bitışdirilən hər hansı bir nitq vahidinin hecadüzəldən saiti əksər halda bitişdiyi əsas vahidin ona yanaşı olan hecadüzəldən saiti ilə uzlaşmalı, yəni həmcinsləşməlidır və özündən sonrakı hecaya da bu qanuna tabeedici təsir göstərməlidir Daha doğrusu, o özündən əvvəlki hecadüzəldən saitə tabe olduğu kimı, özündən sonrakı hecadüzəldən saitı də özünə tabe etməlidir

Beləliklə, söz hissəsində hecadüzəldən saitin həmcinslık silsiləsi yaranmış olur. Məsələn, *uzgüçülüyü* sözündə *ü-ü-ü-ü-ü* silsiləsi, *quşçuluğun* sözundə isə *u-u-u-u* silsiləsi yaranır

Bu misaldan da aydın olur ki, hecadüzəldən saitın təkcə qonşu hecadüzəldən saitə deyil, həm də bir sıra hallarda, hecadüzəltməyən, lakin hecanın tərkib hissəsini təşkıl edən samitlərə də təsiri ola bilir Məhz buna görə də bırıncı sözdə eyni morfem *-lük* tərkıbi əslindən olaraq *y* samiti ilə, ikinci sözdə isə *-luq* tərkibi əslindən olaraq *ğ* samitı iiə formalaşmış, beləliklə də, birıncı sözdə *ü-y-ü* hecalar uçbucağı, ikinci sözdə isə *u-ğ-u* hecalar üçbucağı yaranmışdır.




Şəkil 66



Məhz belə cəhətləri nəzərə aldıqda Azərbaycan dilindəkı hecaları hecadüzəldən saitin növündən asılı olaraq ıkı əsas qrupa bölmək lazım gəlir

1. Qalın hecalar Hecadüzəldən saiti qalın olan hecalar, yəni *a, o, ı, u* saitlərı əsasında formalaşan hecalar.

2. İncə hecalar Hecadüzəldən saiti incə olan hecalar, yəni *ə, ö, i, ü, e* saitləri əsasında formalaşan hecalar Bu heca qruplarının hər birının də dodaq və damaq növlərı, bunların da hər birinin dar (qapalı) və gen (açıq) növləri olur.

Müasir Azərbaycan ədəbi dılındə əsasən 9 sait olduğu kimi, hecalar da saitlərə görə 9 növdür kı, bunlar aşağıdakılardan ibarətdir.

1. Qalın, dodaq, gen saitli hecalar: *ot, plov* və s.
2. Qalın, damaq, gen saitli hecalar: *at, qram* və s.
3. Qalın, dodaq, dar saitli hecalar: *qul, qrup* və s.
4. Qalın, damaq, dar saitli hecalar: *qız, qırx* və s
5. İncə, dodaq, gen saitli hecalar: *göz, sövt* və s
6 İncə, damaq, gen saıtli hecalar: *sən, gənc* və s.
7. İncə, dodaq, dar saitli hecalar: *üz, künc* və s.
8. İncə, damaq, dar saitli hecalar: *iz, şpris* və s
9 İncə, damaq, yarım dar saitli hecalar *ev, trest* və s.

**Azərbaycan ədəbi dilindəki hecaların saitlərə görə növlərini göstərən cədvəl**

| | Heca növlərı | | | Saitlər | Heca nümunələrı | |
|---|---|---|---|---|---|---|
| | | | | | söz köklərındə | şəkilçilərdə |
| Saitlərin növü | Qalın saitlər | damaq | gen | *a* | *al, mal, qram, şad* | *-dan, -lar* . |
| | | | dar | *ı* | *qır, qırx, yığ* | *-ır, -mı, -dı* . |
| | | dodaq | gen | *o* | *yol, qoş, plov* | — |
| | | | dar | *u* | *tut, un, qrup* | *-ur, -umuş* |
| | İncə saitlər | damaq | gen | *ə* | *əl, mən, kənd* | *-dən, -lər*. . |
| | | | yarım dar | *e* | *el, beş, trest*. . | — |
| | | | dar | *i* | *il, bir, qrip* | *-iş, -lik* |
| | | dodaq | gen | *ö* | *öz, göz, cövr* | — |
| | | | dar | *ü* | *üz, duz, künc* | *-üş, -lük* |

Burada saitlərə görə heca növlərindən bəhs edərkən, Azərbaycan dilinin belə bir xüsusiyyətini yada salmalıyıq ki, Azərbaycan dilində *o, ö, e* saitləri sözlərin ilk hecasında ola bilir. Sonrakı hecalarda isə bitişərək ikinci, üçüncü, dördüncü və s. hecalar halında sözün tərkib hissəsinə daxil olan şəkilçilərdə olmur.

Buradan isə belə nəticəyə gələ bilırık ki, hecalar şəkilçilərə görə də iki qrupa ayrılır: şəkılçilərdə olan hecalar, şəkılçilərdə olmayan hecalar.

Yuxarıda saitlərə görə sadalanan 9 heca növündən altısı (2, 3, 4, 6, 7, 8 №-li) heca növləri şəkilçilərdə olan hecalardır, üçü isə (1, 5, 9 №-li) heca növləri şəkilçilərdə olmayan hecalardır.

## NİTQ AXININDA HECALARIN FONETİK TƏRKİBİNDƏKİ PROSESLƏR HAQQINDA

***§53. Heca üçbucaqları.*** Ümumiyyətlə, nitq axını şəraitində saitlər, hecadüzəldən səslər təqribən bərabər gücdə olduqlarından düz xətlə bağlanır, saitlər arasındakı hər hansı samit isə aşağıdərəcəli gücə malik olur. Bununla belə aşağıdərəcəli gücə malik samitlərin gücü heca daxilindəki məqamına görə dəyişır. Belə ki, saitdən əvvəl gələn samit səs hecanın zirvəsində duran saitə doğru yüksəlır, buna görə də belə səslər güclənən səs hesab olunur. Hecadüzəldən səsdən sonra gələn hər bır samit isə heca zirvəsindən aşağı endiyinə görə zəifləşən səs hesab olunur Beləliklə, yanaşı gələn iki hecadan bırıncinin zəifləşən samit xətti ikıncı hecanın güclənən samit xəttinın başlanğıc nöqtəsinə qədər aşağı enır, güclənən samıt xətt isə ikinci hecanı düzəldən sait zırvəsinə qədər yuxarı qalxır. Əgər nitq axınında sonra gələn üçüncü heca varsa, yenə zəifləşən samit xətti üçüncü hecanın güclənən samit xəttının başlanğıc nöqtəsinə qədər aşağı enir, həmın nöqtədən də güclənən samit xətt sait zirvəsinə qədər yuxarı qalxır. Sait zirvələr isə əsasən bir xətt üzrə (xüsusən ahəng qanunu əsasında) əlaqələnır Beləlıklə də, nıtqin sözlər çərçivəsində heca üçbucağı (*hü*) və heca üçbucağı silsiləsi (*hüs*) yaranmış olur Belə üçbucaqların alt bucağını, samitlər kəsişməsi olduğuna görə samit bucağı (*samb*), üst bucaqlarını isə sait zirvələri olduğuna görə sait bucağı (*sib*) adlandırmaq olar.






Şəkil 67

Daha aydın olmaq üçün *aşağıdakılar* sözünün heca üçbucağı silsiləsini nəzərdən keçırək:

Belə bucaqları silsilə halında götürdükdə, həm üçbucaqları, həm onların sait və samit bucaqlarını aşağıdakı tərzdə sıralamaq olar: $\text{hü}_1 + \text{hü}_2 + \text{hü}_3 + \text{hü}_4 + \text{hü}_5 = \text{hüs} = a\,(\text{sib})_1 + ı\,(\text{sib})_2 + a\,(\text{sib})_3 + ı\,(\text{sib})_4 + a\,(\text{sib})_5$

Yuxarıda nəzərdən keçırdiyimız numunədən də göründuyu kımi bəzi heca üçbucağının yaranmasında iştirak edən xətlərdən birısi, yəni ya zəifləşən samit xəttı, ya qüvvətlənən samit xətti həqiqi qiymətə malik olduğu halda, dıgərı həqiqi qiymətə malik olmur və heç bir samitlə təzahür etmır. Məsələn, *aşağı* sözündə üç heca bucağı var, lakin cəmi iki samit var kı, bu da ancaq iki samit xətti təşkıl edə bilər (*şağı*), digər iki xətt isə samit qiymətınə malık xətlər deyildir.




Şəkil 68

Bunlar hecadüzəldən səs ilə hecadüzəltməyən səs arasında əlaqə yaradan, lakin muəyyən səs kimi formasını tədrıcən itirməkdə olan səs axınıdır və adətən, sait səsin getdikcə zəifləşən, bir çox hallarda samıt səsin başlanğıcına qədər davam edən izidir Bu iz isə heca üçbucağının zəifləşən səs xəttıni təşkil edə bilir, lakın heç bir fonem formasında təzahür etmir.

Beləcə də bəzən heca üçbucağı silsiləsində ya başlanğıcda, ya da sonda üçbucaq tamamlanmış olur, adətən, başda güclənən samit xətti (*samb-sib* xətti), sonda isə zəifləşən samit xətti (*sib-samb* xətti) olur; məsələn. *çiçəklik*.




Şəkıl 69

Burada iki natamam heca üçbucağı var, başda *ç* samitinin *i* saitınə qədər güclənmə xətti (*ç↗i* xətti), sonda isə *i* saitindən sonra gələn *k* samitinin zəifləşməsi xətti (*i↘k* xətti) mövcuddur ki, bu xətlərın hər biri ümumi nitq axınından üçbucaq xəttinə (yəni *ç↗i* xətti *samb – sib* xəttınə, *i↘k* xətti isə *sib↓samb* xəttınə) çevrilə bilər; məs.: *Ətraf çiçəklik idi.*




Şəkıl 70

Numunədən də göründüyü kimi, ümumi nitq axınında ayrı-ayrı sözlərin yanaşması ilə əmələ gələn heca üçbucaqları söz tərkibindəki heca üçbucaqları qədər üzvi surətdə bağlanmış olmur.

Əlbəttə, burada da yanaşan hecaların açıq, qapalı, örtülü və ya örtüsüz olmasının, vurğuya, intonasiyaya malik olub-olmamasının böyük təsirı vardır

Heca üçbucağı silsiləsinin söz tərkibində, qitə və ibarə axını tərkibində formalaşmasında və müəyyənləşməsində bütün belə cəhətlərin nəzərə alınması çox vacibdir.

Heca üçbucağı haqqında danışarkən belə bir cəhəti də qeyd etməliyik ki, heca üçbucağı ancaq iki heca yanaşmasında yaranar və ancaq bu zaman əvvəlki hecanın zəifləşən səs xətti ilə sonrakı hecanın güclənən səs xəttinin bir-biri ilə rastlaşma nöqtəsi heca



üçbucağının samit bucağını təşkil edə bilər. Belə üçbucaqların, başlıca olaraq, aşağıdakı növləri vardır:




Şəkil 70a

1. Əgər yanaşan hecaları düzəldən saitlər arasında təkcə bir samit olarsa, bu mütləq güclənən samit halında üçbucağın ikinci yan xəttını, yeni *samb↗sib*$_2$ xəttini təşkıl edır və *sib* həmin samıtlə işarə edilir; məs.: *ata.*

2. Əgər yanaşan hecaları düzəldən saitlər arasında ikı samit olarsa, bu samitlərdən əvvəlincisi zəifləşən samit halında *sib↘samb*-larını birləşdirən eniş xəttini, ikincisi isə güclənən samit halında *samb↗sib*-lərini bırləşdirən yüksəliş xəttini təşkil edər; məs.:




Şəkil 71

3. Əgər yanaşan hecaları düzəldən saitlər arasında uç samıt olarsa, ilk saitdən sonra gələn samitlərdən bırıncisi (*sib↘samb*) eniş xəttini, ikincisi samit bucağını, üçüncüsü, daha doğrusu, güclənən samit isə II sait bucağına doğru yüksəliş xəttini (yeni *samb↗sib* xəttini) təşkil edər; məs.:




Şəkil 72

Belə bir cəhəti də yada salmalıyıq ki, bəzi alınma sözlərdə yanaşı gələn iki heca bir bucaq yaratmır; çünki belə hecaların hecadüzəldən saitləri arasında samit olmur: *sa-at, su-al, du-a, ma-aş, mü-a-vin, mü-əl-lim, ra-di-o* və s.

***§54. Səslərin güc dərəcəsinə görə heca tipləri.*** Hecanın tərkibində olan səslər hecadüzəldən, zəifləşən və güclənən səslər olaraq üç tipə ayrıldığı kimi, hecaları da onların təşkilində iştirak edən səslərin güc dərəcəsinə görə əsas üç tipə bölmək olar:




Şəkil 73

1 Nöqtə (yaxud saf) heca. Biz bunu şərti olaraq saiti bildirən hərfin üstünə qoyulan nöqtə ilə işarə edirik; məs.: *ȧ, u̇, ə̇* və s. Belə hecalar təkcə saitdən ibarət olur: *ȧ-ta, u̇-tü, i̇-ti, ə̇-mi* və s.

2. Mail ox heca. Bu da iki cür olur. Birincisi, örtülü-açıq hecadır ki, bunu şərti olaraq ucu yuxarı istiqamətlənmiş, təqribən 45° sağa maili ox ilə göstəririk; məs.:

İkincisi, örtüsüz qapalı hecadır ki, bunu da şərti olaraq ucu aşağı istiqamətləndirilmiş, təqribən 45° sola maili ox ilə göstəririk; məs.:




Şəkil 74

3 Bucaq heca. Bunlar örtülü-qapalı hecalardır. Belə hecaları şərti olaraq ağzıaşağı açılmış bucaq ilə işarə edirik ki, belə bucaqların yan xətləri oxlardır. Ucu yuxarı, sağa maili ox güclənən səsi göstərir, ucu aşağı, sola maili ox isə zəifləşən səsi göstərir; məs.:






Şəkil 75

Əgər verilən misalları diqqətlə nəzərdən keçirsək, tələffüz edib dinləsək, hətta kimoqrafda da yoxlasaq, aydın olar ki, güclənmə və zəifləşmə dərəcələri hecaların hamısında eyni deyildir. Burada müxtəlif səbəblər dərəcələri müxtəlifləşdirir. Məsələn, güclənən və ya zəifləşən samitin kar, cingiltili, sonor olması, miqdarı güclənmənin və ya zəifləşmənin dərəcəsinə təsir göstərən amillərdir. Elə bu əsasda da təxmini hesablama yolu ilə də maili ox xətlərin bəzisini uzun, bəzisini qısa göstərmək lazım gəlir ki, bu da maili ox – xətlər birləşməsindən əmələ gələn heca üçbucaqların bucaq dərəcələrində öz əksini tapır Bu isə tələffüz, təğənni nöqteyi-nəzərindən həm əməli, həm də nəzəri əhəmiyyəti olan bir məsələdir. Əlbəttə, dərəcələri dəqiq tədqiq və təyin etmək təcrübi fonetikanın qarşısında duran vəzifələrdən biridir.

***§55. Nitq axınının hecalanma meyarı.*** Azərbaycan ədəbi dilində nitq axınının parçalanması, xüsusən hecalara ayrılması müəyyən şərtlərlə bağlı olduğu kimi, bir sıra fonetik hadisələrin də baş verməsinə şərait yaradır və ya səbəb olur. Nitq axınının hecalara bölünməsi prosesində bəzən hecanın tərkibinə səs artırılır, bəzən də hecanın tərkibindən səs azalır. Artma, azalma isə ya yanaşı hecalardan birinin tərkibindəki bir samitin qonşu hecaya keçməsi nəticəsi olur, ya da yanaşı hecalardan heç birində olmadığı halda, kənardan müəyyən səs artırılır; bəzən də hecanın tərkibində olan müəyyən səs tamamilə düşmüş olur. Beləliklə də, sözdən sözə, sözdən şəkilçiyə, şəkilçidən sözə səslər köçür, bəzi sözün, şəkilçinin tərkibindəki səslərin miqdarı gah azalır, gah çoxalır. Bunu da yada salmalıyıq ki, sözlərin hecalanmasında kök və şəkilçilərin hüdudu, bir sıra hallarda, heca hüdudu ilə düz gəlməyərək itdiyi kimi, qitə və ibarələrin hecalara parçalanmasında da sözlərin hüdudu itə bilir.

Bütün bunlara baxmayaraq, nitq axınının hecalanma meyarı nitqin hər cür parçası üçün, əsasən, eynidir və başlıca olaraq aşağıdakılardan ibarətdir:

1. Nitq axınında iki sait yanaşı düşərsə, hər biri bir hecadüzəldən saitdir və belə hecaların hüdudu aşağıdakı şərtlərlə müəyyənləşir.

a) Söz köklərində əvvəlki sait birinci hecanın sonucu – bitmə hüdudu, ıkinci sait isə ıkinci hecanın önucu – başlanma hüdudu olur; məs.: *şa-ir, mü-əl-lif, sa-at* və s Beləliklə, iki heca alınır ki, bunlardan bırıncisi açıq, ıkıncisi isə örtüsüz hecadır.

b) Köklə şəkılçi bırləşməsində ıki sait yanaşı gəldıkdə araya bitişdirıci samıt artırılır və bu artırılan samit ikinci saıtə qoşulduğundan ikincı hecanın önucu olur, əvvəlinci sait ısə bırıncı hecanın sonucu – bitmə hüdudu olur. Məsələn, yönlük hal şəkılçisi *-a, -ə* bitişdirildıkdə *o, bu, su, nə* sözlərınin hecalarının saıtındən sonra artırılmış olan *n* yaxud *y* samitləri şəkilçilərın tərkibınə daxil olaraq *o-na, bu-nu, su-ya, nə-yə* sözlərində olduğu kimi *-na, -yə* şəklındə örtülü hecalar alınır.

2. Nitq axınında ikı sait arasında bir samit varsa, həmin samit ikıncı saitə qoşulmaq şərti ilə belə nıtq axını birincisi açıq, ikincisi örtülü olmaq üzrə iki hecaya bölünür: *a-ta, a-na, (əl+ə) ə-lə, (ay+a) a-ya, (gülal) gül + al* və s.

Mısallardan da göründüyü kımı bu növ heca bölümündə söz, qitə, ibarə eynı mahiyyətlidır və nitq parçalarının hamısında eyni ölçü ilə heca bölünür. Belə hecalanmada da sözün, şəkilçinin fonetık tərkibi sabit qalmır, xüsusən sözün sonundakı samit ayrılıb şəkilçinin tərkibınə qarışır: *əl – ə-lin, ə-lə, diz – di-zi, di-zə* və s.

Beləcə də, yanaşı gələn sözlərin bırincisindən son samit qopub, ikinci sözün saitinə öndən qoşulur; məs.: *gulal – gü-lal, dilaç – di-laç* və s.

Beləlıklə də, sözün və şəkilçinin əslinə müvafiq fonetık tərkibi ilə bırlikdə heca hüdudu da dəyişmiş olur.

3 Nitq axınında ıki saıt arasında iki samit olduqda, bu samitlər bərabər bölüşdürülür; birinci samit əvvəlki saitə, ikıncı samit isə sonrakı saitə qoşularaq, əvvəlıncisi qapalı, sonrakı isə örtülü olmaq üzrə nitq axını iki hecaya bölünür; məs.: *al-ma, qar-ğı, yurdu – yur-du, dincəlmək – din-cəl-mək, orfoqraf – or-foq-raf, proqres – proq-res*[1], *Hindistan – Hin-dis-tan* və s.

---

[1] Bəzi alınma sözlərın tərkıbındə olan yanaşı *qr* samıtlərı orfoqrafiya qaydasına görə hecalar arasında bölüşdürülmür Buna görə də belə sözlərın bir hıssəsini ikinci sətrə keçirərkən, keçirılən hecada *qr* hecanın önucu kimi yazılır *foto-qraf, pro-qram, tele-qram* və s

Belə orfoqrafik qayda şərti mahiyyətlidir və bunun nitq axınında heca bölümünə dəxli yoxdur



4. Nitq axınında ıki sait arasında üç samit olduqda birinci və ikinci samit əvvəlıncı saitə, üçüncü samit isə sonrakı saitə qoşulur və beləlıklə, nıtq axını, birincisi iki samitlə qapalı, ikıncisi isə bır samitlə örtülü iki hecaya bölünür: *gənc-lər, dinc-lik, yurd-da, alt-dan, üst-də, sport-da* və s.

Bunlardan başqa müasir Azərbaycan dilində, xüsusən alınma sözlər hesabına heca bölümünün ümumi meyarına uyğun olmayan xüsusi hallar əmələ gəlmişdir. Bunları hələlık mustəsnalıq hesab etmək olar.

Belə müstəsna hallardan, xüsusən aşağıdakıları qeyd etmək lazımdır:

a) Nitq axınında ıki sait arasında dörd samıt olduqda samitlər hecalar üzrə ıkı cür bölünür.

1. Alınma sözün daxilində yanaşı dörd samitdən ikisi əvvəlinci saitlə, ikısı sonrakı saitlə qovuşur: *abs-trakt, trans-krip-siya* və s

2. Üç yanaşı samitlə bitən alınma sözə samitlə başlanan şəkılçi bitişdırildikdə də üç yanaşı samıt əvvəlki hecanın tərkibındə qalır· *şvarts-dan, izoseyst-lər* və s.

İkinci vəzıyyətdə, misallardan da gördüyü kımı, sözlərin daxılı hecalanması dəyişmır və həm söz hududu, həm də şəkılçi hüdudu sabit qalır.

b) Ümumıyyətlə, nıtq axınında ıkı sait arasında ıkı samit olduqda, bu samitlərdən birı əvvəlinci saitə, digərı ıkıncı saitə qoşulur (3-cü maddə). Lakin bəzi sözlərdə bu cür olmur, xüsusilə belə nıtq axınında iki sait arasındakı samitlərdən bırıncisi kar, ikıncisi sonor olduqda, kar samit sonora yapışmış halda tələffüz olunduğundan, belə samitlər saitlər arasında bərabər bölünə bilmir və kar səs özündən sonra gələn sonorla birlikdə ikinci saitin düzəltdiyi hecaya daxil olur Məsələn, *hidroplan* sözü *hid-rop-lan* şəklındə deyil, *hid-ro-plan* şəklındə, *avtotrans* sözü *av-tot-rans* şəklində deyil, *av-to-trans* şəklində hecalara bölünür.

c) Bəzən nitq axınında ikı sait arasında gələn üç samitdən bırıncisi əvvəlki saitə, ikıncı və üçüncüsü isə sonrakı saitə qoşulmuş halda hecalara bölünür: *sen-tyabr, ak-tyor, kon-kret* və s

Nitq axınında hecalar hüdudunun və heca silsiləsinin quruluşu haqqında təsəvvurun əyaniləşməsi üçün aşağıdakı cümlənin hecalanma sxemini nəzərdən keçirək:

*Bunlar kəndlərimızdəki müvəffəqiyyətlərimizdir.*

Bun-lar+kənd-lə-rı-mız-də-kı+mü-vəf-fə-qiy-yət-lə-rı-miz-dir



Şəkıl 76

Qeyd Bu sxemdə bucağın açıq tərəfi (>) əvvəlinci hecanın sonucunu, bucağın sivri ucu (>) sonrakı hecanın ön ucunu göstərır

⌒ Bu işarə nitq axınında ayrılmış hecaları göstərir.

_^_^_ Bu işarədə nöqtələr nitq axınında saitlər arasında yerləşən samitlərın mıqdarını və onların hecalar arasında paylaşmasını göstərir. Yuxarı qalxmış bucaq ucu hecadüzəldən səsi – saitı göstərır, dalğalı xətt isə (~) hecaları bırləşdırən səs axınını bıldırır.

Nitq axınında belə proseslər, ümumiyyətlə, sözün, şəkilçinin ayrılıqda malık olduğu fonetik tərkibın müəyyən dərəcədə fərqlənməsinə səbəb ola bilir. Bu fərq isə kəmiyyət dəyişməsi və keyfiyyət dəyişməsi olmaq üzrə ıki cür təzahür edir.

1 Kəmiyyət dəyişməsi, əsasən, aşağıdakı yollarla olur:

a) Səsin sözdən şəkilçiyə və ya şəkilçidən sözə, yeni nitq axınında bir hecadan başqa hecaya keçməsi nəticəsində tərəflərdən birinin tərkibində səs azalır, dıgərının tərkibındə isə səs artır: *əl-ı/ə-li, ağız-ı/ağı-zı* və s

b) Nitq axınında heca bölümünün tam formalaşması ilə əlaqədar olaraq köklə şəkılçi arasında və ya şəkilçilər arasına müəyyən səslər artırılır. Beləliklə, hecanın tərkıbində səs artımı olur: *ata-y-a, qardaş-ı-n-ın, dədə-s-i-n-ə* və s.

c) Heca bölümünün formalaşmasında sözün, şəkilçinin tərkibindən bəzı səslər düşür: *oğul – oğ-lu, boyun – boy-nunda, ağız – ağ-zı, burun – bur-nu* və s.

Bunlardan başqa, sözlərin qısa və ya uzun tələffüzü də (ümumiyyətlə, tələffüzdə olsa da) əslində nitq axınında baş verən fonetik kəmiyyət dəyişməsındən başqa bir şey deyildir

2. Keyfiyyət dəyişməsi başlıca olaraq aşağıdakı təzahürlərə malikdır:

a) ahəng qanunu prosesində səslər keyfiyyətcə uyuşur;

b) heca formalaşarkən samitlərin yerdəyişməsi onların keyfiyyətcə dəyişmələrınə səbəb olur, yənı güclənən samıtlərın zəifləşənlər cərgəsinə və ya zəifləşənlərın güclənənlər cərgəsinə keçməsinə də səbəb olur: *a-ğız – ağ-zı (0-I0I – 0I-I0).*



Beləliklə, aydın olur ki, nitq axınının hecalara bölünməsi əsaslarını, heca növlərinin xüsusiyyətlərini dərındən öyrənmək orfoqrafiya, orfoepiya, natiqlik, şeır vəznləri və vokal sənəti əsaslarının da müəyyənləşdırilməsi üçün çox zəruridir.

## AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏKİ FONETİK HADİSƏ VƏ QANUNLAR

***§56. Fonetik hadisələr və qanunlar haqqında.*** Ümumi inkışaf prosesi ilə, dildən istifadə edənlərin anlaşma tələbatı ilə əlaqədar olaraq hər dilın lüğət tərkibində, qrammatik quruluşunda, fonetık sistemində müxtəlif hadisələr baş verır; yeni sözlər yaranır, müstəqil sözlərdən köməkçi sözlər formalaşır, köməkçi sözlərdən şəkılçilər yaranır, şəkilçilərın müxtəlif varıantları törəyir. Belə proseslərdə isə xüsusən sözlərin və şəkilçilərın fonetık tərkıbində müxtəlif tipli dəyişmələr, müxtəlif istiqamətli fonetık hadisələr olur. Ümumıyyətlə, dil vahidlərində müxtəlif şəkıldə təzahür edən belə hadisələrın bır qismi ümumi mahıyyət kəsb edır və qanun halında sabitləşir, bir qismi isə təsadüfi, keçici, məhdud mahiyyətli olur, qanuniləşmir.

Dilin maddi qabığını təşkil edən fonetik sistemdə belə hadisələr daha çox olur. Bu və ya dıgər məqamda sözün, şəkılçinın tərkıbındən müəyyən səs ixtisara salınır (*oğul/oğl-u, de-mə-yir/de-m-ir*), bəzən bir səs başqa bir səslə əvəzlənir (*otaq/otağ-a, get/ged-ir*), bəzən müəyyən səs artırılır (*ata/ata-n-ı, ata-s-ı, ata-y-a*), bəzən sözə bitışən şəkilçidəkı müəyyən səslər sözün son hecasındakı müəyyən səslərlə uyğunlaşır. Beləliklə də, bir morfemin müxtəlif fonetık variantları formalaşır: (*-dı, -di, -du, -dü, -çı, -çi, -çu, -çü, -kın, -gin, -qın, -ğın* və s.)

Dil vahıdlərının fonetik qabığında müxtəlif çalarlıqda təzahür edən hadisələr ümumiləşmış halda fonetik hadisələr adlanır

Fonetik hadisələrın bəzisi tam halda ümumi prosesə çevrılərək qanuniləşir, bəzisi isə ümumiləşmiş halda deyil, məhdud dairədə qanunıləşir. Buna görə də belə qanunıləşən fonetık hadısələr orfoqrafik və orfoepık qanun mahiyyəti kəsb edir və fonetik qanun sayılır

Müasir Azərbaycan dilində, əsasən, aşağıdakı fonetik hadisələr vardır:

1. Uyuşma (assimilyasiya). 2. Səsartımı (proteza) 3. Səsdüşümü (eliziya). 4 Səsfərqləşməsi (dıssımilyasiya) 5 Yerdəyişmə (metateza).

Bu fonetik hadisələrin bəzisi əsasında formalaşan və sabitləşən fonetik qanunlar sistemi ümumiləşmiş halda ahəng qanunu adlanır

*§57. Uyuşma (assimilyasiya).* Söz tərkibində yaxın, yanaşı səslərin biri digərinə təsir etməklə məxrəc və akustik cəhətdən həmcinsləşmələrinə, yaxınlaşmalarına u y u ş m a deyilir.

Bu tərifdən aydın olur ki, uyuşma hadisəsi, hər şeydən əvvəl, səslərin formalaşmasında fəal iştirak edən üzvlərin vəziyyət dəyişməsi ilə, hətta bəzən üzvlərdən birinin digərini əvəz etməsi ilə əlaqədar bir hadisədir. Çünki uyuşma şəraiti nitq axını prosesində yanaşı və ya qonşu səslərin az-çox məxrəclə dəyişməsi nəticəsində yaranmış olur Buna görə də uyuşmanın növlərindən bəhs etmədən, uyuşma prosesində səsləri formalaşdıran danışıq üzvlərinin uyuşma prosesindəki əlamətdar rolunu, müxtəsər halda olsa da, nəzərdən keçirmək lazımdır.

Müasir Azərbaycan ədəbi dilində müxtəlif uyuşma şəraitinin yaranmasında başlıca olaraq aşağıdakı halların təsiredici xüsusi rolu vardır.

1. Nitq axınında səs telləri sonrakı səsin formalaşması üçün tamam fərqli ikinci bir vəziyyətə çevrilməli olduğu halda, çevrilməyib əvvəlki səsin formalaşması üçün düşdüyü vəziyyətində sabit qalır. Bəzən isə sonrakı səsin tələb etdiyi vəziyyətə daha tez, yəni birinci səs üçün müəyyən vəziyyətə düşməli olduğu zaman birdən-birə ikinci səs üçün lazım olan vəziyyətə düşür. Belə halların nəticəsində də müxtəlif növ uyuşma baş verir. Məsələn, səs telləri gərgin vəziyyətdən qeyri-gərgin vəziyyətə və ya əksinə, qeyri-gərgin vəziyyətdən gərgin vəziyyətə keçməmiş qalır. Beləliklə də, əslində kar olmalı səs cingiltiləşdiyi kimi, əslində cingiltili olmalı səs də karlaşır Məhz buna görə də *tapmaq* əvəzinə *tappaq, atdı* əvəzinə *attı* tələffüz edilir. Burada *m* samiti əvvəl gələn kar *p* məxrəcində, *d* samiti isə özündən əvvəlki *t* məxrəcində tələffüz olunmuşdur. Yaxud *bas-qın, az-ğın* sözlərinin köklərindəki sonuncu *s, z* samitlərinin formalaşmasında səs telləri nə vəziyyətdə olmuşsa, bu səslərə yanaşan səslərin formalaşmasında da səs telləri öz vəziyyətini dəyişdirməmişdir. Buna görə də bu sözlərə bitişən eyni şəkilçinin baş samiti *bas* sözünə bitişdirildikdə azacıq karlaşmış *q* ilə, *az* sözünə bitişdirildikdə isə cingiltili *ğ* ilə iki variantda formalaşmışdır.



Bəzən sonrakı səs özündən əvvəlki səsə təsir göstərir, yəni sonrakı səsin formalaşması uçun səs tellərinin gərginləşməsi əvvəlki səsin tələffüzündə başlanır. Beləliklə də, əvvəlki kar səs cingiltiləşir. Ayrılıqda sonu kar *s* ilə tələffüz olunan *Aras, Almas, Solmas* kimi bir sıra sözlərə cingiltili *d* samiti ilə başlanan şəkilçi bitişdirildikdə, *d* səsinin təsiri ilə *s* əvəzinə *z* tələffüz olunur: *Arazdan, Almazdan, Solmazdan* DeməK, burada sonrakı *d* samitinin formalaşması üçün səs tellərinin əvvəlki *s* samitinin tələffüzündə gərginləşməyə başlaması nəticəsində *s* samiti *z* ilə əvəzlənmişdir.

2. Dilin əvvəlki səs üçün almış olduğu vəziyyəti dəyişməyib sonrakı səsi də həmin məxrəcə salması nəticəsində və ya əvvəlki səsin tələffüzü anında sonra gələn səs üçün lazım olan vəziyyətə düşməsi nəticəsində də uyuşma baş verə bilir. Buna görə də söz daxilində yanaşı düşən *nl, rl, zl, ml, tl* səs birləşmələri çox zaman *nn, ll, zd, mn, td* səs birləşmələri halında tələffüz olunur. Məsələn, *anlamaq* əvəzinə *annamaq, çıxarlar* əvəzinə *çıxallar, qızlar* əvəzinə *qızdar, adamlar* əvəzinə *adamnar, biletlər* əvəzinə *biletdər* deyilir.

Eləcə də bəzən sözdə *zs, ts* səs birləşmələri əvəzinə *ss* səs birləşmələri işlənir; məsələn; *yazsa, getsə* əvəzinə *yassa, gessə* deyilir

Danışarkən *anlamaq* əvəzinə *annamaq* tələffüz etmənin səbəbi budur ki, burada əvvəl gələn *n* səsini deyərkən dilin ön hissəsi, xüsusən dil ucu ön üst dişlərin iç səthinə kipləşmişdir Səs axını isə əsasən burundan çıxır, *n* səsindən sonra gəlməli olan *l* səsinin formalaşması üçün isə dil önü damağa doğru qalxıb, ona toxunmaqla qatlanmalıdır və damaq pərdəsi də yuxarı qalxaraq ağız boşluğu yolunu açmalıdır ki, hava axını burundan deyil, ağız boşluğuna gəlib dilin yanlarından süzülərək xaricə çıxmış olsun, sürətli tələffüz zamanı dilin *n* məxrəcindən *l* məxrəcinə keçməsi çətin olduğundan, dil əvvəlki vəziyyətində qalır Beləliklə də *nl* yox, *nn* tələffüz olunur.

Yaxud *çıxarlar* sözünün *çıxallar* kimi tələffüz edilməsinin səbəbi budur ki, *r* səsini əmələ gətirmək üçün ön dişlərin yuvaqlarına doğru aşağı-yuxarı dönüb titrəməli olan dil ucu, birdən-birə yuxarı ön dişlərin yuvaqlarına doğru qatlanır və artıq aşağı dönmür Beləliklə də, *r* əvəzinə *l*, yəni *rl* əvəzinə *ll* tələffüz olunur.

Misallardan göründüyü kimi, bütün belə uyuşmaların əsas səbəbi dilin bir vəziyyətdən başqa bir vəziyyətə tez keçməsi və ya əvvəlki vəziyyətində sabit qalmasıdır.

3. Uyuşma hadisəsində damaq pərdəsi vəziyyətinin dəyişməsinin də müəyyən təsiri vardır. Məsələn, yuxarıda nəzərdən keçirdiyimiz

misallarda (*annamaq, adamnar*) *nl, ml* səs tərkıbləri əvəzınə *nn, mn* tərkıblərının tələffüzü *l* səsının əmələ gəlməsi üçün yuxarı qalxaraq burun boşluğunun yolunu kəsməli olan damaq pərdəsinin əvvəlkı *n, m* səslərindəki vəziyyətini dəyişməməsi ilə, yəni aşağı düşüb ağız boşluğunun yolunu kəsmiş olan damaq pərdəsının eyni halda qalması ilə əlaqədardır.

Bütün bu dəlillər göstərir kı, uyuşma hadisəsındə danışıq üzvlərının vəzıyyətinin çox muhüm rolu vardır.

Azərbaycan ədəbi dilındə uyuşma hadisəsi çox mühum hadisədır və rəngarəng təzahürlərə malikdir. Bütün bu təzahürlərin əsil mahiyyətıni dürüst başa düşmək üçün uyuşma hadisəsinin, xüsusən aşağıdakı cəhətlərını də nəzərə almaq zərurıdir: uyuşmanın davamlılığı, uyuşmanın keyfiyyəti, uyuşmanın istıqaməti.

***§58. Uyuşmanın davamlılığı.*** Törəmə şəraitının davamlılığına görə uyuşma ıkı cur ola bilir: təsadüfi uyuşma; daimi uyuşma.

Təsadüfi uyuşma sözə şəkılçinın bitişdirılməsi və ya hər hansı bir sözün qoşulması – yanaşdırılması prosesındə baş verır. Məsələn, *yaz-sa, get-sə, tap-maq, aç şalı, ad tap, od tək* və s. ifadələrinın *yassa, gessə, tappaq, aşşalı, attap, ottək* kimi tələffüz edılməsınə səbəb, məhz bu və ya digər sözə müəyyən şəkılçının bitışdırılməsi, yaxud müəyyən sözlərin yanaşdırılması ilə təsadüfən qonşulaşan səslərın bır-bırinə təsir etməsidir.

Daimi uyuşma əsasən sadə kökdən ibarət bu və ya digər sözun daxilındə olan daxili qanun mahiyyətli uyuşmadır.

Azərbaycan ədəbi dilindəki sözlərın daxılındə samitlərin belə daımı uyuşmasına rast gəlmədık. Bu isə, fikrımizcə, tamamilə qanunı bır haldır, çünkı Azərbaycan ədəbi dilində qoşa və yanaşı samitlı söz köklərı son dərəcə azdır və ya müstəsna halda mövcuddur.

Azərbaycan ədəbi dilındəki sözlərdə olan saitlər uyuşması və saitlərlə samitlər uyuşması məhz daimi uyuşmanın ən parlaq təzahürüdür və belə uyuşmalar dilın fonetik qanunları halında sabitləşmışdir, hətta belə uyuşma sözlər vasitəsi ilə şəkılçilərə də köçürülür Bu baxımdan sözlərdə və şəkilçilərdə[1] saitlərin *a, ı, o, u* silsiləsi ilə samitlərın *q, x, ğ* silsiləsinin və saitlərin *ə, i, ö, ü, e* silsiləsi ilə samitlərın *k, g* silsiləsinin qarşılıq təşkıl etməsi də, demək olar ki, bu daimı uyuşmanın qanunıləşmiş nümunələridir· *qal-maq, dağ-lıq, qorxu-suzluq, gəl-mək, tək-lik, güzgü-süzlük* və s.

[1] Nəzərə almaq lazımdır kı, şəkılçilərdə *o, ö e* saitləri olmur Buna görə də saitlər silsiləsi əsasən söz kökünə görə müəyyənləşir



***§59. Uyuşmanın keyfiyyəti.*** Uyuşan səslərın keyfiyyətcə tam eynicins olub-olmamasına görə də uyuşma ikı növə ayrılır: tam uyuşma, natamam (yarım) uyuşma.

Tam uyuşmada uyuşma hadisəsınə uğrayan səs, təsirinə düşdüyü səslə tam eyniləşir. Məsələn, *anla-maq* əvəzinə *annamaq, tapmaq* əvəzinə *tappaq* kimi tələffüz olunan sözlərdə müşahidə edilən uyuşma tamdır; çünki burada *n* səsinin təsiri ilə *l* səsi *n* səsinə çevrildiyi kimi, *p* səsinin təsiri ilə də *m* səsi *p* səsinə çevrilmişdir

Natamam uyuşmada uyuşma hadisəsinə uğrayan səs, təsırı altına düşdüyü səslə tam eyniləşməyib ona yaxın məxrəcli başqa bır səslə əvəz edilir. Məsələn, *qızlar, adamlar* əvəzinə *qızdar, adamnar* kimi tələffüz olunan sözlərdə müşahidə olunan uyuşma natamamdır, çünki buradakı birinci sözdə *z* səsinin təsiri nəticəsındə *l* səsi z ilə deyil, *d* ilə; ikinci sözdəkı *m* səsinin təsırı nəticəsində *l* səsi *m* ilə deyıl, *n* ilə əvəzlənmışdır.

Nümunələrdən də aydın olduğu kımı, Azərbaycan danışıq dilındə həm tam uyuşma, həm də natamam uyuşma vardır, lakin belə uyuşmalar xüsusən yazılı ədəbi dildə yoxdur

***§60. Uyuşmanın istiqaməti.*** Əvvəlki səsın təsırı ilə sonrakı səsın, yaxud da sonrakı səsin təsiri ilə əvvəlki səsin uyuşmasından, yənı təsır edən səslə təsirə düşən səsin uyuşmamasından asılı olaraq istıqamətə görə uyuşma iki növə ayrılır: irəli uyuşma, gerı uyuşma

İrəli uyuşmada sözdəkı müəyyən səsin məxrəci özündən əvvəl gələn yanaşı səsin təsiri ilə dəyişərək, əvvəlkı səslə məxrəcə həmcinsləşir: *tapmaq – tappaq, anlamaq – annamaq, qızlar – qızdar* və s.

Bu misallarda əvvəl gələn *p, n, z* səslərinın təsırı ilə sonra gələn *m* səsi *p* səsi ilə, *l* səsi *n* səsi ilə, *l* səsi *d* səsi ilə əvəz olunmuşdur.

Geri uyuşmada sözdəki müəyyən səsın məxrəci sonra gələn yanaşı səsin təsırı ilə dəyişib, sonrakı səsin məxrəci ilə həmcinsləşır *yazsa – yassa, getsə – gessə, rusca – rucca* və s.

Buradakı birinci və ikinci misalda sonra gələn *s* səsi əvvəl gələn *z* və *t* səslərinə, üçüncü misalda isə sonra gələn *c* səsi əvvəl gələn *s* səsinə təsir etmişdir. Beləliklə də, əvvəlki səs özündən sonrakı yanaşı səslə həmcinsləşmişdir.

Müasir Azərbaycan dilinin şivələrındə həm irəli, həm də gerı uyuşma geniş yayılmış bir hadisədir, lakin ədəbi tələffüz normaları çərçivəsində istifadə edilir.

Beləliklə, aydın olur kı, Azərbaycan dilində müxtəlif çalarlıqda təzahür edən uyuşmalar vardır, lakin bunların hamısı bərabər dərəcəli, təsirli uyuşmalar deyildir. Bunların bir qismi təsadüfi, məhdud mahiyyətlidir, bir qismi isə artıq qanuniləşmiş quvvəyə malikdir və şivələrdə ədəbi dilin həm yazılı həm də şifahi qollarında qanun halında tətbiq olunur. Məhz belə uyuşmalar sırasında ahəng qanunu və cingıltıləşmə qanunu adları ilə tanınan uyuşmalar xüsusi yer tutur

***§61. Ahəng qanunu.*** Ümumıyyətlə, iltisaqi dillərdə, xüsusən türk dillərində və o cümlədən Azərbaycan dilində ahəng qanunu adlanan bir qanun vardır kı, bu qanuna görə sözün tərkıbində olan səslər, xüsusən sait səslər, həmahəngləşır. Elə buna görə də son zamanlara qədərkı dılçilık ədəbiyyatında *sinharmonızm* istilahı ilə bu hadisə ancaq "saitlər ahəngı" (rus dilində yazılmış ədəbiyyatda qarmonıya qlasnıx) kımi ızah edilmiş və beləlıklə də, "ahəng qanunu" təkcə sait səslərin həmcinsləşməsi, həmahəngləşməsi kimi birtərəfli anlaşılmışdır.

Əslində isə türk dillərində başlanğıcdan, hətta, söz köklərində səslərin uyuşması – həmcınsləşməsi hadisəsi təkcə saitlərdə deyil, samitlərin də bır çoxunda, eləcə də sait və samitlərin münasibətində müəyyən şəkıldə təzahür etmişdir və bunların ızi ındi də turk dillərində, o cümlədən Azərbaycan dilində qalmaqdadır.

Bütün bunların nümunələrini Orxon-Yenisey kitabələrində, uyğur dilində yazılmış ilk mənbələrdə müşahidə etmək mümkün olduğu kimi, indiki türk dillərinin bir çoxunun orfoqrafiya qaydalarında da görmək mumkündür. Belə bir cəhəti də qeyd etməliyik kı, XI əsrin böyük türkoloq-dilçisi Mahmud Kaşğarı bu hadisəni müşahidə etmiş və ahəng qanununun həm samitlərə, həm də saitlərlə samitlər əlaqəsinə aid olduğunu təsbit edən misallarla yanaşı bu qanun haqqında ağlabatan izahat da vermişdir. Hətta M.Kaşğarı bu qanunla əlaqədar olaraq kəlmələri, şəkilçiləri qaflı və kaflı (yəni tərkibində *q* olanlar və tərkıbində *k* olanlar) deyə iki qrupa bölmüş, məsdər şəkilçisinin *qaflı* kəlmələrdə *-maq* مق, *kaflı* kəlmələrdə isə *-mək* مك olduğunu xüsusi qeyd etmişdir.

Bütun bunları nəzərə aldıqda ahəng qanununu dar mənada, yəni təkcə saitlər ahəngi mənasında deyil, geniş mənada, həm saitlər ahəngi, həm samitlər ahəngi, həm də saitlərlə samitlər ahəngi kimi başlıca üç növdə təzahür edən geniş dairəli bir qanun kimi başa düşmək lazımdır.

Burada belə bir cəhəti də yada salaq ki, Azərbaycan dilinin müxtəlif şivələrində bu və ya digər şəkildə ahəng qanunu pozulmasına



baxmayaraq, ədəbi dildə bu qanun müəyyən dərəcədə yaşayır və öz hökmünü saxlayır Azərbaycan ədəbi dilində ahəng qanunu yalnız söz köklərində deyil, daha çox sözlərə bitışən şəkilçilərdə özünü göstərir

Ahəng qanunu, hər zaman sonra gələn hecadakı səsin, ondan əvvəl gələn hecadakı səslə cinsınə görə uyğunlaşması şəklində təzahür edir. Burada dılarxası səslərindən sonra dilarxası səslərin, dilönü səslərindən sonra dilönü səslərinin, eləcə də karlardan sonra kar, cıngıltililərdən sonra cıngıltılı səslərin sıralanması bu qanunun əsasını təşkil edir. Buna görə də ahəng qanunu əsasən irəli uyuşmanın qanuniləşmiş bir növüdür.

Beləliklə, demək olar kı, ahəng qanunu sözdəkı səslərin həmcınsləşmə, həmahəngləşmə yolu ilə uyuşmasıdır

Müasir Azərbaycan ədəbi dilində ahəng qanununun başlıca üç növü vardır.

1 Saitlər ahəngi (uyuşması)
2 Saitlərlə samitlərin ahəngi (uyuşması)
3. Samitlər ahəngi (uyuşması).

***§62. Saitlər ahəngi (uyuşması).*** Saitlərin təsnifi bəhsindən bizə məlumdur ki, fəal uzvlərin iştirakına görə saitlər, əsasən dilarxası, dilönü qruplarına bölünür və bunların hər biri də dodaqlanmayan, dodaqlanan olmaq üzrə daha ıki növə ayrılır. Həmın təsnifə müvafiq halda saitlər ahəngi də dilə və dodağa görə iki növ olur·

1) D i l  a h ə n g i – dilə görə fərqlənən saitlərin uyuşması.
2) D o d a q  a h ə n g i – dodağa görə fərqlənən saitlərin uyuşması

Dilə görə fərqlənən saitlərin ahəngi də ikı cur olur

1) A r x a  s ı r a  a h ə n g i (qalın saitlər ahəngi)
2) Ö n  s ı r a  a h ə n g i (incə saitlər ahəngi)

Arxa sıra ahənginə görə, əvvəlki hecada dilarxası saitlərindən (*a, ı, o, u*) biri varsa, sonra gələn hecada da həmin cinsdən olan saitlərdən (*a, ı,* [*o*][1]*, u*) biri olmalıdır; məsələn; *qaığa, qalın, qıraq, qırğı,* [*alov*], *qonaq,* [*oxlov*], *odun, uşaq,* [*buzov*], *quru, quzu* və s

Ön sıra ahənginə görə əvvəlki hecada dilönü və ya dilortası saitlərindən (*ə, e, ö, i, ü*) biri olarsa, sonra gələn hecada da həmin saitlərdən (*ə,* [*e*], [*ö*], *i, ü*) biri gəlməlidir; məsələn. *ələk, eşik, özül, inci, uzum, inək, çörək, köndələn, özək,* [*kösöv*], *ürək,* [*bütöv*], *kiliıng* və s

---

[1] Burada müstosna halda ikinci vo ya sonrakı hccalarda golo bilon sos [ ] arasına alınmış vo sonrakı hccalarda belə səsi olan sözlər də müstosna sozlor kimi [ ] arasında verılmişdir

Hər iki halda yuxarıda göstərilən növdən olan sözlərə bitişdirilən şəkilçilərin sait səsləri, şəkilçinin bitişdiyi hecanın sait səsi ilə uyğunlaşır; məsələn·

*Arxa sıra ahəngində. qarğa-lar-ın, qalın-lıq-dan, alov-lu-luq, qıraq-lar-ın-da, qonaq-lıq-da, ox-lov-lar, kolxoz-çu-lar-da-dır* və s.

*Ön sıra ahəngində: çiçək-lik-dən, əmək-dən, də-ri-lər-dən, dilim-lə-mək, çörək-çi-lər, kösöv-süz, kösöv-dən, özül-süz-lük-dən, ürək-li-lik, tütün-çü-lər* və s.

Dodağa görə fərqlənən saitlərin ahəngi də iki cür olur:

1) Dodaqlanmayan saitlərin ahəngi.

2) Dodaqlanan saitlərin ahəngi.

Dodaqlanmayan saitlərin ahənginə görə əvvəlki hecada dodaqlanmayan saitlərdən (*a, ı, ə, e, i*) biri olduqda sonra gələn hecada da, xüsusən sözə bitişdirilən şəkilçilərdə dodaqlanmayan saitlərdən biri (*a, ı, ə,* [*e*], *i*) gəlməlidir; məsələn:

*Arxa sıra ahəngində. qarğa, qalın, qıraq, qırğı, qarğa-lar, qalın-lıq, qıraq-dan, qırğı-lar* və s.

*Ön sıra ahəngində: ələk, dəri, dilim, əmək, çi-çək, ələk-çi, dəri-lər, əmək-də, dilim-lə-mək, çi-çək-lik* və s.

Dodaqlanan saitlərin ahənginə görə əvvəlki hecada dodaqlanan saitlərdən (*o, u, ö, ü*) biri olduqda, sonra gələn hecada da, xüsusən sözə bitişdirilən şəkılçilərdə dodaqlanan saitlərdən ([*o*], *u,* [ö], *ü*) bırı gəlməlidir; məsələn:

*Arxa sıra ahəngində: odun,* [*buzov*], *quru,* [*alov*]*-un, odun-luq,* [*buzov*]*-suz, quru-luq* və s.

*Ön sıra ahəngində:* [*kösöv*], *özül,* [*bütöv*], *külüng,* [*kösöv*]*-ün, özül-süz,* [*bütöv*]*-lük, üzüm-çü-lük* və s.

Müasir Azərbaycan dılındə dodaqlanmayan saitlər üzrə uyuşma, yəni damaq ahəngi daha ümumi və daha sabitdir. Dodaqlanan saitlər üzrə uyuşma – dodaq ahəngi nisbətən məhduddur. Məhz buna görə də tərkıbində dodaqlanmayan saıtlərdən *a, ə* kımi açıq saiti olan şəkılçilər hər cür söz kökünə (mənaya və tələbə görə) bitışdirılə bildiyi halda, tərkıbində *u, ü* olan şəkilçilər ancaq dodaqlanan saitli hecalara bitişdirılə bilər: *bülbül-lər-dən, bülbül-ün, çiçək-lər-dən, qələm-in, ot-lar, ağac-lar* və s.

Burada belə bir cəhətı də qeyd etməliyik ki, müasır Azərbaycan dilındə, xüsusən ədəbi dildə işlənən sözlərin və şəkilçilərın beziləri saitlər ahəngı qanununa tabe olmur kı, bunların da çoxunu başqa



dillərdən alınma söz və şəkilçilər təşkıl edir: *kitab, məktub, müzakirə, proqressiv, aktiv, radio, iqtisadi* və s.

Beləliklə, aydın olur kı, Azərbaycan dilindəki söz və şəkılçilər saitlər ahəngınə görə üç növə ayrılır:

1) Ancaq dil ahənginə tabe olanlar· *adam, qələm, adam-lar, qələm-lər* və s.

2) Dil və dodaq ahənginə tabe olanlar: *anla-dı, din-lə-di, oxu-du, düşün-dü, yaxşı-lıq, incə-lik, doğru-luq, dürüst-luk* və s

3) Saıtlər ahəngınə tabe olmayanlar: *xalam-gıl, əmim-gil, dayım-gıl, inqilab-i, tarix-i, vətən-daş, yol-daş, sir-daş* və s.

Əgər birinci və ıkıncı qrupa daxil olan sözlərın və şəkılçilərın saitlər ahəngını daha dəqiq nəzərdən keçirmış olsaq, belə bir nətıcəyə gələ bilərık ki, saitlər ahəngındə natamam uyuşma daha çox yer tutur. Bu isə sonra gələn hecadakı saitin öz əslındən ancaq müəyyən dərəcədə uzaqlaşa bilməsi ilə, daha doğrusu, öz mənalılıq əslini mühafizə etməyə daha çox meyilli olması ilə əlaqədardır

Məsələn, cəm şəkılçisının saiti hər cür hecaya, yəni saitlərın hamısı ilə duzəlmiş hecaya bitişəndə, həmin saitlərlə ancaq qalınlığa və ya incəlıyə görə uyuşur Beləlıklə, bu şəkilçi *a* və *ə* saiti ilə *-lar, -lər* halında ikı variantda formalaşmış olur. Aydındır kı, bu şəkılçi *a* və *ə* saitı olan hecaya bitişdikdə, uyuşma tam olur. *adam-lar, çiçək-lər.* Başqa saitlərdən hər hansı biri ilə formalaşmış hecalara bitişdıkdə, uyuşma natamam olur: *ot-lar, odun-lar, qız-lar, göl-lər, gül-lər, il-lər, el-lər* və s.

Bundan başqa, bəzi saitlərin ancaq birıncı hecada işlənə bilməsi və şəkilçilərdə olmaması da tam uyuşma əvəzınə natamam uyuşmanın çoxalmasına imkan yaradır. Məsələn, Azərbaycan ədəbi dili tələffüz və orfoqrafiya normasına görə *o, ö, e* saitləri birıncı hecada işlənə bilər, sonrakı hecalarda işlənməz. Tək-tək sözlərdə bu səslərin ikıncı, üçüncü və sonrakı hecalarda olması müstəsnalıq sayılır. Buna görə də *o, e, ö* səsləri ilə formalaşmış hecalardan sonra gələn hecanın saitı başqa növ sait olmalıdır Yəni tərkıbındə *o* saitı olan hecadan sonra ya *a,* ya da *u* saiti gələ bilər. Tərkibində *ö* saıtı olan hecadan sonrakı hecada isə ya *ə,* ya da *ü* saiti gələ bilər, beləcə də tərkıbində *e* saiti olan hecadan sonrakı hecada ya *ə,* ya da *i* saitı gələ bilər.

Buradan bir daha aydın olur kı, Azərbaycan dilındə saitlər ahəngi istıqamətinə görə irəli uyuşmadır, dərəcəsinə görə az qismi tam, çox qismi natamam uyuşmadır. Şəraitınə görə sözlərdə daimi,

şəkilçilərdə təsadüfi uyuşmadır. Nəhayət, dilin və dodaqların vəziyyəti ilə əlaqədar olaraq formalaşan uyuşmadır.

Saitlər ahəngində saitlərin bir-biri ilə necə uyuşduğunu və saitlər ahənginin nə kimi növləri olduğunu aşağıdakı cədvəldə görmək olar

Bu cədvəldəki nümunələri diqqətlə nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan dilində dodaqlanan saitlərdən dodaqlanmayan saitlərə keçmək (yəni *o→a, u→a, ö→ə, ü→ə*) mümkün olduğu halda, dodaqlanmayan saitlərdən dodaqlanan saitlərə keçmək (yəni *a→o, a→u, ə→ö, ə→ü, i→e, i→ü*) mümkün deyildir Müstəsna hallar, əlbəttə, mövcuddur.

Buradan belə bir nəticə də çıxara bilərik ki, Azərbaycan dilində dodaq ahəngi getdikcə zəifləşməkdədir.

**Saitlər ahəngi növlərini göstərən cədvəl**

| Saitlərin növü | Dil ahəngi | Dodaq ahəngi | Damaq ahəngi | Uyuşma dərəcəsi |
|---|---|---|---|---|
| | Həmcins saitlərin bir-birini izləməsi | Dodaqlanan saitlərin bir-birini izləməsi | Dodaqlanmayan saitlərin bir-birini izləməsi | |
| Arxa sıra saitləri (qalın saitlər) | a→a, ı→ı<br>[o→o][1] u→u | [o→o], u→u | a→a, ı→ı | tam |
| | [2] o→u<br>o→a a→ı<br>u→a<br>ı→a [u→o] | o→u<br>[u→o]<br>o→a<br>u→a | a→ı<br>ı→a | natamam |
| Ön sıra saitləri (incə saitlər) | ə→ə [ö→ö]<br>i→i ü→ü | [o→ö]<br>ü→ü | ə→ə<br>i→i | tam |
| | i→ə, e→i<br>ö→ə<br>ü→ə e→i<br>o→ü<br>ə→i [ü→ə] | ö→ü<br>[ü→ə]<br>o→ü<br>ü→ə | ə→i<br>e→i<br>ə→i<br>i→ə | natamam |

[1] Cədvəldə [ ] arasına alınmış saitlər uyuşması ədəbi dildə ümumi hal deyildir Tək-tək söz köklərində belə ahəng nümunəsinə rast gələ bilsək də, şəkilçilərdə belə ahəng olmur

[2] Çərçivəyə alınmış saitlərlə dodaqlanan saitli hecalardan dodaqlanmayan saitli hecalara keçid göstərilir *odun-lar, sön-mək, gül-mək* və s



***§63. Saitlərlə samitlərin ahəngi (uyuşması).*** Müasir Azərbaycan ədəbi dilində saitlərlə samitlərin ahəngi iki növdür:

1) Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi.

2) Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi.

Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi əslində arxa sıra səslərinin uyuşmasından və ön sıra səslərinin uyuşmasından ibarətdir. Bu isə həm saitlərdə, həm də samitlərdə bu növ fonem qoşalığının varlığı ilə əlaqədardır. Belə ki, Azərbaycan dilindəki dil samitlərinin bir qismi də saitlər kimi arxa sıra və ön sıra olmaq üzrə iki qarşılıqlı növə ayrılır və saitlərdə *a//ə, ı//i, o//ö, u//u* müvaziliyi olduğu kimi, belə samitlərdə də *x, ğ, q [k']//k, g, [x']* müvaziliyi vardır. Deməli, *a, ı, o, u* saitləri ilə *ğ, x, q /k'/* samitləri dilarxası – dildibi məxrəcli olmalarına görə arxa sıra səsləri kimi, *ə, i, e, ö, ü* saitləri ilə də *g, k /x'/* samitləri dilortası – dilönü məxrəcli olmalarına görə ön sıra səsləri kimi həmcins səslərdir

Məhz söz daxilində belə səslərin, yəni ön sıra saitləri ilə ön sıra samitlərinin, arxa sıra saitləri ilə arxa sıra samitlərinin bir-birini uyuşma halında izləməsi nəticəsində də saitlərlə samitlərin ahəngi qanunu formalaşır.

Bu qanun Azərbaycan ədəbi dilindəki əsil Azərbaycan sözlərində və şəkilçilərində olan saitlərin hamısı ilə, samitlərin isə ancaq bir qismi ilə, yəni dilarxası – dildibi və dilortası samitləri ilə əlaqədardır Bu qanun, başlıca olaraq, aşağıdakı məqamlarda öz təsirini göstərir:

a) Sözdə əvvəlcə arxa sıra samitlərindən hər hansı biri olduqda, ondan sonra arxa sıra saiti gələ bilər: *qaş, qış, quş, qol, xır-xır, xorultu* və s.

b) Sözdə əvvəlcə ön sıra samitlərindən hər hansı biri olduqda, ondan sonra ön sıra saiti gələ bilər: *kəs, keç, kişi, köç, kül, gəl, get, gir, göz, guc* və s.

c) Sözdə əvvəlcə arxa sıra saitlərindən hər hansı biri olduqda, ondan sonra arxa sıra samiti gələ bilər: *ağ, ox, toqqa* (*tok'qa*), *cığır, yuxu, uğur* və s.

ç) Sözdə əvvəlcə ön sıra saitlərindən hər hansı biri olduqda, ondan sonra ön sıra samiti gələ bilər: *əkin, yekə, iki, tükənməz, əngin, igid, özgə, yüngül, çiçək* (*çiçəx'*), *kəklik* (*kəxlik'*) və s.

Bu qanun sözə bitişən şəkilçilərdə daha ardıcıl və davamlı olur Belə bir cəhəti xüsusi qeyd etməliyik ki, bir sıra alınma sözlərin

sonunda arxa sıra samitləri ön sıra saitləri ilə formalaşan heca tərkibində və ya ön sıra samitləri arxa sıra saitləri əsasında formalaşan heca tərkibində ola bilir. Buna görə də, ümumiyyətlə, sözlərə bitişən şəkilçilərdəki saitlər və arxa sıra, ön sıra samitləri bitişdiyi hecanı formalaşdıran saitlə uyuşur. Əgər həmin sait arxa sıra saitdirsə, şəkilçidə də arxa sıra saiti və arxa sıra samiti olur; məs.: *oxu-maq, açıq-lıq, şikar-lıq, nikah-lıq, sağ-lıq, daş-qın, qız-ğın* və s. Əgər şəkilçinin bitişdiyi hecadakı sait ön sıra saitidirsə (həmin hecada arxa sıra samiti varsa) şəkilçidə də ön sıra saiti və ön sıra samiti olacaqdır: *müttəfiq-lik, çiçək-lik, igid-lik, süz-gün, öt-gün* və s.

**Dilin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngini göstərən cədvəl**

| Səslərin məxrəcə görə qohumluğu | | Misallar | Sait və samitlərin uzlaşma növləri |
|---|---|---|---|
| Arxa sıra saitləri və samitləri | dodaqlanmayan saitlər | *papağa papağı almaq alırıq akademiya axar qırx* | $A\begin{cases}\breve{g}\\ q\ //\ k'\\ x\end{cases}, I\begin{cases}\breve{g}\\ q\\ x\end{cases}$ |
| | dodaqlanan saitlər | *doğru yorğun toqqa (tok'qa) oktyabr kalkulyator toxum yoluxucu* | $O\begin{cases}\breve{g}\\ q/k\\ x\end{cases}, U\begin{cases}\breve{g}\\ q/k\\ x\end{cases}$ |
| Ön sıra saitləri və samitləri | dodaqlanmayan saitlər | *əkmək ikilik əzgin əlcəyi içki, vergi, yekə, biliyi* | $Ə\begin{cases}k\\ g\\ y\end{cases}, I\begin{cases}k\\ g\\ y\end{cases} E\begin{cases}k\\ g\\ y\end{cases}$ |
| | dodaqlanan saitlər | *üçlük, sökük, ülgü, bölgü üyütmək öyunmək* | $Ü\begin{cases}k\\ g\\ y\end{cases}, Ö\begin{cases}k\\ g\\ y\end{cases}$ |



Bu qanun alınma sözlərə və alınma şəkilçilərə aid deyildir. Lakin bəzi alınma sözlərdə *k* hərfi ön sıra saitləri yanında *ke* məxrəcində, arxa sıra saitləri yanında *ka* məxrəcində oxunur. Bu qanundan rus dilində və bir sıra Avropa dillərində istifadə olunur: *kino, kiosk, kolxoz, kommuna* və s.

Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi əsasən bu və ya digər şəraitdə saitlərlə yanaşı düşən kar samitlərin cingiltililəşməsi prosesi ilə əlaqədar fonetik hadisədir. Bu isə, ümumiyyətlə səslərin ünlü və ünsüz növləri ilə bağlıdır. Məlum olduğu üzrə səs tellərinin gərginləşib kipləşməsi və hava axınının təzyiqi ilə aralanıb titrəməsi nəticəsində ünlü səslər, səs tellərinin sakit vəziyyətində aradakı cığırdan keçərkən rəqslənən hava axınından isə ünsüz səslər əmələ gəlir. Saitlər və cingiltili samitlər ünlülük baxımından həmcins səslərdir. Kar samitlər isə ünsüz olmaqla həm saitlərdən, həm də cingiltili samitlərdən fərqlənən səslərdir. Buna görə kar samitlərdən bəzisi, xüsusən ünlü qarşılığı olan ünsüz səslər iki ünlü səs arasına, xüsusən sait səs halında formalaşan unlü səslər arasına düşdükdə mühitlə uyğunlaşır, yeni ünlüləşir, daha doğrusu, cingiltili qarşılığına çevrilir. Başqa cür desək, söz sonundakı şəraitindən asılı olaraq, karlaşmış samitlər müvafiq şəraitə düşərək öz əslini bərpa edir, yeni cingiltiləşir. Məhz buna görə də, dilçilik ədəbiyyatında bu hadisə cingiltiləşmə də adlanır. Əslində burada da səslərin həmcinsləşməsi hadisəsi olduğu üçün, bu hadisəni qanunilәşmiş uyuşma hadisəsinin, yeni ahəng qanununun bir növü kimi tanınan saitlərlə samitlərin ahəngi qanununun xüsusi bir tipi hesab etmək daha doğru olar.

Lakin bu hadisə o qədər də ümumi deyildir, yeni dilimizdə işlənən kar və cingiltili samitlərin hamısına, həm də hər yerdə eyni dərəcədə şamil deyildir. Əgər biz yazılışı yox, ümumiyyətlə, tələffüzü nəzərə almış olsaq, bu hadisənin əsasən çoxhecalı sözlərin, eləcə də bəzi təkhecalı sözlərin ancaq sonundakı küylü samitlərə (kar və cingiltili samitlərə) aid olduğunu söyləyə bilərik. Bu cəhətdən söz kökləri sonunda *k, q, b, c, d, z* hərfləri ilə yazılan səsləri və eləcə də şəkilçilərin sonunda *t, k, q, z, c* hərfləri ilə yazılan səsləri xüsusi olaraq qeyd etmək lazımdır.

Belə düşünmək olar ki, söz sonunda xüsusi tipli elə samitlər var ki, bunlar əsasən tam mənası ilə cingiltililik keyfiyyətinə malik

samitlərdir Lakin heca bölümu qaydasına görə, hecadüzəldən saitdən sonra gəldikdə bu samitlər zəifləşir, hətta sözün sonunda olduqda belə samitlərdə zəifləşmə dərəcəsi bir az da artmış olur. Cıngiltili samitin zəifləşməsi isə onun karlaşmasına səbəb olur; lakin biz belə samitləri, sonra karlaşmasına baxmayaraq, əsasən cingiltili səsləri bildirən hərflərlə də yazırıq, belə yazılmasını da tamamilə duzgün sayırıq. Çunki belə səslər müsaid şəraitə düşdükdə, yenə öz keyfiyyətini bərpa edə bilir, məsələn: *papaq, dörd, ağac, qutab, xoruz* sözlərinin sonundakı *q, d, c, b, z* səsləri karlaşmış halda, yəni *x̣, ḍ, ç, ḅ, z* kimi tələffüz olunur. Lakin söz sonunda karlaşmış bu səslər musaid şəraitdə, yəni özündən sonra (istər ona bitişdirilən şəkilçidə olsun, istərsə də ona yanaşan hər hansı bir sözdə olsun) sait gəldikdə yenə cingiltililəşir; məsələn *dörd-üncü, dörd adam, ağacın, ağac ək, qutab-ı, qutab al, xoruz-um, xoruz al* və s.

Misallardan da aydın olduğu kimi, buradakı *q, d, c, z, b* samitləri heca tərkibində zəifləşən samitlər vəziyyətində olduqda karlaşır (*a-ğac*) Lakin güclənən samit vəziyyətinə duşdükdə cingiltililiyini bərpa etmiş olur (*a-ğa-ca*).

Bir çox sözlərin sonunda *k* hərfi ilə yazılan səs yuxarıda nəzərdən keçirdiyimiz samitlərdən fərqlənir Çünki belə sözlərin sonundakı *k* hərfi həqiqətən *k* səsi keyfiyyətində tələffüz olunmur Söz sonunda, heca sonunda *k* hərfi ilə yazılan səsin tələffüzunü diqqətlə yoxladıqda aydın olur ki, bu səs əslində *y* samitinin kar qarşılığıdır. Əlifbamızda bu səsi bildirən xususi bir hərf olmadığından, bu səsi bildirmək üçün məxrəcə daha çox yaxın *k* səsinin hərfi işarəsindən istifadə olunur Lakın bu səsi dəqiq ifadə etmək üçün *x'* işarəsindən istifadə edirık Deməli, heca və söz sonunda *k* hərfi ilə yazılan səs əslində *k* deyil, *y* səsinin kar qarşılığı olan *x'* səsidır Elə buna görə də həmin karlaşmış *y*-nin əvəzinə yazılan *k* musaid şəraitdə hecanın güclənən samit cərgəsinə keçərək öz cingiltili əslini bərpa edir, yəni *k* hərfi ilə yazılan *x'* səsi *y* səsinə keçir; məsələn: *çiçək – çi-çə-yi, çiçək al – çi-çə-y al*

Eyni əsasda *t* səsi *d* səsinə, *s* səsi *z* səsinə, *p* səsi *b* səsinə, *ç* səsi *c* səsinə, *q* (*x'*) səsi *ğ* səsinə çevrilir; məsələn· *öyrət – öy-rə-dir, ayaq* (*x'*) – *a-ya-ğa, qutab* (*p*) – *qu-ta-bı, almas – al-ma-zı* və s.

Buradan belə bir nəticə çıxarmaq olur ki, Azərbaycan dilində saitlərlə samitlərin ahənginin bir növü olaraq kar samitlərin cingiltiləşməsi halında təzahür edən belə bir qanun da vardır ki, iki və ikidən çox hecalı Azərbaycan sözlərinin sonunda sait səsdən sonra gələrək kar və karlaşmış halda tələffüz olunan samitlər, ona bitişən şəkilçinin və ya ona yanaşan sözun başında sait olduqda, iki sait arasına duşərək saitlərlə həmcinsləşir, yəni saitlər ünlü səslərdən olduğu üçun, bunların arasına düşən kar samitlər də ünlüləşir – cingiltililəşir. Beləliklə də, özundən sonra yanaşı sait səs olmadıqda kar və karlaşmış halda tələffüz olunan hər hansı samit səs yeni şəraitdə, yəni özündən sonra yanaşı sait bir səs gəldikdə, onu araya alan saitlərin təsiri ilə cingiltiləşmiş olur. Bunun nəticəsində də geri uyuşma yolu ilə səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi formalaşır.

Müasir Azərbaycan ədəbi dilində səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi samitlərin hamısını əhatə etmir və ancaq aşağıdakı samitlərlə formalaşır *t→d, (ḍ→d), k (x')→y, (q→ğ), (ḅ→b), (ç→c), (ẓ→z), (g̣→g)*

Burada belə bir cəhəti də qeyd edək ki, bu samitlərdən əsasən üçünün, yəni *t, k* (*x'*), *q* (*k'*) samitlərinin cingiltiləşməsi (*t→d, k→y, q→ğ*) daimi mahiyyətli uyuşma halında, hətta orfoqrafik qanun kimi yazıda sabitləşmişdir Digər samitlərin, yəni *ḅ, ç, ẓ, ḳ, ḍ* samitlərinin cıngiltiləşməsi daha çox bərpa olunma halında təzahür edən uyuşmadır və orfoqrafik qanun halında yazıda sabitləşməmişdirsə də, orfoepik normalar baxımından qanuni sayılır

Aşağıdakı cədvəldə göstərilənlərdən başqa cingiltiləşmə hadisəsi ilə əlaqədar olaraq ədəbi dildə bəzi istisnalar da vardır ki, başlıcası bunlardır:

a) *Qılınc, dinc, kulung, dörd, hərb* kimi sözlərdə karlaşmış *c, g, d, b* səsləri, belə sözlərə saitlə başlanan şəkilçi bitişdirildikdə iki sait arasına düşdüyü uçün deyil, sonor *n, r* və sait səs arasına düşduyu üçün karlaşmış vəziyyətini dəyişib cingiltiləşir: *dincə, külüngü, dördü, hərbi* və s.

b) Orfoqrafiya qaydalarına görə çoxhecalı sözlərin sonunda *s, p, ç* hərfləri yazılmır. Sonu karlaşmış halda *ẓ* (*s*), *ḅ* (*p*), *ç* (*ç*) səsləri kimi tələffüz olunan belə sözlərdə son səs bir qayda olaraq *z, b, c* hərfləri ilə yazılır. Buna görə də tələffüzdə olan belə cingiltililəşmələr yazıda nəzərə çarpmır

**Səs tellərinin vəziyyətinə görə həmcins saitlərlə samitlərin ahəngi cədvəli (cingiltililəşmə cədvəli)**

| Özündən sonra sait olmadıqda | Kar samit | Karlaşmış samit | Özündən sonra sait gətirildikdə | Cingıltıləşir |
|---|---|---|---|---|
| *fəsad, sərhəḍ, söyüḍ* | – | *ḍ (t)* | *fəsadı, sərhədə, söyüdün* | *d* |
| *qutaḅ, kıtaḅ, məktəḅ* | – | *ḅ(p)* | *qutabı, kitabı, məktəbə* | *b* |
| *öyrət, titrəm, get* | *t* | – | *öyrədir, titrədir, gedir* | *d* |
| *ağaç, umaç, qılınc* | – | *ç̣(ç)* | *ağacın, umacın, qılıncın* | *c* |
| *bəkməẓ, almaẓ, xoruẓ* | – | *ẓ(s)* | *bəkməzi, almazı, xoruzu* | *z* |
| *çiçək, ipək, ələk* | *ḳ(x')* | (–) | *çiçəyin, ipəyin, ələyin* | *y* |
| *çiling, külüng, ding* | – | *g̣(k)* | *çilingı, külüngün, dingə* | *g* |
| *otaq, qılıq, uşaq* | – | *q(x)* | *otağa, qılığı, uşağın* | *ğ* |

c) Bu qanun *get, et* sözlərindən başqa heç bir təkhecalı sözün sonunda yazılan kar səslərə şamil deyildir: *as – asır, qaç – qaçır, at – atır, öt – ötüş* və s.

ç) Başqa dillərdən alınaraq dilimizdə işlənilən sözlərin axırındakı *t, k, q* səsləri bu qanuna tabe deyil; məsələn: *kombinat – kombinatın, həşərat – həşərata, əmlak – əmlakın, əxlaq – əxlaqın* və s.

d) Dilimizə çoxdan daxil olmuş bəzi sözlərin sonundakı *k* iki sait arasında *y* səsinə çevrilir və belə də yazılır; məsələn: *mələk – mələyə, çaynik – çayniyin* və s

***§64. Samitlər ahəngi (uyuşması).*** Azərbaycan dilindəki ahəng qanununun bir növü də samitlər ahəngi qanunu adlanır. Bu qanun səs tellərinə görə fərqlənən samitlərin yanaşma məqamında həmcinsləşməsi nəticəsində geri uyuşma halında formalaşır. Belə ki, sonrakı samit özündən əvvəlki yanaşı samit ilə kar və ya cingiltili olmasına görə uyuşur. Belə uyuşma isə əsil Azərbaycan sözlərində qanunauyğunluq halında aşağıdakı variantlarda öz əksini tapmışdır.

1) Kar və cingıltılı qarşılığı olan samitlər söz daxilində ancaq öz həmcinsləri ilə yanaşı ola bilir.

a) kar samitlər kar samitlərlə: *üst, üstə, göstər, tapşır, yaxşı* və s.;



b) cingıltili samitlər cingıltılı samitlərlə: *özgə, güzgü, quzğun* və s

2) Kar qarşılığı olmayan cingiltili samitlər, o cümlədən sonorlar söz daxilində hər cür samit səslə yanaşı ola bilir: *alt, altı, dörd, ört, indi, qırx, torpaq (topraq), aydın, ayrı, ulduz, yetmiş* və s

Bu qanun ümumən türk dillərində, o cümlədən Azərbaycan dilində də ilk dövrlərdə möhkəm, daimi mahiyyətli bir qanun kimi həm söz daxilində, həm sözlərə bitişən şəkilçilərdə geniş dairədə öz təsirini göstərmiş olsa da, sonralar zəifləşmiş və məhdudlaşmışdır Buna görə də müasir Azərbaycan dili şivələrində samitlər ahəngı qanununun ilkin nümunələri bu və ya digər variantlarda qalmışsa da, müasir ədəbi dildə, xüsusən yazıda – orfoqrafiyada son dərəcə məhdudlaşmışdır. Buna görə də samitlər ahəngı qanununa müasir yazılı ədəbi dildə orfoqrafik qanun halında, əsasən, aşağıdakı şəkilçilərin yazılışında riayət olunur:

a) Kar samitlə bitən sözlərə bitişdirildikdə aşağıdakı şəkilçilərin baş samitləri arxa sıra saitli hecalarda *q* ilə, ön sıra saitli hecalarda *k* ilə yazılır; məs.: *q* ilə – *yapış-qan, sat-qın, pus-qu* və s ; *k* ilə – *döyüş-kən, kəs-kin, seç-ki* və s.

b) Cingiltili samitlə (o cümlədən sonor samitlə) bitən sözlərə bitişdirildikdə aşağıdakı şəkilçilərin baş samiti arxa sıra saitli hecalarda *ğ* ilə, ön sıra saitli hecalarda *g* ilə yazılır; məsələn·

*ğ* ilə – *qudur-ğan, qız-ğın, çal-ğı* və s.

*g* ilə – *deyin-gən, əz-gin, sev-gi* və s

Burada belə bir cəhəti yada salmalıyıq ki, bu cür şəkilçilərdə kar samit kimi qeyd olunan *k* samiti bir qədər cingıltılıləşmiş halda tələffüz olunur, *q* isə həmin hərflə işarə olunan cingıltılı samit çalarlığında tələffüz olunur. Bu növ faktları, eləcə də qədim türk dillərində *-dı//-tı, -da//-ta, -ca//-ça* kimi iki variantda işlənilmiş bəzi şəkilçilərin müasir Azərbaycan dilində artıq cingiltili samitli olmaq üzrə ancaq bir variantda işlənilməsini nəzərə aldıqda, belə bir nəticəyə gəlmək olur ki, samitlər ahəngində cingıltılıləşmə artır, karlaşma isə azalır, məhdudlaşır

***§65. Səsartımı (proteza).*** Azərbaycan dilinin əlamətdar xüsusiyyətlərindən biri də budur ki, söz daxilində saitlər, sözün başında və sonunda isə samitlər yanaşı gəlməz[1] Buna görə də qrammatik dəyişmədə və ya alınma sözlərdə belə səs yanaşmaları olduqda yanaşı

[1] Alınma sözlər bu hesaba daxil deyildir, əsil Azərbaycan sözlərindən *alt üst dörd* kimi bir neçə söz isə müstəsnalıq təşkil edir

həmcins səsləri (yanaşı saitləri və ya yanaşı samitləri) bitişdirmək üçün vasitəçi lazım olur və belə məqamlarda müəyyən səsdən vasitəçi halında istifadə edilir, yəni yanaşı gələn səslər arasına müəyyən səs əlavə olunur. Beləliklə də, dilin fonetik sistemində səsartımı adlanan hadisə yaranır.

Səsartımı adlanan bu hadisə müxtəlif məqamda, müxtəlif şəkildə təzahür edir. Hətta, belə hadisələrin bir qismi tədricən ümumiləşir, sabitləşir və qanuniləşir, bir qismi isə məhdud dairədə qalır, təsadüfi mahiyyət daşıyır

Səsartımı hadisəsi məqamına və vasitəsinə görə samitartımı və saitartımı olmaq üzrə əsasən iki cür formalaşır.

***§66. Samitartımı.*** Müxtəlif məqamda yanaşı düşən saitləri bitişdirmək üçün vasitəçi halında saitlər arasına müəyyən samit əlavəsi ilə formalaşan səsartımına samitartımı deyilir.

Samitartımı da məqamına və sabitləşmə dərəcəsinə görə iki cürdür: yazıda sabitləşən, yazıda sabitləşməyən.

Yazıda sabitləşən samitartımı əsasən saitlə bitən sözə saitlə başlanan şəkilçinin bitişdirilməsi üçün orfoqrafik qanun halında istifadə olunan səsartımıdır. Bu qanuna görə sözlə şəkilçini bitişdirmək üçün araya müəyyən samitlər artırılır və belə samitlər ümumiləşmiş halda bitişdirici samitlər adlanır.

Samitartımının bu növü tam qanuniləşmiş olduğuna görə, yəni həm yazıda, həm tələffüzdə bitişdirici samitlərin artırılması vacib bir qayda sayıldığına görə, bu hadisəni samitartımı qanunu da adlandırmaq olar.

Müasir Azərbaycan ədəbi dilində yazıda sabitləşmiş samitartımı qanununun formalaşmasında, əsasən aşağıdakı üç bitişdirici samitdən istifadə olunur.

N· Bitişdirici *n* aşağıdakı məqamlarda işlənir.

1) Saitlə bitən sözlərə təsirlik və yiyəlik hal şəkilçiləri bitişdiriləndə *ata-n-ı, ata-n-ın, güzgü-n-u, güz-gü-n-ün* və s.

2) Üçüncü şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərə hal şəkilçiləri bitişdiriləndə:

*onun qardaşı-n-a,*
*onun qardaşı-n-ı*
*onun qardaşı-n-ın*
*onun qardaşı-n-da*
*onun qardaşı-n-dan*[1]

[1] Yerlik və çıxışlıq hal şəkilçiləri samit səslə başlanan şəkilçilərdir Lakin mənsubiyyət şəkilçisindən sonra bitişdirici *n* ilə sözə bitişərək müstəsnalıq təşkil edir



3) *bu, o* əvəzliklərinə hər cür şəkilçi bitişdirildikdə: *bu-n-a, bu-n-u, bu-n-un, bu-n-da, bu-n-dan, bu-n-lar, bu-n-suz, o-n-a, o-n-u, o-n-un, o-n-da, o-n-dan, o-n-lar, o-n-suz, o-n-un-çun* və s.

S: Bitişdirici *s* saitlə bitən sözlərə üçüncü şəxsin təkini bildirən mənsubiyyət şəkilçisi bitişdirildikdə işlənir: *onun baba-s-ı, evin qapı-s-ı, otağın pəncərə-s-i, sözün doğru-s-u* və s.

Y Bitişdirici *y* saitlə bitən sözə saitlə başlanan şəkilçi bitişdirildikdə, əsasən, aşağıdakı məqamlarda işlənir

1) Saitlə bitən isimlərə yönlük hal şəkilçisi bitişdiriləndə· *ana-y-a, Bakı-y-a, Şəki-y-ə, ordu-y-a, süngü-y-ə* və s.

2) Saitlə bitən fellərə saitlə başlanan şəkilçilər bitişdirildikdə *anla-y-ır, dinlə-y-ər, oxu-y-ur, söylə-y-in, işlə-y-əcək* və s

3) *Su, nə* sözlərinə saitlə bitən isim və əvəzliklərdən fərqli olaraq, saitlə başlanan hal şəkilçiləri bitişdiriləndə: *su-y-u, su-y-un, su-y-a, nə-y-i, nə-y-in, nə-y-ə* və s

Yazıda sabitləşməyən samitartımı əsasən tərkibində müxtəlif yanaşı sait olan sözləri tələffüz edərkən müəyyən bitişdirici samitin yanaşı saitlər arasına artırılması halında formalaşan səsartımı hadisəsidir

Müasir Azərbaycan ədəbi dilində tələffüz norması baxımından qanuni sayılan samitartımı müəyyən sözlərin daxilində yanaşı olan müxtəlif samitlər arasına *y* samitinin artırılması ilə formalaşır: *ailə – ayilə, aid – ayid, şair – şayir, teatr – teyatr, bioloq – biyoloq* və s.

Müasir Azərbaycan ədəbi dilində tərkibində belə yanaşı müxtəlif saitlər olan bir sıra alınma sözlər də var ki, bunların tələffüzündə saitlər arasına heç bir samit artırılmır: *müasir, muavin, mualicə, müəllim, müəyyən* və s.

***§67. Saitartımı.*** Bir sıra alınma sözlərin başındakı, ya da sonundakı samitin əvvəlinə müəyyən bir saitin əlavə edilməsi ilə formalaşan səsartımı ümumiləşmiş halda saitartımı adlanır. Saitartımı ədəbi dildə ümumiləşmiş qanuni bir hal sayılmır və daha çox şivələrdə, canlı danışıqda müxtəlif məqamlarda olur ki, bunlardan aşağıdakılar nisbətən ümumiləşmiş halda işlənir.

1. Söz başında.

a) Yanaşı samitlər kardırsa, sözün başında sadə danışıqda və şivələrdə *i* artırılır: *şkaf – işkaf, stəkan – istəkan* və s.

b) Yanaşı samitdən biri və ya hər ikisi cingiltilidirsə, birinci samitdən sonra ahəng qanunu əsasında sonrakı saitlə uyuşan bir sait artırılır və bu hal orfoepik norma sayılır *qram – qıram, qrup – qurup, qrip – qirip, klub – kulub, xlor – xılor* və s

c) Sözün başında *r* samiti olduqda, sadə danışıqda və şivələrdə sözün əvvəlinə *i* saiti artırılır: *rəhm – irəhm, rahat – irahat, razı – irazı, Rza – İrza, Rəsul – İrəsul* və s.

2. Söz sonunda:

Yanaşı samitlə bitən sözlərin axırıncı samiti *r* olduqda, tələffüz prosesində *r*-dən əvvəl qısa həmahəng bir sait artırılır: *cəbr – cəbir, dövr – dövur, sədr – sədir, teatr – tyatır* və s.

Qeyd Əslən belə yanaşı samitlə bitən bir sıra təkhecalı alınma sözlər müəyyən sait artırılması nəticəsində ikihecalı sözə çevrilmiş və belə də yazılır *fikir, qədir, sətir, şəkil* və s

Beləliklə, aydın olur ki, səsartımı hadisəsi əslində Azərbaycan dilinin təbiətinə uyğunlaşma tələbatı ilə üzvi surətdə əlaqədar fonetik bir hadisədir və məhz buna görə də, bu hadisənin bir qismi qanuniləşmiş, hətta yazıda sabitləşmişdir.

***§68. Səsdüşümü (eleziya).*** Bir neçə sözün qovuşması, qoşulması və eləcə də sözə şəkilçilərin bitişdirilməsi nəticəsində əmələ gələn çoxhecalılığı azaltmaq üçün, yəni çoxhecalı sözü azhecalı söz halına salıb tələffüzü asanlaşdırmaq üçün sözün, yaxud şəkilçinin tərkibindən müəyyən hecanın əsasını təşkil edən bu və ya digər sait səs, bəzən saitlə qovuşmuş olan samit səs də ixtisar olunur ki, buna səsdüşümü hadisəsi deyilir.

Müasir Azərbaycan ədəbi dilində səsdüşümü əsasən sait səsin ixtisara düşməsi nəticəsində formalaşdığına görə, bu hadisəni konkret halda saitdüşümü də adlandırmaq olar. Saitdüşümü hadisəsi də dildə sabitləşmə və işlənilmə dərəcəsinə görə iki cürdür: a) yazıda sabitləşən, b) yazıda sabitləşməyən.

Yazıda sabitləşən saitdüşümü iki məqamda, yəni həm sözlərdə, həm də şəkilçilərdə ola bilir ki, bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. İkinci hecası cingiltili samit – sait-cingiltili samit birləşməsindən formalaşmış bir qrup Azərbaycan sözlərinə saitlə başlanan müəyyən şəkilçilər bitişdirildikdə ikinci hecanı formalaşdıran sait ixtisara düşür, yazılmır və tələffüz olunmur; məsələn: *oğul – onun oğ-lu, alın – onun al-nında, ağız – sənin ağ-zın, könül – mənim kön-lümdə, boyun – boy-nu, burun – bur-nundan* və s.

2. Saitartımı əsasında ikihecalı söz halında formalaşmış bir sıra alınma sözlərə saitlə başlanan şəkilçi bitişdirildikdə sözün ikinci hecasını təşkil edən (daha doğrusu, artırılan) sait ixtisara düşür: *şəkil – şək-lim, fikir – fik-rin, isim – is-mə, ömür – öm-rümüz* və s.



3. Məkan-istiqamət anlayışı ifadə etmək üçün düzəldilmiş *ora, bura, hara* sözlərinə yerlik və çıxışlıq hal şəkilçiləri bitişdirildikdə sondakı *a* saitini ixtisar etmək olur: *ora – ora-da, or-da, ora-dan, or-dan, bura – bura-da, bur-da, bura-dan, bur-dan, hara – hara-da, har-da, hara-dan, har-dan* və s.

4. Saitlə bitən sözlə saitlə başlanan söz birləşməsindən düzəldilən mürəkkəb sözlərdə birinci tərəfin sonundakı sait əksərən ixtisara düşür, tələffüz olunmur və yazılmır: *Əli-Əkbər – Ələkbər, Əli-Əşrəf – Ələşrəf, Əli-Abbas – Əlabbas, xala-oğlu – xaloğlu*[1] və s

5. İnkar şəkilçisi qəbul etmiş sözlərə indiki və müzare zaman şəkilçiləri bitişdirildikdə inkar şəkilçisinin saiti (*a, ə*) ixtisara düşür, məsələn: *yaz – yaz-ır, yazma – yaz-m-ır, gör – gör-ər-əm, gör-mə – gör-m-ür-əm* və s.

6. Sıra sayı düzəldən *-ıncı, -inci*.. şəkilçiləri saitlə bitən miqdar sayı kökünə bitişdirildikdə şəkilçinin başındakı sait ixtisara düşür; məsələn *bir-inci, iki-nci, qırx-ıncı, altı-ncı* və s.

7 İkinci cəm şəxs sonluğunun, yəni *-sınız, -siniz*. şəkilçisinin ortasından bir saitlə birgə *n* samiti də ixtisar olunur və bu şəkilçi daha çox şifahi nitqdə, bəzən də yazıda *-sız, -siz*. variantında da işlənir: *gedirsiniz – gedirsiz, gəlibsiniz – gəlibsiz* və s.

8. Aşağıdakı köməkçi sözlərin əvvəlindəki sait ixtisara düşür. Həmin köməkçi sözlər şəkilçiləşmiş halda müstəqil sözlərə bitişik yazılır və belə də tələffüz olunur: *üçün – çün* (sizinçün), *ilə – lə* (qələmlə, sizinlə .), *isə – sə* (getmişsə), *idi – di.* (getmişdi), *imiş – miş* (bilirmiş), *ikən – kən* (deyərkən, getmişkən).

9. Xəbər şəkilçisinin sonundakı *r* ümumən danışıqda, bəzən də yazıda ixtisar olunur, yəni *-dır, -dir*.. şəkilçisi *-dı, -di* halında işlənir: *getməlidi (r), gedibdi (r)* və s.

10. Eyni samit qoşalığı ilə bitən sözlərin sonuna samitlə başlanan şəkilçi bitişdirildikdə, qoşa samitin biri ixtisara düşür: *sirr – sir-li, fənn – fənlər, xətt – xət-siz* və s

Qeyd *Hiss* sözünün sonuna samitlə başlanan şəkilçi bitişdirildikdə, xüsusən yazıda qoşa *ss* saxlanılır, çünki bir *s* ixtisar edilsə, məna dəyişir. *hiss, his*

[1] Belə məqamda düşən saitlər bəzən tələffüz olunmur, lakin yazıda saxlanılır *ələçıq* (eliaçıq), *üzəğ* (üzüağ), *istot* (istiot) və s

11 Bəzən söz sonundan, şəkilçidəki səslə eyniyyət təşkil edən bir samit, tələffüzü ağırlaşdırmamaq üçün ixtisara duşur; məsələn. *kiçikcik* əvəzinə *kiçicik* işlənir. Lakin belə hadisə samitlərin düşümü üçün xarakter və ümumi hadisə deyildir.

Ümumiyyətlə, səsdüşümü hadisəsinə canlı danışıqda, xüsusən şivələrdə daha çox yol verilir və belə hallar əksərən alınma sözlərin və mürəkkəb sözlərin tələffüzündə olur.

***§69. Səs fərqləşməsi (dissimilyasiya).*** Bir çox dillərdə olduğu kimi, Azərbaycan dilində də belə bir fonetik hadisə vardır ki, sözün tərkibində olan həmcins səslər nitq axınında ayrı cinsləşir; məsələn: *qararmaq* əvəzinə *qaralmaq* işlənir, yəni sözün ikinci *-rar* hecasında olan iki *r* səsindən biri (ikinci *r*) başqa məxrəcdə olan bir səsə (*l* səsinə) çevrilmiş və beləliklə də, *r* – *r* kimi tam eynicins səslər *r* – *l* kimi ayrı cins səslər olmuşdur Əlbəttə, bu səslərin hər ikisi (yəni *r, l*) sonor olmaq nöqteyi-nəzərindən həmcinsdir; lakin (*r*) – dilucu, titrək; (*l*) isə dilyanı, novlu sonordur. Buna görə də bunlar bir-birindən məxrəclə fərqli olan ayrıcins sonorlardır. Dilçilikdə belə fonetik hadisə, yəni sözdəki eynicins (həmcins) səslərin ayrıcinsləşməsi hadisəsi səs fərqləşməsi (dissimilyasiya) adlanır.

Səs fərqləşməsi hadisəsi xüsusən canlı danışıqda, şivələrdə baş verən və çox rəngarəng təzahürləri olan bir fonetik hadisədir və belə hadisəyə uğramış sözlərin ancaq çox ümumiləşmiş nümunələri yazılı ədəbi dilə köçürülür.

Müasir Azərbaycan yazılı ədəbi dilində səs fərqləşməsinə uğramış halda artıq qanuni yer alaraq işlənilməkdə olan sözlərə aşağıdakıları misal göstərmək olar·

1 *Qararmaq* yox, *qaralmaq* (və bundan düzələnlər).

2. *Sararmaq* yox, *saralmaq* (və bundan düzələnlər).

3 *Hammal* yox, *hambal* işlənir (bəzi şivələrdə *hanbal* da deyilir).

Səs fərqləşməsi hadisəsi yalnız yanaşı və ya bir hecada olan, həm də tam eyni məxrəcli səslərdə deyil, yanaşı olmayan, sözün müxtəlif hecalarında olan və ümumiyyətlə, həmcins səslərdə də özünü göstərən bir hadisədir Məsələn, *hammal* əvəzinə *hambal* tələffüz etmək, yanaşı tam eyni məxrəcli iki səsdən (*mm*-dən) birinin, həm də sonrakının öz məxrəcini dəyişməsi, yəni burun məxrəcindən ağız məxrəcinə keçməsi nəticəsidir. Lakin *fantan* əvəzinə *fantal*, yaxud *tramvay* əvəzinə *tranvay* demək səs fərqləşməsi nəticəsi olsa da, burada birinci misalda (*n* – *l*) halında fərqləşən (*n* – *n*) səslərinin eynicins



olmalarına baxmayaraq, yerləri müxtəlifdir. Yəni bu səslərdən birincisi birinci hecanın sonunda (*fan*), ikincisi isə ikinci hecanın (*-tan*) sonundadır, həm də birincidən iki səs sonra yerləşmişdir

İkinci misalda isə fərqləşib *n* ilə əvəzlənən *m* səsi fərqləndiyi *v* səsi ilə yanaşıdır, lakin onunla tam həmcins deyildir. Birinci səs (*m*) qoşadodaq, burun samitidir, ikinci səs (*v*) isə qoşadodaq, ağız samitidir, həm də sonor deyildir, lakin fərqləşmə nəticəsində bu səslərdən birincisi (*n*) səsinə çevrilmişdir. Beləliklə də iki yanaşı səsi (*m, v* səslərini) həmcinsləşdirən qoşa dodaqlılıq əlaməti aradan qaldırılmış, birincisi (*n*) dil-diş məxrəcli sonor səs olmuş, ikinci səs (*v*) isə əvvəlki məxrəcində qalmışdır.

Burada diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, əvvəlki misallarda sonra gələn səs öz məxrəcini dəyişdiyi halda, bu misalda öz məxrəcini əvvəl gələn səs dəyişmişdir.

Deməli, səs fərqləşməsi hadisəsi də həm yanaşı səslərdə, həm uzaq səslərdə, həm tam, həm natamam, həm irəli, həm də geri ola bilər.

Bütün bunlarla bərabər, qeyd etməliyik ki, səs fərqləşməsi hadisəsi şivələrdə nə qədər çoxdursa, yazılı ədəbi dildə bir o qədər azdır.

***§70. Yerdəyişmə (metateza).*** Söz daxilindəki səslərin qarşılıqlı halda öz mövqelərini dəyişməsi hadisəsi, ümumiyyətlə, yerdəyişmə adlanır Azərbaycan dilində yerdəyişmə əsasən söz daxilindəki yanaşı samitlərdən sonrakının əvvələ keçməsi halında formalaşır Məsələn, *məşhur* əvəzinə *məhşur, yanlış* əvəzinə *yalnış* deyilir.

Bu sözləri diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, birinci sözün tərkibindəki yanaşı (*şh*) samitlərindən (*h*) əvvələ keçməklə (*hş*) samitlər yanaşması yarandığı kimi, ikinci sözün tərkibində yanaşı (*nl*) samitlərindən sonrakı (*l*) əvvələ keçməklə də (*ln*) samitlər yanaşması yaranmışdır.

Muasir Azərbaycan dilindəki sözlərin tərkibində olan belə yanaşı səslərin yerdəyişməsi hadisəsinə loru danışıqda, xususən şivələrdə yol verilir və bir sıra sözlər müxtəlif çalarlıqda yerdəyişmə hadisəsinə uyğun tələffüz olunur; məsələn:

*doğra – dorğa* (*ğr – rğ*), *qeyrət – qiryət* (*yr – ry*), *süfrə – sürfə* (*fr – rf*), *igrən – irgən* (*gr – rg*), *pəhriz – pərhiz* (*hr – rh*) və s.

Bu sözləri diqqətlə nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, yerdəyişmə hadisəsi dilin təbiətinə uyğunluq tələbatı ilə əlaqədar ola bilir. Məlum olduğu üzrə, umumən türk dillərində, o cümlədən Azərbaycan dilində *r* samiti söz başında (və eləcə də heca

başında) işlənmir. Yuxarıdakı sözlərin hamısında isə ikinci heca *r* ilə başlanır. Deməli, bu sözlərdə *r* səsinin öz mövqeyini dəyişməsinə Azərbaycan dilinin bu xüsusiyyəti də təsir etmişdir. Məhz buna görə də müasir Azərbaycan ədəbi dilində işlənilən aşağıdakı sözlər son zamanlarda yerdəyişmə əsasında öz əslindən fərqlənərək yazıda və tələffüzdə sabitləşmişdir: *kirpik* (kiprik), *körpu* (köprü), *torpaq* (topraq), *yarpaq* (yapraq) və s.

## NİTQ PARÇALARININ MƏNALI SƏSLƏNMƏ (FONO-SEMANTİK) ƏLAMƏTLƏRİ

***§71. Mənalı səslənmə.*** Biz danışarkən nitqimizi ifadə etdiyimiz məzmunla bağlı olan hissələrə bölürük və bu bölümlər fonetik qabığına görə də nitq axınının nisbi mənada bütövləşmiş parçalarını təşkil edir. Biz belə hissələrin və ya nitq parçalarının arasında müəyyən dərəcədə fasilə edirik və beləliklə də, bunların bitkinləşməsini təmin etmiş oluruq. Əlbəttə, hər fasilə bitkinləşməni təmin edə bilməz, burada fasilə ilə ayrılan nitq parçasının məzmunca da, fonetik boyasına görə də az-çox bitkinliyi tələb olunan əsas şərtlərdəndir.

Hər bir ibarənin (ibarəyə bərabər cümlənin) məzmunu və onunla üzvi surətdə bağlı olan fonetik boyaları fasilənin xarakterini müəyyənləşdirib onunla da bitkinləşdiyi kimi, hər bir qitə (qitəyə bərabər cümlə, ifadə və söz) də məzmunla, fonetik boyalarla fərqlənir və bunların əsasında xarakteri müəyyənləşmiş olan fasilə ilə də bitkinləşib tam halda formalaşır.

Əlbəttə, nitq axınının daha kiçik parçaları olan heca və səslər üçün də bu əlamətlərin vəhdəti məna, fonetik boya və bunlara görə xarakteri müəyyənləşən fasilə vacibdir Lakin bunu da unutmaq olmaz ki, nitq axınının kiçik parçaları olan hecaların və səslərin mənalılığı, fonetik rəngi söz, ifadə və cümlə tərkibində təzahür edə bilər və bu muhitdə də nisbi fasilə ilə ayrılaraq bitkinləşə bilər.

Belə görünür ki, bitkinliyi formalaşdıran fasilə ilə ayrılan hər bir nitq parçasındakı mənaya görə xususi fonetik boya olur və bunlar da öz növbəsində fasilənin kəmiyyətini müəyyənləşdirir.

Fonetik boya dedikdə, əsasən, bu və ya digər nitq parçasında olan bir ifadənin, bir sözün, bir hecanın, bir səsin digərlərindən fərqli tələffüz çalarlığı nəzərdə tutulur. Deməli, məzmun tələbindən asılı olaraq bir ifadənin, bir sözün, bir hecanın, bir səsin digərlərinə



nisbətən güclü ya zəif, uzadılaraq ya qısaldılaraq, alçaqdan ya ucadan, kəsik-kəsik, qırıq-qırıq ya calaşıq, aramla ya tez-tez, bağırtı ilə ya pıçıltı ilə və s kimi müxtəlif notda, müxtəlif tonda tələffüzü nitq parçasının məhz fonetik boyasını təşkil edir Buradan isə belə bir nəticəyə gəlmək olur ki, fonetik boya nitq parçası daxilində səsin mənaya uyğun surətdə necə qurulmuş olduğunu göstərən əlamətdır.

Beləliklə, aydınlaşır ki, nitq axını parçalarının məzmunla uzlaşaraq formalaşması əlamətləri əsasən nitqin fonetik qabığı ilə üzvi surətdə bağlıdır.

Nitq parçalarının məzmunu ilə – mənası ilə uzvi surətdə bağlı olaraq nitq axınının səs qabığında təzahür edən belə fonetik boyalar isə nitq parçalarının mənalı səslənmə (fonosemantik) əlamətləri adlanır.

Nitq parçalarının mənalı səslənmə əlamətləri əsasən iki şəkildə təzahür edir: səs qurğusu, səs durğusu.

Səs qurğusu nitq axınının hər bir parçasında mənadan asılı olaraq, səslənmənin necə, hansı çalarlıqda qurulması deməkdir ki, bunun da iki əsas növü vardır: 1) Vurğu 2) Avazlanma (intonasiya).

## VURĞU

***§72. Vurğu haqqında.*** Danışıq prosesində nitq axını parçaları müxtəlif fonetik çalarlıqda tələffüz olunur və buna görə də nitq axını dalğalı axına bənzəyir. Ümumiyyətlə, bir hecanın tərkibində o qədər də güclü və aydın tələffüz olunmayan, hecadüzəltməyən səslərə nisbətən, hecadüzəldən bir səs aydın və güclü tələffüz olunaraq fərqləndiyi kimi, çoxhecalı ayrı-ayrı sözlərdə bir heca, cümlədə isə bir söz digərlərindən uca və ya güclu bir tərzdə tələffüz olunması ilə də fərqlənir Digər hecalar və ya sözlər isə ucadan və güclü tələffüz olunan heca və yaxud söz ətrafına toplanır; məsələn:

Hecalarda: *gəl-mə, söy-lə-mə, a-ğac-lar* və s.

Sözlərdə: *Bu kitabı* kim *yazdı?* Mən *yazdım* *Bu gun* məktəbə *getdim*, kitab *oxudum*, yazı *yazdım*

Sözlərdəki hecalardan və cümlələrdəki sözlərdən birinin daha güclü və daha ucadan tələffüz edilməsinə vurğu deyilir

Nitq axınındakı müxtəlif fonetik boyaların məqamından, istiqamətindən, məqsəd və şəraitindən asılı olaraq vurğunun müxtəlif növləri yaranır ki, bunlardan xüsusən aşağıdakı növləri ədəbi dildə daha geniş dairədə işlənir. heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu

*§73. Heca vurğusu.* Tonun artması və ya gücünün çoxalması ilə sözdə heca duzəldən hissənin fonetik boyasındakı dəyişiklik h e c a v u r ğ u s u adlanır Heca vurğusu ilə tələffüz olunan hecaya isə vurğulu heca deyilir.

Heca vurğusu əsasən sözün də ölçüsüdür, çünki hər bir sözdə ancaq bir əsas heca vurğusu olur. Buna görə də nitq axınında neçə əsas heca vurğusu varsa, o qədər də əsas nitq hissəsi halında işlənilən söz vardır demək olar[1].

Vurğulu hecanı müxtəlif çalarlıqda tələffüz etmək olur. Elə buna görə də heca vurğusu müxtəlif təzahürlərə malikdir.

Bəzən bir hecanı təşkil edən sait digər hecaları təşkil edən saitlərdən daha guclü və daha gərgin məxrəcdə tələffüz edildiyinə görə həmin sait ilə formalaşan heca da bütövlükdə güclü tələffüz olunur ki, belə vurğu g ü c l ü v u r ğ u (dinamik vurğu) adlanır.

Bəzən isə avazın – tonun yuxarı dərəcəyə qaldırılması nəticəsində bir heca digərinə nisbətən yüksək avazla tələffüz olunur ki, belə vurğu a v a z l ı v u r ğ u (tonik vurğu) adlanır.

Azərbaycan dilində ən çox güclü vurğu işlənır. Lakın bəzi hallarda, xüsusən hiss-həyəcan ifadəsi üçün avazlı vurğudan da istifadə olunur.

Ümumiyyətlə, vurğulu hecanın yerinə və mənalılıq xüsusiyyətinə görə dunya dillərinin əksəriyyətində heca vurğularının iki əsas növdə olduğu muəyyənləşdirilmişdir: sərbəst vurğu, sabit vurğu.

*§74. Sərbəst vurğu.* S ə r b ə s t v u r ğ u dildə olan çoxhecalı sözlərin tərkibində müxtəlif mövqedəki bu və ya digər heca üzərinə düşən vurğuya deyilir Bu baxımdan rus dili nümunəvi bir dil sayılır[2]

"Rus dilində vurğu müxtəlif mənalı, yaxud sərbəstdir, yəni vurğunun yeri sabitləşdirilməmiş, sözün müəyyən bir hecasına (baş və ya son hecasına), yaxud sözün müəyyən hissəsinə (əsasa və ya şəkilçiyə) təhkim olunmamışdır; o sözün hər hansı bir hecasına və ya müxtəlif morfoloji hissəsi üzərinə düşə bilər. Bunu aşağıdakı misallarda müşahidə etmək olar·

*Стóлик, дéвочка, вы́вел, морóженное, берёза, спалá, делáми, беловáтый, молокó...*"[3]

[1] Dilçilik ədəbiyyatında *heca vurğusu* əvəzinə *söz vurğusu* termininin işlənilməsi də məhz heca vurğusunun söz ölçüsü olması ilə əlaqədardır

[2] М И Матусевич Введение в общую фонетику Л , 1948, стр 72

[3] Р И Аванесов. Фонетика современного русского языка. М., 1958, стр 69



Rus dilində vurğunun müxtəlif məkanlı olması mühüm fono-semantik və morfoloji vasitədir. Buna görə də vurğu sözlərin sövti qabığına görə, mənaca, formaca fərqləndirməyə xidmət edir: *зáмок – замóк, мýка – мукá, хлóпок – хлопóк, пáры – пары́, плáчу – плачý, мóю – моó* və s

Bir neçə söz, xüsusən alınma sözlər, müstəsna olmaq şərti ilə, demək olar ki, Azərbaycan dilində belə sərbəst vurğu yoxdur

*§75. Sabit vurğu.* Dildəki sözlərin tərkibində müəyyən mövqedə olan hecalara daimi təhkim edilmiş vurğuya s a b i t v u r ğ u deyilir. Belə vurğu dunya dillərinin çoxunda vardır. Bəzisində vurğu sözlərin baş hecasında olur (fin, eston, latış dillərində), bəzisində vurğu sözlərin sonuncu hecasından əvvəlki yanaşı hecada olur (gürcü, polyak dilində), bəzisində isə vurğu sözlərin son hecasında olur (fransız dilində, türk dilləri ailəsinə mənsub dillərdə).

Türk dilləri ailəsindən olan Azərbaycan dilində də heca vurğusu sabitdir, çünkı heca vurğusunun əsas mövqeyi, yəni təhkim olunduğu məqam sözün sonuncu hecasıdır. Bunu aşağıdakı misallarda müşahidə etmək olar: *atá, oğúl, yaşayíş, tələbə́, kolxozçulár, tələbələrín* və s

Azərbaycan dilindəki sabit vurğu sözün tərkibindəki hecaların məkanına, yəni sonuncu heca məkanına təhkim olunan vurğudur və buna görə də keçici sabit vurğudur. Bu isə Azərbaycan dilinin təbiəti ilə, quruluş sistemi ilə əlaqədar bır xususiyyətdir. Məlum olduğu üzrə, Azərbaycan dili iltisaqi quruluşlu dillərdəndir, buna görə də sözlərin morfoloji dəyişməsində şəkılçilər sözlərin sonuna bitişdirılir, beləliklə də, sözlərin sonunda hecalar artmış olur. Belə dəyişmənin nəticəsində sözün kökündəki sonuncu heca öz mövqeyini dəyişir, sözün orta hecası olur Belə halda vurğu da öz mövqeyini dəyişir, sözün sonundakı hecaya keçir. Buna görə də Azərbaycan dilindəki heca vurğusu son hecaya təhkim olunması baxımından sabit, sözün şəkilçiləşmə yolu ilə dəyişməsi nəticəsində öz əvvəlki mövqeyindən sonrakı hecaya keçməsi baxımından keçici vurğu sayılır

Heca vurğusunun keçiciliyini aşağıdakı numunələrdə yoxlayaq· *atá – atalár – atalarín, salám – salamláş – salamlaşmáq* və s

Misallardan göründüyü kimi, ikihecalı *ata* sözünun sonuncu (*ta*) hecasındakı vurğu *atalar* sözundə həmin sözə bitışdirılmiş *-lar* şəkilçisi ilə formalaşan hecaya keçmiş, *ataların* sözündə isə heca vurğusu bu sözun sonunda formalaşan *-rın* hecasına keçmişdir Eyni qaydada *salam* sözünün son *-lam* hecasında olan vurğu *salamlaş* sözunun

sonundakı *-laş* hecasına, *salamlaşmaq* sözündə isə sondakı *-maq* hecasına keçmişdir

Burada belə bir cəhəti də nəzərə almaq lazımdır ki, Azərbaycan dilində bir sıra şəkilçilər də vardır ki, vurğu qəbul etməyən belə şəkilçilər sözə bitişdirildikdə sözün heca vurğusu öz yerində sabit qalır, şəkilçi ilə formalaşan sonrakı hecaya keçmir: *atá – atádır – atásan, qələ́m – qələ́mlə, söylə́ – söylə́mə* və s.

Misallardan göründüyü kimi ikinci hecası vurğulu olan *ata* sözünə *-dır, -san, qələm* sözünə *-lə, söylə* sözünə *-mə* şəkilçisi bitişdirilmişsə də, vurğu öz əvvəlki yerindən oynamamış, bitişdirilmiş şəkilçilərdən heç birinin üzərinə keçməmiş və əvvəlki yerində sözə bağlanıb qalmışdır Belə hallarda vurğunun əvvəlki yerində qalmasına səbəb şəkilçi olsa da, yeni şəkilçinin vurğu qəbul etməməsi olsa da, vurğu yerini dəyişmir və ya dəyişə bilmir, öz yerində bağlanmış kimi qalır. Buna görə də belə sözlərdəki vurğu bağlı və sabit olur

Buradan aydın olur ki, Azərbaycan dilində heca vurğusunun əlamətləri təkcə söz kökü və söz əsası ilə deyil, həm də onlara bitişdirilən şəkilçilərin də vurğu xüsusiyyəti ilə bağlıdır. Buna görə də Azərbaycan dilindəki heca vurğusunun xüsusiyyətlərini dürüst təyin etmək üçün, həm şəkilçilərin, həm də sözlərin vurğuya görə nə kimi əsas xüsusiyyətlərlə qruplaşdığını müəyyənləşdirmək lazımdır

***§76. Şəkilçilərdə vurğu*** Ümumiyyətlə, vurğu sözlərin əlamətidir, şəkilçilər isə vurğusuz olur Lakin sözün tərkib hissəsinə daxil edildikdə bəzi şəkilçilər vurğulu vahidə çevrilir, bəzi şəkilçilərdə isə vurğu baxımından heç bir dəyişiklik olmur

Buradan aydın olur ki, Azərbaycan dilindəki şəkilçilər vurğuya görə iki növdür: vurğu qəbul edən şəkilçilər, vurğu qəbul etməyən şəkilçilər

Azərbaycan dilindəki şəkilçilərin çoxu vurğu qəbul edən şəkilçilərdir Vurğu qəbul edən şəkilçilər sözə bitişdirildikdə, sözdəki vurğu şəkilçinin üzərinə keçir: *söylə́ – söyləyír, oxút – oxutmáq, eşít– eşitsín, çiçə́k – çiçəklík* və s.

Azərbaycan dilində bir sıra şəkilçilər də vardır ki, heç bir vurğu qəbul etmir, sözə bitişdirildikdə sözün vurğusu öz yerində qalır, yeni şəkilçinin üzərinə keçmir. *gə́l – gə́lmə, söylə́ – söylə́mə, oxút – oxútma, qələ́m – qələ́mlə* və s.

Müasir Azərbaycan ədəbi dilindəki vurğu qəbul etməyən şəkilçilər, əsasən, aşağıdakılardır:



1) İnkar şəkilçiləri *-m, -mə, -ma*[1]; məsələn: *síl-mə, oxutdúrma, çalíş-mır* və s.

2) Sual şəkilçiləri *-mı, -mu, -mi, -mü;* məsələn: *alacáq-mı, işləyəcə́k-mi, gördǘn-mu* və s.

3) Birgəlik bildirən *-la, -lə* şəkilçiləri; məsələn: *qardaşím-la, atám-la, gǘl-lə* və s.

4) Zaman şəkilçilərindən sonra bitişdirilən şərt şəkli şəkilçisi *-sa, -sə;* məsələn: *almíş-sa, qalár-sa, biləcə́k-sə, görǘr-sə* və s

5) Seçilmə bildirən zərfləri əmələ gətirən *-ca, -cə* şəkilçisi; məsələn: *məzmún-ca, ağíl-ca, mə́n-cə, síz-cə, fikrím-cə* və s

6) Tərkibində inkar şəkilçisi olan feli bağlama şəkilçiləri:

a) *-madan, -mədən,* məsələn *oxú-madan* (danışmazlar), *bíl-mədən* (söyləmə) və s.;

b) *-mamış, -məmiş;* məsələn: *salamláş-mamış* (keçmə). *Məni gö́r-məmiş* (getməz) və s

7) Feli bağlama düzəldən *-kən* şəkilçisi, məsələn *olár-kən, gedə́r-kən, bilmíş-kən* və s.

8) İndiki, gələcək və müzare zaman şəkilçilərindən sonra gələn *-dı, -di, -du, -dü* şəkilçiləri; məsələn *oxuyár-dı, durúr-du, gələcə́k-di, görǘr-dü* və s.

9) İndiki, gələcək və müzare zaman şəkilçilərindən sonra gələn şəxs sonluqları; məsələn: *gö́rür-əm, alír-san, oxuyúr-uq, oxuyúr-sunuz* və s.

10) İndiki, müzare və gələcək, nəqli və nisbi keçmiş zaman şəkilçilərindən sonra gələn və şəxs sonluğu mənasında işlənən *-lar, -lər* şəkilçiləri; məsələn: *alár-lar, söyləyír-lər, deyəcə́k-lər* və s.

11) Xəbər şəkilçiləri *-dır, -dir, -dur,-dür;* məsələn *almíş-dır, olmúş-dur, biləcə́k-dir, görǘb-dür* və s.

12) Rəvayət şəkilçiləri *-mış, -muş, -miş, -muş,* məsələn: *alár-mış, oxuyúr-muş, bilír-miş, görǘb-müş* və s.

13) Əmr şəklinin II şəxs cəm şəkilçiləri *-ın, -in, -un, -ün, -ınız, -iniz*; məsələn. *ál-ın, qú-run, gə́-lin, gö́-rün, gətír-in, dinlə́-yin, qal-dír-ınız, bil-dír-iniz* və s.

---

[1] İnkar şəkilçisi qəbul etmiş sözə müzare zaman şəkilçisi bitişdirildikdə, müstəsna hal olaraq, vurğu inkar və müzare şəkilçiləri birləşməsindən düzələn hecanın üzərinə keçir Bəzən də ondan sonra bitişdirilən şəkilçi üzərinə keçmir *oxumaz oxumáram söyləmə́zsən, dinləmə́rəm* (müqayisə et *oxúmuram, söylə́mirsən dinlə́mirəm*)

14) Bir nəslə və ya tayfaya, familiyaya mənsubiyyəti bildirən *-gil* şəkılçisi; məsələn· *anám-gil, Əlí-gil, bibím-gil* və s.

15) Adlara (isim, sifət, say, əvəzlik) bitişərək xəbər düzəldən şəkilçilər:

a) I şəxs xəbər şəkılçisi *-əm, -ıq, -ik*; məsələn: *müəllím-əm, pionér-əm, mə́n-əm, belə́-yəm, əlaçí-yıq, sağlám-ıq, birincilər-də́n-ik* və s ;

b) II şəxs xəbər şəkilçisi *-sən, -san, -sinız, -sınız*, məsələn· *zərbəçí-sən, yaxşí-san, sə́n-sən, tə́k-sən, mühəndís-siniz, cavánsınız, síz-sinız, béş-siniz* və s.;

c) III şəxs xəbər şəkılçisi *-dir, -dır, -dirlər...* məsələn: *gözə́l-dir, əbədí-dir, sáf-dır, caván-dırlar, biliklí-dirlər* və s.

16) Familiya düzəldən *-ov, -yev* şəkılçisi; məsələn: *Hüséyn-ov, Məmmə́d-ov, Əlí-yev* və s.

Bəzi şəkilçilərin belə vurğusuzluğu eyni fonetik tərkibdə olan şəkilçilərın eyni sözə və ya müxtəlif mənalı eyni fonetık tərkıbli sözlərə bitışməsi nətıcəsində yaranan eyni fonetik qabıqlı sözlərin (morfoloji omonimləşmiş sözlərin) fərqləndirilməsi üçün əsas vasitə olur. Bu isə sözlərin mənaca fərqlənməsınə Azərbaycan dılindəkı sabit vurğunun xidmət etdiyini göstərən konkret faktlardır.

Aşağıdakı cədvəldə vurğu ilə fərqlənən morfoloji omonımləşmiş sözlərdən və bunları törədən şəkilçilərin ən çox işlək və məhsuldar olanlarından nümunələr göstərilmişdır

**Morfoloji omonimləşmiş sözlərin vurğu vasitəsi ilə fərqləndiyini göstərən cədvəl**

| Fellər | İsım, sifət və s. |
|---|---|
| ***-ma, -mə* inkar şəkilçisi**<br>*ásma, básma, dóğma, bóğma, qázma ə́smə, ə́zmə, é̌şmə, kə́smə, dǘzmə, suzmə, yémə, íçmə, dǘymə, dö́ymə, dondúrma, bağláma, qaraláma* və s | ***-ma, -mə* feli isim şəkilçisi**<br>*asmá, basmá, doğmá, boğmá, qazmá əsmə́, əzmə́, eşmə́, kəsmə́, duzmə́, süzmə́, yemə́, içmə́, düymə́, döymə́, dondurmá, bağlamá, qaralamá* və s |
| ***-la, -lə* fel düzəldici şəkilçi**<br>*bağlá, dağlá, yağlá, başlá, goplá dişlə́, işlə́, bizlə́, güllə́, gözlə́ torpaqlá, çiçəklə́, yarpaqlá* və s. | ***-la, -lə* birgəlik, vasitəlik şəkilçisi**<br>*bágla, dágla, yágla, báşla, gopla díşlə, íşlə, bízlə, güllə, gö́zlə torpáqla, çiçə́klə, yarpáqla* və s |



| | |
|---|---|
| ***-sa, -sə* şəkilçisi**<br>*alsá, atsá, acsá, yağsá, yaysá düzsə́, üzsə́, köçsə́, itsə́, içsə́, düzdürsə́, köçdürsə́, üzdürsə́* və s. | ***-sa, -sə* şəkilçisi**<br>*álsa, átsa, ácsa, yáğsa, yáysa dǘzsə, ǘzsə, kö́çsə, ítsə, íçsə, dǘzdürsə, kö́çdürsə, ǘzdürsə* və s. |
| ***-dır, -dir* feli növ şəkilçisi**<br>*azdír, qazdír, aldír, daşdír güldǘr, düzdǘr, üzdǘr, bezdír qarışdír, vuruşdúr, yarışdír* və s | ***-dır, -dir* xəbər şəkilçisi**<br>*ázdır, qázdır, áldır, dáşdır gǘldür, dǘzdür, ǘzdür, bézdir qarı́şdır, vurúşdur, yarı́şdır* və s. |
| ***-ın, -in, -un, -ün* II ş. c. əmr şəkilçisi**<br>*átın, qázın, yázın, ázın, qırın ǘzün, dǘzün, gǘlün, kö́çün, óvun* və s. | ***-ın, -in, -un, -ün* yiyəlik və mənsubiyyət şəkilçisi**<br>*atín, qazín, yazín, azín, qırín üzǘn, düzǘn, gülǘn, köçǘn, ovún* və s. |

Bunlardan başqa, şəkilçi qəbul edərək bəzi söz köklərinə omoqraf olmuş sözləri bir-birindən fərqləndırmək üçün Azərbaycan dılindəkı vurğudan istıfadə olunur: *álın – alín, gə́lin – gəlín, sə́rin – sərín, yáxın – yaxín, bíçin – biçín, báldır – baldír, álma – almá, qálın – qalín* və s.

***§77. Sözlərdə vurğunun yeri.*** Vurğunun məqamına görə Azərbaycan dılindəki sözlər də ikı qrupa ayrılır: vurğusu son hecaya düşən sözlər, vurğusu son hecaya düşməyən sözlər

V u r ğ u s u  s o n  h e c a y a  d ü ş ə n  s ö z l ə r müasır Azərbaycan ədəbi dılının lüğət tərkibindəki sözlərın təqribən 90%-nı təşkil edir. Belə sözləri, əsasən, aşağıdakı tərzdə qruplaşdırmaq olar:

1) A z ə r b a y c a n  d i l i n i n  ö z  s ö z l ə r i: *babá, nənə́, atá, aná, oğúl, qardáş, bací, ayáq, ürə́k, bilə́k, barmáq, dirsə́k, quláq, ağíz, ağác, dirə́k, budáq, çiçə́k, yarpáq, özə́k, uçúq, torpáq, dərə́, təpə́, buláq, dəníz, cığír, qayá* və s.

2) A l ı n m a  s ö z l ə r. Bunlar da muəyyən xüsusiyyətlərinə görə aşağıdakı qruplara bölünür:

a) Müxtəlif dillərdən müxtəlif yollarla Azərbaycan dilinə keçib çoxdan işlənən və Azərbaycan dilının fonetık normalarına az-çox uyğunlaşmış sözlər: *əmə́l, ləhcə́, şiddə́t, müəllím, mətbə́ə, məktə́b, tələffǘz, şəraít, tələ́bə, saát, lampá, suxarí, çaynı́k, pambíq, bəkmə́z, dəstə́k* və s.

b) Vurğusu son hecada olan alınma sözlər: *havá, bəxtəvə́r, dəryá, çəmə́n, zəmín, asimán, azád, kuçə́, kağíz, vaqón, faytón, aqronóm,*

*aktív, proqressív, monolít, vulkán, avtomát, institút, telefón, partizán* və s.

c) Son zamanlarda alınan bəzi sözlərin vurğudan sonrakı – axırıncı vurğusuz hecası ixtisar edilərək dilimizdə işlənildiyindən, belə sözlərin də vurğusu son hecaya düşür; məsələn: *proqrámma* əvəzinə *proqrám, probléma* əvəzinə *problém, qazéta* əvəzinə *qəzét, aptéka* əvəzinə *apték* və s.

Vurğusu son hecaya düşməyən sözlər müasir Azərbaycan ədəbi dilində nisbətən azdır. Demək olar ki, belə sözlərin hamısı alınmadır və başlıca olaraq aşağıdakı qruplara mənsub sözlərdir:

1) Bəzi coğrafi adlardır: *Avrópa, Ásiya, Amérika, Avstráliya, Áfrika, Rúsiya, Túrkiyə, Norvéç, Holl ándiya, Fránsa, Almániya, Íngiltərə, Lóndon, Práqa* və s

2) Rus və Avropa dillərindən alınma sözlərdir (xüsusən terminlərdir) ki, bunların da çoxu açıq hecalı olur: *poéma, tragédiya, komédiya, avtonómiya, morfológiya, estétika, coğráfiya, láva, délta, dinámo, diktatúra, téxnika* və s.

3) Ərəb və fars dillərindən keçmiş bəzi zərf, bağlayıcı və ədatlardır: *xüsúsən, másələn, həqíqətən, bázi, bázən, bálkə, ámma, hámişə, lákin* və s.

Əsil Azərbaycan sözlərində də müəyyən fonetik şərait, morfoloji məqam, məna təsiri ilə vurğu son hecada yox, əvvəlki hecalarda da ola bilir: *áncaq, yálnız, yénə, dǘnən* və s.

Yuxarıdakı nümunələrdə belə bir cəhət də diqqəti cəlb edir ki, vurğusu son hecaya düşməyən sözlərin bir qismində vurğu birinci hecada (*Ásiya, átom, ámma, téxnik...*), bəzisində isə orta hecalarda (*Almániya, poéma, morfológiya...*) olur.

***§78. Vurğunun dərəcəsi.*** Sözün heca miqdarından və sözə bitişən şəkilçinin həm miqdarından, həm də növündən asılı olaraq sözdəki vurğunun miqdarı, dərəcəsi dəyişir və sözdə bəzən iki və ikidən artıq vurğu ola bilir. Lakin bu vurğulardan ancaq biri sözün varlığı üçün əsas olur, digər vurğu və ya vurğular isə sözün varlığı baxımından ikinci dərəcəli vurğu sayılır. Buradan isə belə nəticə çıxır ki, heca vurğusu qüvvət və güc dərəcəsinə görə əsasən iki növ olur:

1) Baş (yaxud birinci dərəcəli) vurğu.

2) Əlavə (yaxud ikinci dərəcəli) vurğu[1].

[1] Şərti olaraq baş vurğunu hecanın saiti üstünə qoyulan dəqiqə işarəsi (') ilə, əlavə vurğunu isə hecanın saiti üstünə qoyulan saniyə işarəsi (") ilə qeyd edəcəyik



Azərbaycan dilində əlavə vurğu iki-üç hecalı sözlərin əksərən baş hecasında, üçdən artıq hecalı sözlərin isə bəzən baş hecasında, bəzən də sonrakı hecalarında olur.

Əlavə vurğular sözün hər bir hecasında bəzən baş vurğudan qabaq, bəzən də baş vurğudan sonra gələn hecalardan birində ola bilər.

Çoxhecalı sözlərdə ancaq bir baş vurğu olur. Əlavə vurğu isə bir-birindən zəif olmaq şərti ilə, bir neçə (iki, hətta üç) ola bilir. Məsələn, *müəyyə̃nləşdĩrməkdə́dirlə̃r* sözündə bir baş vurğu (*də́* hecasında) və üç əlavə vurğu (*yə̃n, dĩr, lə̃r* hecalarında) vardır.

Ümumən bir neçə vurğusu olan sözlərdə baş vurğu və əlavə vurğular daha çox aşağıdakı xüsusiyyətləri olan hecalar üzərinə düşür:

1) Vurğu qəbul etməyən şəkilçi doğrudan-doğruya sözün kökünə bitişdirilmişsə, həmin şəkilçidən sonra nə qədər şəkilçi bitişdirilmiş olsa da, baş vurğu yenə əvvəlki yerində qalacaqdır *álmãyacaqlã́r, gö̃rməyə̃cəklə̃r, bitĩşməmĩşdir, söyléməyiblə̃r* və s

2) Söz kökünə üçdən artıq vurğu qəbul edən şəkilçi bitişdirilmişsə, baş vurğu, ümumi qaydaya uyğun olaraq, son hecada, əlavə vurğular isə əvvəlki hecalarda yerləşir: *məktə̃blərimíz, ölkələ̃rdəkí, səpələ̃nmĩş, alqĩşladılár* və s.

3) Bəzən sözə vurğu qəbul etməyən iki şəkilçi bitişdirilə bilər, belə halda baş vurğu əvvəlinci vurğu qəbul etməyən şəkilçinin qabağındakı heca üzərinə düşür; məsələn: *işlə́ – işlə́mə, işlə́yin – işlə́məyin, daníş – daníşma, daníşın – daníşmayın, yázın – yázmayın* və s [1]

4) İki və ya üç sözdən düzəlmiş mürəkkəb isimlərdə baş vurğu sonuncu sözdə və əksərən son hecada olur, əvvəlki sözlərin vurğusu isə əlavə vurğuya çevrilir: *uzũndərə́, incə̃sənə́t, rə̃smxə́t, sə̃stu-tán, bã̃lqabáq, ağcã̃qayín, gilə̃meyvá, ĩtburnú, doqqũzdón, əlũzyuyán, günə̃baxán, paltã̃rasán, Qarã̃qoyunlú, Qonã̃qkə́nd, Məmmə̃dəlí, Ãybəníz, Anã̃xaním, Xã̃nməmmə́d* və s.

5) Sifətlə və ya sayla hər hansı bir isim yanaşmasından düzələn söz birləşmələrində baş vurğu birinci sözdə – təyində, əlavə vurğu ikinci sözdə – təyin edilən sözdə olar: *yaxşí adã̃m, gözə́l əsə̃r, yeddí ölkə̃, birincí sinĩf* və s.

6) Əsas mənanı ifadə edən sözlərlə mənaca üzvi surətdə daha çox bağlanmış qoşmalarda baş vurğu yox, zəif əlavə vurğu olur; məsələn.

[1] Ümumiləşdirilmiş halda demək olar ki, əvvəlinci vurğu qəbul etməyən şəkilçi sözün harasında olsa, baş vurğu da həmin şəkilçidən əvvəlki hecanın üzərinə düşər

Üçün – *oxumáq üçǖn, Vətán üçǖn.*
Kimi – *rəhbər kimī, ayá kimī.*
Ötrü – *bizdán ötrǖ, yatmaqdán ötrǖ.*
Görə – *işá görə̄, bildiyimá görə̄.*
Sonra – *işdán sonrā, alandán sonrā.*
Ayrı – *səndán ayrī, bizdán ayrī*
Əvvəl – *səndán əvvə̄l, yeməkdán əvvə̄l.*
İlə – *qəlám ilə̄, duyğú ilə̄*
Başqa – *məndán başqā, dərsdán başqā.*
Özgə – *səndán özgə̄, bizdán özgə̄*
Bəri – *dünəndán bərī, gedəndán bərī.*
Qarşı – *düşməná qarşī, vuruşá qarşī*
Üzrə – *getmák üzrə̄, yollár üzrə̄*
Doğru – *evá doğrǖ, bizá doğrǖ*
Sarı – *kəndá sarī, bızá sarī*
Təfəf – *çayá tərə̄f, güná tərə̄f*
Savayı – *səndán savayī, anamdán savayī.*
Qeyri[1] – *məndán qē̄yri, oxumaqdán qē̄yri*

7) Bəzi alınma sözlərdəki ön şəkilçilər və ön qoşmalar da zəif əlavə vurğuya malik olur; məsələn: *bī̄xəbər, bā̄məzá, pū̄rrəng, nā̄bəlád, ā̄normál, ā̄ntipártiya, ə̄ksinqiláb* və s.

8) Sifətin çoxaltma dərəcəsində *m, p, s, r* ünsürləri ilə düzəldilən ön şəkilçili sifətlərdə baş vurğu şəkilçi üzərinə keçir, sözün sonunda isə əlavə vurğu olur; məsələn: *qápqarā, gómgȫy, bübbutǖn, tártəmīz* və s.

***§79. Məntiqi vurğu.*** Fikri müxtəlif məna çalarlıqlarında ifadə etmək üçün cümlə daxilindəki bu və ya digər sözün xüsusi vurğu ilə tələffüzündən də istifadə oluna bilir. Məsələn, *Mən bu gün məktəbdən evə getdim* – cümləsini götürək Bu cümlənin tərkibindəki hər sözü müəyyən güclü vurğu ilə digər sözlərdən fərqləndirərək, mənaca da bir-birindən fərqlənən cümlələr əldə etmək mümkündür; məsələn:

1 *Bu gün məktəbdən evə mən getdim*[2]
(Yəni başqası deyil, məhz *mən getdim*)

2 *Mən bu gün məktəbdən evə getdim.*
(Yəni başqa yerə deyil, məhz *evə getdim* )
3 *Mən məktəbdən evə bu gün getdim*
(Yəni başqa gün yox, məhz *bu gün* getdim).
4. *Mən bu gün evə məktəbdən getdim*
(Yəni başqa yerdən deyil, məhz *məktəbdən getdim*).
5. *Mən bu gün məktəbdən evə getdim.*
(Yəni mən məktəbdən evə hər halda *getdim*).

Cümlədə xüsusi məna çalarlığını ifadə etmək məqsədi ilə cümlə daxilindəki müəyyən sözü başqalarından tələffüzcə fərqləndirmək üçün sözə əlavə olunan tona m ə n t i q i  v u r ğ u deyilir.

Məntiqi vurğu ilə tələffüz olunan sözə isə v u r ğ u l u  s ö z deyilir. Məntiqi vurğu tamamilə sərbəst vurğudur, cümlənin hər yerində olan söz üzərində vurula bilər. Lakın, ümumiyyətlə, Azərbaycan dilinin təbiətinə uyğun olaraq vurğulu söz də çox vaxt xəbərın yanında, xəbərdən əvvəl yerləşir.

Azərbaycan dilində məntıqi vurğu, başlıca olaraq, aşağıdakı hallarda işlənilir: a) təyin və təriflərdə, b) bəzən ara sözlərdə və məhdudlaşdırmada müqayisə zamanı, c) bir-birini qüvvətləndirən, tamamlayan və ya bir-biri ilə qarşılanan qoşa sözlərdə; məsələn:

*Mən sizə a b - h a v a barəsində deyil, a b s ı z  h a v a barəsində danışacağam* (Ə.Sadıq).

*Onun a ç ı q alnı, a ç ı q qabağı,*
*O q ə m s i z ,  q ü s s ə s i z ,  o  x o ş b ə x t üzü*
*Mənim ilhamıma yaxındır, düzü*
(S.Vurğun)

*Qazma dəstələrinin h a m ı s ı  s ü r ə t l ə  v ə  m ü v ə f f ə q i y y ə t l ə işə başladı* (Y.Şirvan).

*Bu e l qızı, e l gözəli,*
*Ö z qəlbinin y ü z səsilə,*
*Ö z eşqilə, həvəsilə*
*Gah d u r u l u r, gah b u l a n ı r*
(S.Vurğun)

Heca vurğusunda olduğu kimi məntiqi vurğuda da birinci və ikinci dərəcəlilik olur. Məsələn, *Mən qapıdan çıxan kimi səni gördüm* – cümləsinə nəzər salaq.

---

[1] *Qeyri* sözü birləşmənin əvvəlində işlənildikdə, baş vurğu *qeyri* sözünün ilk hecasında olur *qéyri-kafī, qéyri-üzvī, qéyri-adī* və s

[2] Sözün üstündə çəkilən xətt məntiqi vurğu işarəsidir

Bu cümlədəki *çıxan kimi* ifadəsini və *səni* sözünü məntiqi momentdə vurğu ilə tələffüz edərək *görmək* işinin nə zaman, hansı momentdə və ilk dəfə hansı obyektlə əlaqədar olduğunu bildirmək əsas məqsəddir. Lakin burada momenti ifadə etmək birinci dərəcəli vurğu ilə, obyekti ifadə etmək ikinci dərəcəli vurğu ilə tələffüz olunur. Beləcə də yuxarıda nəzərdən keçirdiyimiz – *O qəmsiz, qüssəsiz, o xoşbəxt üzü* – mısrasında üç söz (*qəmsiz, qüssəsiz, xoşbəxt*) məntiqi vurğulu sözlərdir Lakin misranın mənası *xoşbəxt* sözünün əvvəlkilərdən daha güclü, xüsusi tonda tələffüzünü tələb edir ki, beləliklə də, birinci dərəcəli məntiqi vurğu *xoşbəxt* sözünün üzərinə düşür, digər sözlər isə ikinci dərəcəli məntiqi vurğu ilə tələffüz olunur.

***§80. Həyəcanlı vurğu.*** Cümlədəki fikirlə üzvi surətdə əlaqədar olan hiss-həyəcanı bildirmək üçün cümlədə müəyyən sözün və ya ifadənin qeyri-adi tonda tələffüzünə h ə y ə c a n l ı  v u r ğ u deyilir.

Qabaqcadan belə bir cəhəti yada salmalıyıq ki, məntiqi vurğu ilə həyəcanlı vurğu arasındakı oxşarlıq hər ikisinin cümlə daxilindəki müəyyən söz və ya ifadə üzərinə düşməsidir. Lakin bunlar əsaslı surətdə bir-birindən fərqlənir. Belə ki, məntiqi vurğu həmin vurğu ilə tələffüz olunan sözün, ifadənin mənasına dinləyicinin diqqətini cəlb etmək məqsədini daşıyır Həyəcanlı vurğu isə dinləyicini həmin vurğu ilə tələffüz olunan sözün, ifadənin hiss-həyəcanla dolğunlaşmış təsiri altına salmaq məqsədini daşıyır. Məntiqi vurğu ilə danışan şəxsin əvvəlcədən xüsusiləşmiş halda nəzərdə tutduğu məna ifadə olunur, həyəcanlı vurğu ilə isə daha çox danışıq prosesində yaranan duyğular, hiss-həyəcan ifadə olunur.

Bunu da qeyd etmək lazımdır ki, nida cümlələrində həyəcanlı vurğulu ya bir, ya da bir neçə söz mütləq olmalıdır.

Müasir Azərbaycan dilində həyəcanlı vurğu əsasən danışanı həyəcanlandıran mənanın ifadəçisi olan sözdə bir və ya iki səsin gərgin uzadılmış halda tələffüzü ilə formalaşır, belə halda daha çox samit səs, bəzən də samitə yaxın sait səs uzadılır. Beləliklə, samit səs dilimizə keçmiş bəzi *baqqal, qəddar, tibb, xətt, sirr, zidd* kimi ərəb sözlərində olan təşdidli (geminat) samitlərə, saitlər isə uzun-davamlı saitlərə oxşayır. *susssmaq, danışş, axxşam, qəşşəng, yaxşıı, yavaaaş-yavaaş* və s.



## AVAZLANMA (İNTONASİYA)

***§81. Avazlanma (intonasiya) haqqında.*** Danışarkən cümlənin təkcə məzmunu deyil, həm də nə məqsədlə söylənilmiş olması cümlədəki sözlərin necə səslənməsinə təsir edir Yəni səs bəzən ucalır, bəzən əksinə, daha da alçalır, bəzən uzanır, bəzən qısalır, bəzən nitq axını kəsik-kəsik tələffüz olunur, bəzən isə əksinə, calaşıq bir silsilə təşkil edir və beləliklə də, ibarə və ya cümlə boyu səslənmənin müxtəlif çalarlıqlı və müxtəlif kəmiyyətli dalğaları yaranır. Bununla da, nitqin ritmik və melodik cərəyanı formalaşır ki, buna a v a z l a n m a (intonasiya) deyilir.

Ümumiyyətlə, avazlanma çox mürəkkəb və rəngarəng bir hadisədir. Avazlanma ton, yəni səsin alçalması və ucalması, sürət, yəni nitqin sürətlə və ya aramla cərəyanı, səsin gücü, yəni nəfəsvermənin, tələffüzün güclü və ya zəifliyi, səsin durğularla parçalanması, duyğu boyası, yəni qorxu, sevinc və daha başqa belə hissi hallara görə dəyişikliklərə uğraması kimi rəngarəng cəhətlərə malik bir hadisədir Bu hadisə cümlə ilə bağlıdır və əsasən səslənmənin cümlədə hərəkətidir Elə buna görə də bu hadisəyə avazlanma deyilir. Bu hadisəni bəzən fonetistlər cümlə və ya ibarə (fraza) vurğusu da adlandırırlar.

***§82. Avazlanma növləri.*** Hər bir dilin öz təbiətinə müvafiq avazlanma üsulları və təzahür növləri vardır. Azərbaycan ədəbi dilində avazlanmanın çox işlək növləri, əsasən, aşağıdakılardır:

1) Eyni söz, ifadə və ya cümlənin nə məqsədlə söylənilməsi avazın müxtəlifliyi ilə təmin olunur; məsələn·

A r z u  v ə  x a h i ş: *Oxu Siz də gedirsiniz Mən yazım.*

Ə m r  v ə  h ö k m: *Oxu! Siz də gedirsiniz! Mən yazım!*

S u a l,  t ə ə c c ü b: *Oxu? Siz də gedirsiniz? Mən yazım?*

T ə s d i q,  x ə b ə r: *Eva bu saat gedəcək*

S u a l,  ş ü b h ə  *Eva bu saat gedəcək?*

Ş ü b h ə  v ə  k i n a y ə  *Eva bu saat gedəcək?!*

2) Sadalama, qarşılaşdırma xüsusi avazlanmaya malikdir və bu avazlanma həm cümlənin tərkibindəki sözlərin, ifadələrin, həm də mürəkkəb cümləni təşkil edən cümlələrin müxtəlif məna əlaqəsinin fərqləndirici əlaməti ola bilir ki, burada əsasən iki hal nəzərə çarpır

a) Həmcins üzv və cümlələrin sadalanmasında birinci üzvün və ya birinci cümlənin avazı sonrakında da təkrar olunur; məsələn:

Sadalanan sözlər:
*El bilir kı, sən mənimsən.*
*Yurdum, yuvam, məskənimsən.*
(S.Vurğun)

Sadalanan ifadələr:
*Bu şənlik, bu büsat, bu cəlal nədir?*
(S.Vurğun)

*Ay işığı, bulaq başı, göy çəmən,*
*Bir dünyamız, bir sən özün, bir də mən.*
(S.Vurğun)

Sadalanan cümlələr:
*Qar əriyir, sular axır, sel olur. Qardaşım gəlmir, bacım məktub yazmır.*

Əgər biz həmın nümunələrdəki söz, ifadə və cümlələrın hamısını eyni avazla deməyib, müxtəlif avazla desək, səsi getdikcə ucaltsaq və ya alçaltsaq, cümlələrin təsiri və bəzən məramı, məqsədi başqalaşmış olar, yenı ciddi sadalanma deyil, hətta qeyri-ciddi qarşılaşdırma, tutuşdurma təsiri ifadə edılmış olar. Bəzən sadalanan bərabərhüquqlu cumlələrdən birı səbəb, digəri nəticə bildirən cümləyə çevrilır. Beləliklə, cümlələr arasında baş, budaq cümlələrin əlaqəsi üçün zəruri olan tabelilık əlaqəsi ifadə edilmış olar: *Qar əriyir, sular axır, sel olur*

Əgər əvvəlkı vəziyyətdə avazlanma bütün cümlələrdə eyni dərəcədə idısə (*Qar əriyir, sular axır, sel olur*), sonuncu vəziyyətdə avazlanma dərəcəsi təqribən belə olacaqdır:

*Qar əriyir,*
*sular axır,*
*sel olur*

b) Cümlələrın qarşılaşdırılmasında birıncı cümlə uca avazlanma ilə, sonrakı cümlə isə nisbətən alçaq avazlanma ilə tələffüz olunur; məsələn:



*Biz çalışdıq,*
*o çalışmadı.*
*Üçü yığıb gətirər,*
*üçü vurub dağıdar*
*Gah ucalıb,*
*gah endikcə, o*
*pərdə-pərdə.*
*Bu iqlimdən o iqlimə yol açıb keçir* (*S.Vurğun*).

3) Cümlə daxilində xıtablar, nidalar, ara cümlələr, ara sözlər, əlavələr, xüsusiləşmələr cümləni təşkil edən üzvlərdən fərqli avazlanma ilə söylənir. Yenı sürət bir az artırılır və ya bir az azaldılır. Beləliklə də, avazlanmanın adi normal cərəyanı müəyyən dərəcədə öz istiqamətini dəyişmiş olur; məsələn:

– *Ey dost, bir az məni dinlə!*
– *Yaxşı, gedək.*
– *Yox, mən getmirəm.*
– *Sən, əlbəttə, getmək istəməzsən.*
– *Mən, doğrusu, başa düşmürəm, sən dostum indi mənə nə üçün belə deyirsən?* .

Belə bir cəhəti də qeyd etmək lazımdır kı, sevinc, kədər, acıqlanmaq, yalvarış, nəşə və s. müxtəlif hissi halların ifadəsində də avazlanmadan istifadə olunur.

Ümumiyyətlə, natiqlikdə, aktyorluqda, dıktorluqda və eləcə də müəllimlikdə yerli-yerində vurğudan və avazlanmadan duzgun istifadə edilməsi zəruridir.

## DURĞU (FASİLƏ)

***§83. Durğunun (fasilənin) mahiyyəti.*** Bu və ya digər dərəcəli məna bitkinliklərinə müvafiq olaraq nitq axını müxtəlif dərəcəli fasilələr arasında parçalara ayrılır Buradan tamamilə aydın olur ki, mənalı səslənmə prosesi, yuxarıda qeyd edildiyi kımi, təkcə vurğu və avazlanmadan ibarət deyildir. Müxtəlif dərəcəli fasilələr də nitq axını parçalarının bitkinliyini təmin edən mənalı səslənmənin bir növüdür ki, buna, yeni mənalı səslənmənin fasilələr halında təzahür edən növünə durğu deyilir.

Durğu ifadənin tərkibindəki sözlər arasında, cümlənin üzvləri arasında, mürəkkəb cümləni təşkil edən cümlələr arasında, nəhayət, cümlənin sonunda müxtəlif məna ilə, məqsəd və psixoloji hal ilə sıx surətdə bağlı olan çox mürəkkəb bir prosesdir.

***§84. Durğu və durğu işarələri haqqında.*** Doğrudur, durğu hadisəsinin az bir qismi yazıda, xüsusən durğu işarələri adlandırılan şərti əlamətlərlə ifadə olunur. Bu işarələrdə durğunun dərəcəsi, mənalılıq cəhəti kimi xüsusiyyətlər də az-çox ifadə olunur. Məsələn, nöqtə, sual işarəsi, nida işarəsi nitq axınının ən böyük parçasının həm mənaca, həm də səslənmə cəhətindən bitmiş olduğuna və deməli, fasilənin çox, yəni davamlı durğu olacağına işarədir. Əlbəttə, bu işarələrin başqa vəzifəsi də vardır, mənalı səslənmənin başqa əlamətlərini, xüsusən avazlanmanı da bildirmək üçün bu işarələrdən istifadə olunur.

Çox nöqtə, üç nöqtə, hətta bir nöqtə fasiləsindən bəzən daha davamlı fasiləni bildirdiyi kimi, eyni zamanda hiss və həyəcanla bağlı olaraq nitq axınının məna bitkinliyi olmadan qırıldığını, parçalandığını da ifadə edir.

Vergül işarəsinin vəzifəsi daha çoxdur. Lakin bu müxtəlif məna əlamətləri əslində durğu ilə formalaşır və buna görə də vergül nitq axınında azacıq fasilənin varlığına işarə olaraq işlənir

Qoşa nöqtə, nöqtəli vergül, tire kimi işarələrin də durğu işarəsi olaraq əsas vəzifələri nitq axınında mənalı səslənmənin çox böyük əlamətlərindən biri olan durğuların müxtəlif növünü bildirməkdən ibarətdir.

Durğunun yeri və mahiyyəti haqqındakı təsəvvürü bir az artırmaq üçün aşağıdakı nümunələri nəzərdən keçirək:

*O kitabı oxuyur / O, kitabı oxuyur*
*Yaxşı kitab oxu / Yaxşı, kitab oxu.*
*Ana vətən çağırır məni / Ana, vətən çağırır məni*
*Anacan, niyə belə ağlayırsan?*
*Anacan, niyə belə? Ağlayırsan?*
*Ana! Can! Niyə belə ağlayırsan?*
*Evimizə çağırdığın adamlara nə verəcəksən?*
*Evimizə, çağırdığın adamlara nə verəcəksən?*
*Çalış, sən də atan kimi, tənbəl olma!*
*Çalış sən də, atan kimi tənbəl olma!*
*Çalış sən də atan kimi, tənbəl olma!*



*Xatircəm ol, get, Mirzə, bəlkə Hacı gəldi, buraya başqa adamın gəlməsi qadağandır*
*Xatircəm ol, get, Mirzə, bəlkə Hacı gəldi buraya, başqa adamın gəlməsi qadağandır.*

Belə misalların miqdarını artırmaq olardı. Lakin elə bu misallardan aydın olur ki, cümlələrdə işlədilən durğu işarələri əsasən durğulara xidmət edir və nümunələr üzərində aparılan əməliyyatdan da göründüyü kimi, durğunun yerini dəyişdikdə məna da dəyişmiş olur Bu isə bir daha sübut edir ki, durğu mənalı səslənmənin bir növüdür və nitq axını parçalarının bitkinliyini təmin edən mühüm vasitədir.

# İKİNCİ HİSSƏ

## MÜASİR AZƏRBAYCAN DİLİNİN ORFOEPİYASI

### TƏLƏFFÜZ VƏ ORFOEPİYA

***§85. Tələffüz.*** Tələffüz kəlməsi əslində ərəbcə söz mənasında olan ləfz لفظ (əl-ləfzun اللفظ) kökündən düzəldilərək əsasən "söyləmək" mənasında işlənən bir sözdür. Müasır Azərbaycan ədəbi dilində bu söz həm ümumi – əsas mənasına müvafiq işlənilən bır kəlmədir, həm də "söyləyiş" mənası ilə bağlı bir anlayışı bildirən, daha doğrusu, "söyləmə" prosesi ilə əlaqədar olaraq dil səslərının muxtəlif təzahürlərını ümumiləşmiş halda ifadə edən termindır. Buna görə də "tələffüz" termini dil səslərının fonetik sistem, keyfiyyət və şəraiti ilə əlaqədar olaraq dəyişmə xüsusiyyətləri kımi anlayışları da ifadə edir.

Belə bir baxımdan "tələffüz" ilə müəyyən dərəcədə əlaqədar olan aşağıdakı əlamətdar cəhətləri yada sala bilərık:

a) Azərbaycan dilinın fonetik sistemində samitlərin əsasən kar və cingiltili qarşılığının bir qanunauyğunluq olması qarşılıqlı samitlərdən formalaşmış müstəqil mənalı söz və morfemlərin fərqlənmiş halda işlənilməsi üçün əsas təşkıl edır. Məsələn, *gül – kül, gəl – kəl, ac – aç, qaç – qac, ax – ağ, bax – bağ, yax – yağ, at – ad, as – az* kimi sözlər və *-ça, -çə, -ca, -cə* kımi şəkılçilər bu qəbildəndır.

b) Samit səslərin kar və cıngiltili qarşılığa malik olması tələffüz prosesində bəzi fonetık qanunların yaranması üçün əsas təşkıl edir. Bir sıra hallarda söz sonundakı cingiltili səs karlaşır; *kıtab-kıtap, ağac – ağaç, darağ – darax, papaq – papax*

Bəzən də bir sıra kar samitlər iki sait arasına düşdükdə cingiltili qarşılığı ilə əvəzlənır: *get – gedir, ota/x/ – otağa* və s.

c) Danışıq prosesində sözlərin dəqiq anlaşılmasını təminedici fonetik çalarlıq ilə əlaqədar bəzi hallar düzgün tələffüz norması sayılır Məsələn, *çiçək* yazılsa da, *çiçəx', ali* yazılsa da *a li* kimi tələffüz



olunan sözlərdə *k* səsinin *x'* çalarlığında, *a* səsinın *a·* çalarlığında tələffüz edilməsi və s

ç) Sözlərdə, əsasən, eyni məzmunu formalaşdırıcı morfoloji vahidlərin əksərən iki cür və ya dörd cür fonetik təzahürünü təmın edən qanunauyğunluqlar müəyyən dərəcədə tələffüzlə də bağlıdır. Məsələn, səsartımı, səsdüşümü, xüsusən ahəng qanununa görə şəkilçilərin iki, dörd variantda olması və s.

Bu faktlardan belə bir nəticəyə gəlmək olur ki, səslər tələffüzün əsas vasitələridir və tələffüz normaları, xüsusiyyətləri səslərin hansı şəraitdə, hansı məqamda işlənilməsi ilə üzvi surətdə bağlıdır.

Bunlardan əlavə, vurğu, ıntonasiya, hətta fasilə, durğu kımi daha çox fonetik təzahürlü hadisələr də üzvi surətdə həm tələffüz vasitələri ılə, həm bu vasitələrin şərtı ilə bağlıdır və bunlar da, ümumiyyətlə, tələffüz anlayışına daxildır.

Tələffüz dılın şifahı təzahürü olmaqla bərabər, həm ümumən bu və ya digər bır dıl ilə, həm də dıl qolları ilə əlaqədar bir anlayışdır Yəni "tələffüz" dedıkdə həm ümumxalq dilındəkı vahidlərin ümumı dıl normalarına müvafiq tələffüzünü, həm də ayrı-ayrı dıalekt və şivə xüsusiyyətlərinə müvafiq tələffüzünü başa düşmək olar. Məhz buna görə də tələffüz anlayışını konkretləşdirmək üçün bu və ya digər müəyyənləşdirici sözün əlavəsi lazım gəlır. Belə konkretləşdirmə müəyyənləşdirmə isə adətən, tələffüzün sahəsi və istıqaməti ilə bağlı olur; məsələn; *məhəlli tələffüz, ədəbi tələffüz, dialektal tələffüz* və s.

Buna görə də hətta "tələffüz" termını daha çox "ədəbi dil normaları tələbatına uyğun söyləyiş" mənasında işlənilməsinə baxmayaraq, konkretləşmiş halda "ədəbi tələffüz" ifadəsini işlətmək daha məqbul sayılır.

Məlum olduğu üzrə, ədəbi dil ümumiləşdirici normalar əsasında formalaşmış bir dildir. Bu dil şifahı və yazılı qollara ayrıldığı kimi, onun normaları da fonetık sistemdə təzahür edən bütün vahidləri həm yazıda, həm də tələffüzdə əhatə edir. Məsələn, *gedəcək* sözünü müəyyən hərfi işarələrlə yazmaq orfoqrafik norma sayılır. Lakın bu sözün tələffüzündə müxtəliflık vardır. Bu söz şivələrdə *ke çax, ke:cix', geycəx', gedəjək* və s. kimi müxtəlif variantlarda tələffüz olunur. Ədəbi tələffüz normasına görə isə *gedəcəx'* tərzində tələffüzü daha doğru sayılır.

Buna görə də ümumiləşmiş halda belə demək olar ki, hərflərin dəqiq yazılıb-yazılmaması, bir-birinə duzgun bitişdirilib-bitişdiril-

məməsi, xəttin aydınlığı və eybəcərliyi, sözlərin ayrı və bitişik yazılması kimi hallar yazı üçün nədirsə, sözün, ifadənin tərkibindəki fonetik vahidlərin ümumiləşdirilmiş normalara müvafiq tələffüz edilib-edilməməsi də şifahi nitq üçün eyni mahiyyətli bir haldır.

Buradan belə bir nəticə çıxarmaq olur ki, ədəbi dilin yazılı qolu dilin fonetik sistemini yazıda ümumiləşdirilmiş halda sabitləşdirən orfoqrafik normalarla təzahür etdiyi kimi, ədəbi dilin şifahi qolu da dilin fonetik sistemini tələffüzdə ümumiləşdirilmiş halda sabitləşdirən tələffüz normaları ilə təzahür edir ki, buna daha konkret halda o r f o e p i y a  q a y d a l a r ı – *normaları* deyilir

***§86. Orfoepiya.*** Orfoepiya[1] ədəbi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran, yəni fonetik cəhətdən ümumiləşdirici normaları təzahür etdirən tələffüz qayda-qanunlarının sistemli məcmusudur. Orfoepiya anlayışını bəzən çox dar, bəzən də çox geniş mənada başa düşmək olar Bu isə tələffüz anlayışı ilə (hətta "fonetik sistem" anlayışı ilə) üzvi surətdə bağlıdır.

Orfoepiya anlayışını geniş mənada qəbul etmək məqsədə daha çox uyğundur Çünki ədəbi tələffüzün əsas cəhətləri, xüsusən bu və ya digər səsin müəyyən fonetik şəraitdə, yəni ayrılıqda, digər həmcins və ya ayrıcins səslə yanaşı olduqda, sözün əvvəlində, ortasında, sonunda olduqda, qrammatik formalarda və söz birləşmələrində yanaşı gəldikdə necə tələffüz edilməsi qayda-qanunları, eləcə də vurğu, intonasiya normaları geniş mənada orfoepiya anlayışı ilə üzvi surətdə bağlı məsələlərdir.

Doğrudur, Azərbaycan dilində əsasən sabit vurğu var, sərbəst vurğu isə məhdud dərəcədədir. Lakin şivələrdə sərbəst vurğu nəzərə çarpacaq dərəcədə olduğu kimi, son zamanlar ədəbi dildə geniş dairədə işlənilən alınma sözlərin bir qismində də vurğunun söz əvvəlində, söz ortasında işlənilməsi halları artmışdır. Buna bənzər vəziyyət son zamanlarda düzəldilən bir sıra mürəkkəb sözlərdə də nəzərə çarpır. Buna görə də Azərbaycan dili orfoepiyası mövzuları sırasında vurğu məsələsindən də bəhs etmək lazım gəlir.

Orfoepiya ilə nitq sürəti məsələsinin də müəyyən dərəcədə əlaqəsi vardır. Hətta orfoepik üslub növlərini müəyyənləşdirici əlamətlər sırasında sürətin də nəzərə alınması zəruri sayılır.

[1] O r f o e p i y a – yunanca "düzgün", "dürüst" mənasında olan *orfhos* sözü ilə "danışıq", "nitq" mənasında olan *epos* sözünün birləşməsindən düzəldilmiş bir termindir



Nəhayət, belə bir cəhəti də yada salmalıyıq ki, orfoepiya, ümumiyyətlə, şifahi ədəbi dilin normalar sistemi anlayışı ilə bağlı olduğundan, şifahi ədəbi dilin müxtəlif üslubları ilə əlaqədar bir sıra əlamətdar cəhətləri də əhatə edir

Yeri gəlmişkən bunu da qeyd etməliyik ki, nitq nöqsanlılığı (loqopediya[1]) ilə bağlı olan hallar orfoepiya anlayışına daxil deyildir. Buna görə də uşaqların nitq nöqsanlılığını orfoepiya məsələləri sırasına daxil edən bəzi metodistlər elmi səhvə yol vermiş olurlar

***§87. Tələffüz üslubları.*** Dil insanların anlaşma və ünsiyyət vasitəsidir. İnsanlar arasında ünsiyyət isə çox müxtəlif şəraitdə, müxtəlif tərzdə və müxtəlif məzmunda olur. Buna görə danışıq da, nitq də müxtəlif çalarlıqda təzahür edir. Danışıq iki şəxs arasındamı olur, yoxsa bir şəxs yığıncaqdamı nitq söyləyir, auditoriyadamı mühazirə oxuyur, sinifdəmi dərs deyir; yaxud bir şəxs radiodamı, televiziyadamı çıxış edir? Danışan kimdir və kimə müraciət edərək danışır? Danışan qocadırmı, cavandırmı, uşaqdırmı? Danışanın həmsöhbəti kimdir? Yaşlıdırmı, cavandırmı, uşaqdırmı? Müsahiblər tanışdırlarmı, yoxsa tanış deyillər? Danışanların savad və təhsilləri necədir, ixtisasları nədir, nə haqda danışırlar? Elmi məsələlərdənmi söhbət gedir, məişət məsələlərindənmi danışıq aparılır? Danışıq hansı istiqamətdədir: danışan müəyyən məsələni, fikri sübut etmək üçünmü danışır, yoxsa gördüklərini, eşitdiklərini, bildiklərini sadəcə nağıl edir?

Məhz ünsiyyətin belə müxtəlif çalarlıqda olması ünsiyyət vasitəsi olan dilin vahidlərinin də müxtəlif çalarlıqda formalaşmasına istiqamətverici təsir göstərir.

Nitqin məqsəd və şəraitlə əlaqədar olaraq müxtəlif çalarlıqda formalaşmış qol və budaqları isə ümumiləşmiş halda d i l i n  ü s l u b l a r ı adlanır.

Üslub dedikdə, biz sözlərin, ifadələrin, qrammatik vasitələrin və fonetik imkanların məqsədəuyğunluq əsasında seçilmiş vahidlər sistemini başa düşürük. Belə vahidlər sistemi isə, ümumiyyətlə, ədəbi dilin üslubları anlayışı ilə bağlıdır.

Buna görə də tələffüz üslubları[2] geniş mənada, dilin fonetik vasitə və imkanlarının tələffüzündə məqsədəuyğun çalarlıqları sistemi, yəni

[1] Bu haqda məlumat almaq üçün M Abbasovun "Təlim-tərbiyə işində nitq nöqsanlarının islahı" (Bakı, 1948) adlı kitabını oxumaq məsləhətdir

[2] Bəzən "nitq üslubları" ifadəsi də belə bir mənada işlənir

şifahi ədəbi dil üslublarının fonetik imkanlar sistemi deməkdir. Tələffüz üslubları, dar mənada isə fonetik imkanların ancaq orfoepik normalar dairəsində məqsədəuyğunluq əsasında təzahürü ilə formalaşan tələffüz variantları deməkdir

Deməli, buradan belə bir nəticəyə gəlmək olur ki, dilin fonetik imkanlarının hər növü, hər cür təzahürü, hətta səslərin məxrəcləri üzrə tələffüzü, vurğu, intonasiya, sürət kimi məsələlər, eləcə də natiqlik, səhnə dili kimi spesifik məsələlər də geniş mənada tələffüz üslubları anlayışına, ya tam və ya qismən daxildir.

Dar mənada tələffüz üslubları anlayışında isə əsasən səslərin məxrəcə uyğun və ümumiləşmiş ədəbi dil normaları tələblərinə müvafiq tələffüzü və qismən də vurğu, ton nəzərdə tutulur. Buna görə də dolaşıqlıq olmasın deyə, "tələffüz üslubları" ifadəsini "geniş mənada tələffüz üslubları" anlayışını bildirən bir termin kimi, "orfoepik üslublar" ifadəsini isə "dar mənada tələffüz üslubları" anlayışını bildirən bir termin kimi işlətmək məsləhət görülür. Məhz buna görə də fonetika ilə üzvi surətdə bağlı olaraq tələffüz üslublarından bəhs açan alimlər bu məsələni dar anlayış dairəsində nəzərdən keçirməyi lazım bilmişlər və demək olar ki, əsasən orfoepik üslublardan danışmışlar Məşhur fonetist L V.Şerba tələffüz üslublarından danışarkən daha çox orfoepik normalar dairəsində üslublar məsələsini aydınlaşdırmış və əsasən "tam uslub", "danışıq üslubu" deyə iki üslubdan bəhs etməyi lazım bilmişdir[1].

Professor R İ.Avanesov isə "Rus ədəbi tələffüzü" adlı kitabında tələffüz üslubları məsələsindən bir az geniş mənada bəhs açmağın lazım olduğunu zəruri saysa da, bu sahədə kifayət qədər tədqiqat işinin aparılmadığını, buna görə də, geniş mənada tələffüz üslublarından ətraflı danışmağın hələlik mümkün olmadığını qeyd etmiş və əsasən aşağıdakı üç uslub haqqında müxtəsər məlumat vermişdir:

1. Kitab üslubu.
2 Danışıq üslubu.
3 Sadə nitq uslubu [2]

Bunu da deməliyik ki, kitab uslubu adı altında p o e t i k, a k a d e m i k və n a t i q l i k üslubları birləşməsini nəzərdə tutan müəllif

---

[1] Л В Щерба Избранные работы по русскому языку М, 1957, стр 21-22, Фонетика французского языка. Л, 1939, стр 18, И П Сунцова Вводный курс фонетики немецкого языка М, 1958, стр 13-14

[2] Р И Аванесов Русское литературное произношение М, 1958, стр 14-19



eyni zamanda danışıq üslubunun da c i d d i u s l u b (строгий) və s ə r b ə s t, yaxud i x t i y a r i ü s l u b (свободный) kimi iki növü olduğunu göstərmişdir.

Qeyd etmək lazımdır ki, R.İ.Avanesovun verdiyi bir neçə nümunədən belə nəticəyə gəlmək olur ki, o, sadə nitq üslubu (просторечный) dedikdə, daha çox loru danışığı nəzərdə tutmuşdur

"Rus ədəbi tələffüzü və vurğusu" adlı luğətin sonunda verilmiş "Tələffüz və vurğu haqqında məlumat" adlanan bəhsdə isə tələffüzdə bəzi üslubi çalarlıqların olmasına işarə edilsə də, əsasən k i t a b ü s l u b u və s a d ə n i t q u s l u b u kimi iki üslubun daha çox fərqləndiyi qeyd olunmuşdur[1].

Beləliklə, aydın olur ki, doğrudan da tələffüz üslubları məsələsi hələlik hərtərəfli öyrənilməmişdir və burada bir çox əlamətdar cəhətlərin aydınlaşdırılması zəruridir.

Bizim mövzumuz, ümumiyyətlə, tələffüz üslubları deyildir, daha doğrusu, biz burada ancaq o r f o e p i k u s l u b l a r d a n müxtəsər məlumat verməliyik, buna görə də hələlik ancaq iki uslubdan bəhs etməyi lazım bilirik.

***§88. Tam üslub.*** Tam üslubun əlamətdar cəhətləri aşağıdakılardan ibarətdir:

Sözlərin fonetik qabığını təşkil edən səslər məxrəclərinə görə çox aydın, bu səslərdən formalaşmış hecalar isə, adətən, üzvlənmiş halda, nitq zəncirinin dürüst-aydın seçilə bilən halqaları kimi tələffüz olunur. Sözün formalaşmasında zəruri sayılan vurğular dəqiq, öz yerində vurulur. Ayrı-ayrı sözləri, söz birləşmələrini və ifadələri ayırıcı durğu və vurğu aramla tələffüzü təminedici keyfiyyət və kəmiyyətdə olur. Cümlələr arasında fasilə cümlə üzvləri arasındakı fasilədən çox olur. Ümumiyyətlə, orfoepik normalara tam riayət olunur

Tam üslubdan təlim-tədris prosesində, yeni dərs deyərkən, mühazirə oxuyarkən, müəyyən məsələni dinləyiciyə başa salmaq məqsədi ilə danışarkən, yeni bir sözü, termini, ifadəni dinləyicinin aydın eşitməsi üçün, müəyyən elmi məfhumu ifadə edən yığcam tərifin, formulun bütün sözlərini dinləyiciyə durust eşitdirmək üçün istifadə olunur Elə buna görə də L.V.Şerba tam uslubun mahiyyətini aydınlaşdırmaq üçün "...bu və ya digər səbəbə görə biz nitqimizi

---

[1] Русское литературное ударение и произношение М, 1965, стр 535-536

xüsusi olaraq aydın qurmağa çalışırıq, bunun uçün də biz hər bir sözün hecalarını aydın məxrəclə söyləyirik" deyərək (*я-зы-ка-вы́-е а-со́-бен-но-сти*) ifadəsinin hecalara ayrılmış halda belə söylənişini də tam üsluba bir nümunə göstərmişdir[1].

Buna bənzər bir nümunə olaraq aşağıdakı ifadəni nəzərdən keçirək *el-mí – təd-qi-qā́t – iş-lə-rí*.

Burada hecalar aydın tələffüz olunur və nisbətən daha güclü vurğulu heca (*qā́t*) digərlərindən fərqlənir.

Tam üslubda sözün tərkibindəki hecaların belə ayrı-ayrı tələffüzü bəzən süni tələffüz kimi təsir bağışlaya bilər, lakin nəzərə almaq lazımdır ki, heç bir danışıq əvvəldən axıra qədər tam üslubda qurulmur. Əksinə, hər bir danışıq, əsasən iki üslubun qovuşması ilə təzahür edir. Belə olduqda isə tam üslubda sözün, ifadənin, cümlənin söylənişi sünilik təsiri bağışlamır

Tam üslubda hecaların aydın və ayrı-ayrı tələffüzü üstünlük təşkil etdiyindən, bəzi mütəxəssislər bu üslubu hecayi (sillabik) üslub da adlandırmışlar[2]. Lakin bu üslub təkcə hecaların aydın məxrəclə söylənilməsi ilə əlamətlənmir. Yuxarıda qeyd etdiyimiz kimi, bu üslubun başqa əlamətdar cəhətləri də vardır. Buna görə də bu üslubu "tam uslub" adlandırmaq daha münasib sayılır.

Yeri gəlmişkən, belə bir cəhəti də qeyd edək ki, yazıda da bəzən bu və ya digər sözün, ifadənin, cümlənin fərqli (*seyrək, qara* və s.) yazılması halları olur ki, bunlar da əslində tam üslubun yazıda göstərilməsi deməkdir. Doğrudur, L V Şerbanın dediyi kimi, "bizim yazımız əsasən tam üsluba istinadən qurulur"[3], lakin yazının başdan axıra qədər tam üslubda oxunması heç də tələb olunmur.

Beləliklə, aydın olur ki, tam üslub ciddi, rəsmi, dürüst, dəqiq, cəlbedici, təsirli üslubdur. Elə buna görə də bəzi tədqiqatçılar bu üslubu gah "kitab üslubu", gah "akademik üslub", gah "ciddi üslub" adlandırmışlar, gah da bütün belə çalarlıqları həmin adlardan biri ilə adlandırdıqları üslubda birləşdirmişlər[4]. Biz də məhz "tam üslub" adı altında tələffüzdəki belə çalarlıqların ümumiləşmiş əlamətlərini nəzərdə tuturuq.

---

[1] Л В Щерба Фонетика французского языка Л , 1939, стр 19
[2] Yenə orada, səh 19
[3] Yenə orada
[4] Р.И Аванесов Русское литературное произношение. М., 1958, стр 15-17



***§89. Sərbəst üslub.*** Sərbəst üslubun əlamətdar cəhətləri, əsasən aşağıdakılardır:

a) cümlənin əvvəlində olan sözün başındakı səslərin məxrəclərinə görə aydın tələffüzü zəruridir: *K*[i]*tab aldım Şad xəbər* [e]*şitdim*;

b) vurğulu səslərin də məxrəcləri aydın tələffüz olunmalıdır: *q*[ələ]*mín* [u]*cú Yazmağá çal*[ı]*ş Çalíş*;

c) sözün tərkibində olan, lakin başda yox, ortada və sonda yerləşən vurğusuz səslərin tələffüzündə məxrəc aydınlığı zəruri deyildir: *yadı.yar /*(*yadigar*) və s.;

ç) sözün tərkibində olan səslərdən bəziləri, xususən saitlər ya çox qısa, ya da çox uzun tələffüz olunur: *yazı çı, yazı r, sayı lır, ayı.lır, yava:ş-yavaş* və s ;

d) sözün tərkibində olan səslərdən bəziləri, şəraitdən asılı olaraq ixtisara düşür, ya da son dərəcə qısa tələffüz olunur: *yaz*[ı]*çı, say*[ı]*lır, ay*[ı]*lır, dos*[t]*lux* və s.;

e) sözün tərkibindəki səslərdən bəzilərinin qısa tələffüzu və ya ixtisara düşməsi nəticəsində sözün hecaları ayrılmış halda deyil, qovuşuq halda tələffüz olunur· *qar*[ı]*şar, qo*[v]*uşar, yen*[i]*lik* və s ;

ə) cümləni təşkil edən sözlər arasında fasilə son dərəcə az olur, bəzən əvvəlki sözün son səsi ilə sonrakı sözün ilk səsi bir hecanın tərkib hissəsi kimi qovuşuq tələffüz olunur: *Bir-səhifə-yaz Bir-adam-əl-açdı,*

f) söz birləşmələrini təşkil edən sözlər, eləcə də cümlə üzvləri azacıq qovuşuq tələffüz olunur, daha doğrusu, əvvəlki sözün son hecası sonrakı sözün ilk hecası ilə qovuşur. Belə qovuşmalarda ya əvvəlki sözün sonundan, ya da sonrakı sözün başından müəyyən səs ixtisara düşür, bəzən də belə qonşu səslərdən biri digərinin məxrəcinə uyğunlaşır. Beləliklə, iki səs qovuşması bir az uzadılaraq bir məxrəcli səs kimi tələffüz olunur. Ümumiyyətlə, sözlərin tərkibindəki səslərin yaxın məxrəcli səslərlə orfoepik çalarlıq mahiyyətində əvəzlənərək tələffüz olunmasına bu üslubda daha çox yol verilir: *əllaltı* (əlli altı), *gülliydi* (güllü idi), *ağlıyağlıya* (ağlaya-ağlaya), *qoçadam* (qoçu adam), *qocadam* (qoca adam) və s ;

g) səslərin ümumi orfoepik normalarına əsasən riayət olunur, danışıq aramla deyil, surətli olur. Buna görə də durğu, fasilə əksər halda ixtisar olunur, yalnız intonasion mahiyyətli durğulara yol verilir

ğ) tələffüz normalarına uyğun olmayan bir sıra çalarlıqlara, xüsusən şivəçilik, köhnəlik, əcnəbilik çalarlıqlarına sərbəst üslubda az-çox yol verilir:

1) Ş i v ə ç i l i k; məsələn: *mana* (mənə), *sə'n* (sənin), *qapıyı* (qapını), *popaq* (papaq), *qəpək* (qəpik), *qərdəş* (qardaş) və s.

2) K ö h n ə l i k (yeni bir zaman ədəbi tələffüz normaları baxımından qanuni, məcburı sayılan, lakin müasir dövrdə köhnəlmiş kimi səslənən tələffüz; məsələn: *qaidə* (qayda), *faidə* (fayda), *cəvan* (cavan), *adəm* (adam), *kibi* (kimi), *yüzük* (üzük), *səlam* (salam) və s

Misallardan göründüyü kimi, köhnəliyin bir qismi alınma sözlərlə əlaqədardır. Lakin bunlar bir zaman Azərbaycan ədəbi tələffüzü üçün norma sayılmışdır. Buna görə də belə nümunələr "əcnəbilik" qrupuna deyil, məhz "köhnəlik" qrupuna daxildir.

3) Ə c n ə b i l i k (yeni başqa dillərə xas olan çalarlıqlar – tələffüz); məsələn: *qazéta, maşína, stakán, çáynik, fólklor* və s.

Beləliklə, bu üslubların hər birinin məxsusi əlamətdar cəhətləri vardır. Lakın burada yada salmalıyıq kı, ümumiyyətlə, ədəbi dilin üslubları kimi orfoepik üslublar da tam təcrid olunmuş halda işlənilmir. Yeni danışıq heç bir zaman 100 faiz tam üslub vahidləri – xüsusiyyətlərı əsasında qurulmadığı kımi, ancaq sərbəst üslub normaları əsasında da qurulmur Məqsəddən asılı olaraq danışıqda hər ikı üslub normalarından müxtəlif dərəcədə istifadə olunur. Buna görə də, demək olar ki, uslublar, adətən, qovuşuq halda işlənir Bu haqda daha aydın təsəvvürə malik olmaq üçün səhnə dilini yada salaq. Səhnə dilinin ən əlamətdar cəhətlərındən birı də məhz üslublar çalarlıqlarını özündə cəmləməsidir Əlbəttə, başqa sahələrlə əlaqədar danışıqlarda da hər iki üslubun xüsusiyyətlərindən bu və ya digər dərəcədə istifadə olunur. Məsələn, kütləvi nitqdə, mühazirələrdə, dərs deyərkən, rəsmi danışıqlarda əsasən tam üslub tələblərinə rıayət olunur, lakin burada sərbəst uslub imkanlarından da istifadə edilir. Eləcə də adi danışıqlarda, ailə və məişət söhbətlərində iştirak edən şəxslər özlərini sərbəst hiss edirlər və öz danışıqlarını da əsasən sərbəst üslubda qururlar, lakın bəzən tam üslub imkanlarından da istifadə edirlər.

Bununla belə, hər bir üslubun daxilındə digər üslub ünsürlərı olsa da, bu ünsürlər sistem təşkil etmir və nitqin əsas üslub mahiyyətini müəyyənləşdirmir

Belə bir cəhəti də qeyd etmək lazımdır ki, dilin fonetik sistemi və fonetik qanunları hər bir üslub üçün ümumi və əsasdır Buna görə



də ədəbi tələffüz normalarını mənımsəmə və onun əsaslarını öyrənmə baxımından orfoepik normaların əsasını təşkil edən bu qanun-qaydalar haqqında ümumi təsəvvür və qaydalara uyğun da nitq vərdişi hər bir mədəni vətəndaşda olmalıdır. Belə təsəvvür, vərdiş isə tələffüz vahidlərinin, yeni səslərin məqam və şəraitə görə necə tələffüz edilməsi qanun-qaydalarının öyrənilməsi ilə, daha doğrusu, orfoepik normaların öyrənılməsi və mənimsənilməsi ilə üzvi surətdə bağlıdır

## ƏDƏBİ TƏLƏFFÜZÜN MƏNBƏLƏRİ HAQQINDA

***§90. Mənbələr haqqında.*** Ədəbi tələffüz şifahı ədəbi dilin təzahür vasitəsidir. Buradan isə belə bir nəticəyə gəlmək olur ki, ədəbi dil seçmə və əvəzetmə yolu ilə formalaşdırıldığı kimi, onun təzahür vasitələrınin, xüsusən şifahi ədəbi dilin təzahür vasitəsi olan tələffüzün normaları, qayda-qanunları da məhz seçmə və əvəzetmə yolu ilə müəyyənləşdirılir.

Belə tələffüz normalarının müəyyənləşdirılməsi üçün seçmə və əvəzetmə əməliyyatında hansı mənbələrdən istifadə olunur?

Ədəbi dilin formalaşması və inkişafı tarixindən bizə məlumdur kı, belə əməliyyatın əsas mənbəyi ümumxalq dili və onun şivə qolları olmuşdur Lakin xalqın ictımai, iqtisadi, mədənı inkişafı dilin də ınkişafına təsir göstərir, xüsusən ədəbi dilin muxtəlif qollar üzrə daha da təkmilləşdirılməsini tələb edir. Belə tələbat isə ədəbi dilin istifadə mənbələrını də müxtəlifləşdirir. Buna görə də bir neçə əsrlik ədəbi dil irsinə malik olan müasir ədəbi dillərın normalarının müasir tələbat əsasında müəyyənləşdirilməsində, dəqiqləşdirilməsində seçmə, əvəzetmə əməliyyatı üçün bircə mənbə ilə, yeni canlı danışıq və onun şivə qolları ilə məhdudlaşmaq olmur. Uzun tarıxi inkişaf yolu keçmiş olan müasir ədəbi dil normalarının muəyyənləşdirilməsində seçmə, əvəzetmə əməliyyatı mənbələrı kimi indi ədəbi dilin irsi zəminindən də, yazılı ədəbi dilin vasitəsi olan yazı sistemindən də, qohum, qonşu və əcnəbi dillərdən də istifadə olunur

Elə buna görə də müasir Azərbaycan ədəbi dilinin təzahur vasitəsi olan Azərbaycan ədəbi tələffüz normaları aşağıdakı uç mənbə üzərındə aparılan seçmə və əvəzetmə əməliyyatı əsasında muəyyənləşdirılir

*§91. Şivələr.* Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan ən mühüm mənbə şivələrdir. Buna görə də bəzən belə sual da verilir. Ədəbi dil baxımından hansı şivə düzgündür və ədəbi tələffüz normaları üçün nümunəvi mənbədir?

Bu suala ümumiləşmiş halda belə cavab vermək olar ki, ədəbi dil normaları baxımından hər bir şivədə düzgün cəhətlər olduğu kimi, düzgün sayılmayan cəhətlər də vardır. Buna görə də təklikdə heç bir şivə ədəbi tələffüzün normalarını müəyyənləşdirmək üçün yeganə, nümunəvi mənbə deyildir Hətta bir sıra şivə qrupları üçün əlamətdar olan *udun, üz-güzüm, gələtdu, nöş, nödü, popağ, diyan, gələrsüz, gedsün, gedax, gəlax, ge·cux, ateyin, qapıyı, murtda, bajı, gedəjəm, dayna* və s. kimi bir sıra xüsusiyyətlər ədəbi tələffüz baxımından normal və məqbul nümunələr sayılmır.

Lakin ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində müxtəlif dil vahidləri ilə əlaqədar olaraq bu və ya digər dərəcədə şivələrin hamısından istifadə olunur

Bəs şivələrdən hansı yollarla istifadə olunur?

Əlbəttə, seçmə və əvəzetmə əməliyyatı burada da əsasdır, həm də bu əməliyyat dildən şüurlu surətdə istifadə edənlər tərəfindən aparılır. Belə əməliyyatda isə mərkəzləşdirmə prosesinin xüsusi əhəmiyyəti və rolu vardır.

Mərkəzləşdirilmə dedikdə, ədəbi dil baxımından ictimai-siyasi, mədəni mərkəz ilə əlaqədar şərait nəzərdə tutulur. Belə mərkəzləşdirilmə də əsasən iki pillə üzrə olur:

B i r i n c i  p i l l ə bu və ya digər rayon mərkəzi olan şəhərin, qəsəbənin ətrafındakı kənd şivələrinin rayon mərkəzində qovuşma və ümumiləşmə pilləsidir Bu pillədə xüsusən Naxçıvan, Şuşa, Gəncə, Qazax, Şəki, Şamaxı, Bakı, Lənkəran kimi şəhərlərin rolunu qeyd etmək lazımdır

İ k i n c i  p i l l ə isə əsasən şivə qruplarının ümumi mərkəzdə – paytaxtda qovuşma və ümumiləşmə pilləsidir. Bu baxımdan, demək olar ki, ümumxalq Azərbaycan dili şivələrinin həqiqi mənada mərkəzləşdirilməsi ikinci pillədə olur.

Buna görə də ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində məhz mərkəzləşdirilmə yolu ilə formalaşan paytaxt tələffüzü əsas mənbələrdən sayılır. Burada belə bir cəhəti də qeyd edək ki, Bakı şəhərində formalaşan paytaxt tələffüzü üçün məhəlli Bakı şivəsi əsas olmamışdır və paytaxt tələffüzü bir sıra əlamətdar cəhətlərinə görə məhəlli Bakı şivə tələffüzündən əsaslı surətdə fərqlənir.



Paytaxt tələffüzü əsasən qurultaylarda, konfranslarda, məktəblərdə Azərbaycan xalqının qabaqcıl ziyalıları tərəfindən həm birinci pillədə, həm də xüsusən ikinci pillədə aparılan seçmə, əvəzetmə əməliyyatı nəticəsində respublikanın paytaxtı olan Bakı şəhərində qovuşdurulan, ümumiləşdirilən və mərkəzləşdirilən tələffüzdür.

Mərkəzləşdirilmənin mahiyyətini və əlamətlərini aydınlaşdırmaq üçün bir neçə faktı nəzərdən keçirək

Azərbaycan dili şivələrinin əksəriyyətində belə bir fonetik əlamət vardır ki, əsasən iki və ikidən artıq hecalı sözlərin sonunda ancaq kar samitlər işlənir. Buna görə də sözlərin sonuna bitişən bir sıra şəkilçilərin də axırında kar samit olur. Bu xüsusiyyət hətta müasir orfoqrafiya qaydalarına görə cingiltili samitin hərfi işarələri ilə yazılan söz və şəkilçilərin karlaşmış halda tələffüzü üçün ədəbi tələffüz norması kimi qəbul olunmuş və ümumiləşdirilmişdir Buna görə də müasir ədəbi tələffüz normasına əsasən bir sıra sözlərin və şəkilçilərin sonundakı *q* öz məxrəcində deyil, karlaşmış halda, daha doğrusu *x* məxrəcində tələffüz olunur: *papaq – papax, otaq – otax, aldıq – aldıx, olacaq – olacax* və s

Eyni əsasda *c, z, g* samitləri də bir sıra sözlərin sonunda karlaşmış halda tələffüz olunur: *ağac – ağaç, bəkməz – bəkməs, qəşəng – qəşənk* və s.

Burada belə bir məsələni də yada salmalıyıq ki, mərkəzləşdirilmədə seçmə və əvəzetmə əməliyyatı müəyyən prinsiplər əsasında aparılır. Bu prinsiplər isə dilin funksiyası, vahidləri və qanunları ilə üzvi surətdə bağlıdır.

*§92. Yazı.* Yazılı qolu olan ədəbi dilin tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan mənbələrdən biri də yazıdır Ümumiyyətlə, yazı dedikdə, həm yazılı ədəbi dil materialları, həm də əlifba sistemi və orfoqrafiya qaydaları nəzərdə tutulur Buna görə də bəzən bu və ya digər bir sözün tələffüz normasını müəyyənləşdirərkən yazılı ədəbi dil materiallarının necə, hansı əlifba əsasında və hansı orfoqrafik prinsipə görə yazılmasını da nəzərə almaq lazım gəlir.

Məsələn, əgər biz müasir Azərbaycan ədəbi dilində işlənən *adam, ömür, qayda, fayda, cüt, toxum* kimi sözlərin nə zamandan Azərbaycan dilində, əslindən fərqli halda, indi tələffüz etdiyimiz normaya müvafiq tələffüz olunduğunu yalnız şivələrə əsasən deyil, yazıya da əsaslanaraq müəyyənləşdirmək istəyiriksə, yazılı mənbələrə müraciət etməliyik Bu məqsədlə M F Axundzadənin əsər-

lərini nəzərdən keçirdikdə, belə bir faktla qarşılaşırıq ki, o, yazı məsələlərindən danışarkən bir sıra alınma sözlərin, o cümlədən *adam, toxum, cüt, qayda* kimi sözlərin artıq o zaman belə azərbaycancalaşmış halda tələffüz olunduğunu qeyd edir və belə də yazılmasını lazım bilir.

Bir qədər əvvəlki mənbələrə də nəzər saldıqda, Vidadi, Vaqif şeirlərində *heyif, ömür, fayda, adam* sözlərinin indi tələffüz etdiyimiz çalarlıqda işləndiyini təsdiqedici faktlara rast gəlirik; məsələn:

*H e y i f  o l d ı,  ö m ü r getdi badlara* (M.V.Vidadi).

*Heç sövdagər f a y d a bulmaz bu yerdə* (M.P.Vaqif).

*A d a m l ı q ədası h e y i f ki, yoxdur* (M.P.Vaqif) və s.

Deməli, bu sözlərin hələ XVIII əsrdən azərbaycancalaşmış halda tələffüz olunduğunu təsdiq və təsbitedici belə faktlardan həmin sözlərin müasir ədəbi dildə də bu cür tələffüz edilməsini müəyyənləşdirərkən istifadə etmək lazımdır Xüsusən əvvəlki dövrlərdə yazılmış əsərləri həm düzgün oxumaq, həm də belə əsərlərdəki sözlərin, ifadələrin tələffüz normalarını müəyyənləşdirərkən belə mənbələrə daha çox əsaslanmaq zəruridir. Lakin müasir ədəbi tələffüz normalarını müəyyənləşdirərkən daha çox müasir yazı və orfoqrafiyadan bir mənbə kimi istifadə olunur.

Bu baxımdan müasir Azərbaycan yazı sistemi, orfoqrafiya qaydaları tələffüz normalarının müəyyənləşdirilməsində olduqca əlverişli bir mənbədir. Məlum olduğu kimi, müasir Azərbaycan yazı qaydaları, xüsusən sözlərin və şəkilçilərin orfoqrafiya qaydaları yazı ilə tələffüz arasında ciddi fərqlərin aradan qaldırılması prinsipi əsasında qurulmuşdur. Buna görə də indi tələffüz normalarını müəyyənləşdirərkən, hətta demək olar ki, bir çox söz və şəkilçilər yazıldığı kimi də tələffüz edilməlidir. Bunu təsdiq etmək üçün aşağıdakı sözləri nümunə göstərmək olar; məsələn. *mən, sən, o, biz, siz, bu, belə, bir, üç, beş, on, yüz, min, qara, göy, sarı, dağ, dərə, təpə, baş, əl, qol, üz, göz, al, qal, sal, bil, gəl, get, gör, sil, öz, danış, vuruş, görüş* və s. kimi yüzlərcə söz yazıldığı kimi də tələffüz olunur Bu baxımdan, bəzi təkhecalı sözlərin son səsləri istisna edilərsə, demək olar ki, ümumiyyətlə Azərbaycan ədəbi dilindəki təkhecalı sözlər, xüsusən luğəvi şəraitdə, yazıldığı kimi də tələffüz edilir.

Bunlardan başqa, müasir Azərbaycan ədəbi dili lüğət tərkibində olan bəzi alınma sözlərin də, xüsusən yazı vasitəsi ilə danışığa köçürülən sözlərin, o cümlədən terminlərin və qısaltma sözlərin də tələffüzü əksərən yazı ilə əlaqədar olur və daha çox yazılışlarına muvafiq çalarlıqda tələffüz edilir



Müasir Azərbaycan dilində bir sıra adlar, xüsusən yer və tayfa – xalq adları da var ki, bunların yazılışı dilin daxili qanunlarına o qədər də uyğun gəlmır. Lakın buna baxmayaraq, belə sözlərin əsasən yazılışına uyğun çalarlıqda tələffüzü məsləhətdir: *Azərneft, Azərbaycan* və s.

***§93. Ənənəvi və əcnəbi mənbələr.*** Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan mənbələrdən biri də ənənəvi və əcnəbi tələffüz normalarıdır. Bu cəhətdən müasir Azərbaycan ədəbi dilində işlənilən aşağıdakı sözlərin tələffüzünü nümunə göstərmək olar. Məsələn, *sovet, kolxoz, komsomol* sözlərində [*so*], [*kol*], [*kom*] hecalarındakı *o*-nun *a* çalarlığında tələffüz edilməsi rus dilinin ədəbi tələffüz norması ilə əlaqədardır.

Beləcə də bir sıra alınma sözlərdə *k* hərfinin *k'* məxrəcində tələffüz edilməsi də məhz həmin sözlərin mənşəcə mənsub olduğu dildə və umumən Avropa dillərində, rus dilində məqbul sayılan tələffüz norması ilə əlaqədardır Buna görə də muasir Azərbaycan ədəbi tələffüz normasını muəyyənləşdirərkən həmin mənbə nəzərə alınmış və belə sözlərin yazılışında *k* hərfinin müəyyən şəraitdə *q* samitinin kar qarşılığı məxrəcinə müvafiq, yəni k' çalarlığında oxunması və tələffüz edilməsi normal sayılır *lek'sik'a, fonetik'a, k'ollektiv, k'osmos, subyek't, ak'tiv* və s

XIX əsrdən Azərbaycan ədəbi dilində işlənilmiş bir sıra sözlərin tələffüz normalarının müəyyənləşdirilməsində bu mənbədən istifadə olunur. Bəzən klassik ədəbi dildə işlənilmiş müəyyən sözü, ifadəni bu və ya digər məqsədlə muasir dildə danışanlar, yazanlar işlədirlər ki, belə sözlərin tələffüzündə ənənəvi və ya əcnəbi çalarlıq nəzərə alınır. Məsələn, məqamına görə eyni söz iki cür tələffüz olunur: *əba – aba, avam – əvam* və s.

## TƏLƏFFÜZ VASİTƏLƏRİ

***§94. Əsas vasitələr.*** Tələffüz mənalı səslənmə prosesidir, mənalı səslənmə isə tələffüz vahidlərinin fonetik qabıqda nitq vahidləri halında formalaşaraq təzahürü deməkdir.

Buna görə də dil səslərinin iki əsas növü – saitlər və samitlər mənalı səslənmə üçün, yəni tələffüz üçün də əsas vasitələrdir və

tələffüzün əlamətdar xüsusiyyətləri, normaları məhz həmin vasitələrin bu və ya digər məqamda necə, hansı çalarlıqda mənalı səslənməsi ilə müəyyənləşir.

*§95. **Saitlər.*** Azərbaycan ədəbi tələffüzünün əsasları baxımından sait səslərin orfoepik normalarının müəyyənləşdirilməsi birinci dərəcəli şərtlərdəndir. Saitlər dilin lüğət və qrammatik vahidlərini formalaşdırıb təzahür etdirən ən mühüm fonetik ünsürləridir. Buna görə də eyni saitin müxtəlif samitlə birləşməsindən və ya müxtəlif saitin eyni samitlə birləşməsindən fərqli mənaları ifadə edən sözlərin, qrammatik vahidlərin tələffüzü də əsasən saitlərin köməyi ilə formalaşır. Bu baxımdan aşağıdakı sözləri nəzərdən keçirək: *al, ol, el, əl, il, öl, ad, od, öd, ud, at, ot, et; ət, it, öt; az, iz, öz, üz; an, on, un, en, ən, ön, ün, kal, kol, gəl, gül, dan, don, dön, din, dən, dün* və s.

Əsasən saitlərlə bağlı olan bir sıra qanunların, o cümlədən hələ də idarəedici qüvvəsini saxlayan saitlər ahəngi və saitlərlə samitlər ahəngi qanunlarının məna və ahəngdarlıq baxımından, xüsusən şəkilçilərin həm yazılışında, həm də tələffüzündə çox mühüm rolu vardır. Bu qanunlar bir sıra şəkilçilərdə, nəinki saitlərin, hətta samitlərin müxtəlifləşməsinə və şəkilçilərin bir neçə variantlı olmasına, eləcə də bir sıra sözlərdə bu və ya digər samitin hansı çalarlıqda tələffüz olunmasına istiqamətverici təsir göstərir; məsələn: *-maq, -mək, -lıq, -lik, -luq, -lük, -acaq, (-yacaq), -əcək, (-yəcək)* və s. kimi şəkilçilərin belə variantları, yaxud söz sonunda *q* və *k* samitlərinin müəyyən məqamda *ğ, y* samitləri ilə əvəzlənməsi, hətta bir sıra alınma sözlərdə *k* hərfini bəzən *k'* kimi (*kolxoz, akademiya*), bəzən isə *k* kimi (*kino, jaket*) tələffüz olunması məhz saitlərin təsirli tələbatı nəticəsidir.

Belə bir faktı da yada salmalıyıq ki, ədəbi tələffüz ancaq ayrı-ayrı sözlərin düzgün tələffüzü ilə məhdudlaşmır, burada ayrı-ayrı ifadələrin və cümlələrin də tələffüzü nəzərdə tutulur.

Məhz bu baxımdan yanaşdıqda yenə saitlərin rolu xüsusi qeyd edilməlidir. Çünki burada vurğu və intonasiya ilə əlaqədar olaraq, saitlərin vurğulu, vurğusuz, ucadan, alçaqdan, uzadılaraq, qısaldılaraq, cütavazlı, təkavazlı tələffüzü zəruri olur.

Bütün belə cəhətləri nəzərə aldıqda tamamilə aydın olur ki, ədəbi tələffüzdə saitlərin xüsusi nəzərə alınması zəruridir Məhz buna görə də saitlərin tələffüz normalarından ümumiləşdirilmiş halda deyil, ayrı-ayrılıqda bəhs etmək lazımdır.

*§96. **Samitlər.*** Orfoepik normalar baxımından samitlərin tələffüzünün dəqiqləşdirilməsi də çox vacibdir Samitlər, demək olar ki, dilin maddi əsasını təşkil edən ünsürlərdir Buna görə də samitlərin dəyişməsi dilin əsas vahidləri hesab olunan sözlərin dəyişməsinə, bu isə sözlərlə ifadə olunan mənaların dəyişməsinə səbəb olur *at, ad, al, az, aş, as, aç, ac, an, ar, ağ; lal, çal, şal, sal, nal, zal, qal, hal, yal, fal, kal, and, alt, ard, art, qal, qar, qan, qaz, qaç, qac* və s

Bu nümunələrdən aydınca görünür ki, eyni məqamda işlənilən ayrı-ayrı samitlər və ya müxtəlif məqam və şəraitdə işlənilən eyni samit müxtəlif mənalı sözlərin maddi əsasını təşkil etmiş və bu maddi əsaslar üzrə sözlər saitlər vasitəsi ilə formalaşmışdır. Məhz buna görə də samitləri dilin maddi vəsaiti, saitləri isə dilin formalaşdırıcı vəsaiti adlandırmaq olar.

Samitlərin keyfiyyəti, kəmiyyəti sözlərin və morfoloji vahidlərin hansı mənada işlənilməsi üçün əsas olduğu kimi, samitlərin tələffüzü də sözlərin və morfoloji vahidlərin hansı mənada anlaşılması üçün əsasdır

Belə bir əlamətdar halı qeyd edək ki, samitlərin hamısı sözlərdə və morfoloji vahidlərdə eyni məqamda, eyni şəraitdə və eyni dərəcədə işlənilmir. Məsələn, Azərbaycan dilində *ğ* samiti sözün başında işlənilmir; lakin bir sıra şəkilçinin əvvəlində işlənir: *-ğı, -ğu, -ğın, -ğun* (*çalğı, sorğu, qızğın, yorğun*) və s

Eləcə də əsil Azərbaycan sözlərində, demək olar ki, *k, g* samitləri əsasən incə saitlərlə, *q, x, ğ* samitləri isə əsasən qalın saitlərlə yanaşı ola bilir.

Məhz buna görə də bəzi sözlərdə *k, g* samitləri ilə yanaşı gələn qalın saitlərin tələffüzünə həmin saitlər az-çox təsir edir. Məhz buna görə də *Bakı* yazılsa da, əksəriyyət *Baki* tələffüz edir

Xüsusən söz başında və söz sonunda samitlərin yanaşı gəlməsi Azərbaycan dilinin təbiətinə uyğun hal deyildir Buna görə də bir sıra alınma sözlərdə belə məqamlarda olan yanaşı samitlərin tələffüzündə müəyyən çalarlıqlara yol vermək lazım gəlir Bəzən də söz daxilində yanaşı, qoşa samitlərin bir-birinə təsiri nəticəsində belə samitlərdən biri zəifləşir və ya başqa bir çalarlıqla tələffüz olunur Samitlərin tələffüzündə belə hallar çoxdur və ədəbi tələffüzdə bunların bir qisminin nəzərə alınması zəruridir Məhz buna görə də samitlərin hər cür məqam və şəraitdə necə tələffüz edilməli olduğunu dəqiq aydınlaşdırmaq üçün onları da ayrı-ayrılıqda nəzərdən keçirtmək lazımdır.

## TƏLƏFFÜZ ŞƏRAİTİ

*§97. Başlıca şərait haqqında.* Ümumiyyətlə, orfoepiya müxtəlif məqam və şəraitdə işlənilən sözlərin qabığını təşkil edən səslərin yerinə görə necə, hansı məxrəcdə, hansı çalarlıqda tələffüz normaları sistemidir Buna görə də bu normaların xüsusiyyətlərini, əlamətdar cəhətlərini dəqiqləşdirmək üçün, hər şeydən əvvəl, dildəki sözlərin əsas növlərini, işlənmə məqam və şəraitini, fonetik tərkibini nəzərə almalıyıq.

Söz dedikdə, biz söz köklərini, düzəltmə sözləri, müxtəlif şəkilçi qəbul edərək qrammatik əsasda dəyişilmiş sözləri, mürəkkəb sözləri, eləcə də söz birləşmələrini təşkil edən sözlərin baş hərfləri və ya ilk hissələri tərkibindən düzəldilmiş qısaltma sözləri bu ad altında tanıyırıq. Belə sözlər isə söz birləşmələrində, ifadələrdə, cümlələrdə müxtəlif məqam və şəraitdə işlənir.

Buradan belə bir nəticəyə gəlmək olur ki, orfoepik normaları müəyyənləşdirmək üçün dil vahidlərinin tələffüzünü lüğəvi, qrafik və qrammatik olmaq üzrə xüsusən üç şərait əsasında nəzərdən keçirmək vacibdir.

Lüğəvi şərait dedikdə, əsasən səslərin söz daxilindəki yeri və məqamı ilə əlaqədar olaraq necə tələffüz edilmə qayda-qanunları nəzərdə tutulur.

Qrafik şərait dedikdə, müxtəlif idarə, təşkilat adlarını bildirən söz birləşmələrini, mürəkkəb adları, ifadələri təşkil edən sözlərin baş hərfləri, bəzən də ilk hissələri əsasında yazıda sabitləşdikdən sonra şifahi ədəbi dilə köçürülmüş qısaltma sözlərin tələffüz qaydaları nəzərdə tutulur.

Qrammatik şərait dedikdə, sözlərin morfoloji vasitələrlə dəyişilməsi, sintaktik qaydalarla formalaşan müxtəlif tərkiblərin, birləşmələrin bir vahidi kimi işlənilən sözlərin, morfemlərin xüsusən əvvəlindəki və ya sonundakı səslərin necə tələffüz edilmə qayda-qanunları nəzərdə tutulur.

Burada belə bir cəhəti nəzərə almaq lazımdır ki, qrammatik şəraitdən asılı olaraq sözün hətta kökündəki bu və ya digər səsin tələffüzü dəyişilirsə, belə tələffüz lüğəvi şərait tələffüzü hesab olunmur. Eləcə də müəyyən şəkilçi qəbul edərək, yaxud müəyyən sözlə yanaşaraq qrammatik şəraitdə işlənilən sözün tələffüzündə heç bir dəyişiklik olmursa, həmin sözün tələffüzü lüğəvi şərait əsaslı tələffüz



sayılır. Bu vəziyyəti aydınlaşdırmaq üçün *kitab* sözünü nəzərdən keçirək. Lüğəvi şəraitə görə *kitab* sözünün sonundakı *b* bir qədər karlaşmış halda *b*, yəni *p* çalarlığında tələffüz olunur. Həmin sözə samit səslə başlanan şəkilçi bitişdirildikdə və ya söz yanaşdırıldıqda, sondakı *b* yenə *p* çalarlığında tələffüz olunur Deməli, qrammatik şərait tələffüzü dəyişdirmir: *kitabsız, kitabda, kitab var, kitab satır* Lakin *kitab* sözünə saitlə başlanan şəkilçi bitişdirildikdə və ya söz yanaşdırıldıqda, qrammatik şəraitin təsiri ilə sondakı *b* səsi lüğəvi şəraitdə olduğu kimi karlaşmış halda deyil, əsil məxrəcinə müvafiq, yəni cingiltili bir səs kimi tələffüz olunur: *kitabı, kitaba, kitabın, kitab aldım, kitab azdır* və s.

Beləliklə, aydın olur ki, eyni sözün müəyyən qrammatik şəraitdəki tələffüzü ilə lüğəvi şəraitdəki tələffüzü eyniyyət təşkil edirsə, deməli, qrammatik şəraitdən asılı olaraq dəyişiklik baş vermir və söz lüğəvi şərait tələffüzündə sabit qalır. Bəzən isə qrammatik şəraitdən asılı olaraq sözün tələffüzündə müəyyən fərq əmələ gəlir və beləliklə, söz lüğəvi şərait əsasında deyil, qrammatik şərait əsasında tələffüz olunur

Burada nəzərə alınmalıdır ki, qrammatik şərait əsasında olan tələffüz sözün sonu, sözə bitişən şəkilçi və sözün əvvəli ilə əlaqədar tələffüzdür. Sözün orta hissəsinin tələffüzü qrammatik şəraitə görə əsasən dəyişilmir və lüğəvi şərait əsasında olan normalara muvafiq qalır.

## LÜĞƏVİ ŞƏRAİTDƏ TƏLƏFFÜZ

*§98. Səslərin lüğəvi şəraiti.* Dilin ən kiçik vahidləri hesab olunan səslər əsasən sözün tərkib hissəsi halında işlənildikdə mənalı vahidlərə çevrilir. Buna görə də tələffüz, birinci növbədə, səslərin söz qabığı keyfiyyətini kəsb etməsi ilə, yəni sözün üzvi-maddi hissələri kimi işlənilməsi ilə bağlıdır, səslərin belə lüğəvi şəraitdə işlənilməsi isə tələffüzün lüğəvi şəraitini təşkil edir

Müasir Azərbaycan ədəbi dilində olan sözlərin fonetik tərkibini nəzərdən keçirdikdə çox rəngarəng fonetik çalarlıqlarla qarşılaşırıq. Müasir ədəbi dildə sait və samit səslərlə başlanan və bitən sözlər vardır. Lakin diqqətlə yoxladıqda aydın olur ki, Azərbaycan dilində olan saitlərin və samitlərin hamısı sözün tərkibində, xüsusən sözün başında və sözün sonunda eyni dərəcədə işlənilmir Bəzi saitlər,

samitlər sözün hər yerində geniş dairədə işlənilir. Bəzi saitlərin, samitlərin işlənilmə imkanı isə məhduddur, hətta elə sait, samit var ki, söz başında işlənilmir (ı saitı, ğ samiti), bəzi saitlər də var ki, xüsusən əsil Azərbaycan sözlərində, ancaq ilk hecada işlənilir, sonrakı hecalarda və sözlərin sonunda işlənilmir (*o, ö, e*) Belə saitlər alınma sözlərin hər yerində işlənir.

Azərbaycan dilinin əlamətdar cəhətlərindən biri də budur ki, söz başında və ya söz sonunda iki, üç yanaşı samit ola bilməz. Hətta XI əsrin məşhur turkoloqu Mahmud Kaşğarı bu xüsusiyyətin umumən türk dillərinə aid olduğunu ayrıca qeyd etmişdir (*alt, üst, alp* kimi bir neçə söz mustəsnadır) Buna görə də başqa dillərdən alınma sözlərin başında və ya sonunda yanaşı gələn samitlərin tələffüzündə şəraitdən və samitlərin növündən asılı olaraq az-çox dəyişiklik etmək lazım gəlir Hətta sonuncu samitlər bəzən ixtisar olunur· *dost* sözü *dos, kommunist* sözü *kommunis* kimi tələffüz olunur.

Azərbaycan dilinin əlamətdar cəhətlərindən biri də söz daxilində yanaşı saitlərin işlənilməməsidir Lakın muasir Azərbaycan ədəbi dilində bəzi alınma sözlərdə yanaşı saitlər işlənilir ki, belə sözlərin yanaşı saitlərlə yazılmasına baxmayaraq tələffüzündə dəyişiklik edilir

Sözün daxilində işlənilən samitlərin məxrəclərindən asılı olaraq hansı saitlərlə yanaşı gələ bilməsi, eləcə də söz ortasında yanaşı samitlərin eyni məxrəcli yaxın və uzaq məxrəcli olması da belə fonetik tərkibli sözlərin tələffüzünə az-çox təsir göstərir. Yanaşı samitlərdən birinin məxrəci dəyişdirilir, bəzən hətta yanaşı samitlərdən biri tələffüz olunmur, ixtisara düşür. Bəzən isə, xüsusən alınma sözlərdə, eyni hərfi işarə onunla yanaşı gedən saitə görə başqa bir samit məxrəcində tələffüz olunur (*kino, kolxoz*). Beləliklə, bir daha aydın olur ki, sözlərin rəngarəng fonetik tərkibinə müvafiq halda sözlərin tələffüzündə də rəngarəng çalarlıqlara yol verməк lazım gəlir

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, bir sıra sözlərin sonundakı və əvvəlindəki səslərin tələffüzü qrammatik şəraitdən asılı olaraq, yəni sözün şəkilçi qəbul etməsi ilə və ya başqa bir sözə yanaşması, yaxud qoşulması ilə əlaqədar olaraq dəyişilə bilər: *papaq* (*x*), *papağın, papağ al.* Lakin sözlərin orta hissəsini təşkil edən səslərin tələffüzu ancaq luğəvi şərait əsasında müəyyənləşir və başqa şəraitdə də luğəvi şəraitdə olduğu kimi tələffüz edilir. Buna görə, umumiyyətlə, sözlərin necə tələffüz edilməsini müəyyənləşdirərkən, birinci növbədə, sözlərin fonetik qabığı ilə üzvi surətdə bağlı olan şəraiti, yəni lüğəvi şəraiti nəzərə almaq zəruridir.



Sözlərin fonetik qabığını formalaşdıran sait və samit səslərin söz daxilində hansı məqamda işlənilməsi ilə bağlı olaraq necə tələffüz edilməsi məhz lüğəvi şərait əsasında müəyyənləşdirilir. Bu şərait isə sözün tərkibində saitlərin, samitlərin hər hansı məqamda, yəni söz başında, söz ortasında, söz sonunda işlənilməsi ilə, həm də eyni məxrəcli, yaxın məxrəcli və ya uzaq məxrəcli səslərlə yanaşı olması ilə bağlıdır. Məhz buna görə də lüğəvi şəraitdə tələffüzü müəyyənləşdirərkən sözlərin tərkibindəki saitlərin və samitlərin belə məqamları əsas meyar kimi diqqət mərkəzində olmalıdır. Məhz bunu nəzərə alaraq lüğəvi şəraitdə tələffüz bəhsini s a i t l ə r i n  t ə l ə f f ü z ü, s a m i t l ə r i n  t ə l ə f f ü z ü kimi iki əsas bölmədə nəzərdən keçirməyi daha müvafiq bildik.

## SAİTLƏRİN TƏLƏFFÜZÜ. SAMİTLƏRLƏ YANAŞI SAİTLƏRİN TƏLƏFFÜZÜ

***§99. A saiti.*** Müasir Azərbaycan ədəbi dilində ən çox işlənən saitlərdən biri *a* saitidir Buna görə də *a* saitinin tələffüz çalarlığı çoxdur Ümumiyyətlə, muasir ədəbi dildə işlənən sözlərin bir qisminin əsli ilə əlaqədar fonetik təbiətindən, bir qismində isə fonetik şəraitindən, bəzən də intonasiyon çalarlıqdan asılı olaraq muəyyən hecalardakı *a* saitı ya uzun (*a*·), ya qısa (*a*), ya adi (*a*), ya vurğulu (*á*), ya uzadılmış vurğulu (*ā*), ya da diftonqlaşmış $\widehat{ou}$ kimi müxtəlif çalarlıqda tələffüz olunur.

*A* s a i t i  a ş a ğ ı d a k ı  m ə q a m  v ə  ş ə r a i t d ə  u z u n  t ə l ə f f ü z  o l u n u r:

1. Əsasən ərəb və fars dillərindən alınma sözlərin tərkibində aşağıdakı məqamlarda olan *a* saiti bir qədər uzadılaraq tələffüz olunur.

a) Birinci, bəzən də ikinci hecadan sonrakı hecada incə saitlərdən, xüsusən *ə, e, i* saitlərindən biri gələrsə, ondan qabaqkı hecada olan *a* azacıq uzun tələffüz olunur: *a di, a lim, a·ləm, ka.tib, sa kit, qa:bil, sa·hil, ma.təm, ma ne, bəra bər, təra nə, ləya·qət, müha ribə, müda.fiə, müqa:vimət* və s

Q e y d  Belə alınma sözlərdən bəziləri ahəng qanunu əsasında azərbaycancalaşsa da hələlik əslinə uyğun olaraq *a* saitinin azacıq uzadılması ilə tələffüz olunur *za lım qa zı* və s Belə sözlər sərbəst uslubda adi *a* ilə tələffüz olunur *qazı, zalım* və s

b) Fars və ərəb dillərindən alınma sözlərin bəzisində əslinə uyğun olaraq birinci hecadakı *a* saiti azacıq uzun tələffüz olunur: *a gah, a ram, a:sudə, qa·nun, qa·mus, ma:hur, na:mus* və s.

Qeyd Belə sözlər tədricən öz əslindən uzaqlaşır, dilimizin əsas fonetik sisteminə – təbiətinə uyğunlaşaraq buradakı uzun *a* bu sözlərin bəzisində adi *a* kimi tələffüz olunur. Lakin hələlik bu hal ümumi orfoepik normaya görə məqbul sayılmır, müstəsna hallarda ancaq sərbəst üslubda belə tələffüzə yol verilir: *agah, aram, namus, dava* və s

c) Fars dilindən alınma bəzi sözlərdə *ba-, na-* ön şəkilçilərindəki *a* saiti bir az uzun tələffüz olunur: *ba:həm, ba.hava, ba.məzə, na.dan, na.saz, na·gah, na dinc, na·tamam, na:xələf* və s.

Qeyd Belə şəkilçilərlə düzəlmiş bəzi sözlərdə *a* saiti azərbaycancalaşmış halda, yeni adi *a* ilə tələffüz olunur. *nahaq, naxoş* və s.

ç) Bəzi alınma sözlərdə vurğu sözün son hecasına deyil, əvvəlki hecalara, xüsusən baş hecaya düşərsə, həmin hecanın vurğulu saiti, o cümlədən vurğulu *a* azacıq uzadılaraq tələffüz olunur: *bāza, fāza, kābel* və s.

d) Ərəb dilindən alınma sözlərin bir qisminin əslində olan ayn (ع) səsi onunla yanaşı gələn saitin, o cümlədən *a* səsinin uzadılması ilə əvəzlənir ki, belə sözlərdə uzun tələffüz olunan *a* orfoqrafiya qaydasına görə qoşa *a* ilə yazılır· *saat, maaş, maarif, inşaat, camaat* və s.

Orfoepik qaydalara görə belə sözlərdə iki adi *a* kəmiyyətində – uzunluğunda deyil, bir *a* səsinin azacıq uzadılmış kəmiyyətində tələffüz olunur: *sa.t, ma ş, ta.m, ma·rif, inşa·t, cama:t* və s. Bununla belə, bu cür sözlərin heca bölgüsündə hər *a* bir hecanın əsası kimi tanınır və hətta sözün bir hissəsini ikinci sətrə keçirmək lazım gəldikdə, birinci *a* əvvəlinci sətirdə, ikinci *a* isə sonrakı sətirdə yazılır· *maaş – ma-aş* və s.

2. Vurğulu *a* saiti aşağıdakı hallarda azacıq uzadılaraq tələffüz olunur.

a) Təkidlə sadalanan sözlərin son hecasındakı *a* saiti bir az uzadılaraq tələffüz olunur: *atā, anā, qardāş, yoldāş, vətəndāş, sirdāş* və s.



Qeyd. Belə hallarda saitin uzadılması, əsasən tam üslubun əlamətdar cəhətidir, sərbəst üslubda uzadılma vacib deyil

b) Sual sözü və sual şəkılçisi olmayan sual cümlələrində xəbərin son hecasındakı *a* saiti sual intonasiyası çalarlığı ilə qovuşaraq azacıq uzun tələffüz olunur *Belə ola.r? Kişi də ağlaya r? Sən oxuyursa·n? Oxumara m?*

3. Əgər sözün ikinci hecasını təşkil edən *a* saitindən sonra üçüncü hecanı təşkil edən *o* və ya *u* saitindən əvvəl *v* samiti olarsa, tələffüz zamanı *v* samiti düşur. *A* saiti isə sonrakı *o* və ya *u* saiti ilə qovuşmuş halda *o͡u* diftonqu çalarlığında azacıq uzadılaraq tələffüz olunur. *yasavul – yaso͡ul, qaravul – qaro͡ul* və s.

II *A* saiti aşağıdakı hallarda qısa tələffuz olunur:

1. Vurğusuz və vurğulu *a* saitləri ilə düzəlmiş cüthecalı sözlərin ilk örtülü hecasındakı vurğusuz *a* azacıq qısa tələffüz olunur. *qa r-dáş, qa rá, ba bá, xa.lá, ta.lá, ta.lán, qa yá, qa zán, qa rğá* və s

2. İkidən artıq hecalı sözlərdə vurğulu hecadan əvvəlki hecada olan *a* səsi azacıq qısa tələffüz olunur: *qara çí, qara nqúş, aza cíq, dağa.rcíq, kama.nçá, tapa nçá* və s.

Qeyd Əgər *a* saiti olan hecadan əvvəlki hecadakı sait qısa tələffüz olunursa, vurğusuz *a* saiti adi halda tələffüz olunmalıdır *ki tabça, si lahdaş* və s
Başqa şərait və məqamlarda *a* saiti əsasən adi kəmiyyətdə tələffüz olunur

Ümumiyyətlə, dilimizin təbiətinə və əsas qanununa uyğun olaraq sözlərin son hecasındakı *a* saiti vurğulu, əvvəlki hecalardakı *a* saiti isə vurğusuz tələffüz olunur.

***§100. I saiti.*** Azərbaycan ədəbi dilində *ı* saiti nisbətən az işlənilən saitlərdəndir. Bu saitin əlamətdar cəhətlərindən biri də budur ki, o əsasən Azərbaycan sözlərində işlənir və söz köklərinin başında olmur. Elə buna görə də *ı* saitinin tələffüz çalarlığı da məhduddur Müasir Azərbaycan ədəbi dilinin orfoepik qaydalarına görə *ı* saiti əsasən adi kəmiyyətdə, vurğulu və ya vurğusuz, bəzən azacıq uzadılaraq, bəzən isə daha qapalı, yəni *i* çalarlığında tələffüz olunur. Bu baxımdan *ı* saitinin xüsusən aşağıdakı məqam və şəraitdə tələffüzünü nəzərə almaq lazımdır:

I. *I saiti aşağıdakı hallarda azacıq uzadılaraq tələffüz olunur:*

1. Təkidlə sadalanan sözlərin son hecasındakı ı saiti azacıq uzadılaraq tələffüz olunur: *qı:r, yı.ğ, qırmızı:, sarı:, yaşı l* və s.

2 Sual şəkilçisi və sual sözü olmayan sual cümlələrində xəbərin son hecasındakı ı saiti azacıq uzadılaraq tələffüz olunur: *O bir şey yazı·r? Heç yazmı·r? Axtardığın kitabı tapdı.n? Nəyi, kitabı.?*

II. *I* saiti aşağıdakı hallarda az və ya çox qısa tələffüz olunur.

Vurğulu saitlə başlayan şəkilçi bitişdirərkən birinci hecası *a* ilə bitən bir qrup ikihecalı sözün ümumən cingiltili, xüsusən sonor samitlərdən bu və ya digəri ilə örtülən və qapalılaşan ikinci hecasındakı vurğulu ı saiti ya çox qısalıb düşür, ya da azacıq qısa tələffüz olunur:

a) ı saiti düşən sözlər: *alın – alnı, qarın – qarnı, qayın – qaynı, bağır – bağrı, ağız – ağzı* və s.

b) ı saiti qısalan sözlər: *bayıl – bayı.la, balıq – balı.ğa, çadır – çadı ra – çadı rı – çadı rın* və s

III Fonetik şəraitə görə ı saiti bəzən daha qapalı, əksərən isə adi kəmiyyətdə tələffüz olunur:

a) sözün sonundakı ı-dan əvvəl dilönü və dil-diş samitlərindən, xüsusən *ş, ç, k* samitlərindən biri olarsa, ı saiti daha qapalı, dilönü məxrəcində *i* çalarlığında tələffüz olunur: *Baki, naşi, kaşi, yaxşi, qayçi* və s ;

b) başqa hallarda ı saiti, ümumiyyətlə, son hecada vurğulu, baş və orta hecalarda isə vurğusuz, adi kəmiyyətdə tələffüz olunur: *qızıl, qıfıl, artıq, sırtıq, cığır* və s.

***§101. O saiti.*** Müasir Azərbaycan ədəbi dilində *o* saiti əsil Azərbaycan sözlərində əsasən birinci hecada, alınma sözlərdə isə bütün hecalarda işlənir. Buna görə də *o* saiti əksərən adi kəmiyyətdə vurğusuz, bəzən isə vurğulu olur. Sözlərin əslindən, fonetik tərkibindən, bəzən də intonasiya və məna çalarlığından asılı olaraq *o* saiti uzadılmış və ya diftonqlaşmış halda da tələffüz olunur.

I. Aşağıdakı hallarda *o* saiti azacıq uzadılaraq tələffüz olunur:

1 Sözün *ov* fonetik tərkibi ilə bitən birinci örtülü hecasındakı *v* samiti düşür, *o* saiti isə uzun tələffüz olunur: *do.şan* (dovşan), *do ğa* (dovğa), *lo·ğa* (lovğa), *ço·dar* (çovdar), *so·qat* (sovqat) və s.



Qeyd Burada uzanan *o* səsini sona doğru azacıq *u* çalarlığında, daha doğrusu, bir qədər *o͡u* diftonqu çalarlığında tələffüz etmək məsləhətdir *ço͡udar, do͡uşan* və s.

2. Azərbaycan ədəbi dilində *ov* fonetik tərkibi ilə bitən bir neçə söz var ki, bunların da tələffüzündə *v* hərfi düşür, *o* saiti *o͡u* çalarlığında azacıq uzadılır: *plo͡u, alo͡u, buzo͡u, qıro͡u* və s.

3 Alınma beynəlxalq terminlərin bir qismində, xüsusən *loq* hecası ilə bitən sözlərdə həmin hecadan əvvəl gələn vurğulu *o* saiti azacıq uzun tələffüz olunur: *filōloq, texnōloq, leksikōloq* və s.

Qeyd Əgər belə sözlərin sonundakı *loq* morfemindən *logıya* morfemi düzəldilərsə, əvvəlki *o* adi halda, *logıya* morfemindəki *o* saiti vurğulu və azacıq uzadılaraq tələffüz olunur *filolōgiya, fonolōgıya* və s

4. Təkidlə sadalanan sözlərdəki vurğulu *o* saiti azacıq uzadılaraq tələffüz olunur: *o t, o.x, o.d, yo.l, qo.l, so l* və s.

II. Başqa hallarda *o* saiti adi kəmiyyətdə ya vurğulu, ya da vurğusuz tələffüz olunur: *on, don, odun, otaq, soba, çoban, oyun, qoyun* və s.

Qeyd Burada belə bir halı yada salmaq lazımdır ki, dilimizə rus dili vasitəsilə keçən bir sıra sözlərin tələffüzündə rus dili tələffüz normasına uyğun olaraq *o* saiti *a* ilə əvəzlənir· *kalxoz, savxoz, savet, kallektiv, kammunist, kamsamol* və s

Belə sözlərdə vurğusuz *o* saitinin tam *a* halında deyil, daha açıq *o* kimi, yeni azacıq *a* çalarlığında tələffüzü məsləhətdir[1]

***§102. U saiti.*** Müasir Azərbaycan ədəbi dilində *u* saiti hər məqamlarda işlənilən saitlərdəndir və Azərbaycan dilindəki sözlərin çoxunda adi kəmiyyətdə həm vurğulu, həm də vurğusuz tələffüz olunur. Çox məhdud miqdarda sözün tərkibində *u* saiti azacıq uzun və ya azacıq qısa tələffüz olunur ki, bu da əsasən aşağıdakı şərait və məqamlarla əlaqədardır:

[1] Р И Аванесов Русское литературное произношение М , 1958, стр 32, 139

I. Uzun tələffuz olunur:

1 Ərəb və fars dillərindən alınmış bəzi sözlərdə incə saitlə formalaşan hecalardan əvvəlki hecada olan *u* saiti azacıq uzun tələffüz olunur: *ümu·mi, xüsu:si, asu·də, nümu.nə, Füzu:li* və s.

2. Təkidlə sadalanan sözlərdəki vurğulu *u* saitı azacıq uzadılaraq tələffüz olunur: *dūz, būz, qoyūn, quzū, toyūx* və s.

3. Sual şəkilçisi və sual sözü olmayan sual cümlələrinin xəbərındəki sonuncu hecada olan *u* saiti də azacıq uzun tələffüz olunur: *Belə olu r? Kitabı sən də oxudu.n?* və s.

4 Əslində vurğulu və ya vurğusuz uzun *u* ilə tələffüz olunan bəzi sözlərdə əslinə uyğunluq mühafizə olunur: *tu.fan, Tu la, du.ma* və s

II. Qısa tələffüz olunur:

1. Söz başında olan vurğusuz *u* saiti ikinci hecadakı vurğulu qalın saitin təsiri ilə azacıq qısalmış halda tələffüz olunur: *u.cá, u.şáq, u cúz, u záq, u tán, u zán* və s.

2 Birinci hecası *o* və ya *u* ilə bitən, ikinci hecası cingiltili və xüsusən sonor samitlə örtulən və qapalılaşan bir qrup ikihecalı sözə vurğulu saitlə başlanan şəkilçi bitişdirildikdə şəkilçi bitişən ikinci hecadakı *u* saiti ya tamam qısalıb düşur, ya da azacıq qısa tələffüz olunur· *burun – onun burnu, boyun – onun boynu, boynuna bax, oğul – oğlu, oğu la, qoyun – qoynuna bax, oyun – oyu nun əvvəli* və s.

***§103. Ə saiti.*** I. Müasir Azərbaycan ədəbi dilində *ə* saiti də sözün hər yerində işlənən səslərdəndir. Ümumiyyətlə, *ə* saiti Azərbaycan ədəbi dilindəki sözlərin və şəkilçilərin əksəriyyətində adi kəmiyyətdə, vurğulu və vurğusuz tələffüz olunur: *ә́l, əlә́k, əlcә́k, gә́l, dә́r, dərә́, çəmә́n, kəllә́, yasəmә́n, çiçә́k, kəpənә́k, təpә́, təpә́l, gələcә́k, kəndlərdә́* və s.

II. *Ə* saiti aşağıdakı hallarda azacıq uzun tələffüz olunur·

1 Xüsusən ərəb dilindən alınma bir sıra sözlərin əslındə olan və ayn (ع), həmzə (ء) adlı hərfi işarələrlə yazılan boğaz səsi düşdüyundən, ondan əvvəlki *a* çalarlıqlı sait səslər azərbaycanca əksərən uzadılmış *ə* kimi tələffüz olunur. *ə·la, bə·zi, və·də, mə·lum* və s.

2 Sual şəkilçisi, sual sözü olmayan sual cümlələrinin xəbərlərındə və sual intonasiyalı sözlərdə sonuncu hecadakı *ə* səsi azacıq uzun tələffüz olunur *Mən gərək tək gedə.m? Evə ? İkimiz bərabə r?*

3 Təkidlə sadalanan sözlərin son hecasındakı *ə* saiti azacıq uzadılaraq tələffüz olunur: *qələ:m, dəftə:r, kimlə:r? Həsə:n, Azə:r, mə:n, sə n* və s.



***§104. E saiti.*** I. Müasir Azərbaycan dilində *e* saiti ən az işlənən saitlərdəndir. Ümumiyyətlə, *e* saitı sözlərin ilk hecasında, bəzi alınma sözlərdə isə sonrakı hecalarda da işlənir.

Sözlərin tərkibində *e* saiti, əsasən, adi kəmiyyətdə ya vurğulu, ya da vurğusuz tələffüz olunur *el, bel, tel, get, keç, elə, belə* və s.

Bir neçə alınma sözdə ikinci hecada olan vurğusuz *e* səsi son dərəcə qısaldılmış halda tələffüz olunur Buna görə də belə sözlərdə, xüsusən sərbəst üslubda, qısaldılmış *e* saiti ixtisar olunur. Məsələn, *telefon, teleqraf* sözləri *telfon, telqraf* kimi tələffüz olunur *Teleskop, televızor* sözlərındə isə ikıncı *e* qısaldılmış halda *i* çalarlığında tələffüz olunur: *teli skop, teli vizor* və s

II. *E* saiti aşağıdakı hallarda azacıq uzun tələffüz olunur:

1. Ərəb dilindən alınma bəzi sözlərın əslində olan və (ع), (ء) kimi hərfi işarələrlə yazılan boğaz səsi düşdüyündən, ondan əvvəlkı yarımaçıq *e, i* və bəzən qapalı *a* əvəzinə azərbaycancada azacıq uzadılmış *e* tələffüz olunur. *e.lan, e.mal, e zam, e·tiraz, e tiqad, e tiraf, e caz, me yar, ne.mət, me mar* və s

2 Bəzi alınma sözlərdə olan güclu vurğulu *e* azacıq uzadılaraq *ē* kimi tələffüz olunur *ēra, ētika, ēpos, estētika* və s.

3. Sual şəkilçisi, sual sözü olmayan sual cümlələrının xəbərlərındə və ya sual intonasiyalı sözlərdə sonuncu hecadakı *e* azacıq uzun tələffüz olunur: *Mağazadan nə aldın, jake t?*

4 Təkidlə sadalanan sözlərin son hecasındakı *e* saitı azacıq uzadılaraq tələffüz olunur: *e l, te l, ye l, se l, be l* və s.

***§105. İ saiti.*** Müasir Azərbaycan dilində *i* saiti sözlərın hər yerındə işlənilən şərait və məqamla əlaqədar surətdə ya vurğusuz, ya da vurğulu tələffüz olunan saitlərdəndir. Vurğulu *i* iki və ikidən artıq hecalı sözlərın əksərən son hecasında olur Təkhecalı sözlərdə isə vurğusuz *i* olmur

Müasir Azərbaycan ədəbi dilindəki sözlərin əksərıyyətində *i* saiti adi kəmiyyətdə, bəzi sözlərdə isə ya azacıq uzun, ya da azacıq qısa tələffüz olunur.

I. *İ* saiti aşağıdakı hallarda azacıq uzun tələffüz olunur·

1. Fars dilindən alınma *bi-* ön şəkilçisi ilə düzəlmiş sözlərdə həmin şəkilçinin *i* saiti azacıq uzun tələffüz olunur· *bi tərəf, bi savad, bi·huş, bi xəbər, bi çarə, bi·xətər, bi şərəf* və s.

2. Bir sıra alınma sözlərin ilk və ya orta hecalarında *i* saiti əslinəuyğunluq çalarlığından azacıq uzun tələffüz olunur: *şi.və, ni zə, əqi də, qəsi də, si ma* və s.

3. Azərbaycan dilində bəzi köməkçi sözlərin başında *i* saiti azacıq uzun tələffüz olunur· *i di, i·miş, i.kən, i sə, i lə* və s.

Qeyd Bu sözlərdəki *i* saitinin uzun tələffüzü daha çox tam üslubla bağlıdır, sərbəst üslubda isə adi kəmiyyətdə tələffüz olunur

4. Təkidlə sadalanan sözlərdə və sual şəkilçisi, sual sözü olmayan sual cümlələrinin xəbərlərində və ya sual intonasiyalı sözlərdə sonuncu hecadakı *i* saiti azacıq uzadılaraq tələffüz olunur· *bi r, ikı , yeddi., səkkı:z, si z, bi·z, Əli , Vəli·* və s.

II *İ* saiti aşağıdakı hecalarda azacıq qısa tələffüz olunur:

1 İkı və ikıdən çox hecalı sözlərin başında gələn vurğusuz *i* azacıq qısa tələffüz olunur: *i kı, i.nək, i pək, i sti* və s.

2. Bəzi alınma sözlərin son hecasında vurğulu qalın sait olarsa, ondan əvvəl gələn hecadakı *i* saiti azacıq qısa tələffüz olunur: *kı tab, xi tab, iştı rak, inqi lab, inti.zam, inti bah* və s.

Qeyd Belə sözlərin başlanğıcında olan *i* adı kəmiyyətdə tələffüz olunur Sərbəst üslubda qısa da tələffüz etmək olar
Bəzi alınma sözlər var kı, bunlar əslinə uyğun olaraq birhecalı yazılır *əmr, sədr* və s Lakin belə yazılmalarına baxmayaraq bu sözlərin tələffüzündə sonuncu *r* samitindən əvvəl qısa *i* saitı artırılır, yeni *əmi r, sədi r* kimı tələffüz olunur kı, belə tələffüz də normal sayılır

3. Bəzi alınma və əslən təkhecalı sözlər azərbaycancalaşdırılaraq ikıhecalı edılmişdir. Buna görə də belə sözlərə saitlə başlanan şəkilçi bitişdirıldikdə, sözün ikıncı hecasını təşkıl edən *i* saiti düşür: *ətir – ətri, qəbir – qəbri, fikir – fikri, isim – ismi, şəkıl – şəkli* və s.

Belə sözlər təklıkdə və ya samitlə başlanan şəkılçi qebul edərək işlənərkən ikinci hecadakı *i* saiti azacıq qısa və ya adi kəmiyyətdə tələffüz olunur ki, hər ikı hal normal sayılır.

***§106. Ö saiti.*** Azərbaycan dilinin təbiəti ilə uzvi surətdə bağlı olan səslərdən bırı də *ö* saitidir Lakın ədəbi dildə *ö* saitinın istifadə dairəsi məhduddur. Bir neçə sözü nəzərə almasaq, demək olar kı, *ö* saiti sözün ancaq birıncı hecasında işlənir, şəkilçilərdə isə işlənilmir.



Buna görə də orfoepik norma baxımından *ö* səsinin tələffüzündə çox da rəngarəng çalarlıq yoxdur

Müasir Azərbaycan ədəbi dilindəki *ö* səsi sözün mənşəyindən və sözdəki məqamından asılı olaraq ya adi kəmiyyətdə, ya da azacıq uzadılmış halda, həm vurğulu, həm də vurğusuz tələffüz olunur.

I. *Ö* saiti aşağıdakı hallarda azacıq uzun tələffüz olunur:

1. Ərəb dilindən alınma bəzi sözlərdə açıq dodaq saitlərindən sonra gələn boğaz səsi düşdüyündən bunun əvəzinə açıq dodaq saiti *ö* azacıq uzun tələffüz olunur: *şö lə, şö.bə, mö·təbər, mö tədil, mö cuz, mö cüzə, mö·tərizə, mö·min, rö ya* və s

2. Müasır Azərbaycan ədəbi dilində birıncı hecası *öv* səsləri ilə, ikıncı hecası isə incə saitlərdən bırı ilə, xüsusən *ə* saitı ilə formalaşan bəzi alınma sözlərin ilk hecasının sonundakı *v* samitı tələffüzdə düşür Bunun əvəzində isə *ö* saiti azacıq uzun və sona doğru qapalı, yenı enişli diftonq (*ö:ü*) çalarlığında tələffüz olunur: *tö übə* (*tövbə*), *nö:übə* (növbə), *kö:üşən* (kövşən), *kö.ürək* (kövrək), *tö üsiyə* (tövsiyə), *kö·üsər* (*kövsər*), *Şö ükət* (Şövkət), *Şö·üqi* (Şövqi) və s.

3 Azərbaycan dilində *öv* səsləri ilə bitən bir neçə söz də var ki, bunların tələffüzündə sondakı *v* düşür və *ö* saiti azacıq uzun və sona doğru diftonq, yenı *ö·ü* çalarlığında tələffüz olunur. *bütö.ü* (bütöv), *bulö.ü* (bulöv), *kösö.ü* (kösöv) və s.

4. Təkidlə sadalanan sözlərdə, sual şəkilçisi, sual sözü olmayan sual cümlələrinın xəbərlərində, ya da sual ıntonasiyalı sözlərdə vurğulu hecadakı *ö* azacıq uzun tələffüz olunur. *ö.z, sö z, gö.z, kö z, dö.z, bir sö.z? o göy gö.z?* və s.

II Başqa hallarda *ö* saiti adi kəmiyyətdə ya vurğulu, ya da vurğusuz tələffüz olunur: *ördək, höcət, ölçü, özgə, cövr, sövq, şövq, şök* və s.

***§107. Ü saiti.*** Muasır Azərbaycan ədəbi dilində *ü* saiti sözlərin təkcə ilk hecalarında deyil, sonrakı hecalarda və şəkilçilərdə də işlənilır

Müasir Azərbaycan ədəbi dilindəki sözlərdə *ü* saiti əksərən adi kəmiyyətdə, bəzı intonasiya mahiyyətli hallarda azacıq uzadılır. Bəzi sözlərin ilk hecasında isə azacıq qısaldılmış halda tələffüz olunur.

I. *Ü* saiti aşağıdakı hallarda azacıq uzun tələffüz olunur:

1. Təkidlə sadalanan sözlərdə *ölçü., bölgü·, ülgu* və s

2. Sual cümlələrində: *Sənin gözün görü r? Sağ gözu n?*

II. *Ü* saiti aşağıdakı hallarda vurğusuz, azacıq qısa tələffüz olunur:

1 İlk örtüsüz-açıq hecada: *ü.tü, ü.zük, ü rək, ü.sul, ü.çün, ü.tük* və s

2. İlk örtülü-açıq hecada: *bü.tün, bü.kük, bü löv, bü.töv, qü.sur* və s.

Qeyd Aşağıdakı sözlərə saitlə başlanan şəkilçi əlavə edildikdə ikinci hecadakı *ü* saiti yazıda da, tələffüzdə də düşür. *ömür – ömrü, üfüq – üfqi* Lakin *ufüq* sözünə saitlə başlanan ayrı şəkilçilər əlavə edildikdə, ikinci hecadakı *ü* saiti yazıda saxlanılır, tələffüzdə düşür *üfüqə, üfuqün* sözləri *üfqə, üfqün* kimi tələffüz olunur.

## YANAŞI SAİTLƏRİN TƏLƏFFÜZÜ

***§108. Yanaşı saitlilik haqqında.*** Azərbaycan dilinin təbiəti ilə əlaqədar əlamətlərdən biri də budur ki, onun əsas vahidlərindən olan kök və şəkilçilərdə iki sait yanaşı gəlməz. Saitlər arasında mütləq samit olmalıdır. Elə buna görə də müasir Azərbaycan dilində belə bir qanun var ki, saitlə bitən sözə saitlə başlanan şəkilçi bitişdirildikdə araya müəyyən bir samit artırılır və artırılan samit, ümumiyyətlə, "bitişdirici samit" adlanır *ata – ata + n + ın, ata + s + ı, ata + y + a* və s.

Bu nümunələrdə *ata* sözü ilə ona bitişdirilən *-ın, -ı, -a* şəkilçiləri arasına artırılmış *n, s, y* məhz belə bitişdirici samitlərdir.

Lakin müasir Azərbaycan dilinin lüğət tərkibində bir sıra alınma sözlər var ki, orfoqrafik qaydalara görə bunların tərkibində sait qoşalığına yol verilir.

Belə sözlərdəki sait qoşalığı müxtəlif çalarlıqlıdır, yəni ya iki eyni saitdən, ya da iki müxtəlif saitdən ibarət olur və söz tərkibində müxtəlif məqamda yerləşir. Belə vəziyyət isə sözlərdəki yanaşı saitlərin müxtəlif çalarlıqda tələffüzünə müəyyən dərəcədə təsir göstərir Məhz buna görə də sözlərin orfoepik normalarından bəhs edərkən belə yanaşı saitlərin eyni və ya müxtəlif olmasını, sözün əvvəlində, ortasında və ya sonunda yerləşməsini, sözün sait qoşalığı ilə başlamasını, bitməsini nəzərə almaq zəruridir

***§109. Eyni sait qoşalığı*** Eyni sait qoşalığı müasir Azərbaycan dilindəki sözlərin əksərən ortasında, bəzən də sonunda olur. Hətta bəzi sözlər eyni sait qoşalığı ilə bitir, lakin eyni sait qoşalığı ilə başlanan heç bir söz yoxdur. Belə sait qoşalığı sözün tərkibindəki məqamından asılı olaraq müxtəlif çalarlıqda tələffüz edilir.



Müasir Azərbaycan dilində, başlıca olaraq, dörd sait əsasında formalaşan eyni sait qoşalığının aşağıdakı növləri vardır·

1. **AA:** Belə sait qoşalığı sözün hər yerində bir uzun *a* kəmiyyətində tələffüz olunmalıdır: *maaş – ma·ş, maarif – ma rif, saat – sa t, camaat – cama·t* və s.

2. **ƏƏ:** Belə sait qoşalığı hər yerdə bir uzun *ə* kəmiyyətində tələffüz olunmalıdır.

Söz ortasında *təəccüb – tə ccüb, təəssüf – tə ssüf, təəhhüd – tə·hhüd* və s.

Söz sonunda: *əmtəə – əmtə., mətbəə – mətbə.* və s.

3. **İİ:** Ancaq bir neçə sözün sonunda yazılan *ii* saitləri araya artırılan *y* ilə qovuşmuş halda iki qısa *i* çalarlığında tələffüz olunur: *bədii – bədi yi, təbii – təbi yi* və s.

4. **OO:** Son zamanlarda ədəbi dilə daxil olmuş bir sıra sözlərdə, xüsusən terminlərdə qoşa *o* işlənir ki, bunlar, əsasən, iki çalarlıqda tələffüz olunur:

a) Əgər qoşa *o*-nun son hissəsi vurğuludursa, o zaman belə qoşa *o* bir uzun vurğulu *o* kimi tələffüz olunur: *zooloq – zōloq* və s.

b) Əgər qoşa yazılan *o* vurğusuzdursa, uzadılmış *a* çalarlığında tələffüz olunur: *kooperativ – ka perativ, koordinator – ka rdinator* və s

Qeyd. Əgər qoşa vurğusuz *o*-dan sonrakı heca vurğulu *o* saiti ilə formalaşmışdırsa, qoşa *o* diftonq *a͡o*, yəni uzadılmış *a* ilə qısa *o* qovuşuğu çalarlığında tələffüz olunmalıdır: *zoologiya – za͡ologiya* və s

***§110. Müxtəlif sait qoşalığı*** Müasir Azərbaycan dilindəki bir sıra sözlərin əvvəlində, ortasında, bəzən də sonunda müxtəlif saitlər yanaşı gəlir və yanaşı da yazılır Lakin yanaşı yazılan belə muxtəlif saitlərin tələffüzü ilə yazılışı tam eyniyyət təşkil etmir və orfoepik normaya görə, əsasən iki çalarlıqda tələffüz olunur

I. Aşağıdakı növ qoşalıqları təşkil edən yanaşı saitlər aralarına artırılan *y* samiti ilə qovuşmuş halda müxtəlif kəmiyyət çalarlığında tələffüz olunurlar

Qeyd Burada qabaqcadan belə bir məsələni qeyd etməliyik ki, qoşa sait arasına artırılan *y* dedikdə, *y* çalarlıqlı bir samitin tələffüzdə artırılması nəzərdə tutulur və bu səs tam *y* deyil, burada adətən birinci saitdən sonra azacıq *y* məxrəcində bir samit səsin tələffüzü başlanır və bu səs tam halda formalaşmamış sonrakı sait tələffüz olunur Deməli, tələffüzdə qoşa sait arasına artırılan *y* dedikdə, *y* səsinin başlanğıc tonu nəzərdə tutulur və belə də anlaşılmalıdır.

1. **Aİ.** Tərkibində *ai* qoşalığı olan sözlərin tələffüzündə bu saitlərin arasına *y* samiti artırılır və *y*-dan əvvəlki *a* azacıq uzun, *y*-dan sonrakı *i* saiti isə azacıq qısa tələffüz olunur: *a:yid* (aid), *a yilə* (ailə), *da·yirə* (dairə), *xa·yin* (xain), *sa·yit* (sait) və s.

2. **AE.** Tərkibində *ae* qoşalığı olan bir neçə düzəltmə söz müasir Azərbaycan dilində işlənir ki, bunların tələffüzündə *e* saiti düşmə dərəcəsində qısalır, buna görə də belə sözlərdə *ae* qoşalığı *ay* hecası kimi tələffüz olunur: *ayrostat* (aerostat), *ayroport* (aeroport), *ayrologiya* (aerologiya) və s.

3. **Əİ.** Tərkibində *əi* qoşalığı olan sözlərdə bu saitlərin arasına *y* samiti artırılaraq tələffüz olunur: *zəyif* (zəif), *məyişət* (*məişət*) və s.

4 **İA.** Tərkibində *ia* qoşalığı olan sözlərdə əvvəlki *i* qısaldılır və bu saitlərin arasına *y* samiti artırılaraq tələffüz olunur: *di yalekt* (dialekt), *di.yaqram* (diaqram), *di yametr* (diametr), *bi.yabır* (biabır) və s

Qeyd 1) bəzən əvvəlki *i* tamamilə düşür; məsələn *sosyalist* (sosialist) və s ,
2) *avia* sözündə *ia* qoşalığının ilk səsi *i* qısa, *a* səsi isə adi kəmiyyətdə, lakin *yo* çalarlığında tələffüz olunur: *avi yomodel* (aviomodel), *avi yovağzal* (aviovağzal) və s.;
3) *iddia, biar* sözlərində *y* samiti artırılmır;
4) *ia* qoşalığından sonrakı hecada *ə* saiti olduqda, araya *y* samiti artırılmır və *a* bir qədər uzun tələffüz olunur: *ria yət* (*riayət*), *ia şə* (iaşə), *ia nə* (ianə) və s.

5. **İO.** Tərkibində *io* qoşalığı olan sözlərdə həmin saitlərin arasına *y* samiti artırılaraq *iya* çalarlığında tələffüz olunur· *piya.ner* (pioner), *biya.logiya* (biologiya) və s.

Qeyd *Radio* sözünün tələffüzündə *i* qısa, *o* isə *y* ilə birlikdə adi kəmiyyətdə tələffüz olunur. *radi yo* və s.

6. **İU.** Tərkibində *iu* qoşalığı olan sözlərdə həmin qoşalıq *i.yu* çalarlığında tələffüz olunur: *radi.yus* (radius), *radi.yum* (radium) və s.

7. **İƏ.** Tərkibində *iə* qoşalığı olan sözlərdə həmin qoşalıq *i.yə* çalarlığında tələffüz olunur. *təbi.yət* (təbiət), *şəri.yət* (şənət), *müdafi yə* (müdafiə), *vaqi.yə* (vaqiə), *faci.yə* (faciə) və s.

8. **Eİ.** Tərkibində *ei* qoşalığı olan sözlərdə həmin qoşalıq *eyi* çalarlığında tələffüz olunur: *ateyist* (ateist), *kodeyin* (kodein) və s.



9. **EA.** Tərkibində *ea* qoşalığı olan sözlərdə həmin qoşalıq qısa *i* saiti ilə *i.ya* çalarlığında tələffüz olunur: *ti yatr* (teatr), *ri.yal* (real), *ri yaksiya* (reaksiya), *ri yaktor* (reaktor) və s.

10. **EO.** Tərkibində *eo* qoşalığı olan sözlərdə həmin qoşalıq qısa və daha dar məxrəcli *e* ilə *e.yo* çalarlığında tələffüz olunur: *te.yorem* (teorem), *fe yodal* (feodal), *te.yodolit* (teodolit) və s

11. **OE.** Belə qoşalıq sözün ilk hecası ilə bağlı olarsa, qoşalığı təşkil edən səslərdən birincisi (yəni *o*) az qısa, lakin öz məxrəcində *e* saiti ilə adi kəmiyyətdə, *ye* çalarlığında tələffüz olunur; məsələn *poyeziya* (poeziya), *poyema* (poema), *poyetika* (poetika) və s.

Qeyd Əgər belə qoşalıq sözün ilk hecası ilə bağlı olmazsa, qoşalığı təşkil edən səslərdən birincisi (yəni *o*) çox qısa, *o* saiti isə adi kəmiyyətdə, lakin *e͡o* diftonqunun sonu kimi tələffüz olunur· *orfo͡epiya* (orfoepiya) və s

12. **Oİ.** Tərkibində *oi* qoşalığı olan sözlərdə həmin qoşalıq *ayi* çalarlığında tələffüz olunur *eqayist* (eqoist) və s.

Qeyd Əgər əvvəlki hecada *o* olarsa, qoşalıq *oyi* çalarlığında tələffüz olunur· *kolloyid* (kolloid)

13. **UE.** Tərkibində *ue* qoşalığı olan sözlərdə həmin qoşalıq *uye* çalarlığında tələffüz olunur: *duyel* (duel), *duyet* (*duet*) və s.

II. Aşağıdakı növ qoşalıqları təşkil edən saitlər, əsasən qovuşuq halda diftonq çalarlığında tələffüz olunur.

1. **UA.** Tərkibində *ua* qoşalığı olan sözlərdə, adətən birinci sait *u* azacıq qısa və *a* məxrəcinə hazırlıq çalarlığında, *a* isə vurğulu olduqda daha aydın məxrəcdə, vurğusuz olduqda *u* ilə daha çox qovuşuq çalarlıqda tələffüz olunur· *su͡al, aktu͡al, d͡ua, d͡ualist* və s

2. **AU.** Tərkibində *au* qoşalığı olan sözlərdə belə qoşalıq *a* səsinin azacıq qısalması ilə *a͡u* diftonqu çalarlığında da tələffüz olunur: məsələn· *fa͡una, ka͡uçuk, ra͡und, la.uriyat* və s.

3 **AO.** Tərkibində *ao* qoşalığı olan sözlərdə belə yanaşı saitlər dodaqlanmış diftonq çalarlığında belə tələffüz olunur: *kakao* – *kako͡u* və s

4. **AƏ.** Tərkibində *aə* qoşalığı olan sözlərdə belə qoşalıq enişli diftonq çalarlığında, yəni ilk saitin (*a* səsinin) azacıq uzanması, ikinci saitin (*ə* səsinin) azacıq qısaldılması ilə (*a͡ə* kimi) tələffüz olunur: *ita͡ət, qəna͡ət, şüca͡ət, bəra.ət* və s.

5. **ƏA.** Tərkibində *əa* qoşalığı olan sözlərdə belə qoşalıq yoxuşlu diftonq çalarlığında, yəni ilk saitin – *ə* səsinin azacıq qısaldılması ikinci saitin – *a* səsinin azacıq uzadılması ilə (*ə.a:* kimi) tələffüz olunur· *fə͡.aliyyət, sə͡.adət* və s.

Qeyd Əgər belə qoşalıq sözün son hecası ilə əlaqədar olarsa, qoşalığın ikinci səsi, (*a* səsi) adi kəmiyyətdə tələffüz olunur: *fə͡al, müddə͡a* və s.

6. **ÜU.** Tərkibində *üu* qoşalığı olan bir neçə söz işlənir ki, bunların tərkibindəki *üu* qoşalığı adətən diftonq çalarlığında tələffüz olunur: *şü͡ur* və s.

7 **ÜA.** Tərkibində *üa* qoşalığı olan sözlərdə *a* saiti qısa *ü* saitinin müşayiəti ilə *ü͡.a* diftonqu çalarlığında tələffüz olunur və belə sözlərin çoxunda *a* uzadılır: *mü͡.a.vin* (müavin), *mü͡a.sir* (müasir), *mü͡.a licə* (müalicə), *mü͡.a.yinə* (müayinə), *mü͡a·milə* (müamilə) və s.

Qeyd Son zamanlar ədəbi dildə işlənilən *nüans* sözü müstəsna kimi *nüyans* halında tələffüz olunur.

8. **ÜƏ.** Tərkibində *üə* qoşalığı olan sözlərdə həmin qoşalıq qısaca *ü* ilə adi kəmiyyətli *ə* qovuşuğu, yəni *ü͡ə* diftonqu kimi tələffüz olunur. *mü͡.əllim, mü͡əllif, mü͡.əyyən, mü͡.əzzin, mü͡.əmma* və s.

Qeyd Ədəbi dildə işlənilən *şüəra* sözündə *üə* qoşalığı adi kəmiyyətli *uə* sait birləşməsi halında yazıldığı kimi tələffüz olunur.

## SAMİTLƏRİN TƏLƏFFÜZÜ. MÜXTƏLİF ÇALARLIQLARDA TƏLƏFFÜZ OLUNAN CİNGİLTİLİ SAMİTLƏR

***§111. B samiti.*** I. Aşağıdakı məqam və şəraitdə *b* samiti adi halda, yəni məxrəcinə uyğun surətdə aydın tələffüz olunmalıdır:

a) söz əvvəlində: *bal, bala, bir, buz, bucaq, boz, boran, böl, böcək, beş, belə, bülbül, bərə, bəzək, blok, briqadir* və s.



Qeyd. İkinci hecası *t, f, k, x, c, ş* kimi kar samitlərlə başlanan bir sıra sözün əvvəlində gələn *b* samitinin azacıq karlaşmış halda – *p* çalarlığında (*b* kimi) tələffüzü də normal sayılır *ḅütün, ḅütöv, ḅufet, ḅüküm, ḅüküş, ḅuxar, ḅuxov, ḅiçin, ḅıçaq, ḅişirmək* və s

b) təkhecalı sözlərin sonunda saitlə yanaşı olarsa· *ab, tab, qab, dib, cib* və s.;

c) söz ortasında iki sait arasında: *baba, bibi, xəbər, bəbir, abad, bəbək, qaba, oba, əbədi, təbabət, qabıq, qubar, tələbə, tələbat* və s.

Qeyd Bəzi sözlərin ikinci hecasında belə şəraitdə olan *b* samitinin *v* çalarlığında tələffüzünə sərbəst üslubda yol verilir· *qavıq* (qabıq), *ova* (oba), *bava* (baba) və s

ç) söz ortasında və ya söz sonunda olan hecanın başında: *anbar, sünbül, qənbər, dəbbə, domba, təşəbbüs, təkəbbür* və s.;

d) söz ortasında, söz sonunda cingiltili və ya sonor samitdən əvvəl yanaşı gələrsə: *qəbz, səbzi, səbir, ibrət, iblis, təbliğ, gübrə* və s.

II *B* samiti aşağıdakı məqam və şəraitdə azacıq karlaşmış halda *ḅ* kimi, yəni *p* çalarlığında tələffüz olunmalıdır:

a) çoxhecalı sözlərin sonunda: *kitaḅ, qutaḅ, əzaḅ, şəraḅ, məktəḅ, məktuḅ, inqilaḅ, münasiḅ, məvaciḅ, məğluḅ, mühasiḅ* və s.;

b) təkhecalı sözlərin sonunda samitlə yanaşı olarsa· *kəsḅ, qəsḅ, qərḅ, qəlḅ* və s.;

c) söz ortasında kar samitlə başlanan hecadan əvvəlki hecanın sonunda: *müḅtədə, müḅhəm, iḅtida, müḅtəla, cəḅhə* və s ;

ç) söz ortasında və söz sonunda kar samitdən əvvəl onunla yanaşı gələndə: *aḅstrakt, aḅsis, həḅs, süḅh* və s.;

d) söz ortasında olan qoşa *b*-dən birincisi: *dəḅbə, tiḅbi, təkəḅbür, təşəḅbüs, aḅbası* və s

Qeyd. Tərkibində qoşa *b* olan şəxs adlarında hər iki *b* adi halda tələffüz olunur· *Cabbar, Abbas* və s

***§112. C samiti.*** I. *C* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq aydın tələffüz olunmalıdır:

a) söz başında: *cavab, cəm, ceyran, cənab, cib, civə, cıdır, cod, corab, cür, cümə* və s.;

b) söz ortasında:

1. Samitlər arasında: *acı, aciz, əcaib, gecə, necə, becərmə, acıq, qoca, böcək, bucaq, cücə* və s

2 Samitlə sait arasında: *ancaq sancaq, zəncir, incə, Gəncə, əncam, tərcümə, mütərcim* və s.

3 Söz ortasındakı qoşa *c*-nin hər ikisi: *təəccüb, münəccim* və s.

II. *C* samiti aşağıdakı məqam və şəraitdə *j* çalarlığında tələffüz olunmalıdır:

a) söz ortasında *c* ilə bitən hecadan sonrakı heca cingiltili samitlə başlanarsa. *vijdan* (vicdan), *əjdad* (əcdad), *səjdə* (səcdə), *ijlas* (iclas), *əjnəbi* (əcnəbi) və s.;

b) təkhecalı sözlərin sonundakı *c*-dən əvvəl sait varsa: *aj* (ac), *gij* (gic), *vij* (vic), *gejə* (gecə), *uj* (uc), *güj* (güc) və s.

II. *C* samiti aşağıdakı məqam və şəraitdə karlaşmış halda *ç* çalarlığında tələffüz olunmalıdır:

a) çoxhecalı sözlərin sonunda: *ağaç* (ağac), *əlaç* (əlac), *məxrəç* (məxrəc), *çəkiç* (çəkıc), *qorxunç* (qorxunc), *gülünç* (gülünc) və s.;

b) təkhecalı sözlərin sonundakı *c*-dən əvvəl samit olarsa: *dinç* (dinc), *linç* (linc), *tunç* (tunc), *künç* (künc) və s.

***§113. D samiti.*** I. *D* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq halda aydın tələffüz olunmalıdır:

a) söz başında:

1 Saitdən əvvəl: *dağ, damar, dekan, dən, dil, diri, dırnaq, don, doğru, dövr, döşək, duz, durna, düymə* və s.

2. Samitdən əvvəl: *dvoryan, dram, drap* və s.

Qeyd. Söz başındakı *d*-dən sonra qapalı sait və onun ardınca kar samit olarsa, başdakı *d* samitini, xüsusi sərbəst üslubda, bir qədər karlaşmış çalarlıqda tələffüz etmək olar *dukan, diksinmək, dustaq, düşmək* və s

b) söz ortasında:

1. Saitlər arasında: *adam, adət, edam, adil, edib, dodaq, odun, udum, hüdud, gedən* və s

2. Saitlə samit arasında: *badyan, tədris, vedrə, hidro, qüdrət* və s.

3. Samitlə sait arasında: *sandal, sevda, əndam, əqdəm, dimdik, ordu, buğda, aydın, fındıq, ulduz, gündüz, ördək* və s.

c) təkhecalı sözlərin axırında saitdən sonra: *ad, dad, yad, od, öd, güd, yod* və s.



Qeyd *Süd* sözünün sonunda *d* samiti müstəsna olaraq *t* çalarlığında tələffüz olunur

II. *D* samiti aşağıdakı məqam və şəraitdə azacıq karlaşmış halda *-d* çalarlığında tələffüz olunur:

a) təkhecalı sözlərin axırında samitdən sonra gələrsə: *anḍ, dörḍ, qənḍ, əqḍ, kənḍ, fənḍ* və s.;

b) çoxhecalı sözlərin sonunda: *polaḍ, savaḍ, övlaḍ, söyüḍ, azaḍ, igiḍ* və s.;

c) sözün daxilində qoşa *d* olduqda birinci *d* *tərəḍdüd, şiḍdət, müḍdət* və s

***§114. G samiti*** I. *G* samiti aşağıdakı məqam və şəraitdə adi halda öz məxrəcinə uyğun, aydın tələffüz olunmalıdır.

a) söz başında: *gah, gavalı, gen, gecə, gənc, gəmi, gil, gonbul, göz, gödək, gur, guşə, gül, günəş* və s.;

b) söz ortasında samitdən sonra: *səngər, əngəl, süngü, ülgüc, zəngin, nərgiz, çəngəl, məngənə, zəngin, üzəngi, güzgü* və s.;

c) bir qrup sözün sonunda *gah* hecasındakı *g*· *agah, segah, nagah, çargah* və s.

II. Əsil Azərbaycan sözlərinin və azərbaycancalaşmış alınma sözlərin ortasındakı iki sait (ya biri, ya da hər ikisi incə sait olmalı) arasında yerləşən *g* samiti *y* çalarlığında tələffüz olunmalıdır: *iyid* (igid), *əyər* (əgər), *məyər* (məgər), *şayird* (şagird), *Niyar* (Nigar) və s.

Qeyd 1) Belə sözlərdən bəzisində *g*-dən əvvəlki sait xüsusən sərbəst üslubda tələffüz zamanı düşür, belə halda sonrakı *g* öz məxrəcinə uyğun tələffüz olunmalıdır *ruzigar* əvəzinə *ruzgar*, *yadigar* əvəzinə *yadgar* və s

2) Avropa dillərinə mənsub alınma sözlərdə *g* hər cür məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur. *geoloq, agent, gigiyena* və s

III. Sözlərin sonunda *g* samiti karlaşmış halda, yəni *k* çalarlığında tələffüz olunmalıdır: *ahənk* (ahəng), *nəhənk* (nəhəng), *cənk* (cəng), *zənk* (zəng), *rənk* (rəng), *qəşənk* (qəşəng), *külünk* (külüng), *link* (ling) və s.

**§115. *Q samiti.*** I. *Q* samiti aşağıdakı məqam və şəraitdə adi halda, məxrəcinə müvafiq, aydın tələffüz olunmalıdır:

a) söz başında:

1 Saitdən əvvəl: *qal, qazan, qeyd, qeyrət, qəlb, qəşəng, qiyam, qiymət, qırmızı, qol, qonaq, qönçə, quş, qucaq, qütb, qüvvə* və s.

2 Samitdən əvvəl: *qram, qrip, qrup, qvardiya* və s.

b) söz ortasında:

1. Saitlər arasında: *xaqan, laqeyd, əlaqə, naqis, vaqon, hüquq, həqiqət, füqəra, intiqam, məqam* və s

2 Saitlə cıngıltılı samıt arasında· *iqlim, miqdar, nəqliyyat, təqdim, əqrəb, əqrəba* və s.

3. Cingıltılı sonor samıtlə sait arasında. *manqal, tonqal, ilqar, yonqar, inqilab, manqa, çınqıl* və s.

4. Kar samitlə sait arasında: *çaşqın, sısqa, asqırmaq, hıçqırmaq, aşqar, dehqan, təhqir, təhqiq* və s.

5. Qoşa *q*-dən ikincisi: *hoqqa, toqqa, saqqal, baqqal* və s.

II. *Q* samiti bir sıra sözlərdə məqam və şəraitdən asılı olaraq aşağıdakı çalarlıqda tələffüz olunmalıdır·

a) karlaşmış halda -*q̣* çalarlığında tələffüz olunmalıdır·

1. Söz ortasında kar samitdən əvvəl yanaşı gələrsə: *nöq̣tə, nəq̣ş, iq̣tibas, ıq̣tisad, nöq̣san, rəq̣s, ıq̣tidar, məq̣səd* və s.

2. Söz ortasında qoşa *q*-dən bırıncisi: *toq̣qa, çaq̣qal, baq̣qal* və s

3. Təkhecalı sözlərin sonunda: *irq̣, şərq̣, fərq̣, zövq̣, şövq̣, məşq̣, fövq̣, dınq̣, danq̣* və s.

4. Çoxhecalı alınma sözlərın sonunda: *məntiq̣, ittifaq̣, natıq̣, aşıq̣, şəfəq̣, məxluq̣, tədqıq̣, istintaq̣, filoloq̣* və s.

b) çoxhecalı əsil Azərbaycan sözlərinın, eləcə də çoxdan azərbaycancalaşmış bir sıra alınma sözlərin sonundakı *q* səsi *x* çalarlığında tələffüz olunmalıdır: *qabax* (qabaq), *uzax* (uzaq), *papax* (papaq), *otax* (otaq), *torpax* (torpaq), *çırax* (çıraq), *çanax* (çanaq), *aşıx* (aşıq), *çomax* (çomaq).

Qeyd 1) Sonundakı *q* samiti karlaşmış halda tələffüz olunan sözlərə samitlə başlanan şəkilçi bitişdirıldikdə və ya söz qoşulduqda *q*-nin tələffüzü eynən qalır, lakin saitlə başlanan şəkilçi bitişdirıldikdə, söz qoşulduqda sondakı *q* səsi əslinə uyğun cingiltili tələffüz olunur, məsələn: *ittifaq – ittifaqdan, ittifaqda, ittifaqın, dəqıq̣ – dəqıq̣ deyil, dəqıq̣ olmalı* və s



2) Sonundakı *q* samiti *x* çalarlığında tələffüz olunan sözlərə samitlə başlanan şəkilçi bitişdirıldikdə və ya söz qoşulduqda *q* səsi yenə *x* çalarlığında tələffüz olunur. Lakın belə sözlərə saitlə başlanan şəkilçi bitişdirıldikdə və ya söz qoşulduqda *q* əvəzinə *ğ* tələffüz olunur; məsələn *papaq – papax – papaxçı, pa-paxsatan, papax – papağın dərisi, papağ aldım* və s

**§116. *V samiti.*** I *V* samiti aşağıdakı məqam və şəraitdə adi halda, yəni məxrəcinə müvafiq aydın tələffüz olunmalıdır.

a) söz başında *var, ver, vur, vətən, vücud, vilayət* və s ;

b) söz ortasında:

1. Saitlər arasında: *divar, hava, dəvə, civə* və s.

2. Saitlə cingiltili samit arasında: *dövr, cövr, mövcud, dövlət, şövq, meyvə, halva, sivri* və s.

3. Kar samıtdən sonra, saitdən əvvəl gələrsə. *rüşvət, mehvər, rüsvay, ışvə, əhval* və s.

4. Qoşa *v* samiti olarsa *müqəvva, əvvəl* və s ;

c) söz sonunda:

1. Təkhecalı sözlərın sonunda cingıltılı samitdən sonra gələrsə: *ləğv, üzv, həcv* və s.

2 Təkhecalı sözlərın sonunda saitdən sonra gələrsə· *av, ev, sev, dev, növ, nov, plov* və s.

3. İkihecalı sözlərin sonunda saitdən sonra gələrsə· *buzov, buxov, murov, alov* və s

II. Bir sıra sözlərdə məqam və şəraitdən asılı olaraq *v* samiti aşağıdakı çalarlıqlarda tələffüz edilməlidir.

a) karlaşmış halda, yəni *f* çalarlığında:

1. Söz ortasında yanaşı kar samitdən əvvəl gələrsə· *aṿtobus, aṿtomat, Aṿstraliya, eṿfemizm, taṿtologiya* və s.

2. Təkhecalı sözlərdə sondakı kar samitdən əvvəl yanaşı gələrsə *söṿt, məhṿ, səhṿ* və s

3. Familiya bildırmək üçün adların axırına bitişdirilən -*ov*, -*yev* şəkilçilərinin sonundakı *v* *Həsənoṿ, Mehdiyeṿ* və s.

4 İki və ikidən artıq hecalı alınma sözlərın sonundakı -*tiv* morfemində olan *v: aktiṿ, motiṿ, kollektiṿ, subyektiṿ, obyektiṿ* və s.;

b) diftonq çalarlıqlarında:

1. Sözün tərkibində *v* səsindən əvvəl *o*, sonra *u* gələrsə, *ovu* birləşməsi *o͡u* çalarlığında tələffüz olunmalıdır: *o͡uc* (ovuc), *o͡uş*-

*durmaq* (ovuşdurmaq), *qo͡ün* (qovun), *qo͡üşma* (qovuşma), *qo͡ürma* (qovurma), *so͡ürmaq* (sovurmaq), *ço͡üş* (çovuş) və s.

2. Sözün tərkibində *v*-dən əvvəl *o*, sonra hər hansı bir samit gələrsə, *ov* birləşməsi bir adi *o* ilə qısa *u* və ani *v* tərkibindən ibarət *o͡ü* [*v*] diftonq çalarlığında tələffüz olunmalıdır: *o͡ü.*[*v*]*xalamaq* (ovxalamaq), *do͡ü.*[*v*]*şan* (dovşan), *ço͡ü* [*v*]*ğun* (çovğun), *ço͡ü.*[*v*]*dar* (çovdar), *to͡ü.*[*v*]*lamaq* (tovlamaq), *so͡ü* [*v*]*qat* (sovqat), *do͡ü* [*v*]*qa* (dovğa), *no͡ü* [*v*]*ruz* (novruz) və s.

Qeyd Sərbəst üslubda belə sözlərdəki *ov* birləşməsini *o͡ü* diftonqu çalarlığında da tələffüz etmək olar: *o͡ümaq* (ovmaq), *o͡ülaq* (ovlaq), *no͡üruz* (*novruz*) və s

3 Söz ortasında *v* səsindən əvvəl *ö*, sonra isə kar samitlə başlanan heca gələrsə, *öv* birləşməsi *ö͡ü.* diftonqu çalarlığında tələffüz olunmalıdır: *kö͡ü şək* (kövşək), *cö͡ü hər* (cövhər), *rö͡ü şən*, (rövşən), *kö͡ü sər* (kövsər), *tö͡ü siyə* (tövsiyə), *bənö͡ü.şə* (bənövşə), *gülö͡ü.şə* (gülövşə), *mö͡ü süm* (mövsüm) və s.

4. Söz ortasında *v* səsindən əvvəl *ö*, sonra isə cingiltili samitlə başlanan heca gələrsə, *öv* birləşməsi bir adi *ö* ilə qısa *ü* və ani [*v*] tərkibindən ibarət diftonq çalarlığında tələffüz olunmalıdır: *nö͡ü* [*v*]*bə* (növbə), *nö͡ü.*[*v*]*raq* (növraq), *lö͡ü.*[*v*]*bər* (lövbər), *kö͡ü.*[*v*]-*rək* (kövrək), *rö͡ü.*[*v*]*nəq* (rövnəq), *tö͡ü.*[*v*]*bə* (tövbə) və s.

Qeyd Sərbəst üslubda belə sözlərdəki *öv* birləşməsini *ö͡ü* diftonqu çalarlığında da tələffüz etmək olar: *nö͡übə* (növbə), *rö͡ünəq* (rövnəq), *tö͡übə* (tövbə) və s.

***§117. Z samiti.*** I. *Z* samiti aşağıdakı məqam və şəraitdə adi halda öz məxrəcinə uyğun, aydın tələffüz olunmalıdır:

a) söz başında: *zanbaq, zeytun, zədə, zəy, zil, zirvə, zığ, zor, zolaq, zövq, zökəm, zümrüd* və s ;

b) söz ortasında:

1 Saitlər arasında: *yazı, qazan, tezis, təzə, aziz, izah, fizik, qızarmaq, gözəl, uzun, üzük* və s.

2. Saitlə samit arasında: *mizrab, cəzb, əzbər, üzv, muzd, yeznə* və s.

3. Samitlə sait arasında: *mənzil, inzibat, tənzim, zəlzələ, zirzəmi, mənzumə* və s.

4. Qoşa *z*-dən hər ikisi: *izzət, ləzzət* və s.;



c) söz sonunda:

1. Təkhecalı sözlərin axırında saitdən sonra: *az, yaz, tez, gəz, iz, köz, duz, üz, süz* və s.

2. Təkhecalı sözlərin axırında cingiltili samitdən sonra: *nəbz, qəbz, ərz, məğz* və s.

II. *Z* samiti aşağıdakı məqam və şəraitdə bir qədər karlaşmış çalarlıqda tələffuz olunmalıdır

a) təkhecalı sözlərin sonundakı *z*-dən əvvəl yanaşı kar samit olarsa: *məhẓ* (məhz), *ləfẓ* (ləfz) və s.;

b) çoxhecalı sözlərin sonunda *almaẓ* (almaz), *bəkməẓ* (bəkməz), *mərəẓ* (mərəz), *narkoẓ* (narkoz), *saqqıẓ* (saqqız), *doqquẓ* (doqquz), *möcüẓ* (möcüz), *nüfuẓ* (nufuz) və s.

## ƏSASƏN ÖZ MƏXRƏCİNƏ MÜVAFİQ TƏLƏFFÜZ OLUNAN CİNGİLTİLİ SAMİTLƏR

***§118. L samiti.*** *L* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur

a) söz başında: *lay, lək, lil, lığ, lov, lül, lavaş, leqal, ləkə, liman* və s.;

b) söz ortasında

1 Saitlər arasında: *ala, elə, belə, ilə, qılıq, dolu, ulu* və s.

2. Saitlə samit arasında: *qaldır, aldat, bəlkə, bildirçin, qılçıq, dolça, quldur, tülkü* və s.

3. Samitlə sait arasında: *anla, dinlə, tənlik, inlə, nəsli, tufli* və s.

4. Qoşa *l* olanda: *yolla, tulla, güllə, pillə, sillə, kəllə, bəlli* və s ;

c) söz sonunda: *al, gəl, el, bil, ol, qul, gül, qıl, göl, futbol, gözəl, qızıl, ideal* və s.

***§119. M samiti.*** *M* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq, aydın tələffüz olunur

a) söz başında: *mal, mən, min, moruq, mövzu, muzdur, mülk* və s ,

b) söz ortasında: *kömur, hökumət* və s

1. Saitlər arasında: *aman, əmanət, imarət, koma* və s

2. Samit-sait arasında: *damağ, alma, kəlmə, yetmiş, termos, qırmızı* və s.

3. Sait-samit arasında: *imla, damla, əmlak, temp, plomb* və s.;

c) söz sonunda *şam, yem, kəm, kim, qum, adam, qələm, dilim, məlum, salam* və s.

Qeyd 1) Söz daxilində qoşa *m* sərbəst üslubda aşağıdakı çalarlıqlarda tələffüz olunur:

a) əgər ikinci *m* vurğulu heca tərkibindədirsə, tam halda və aydın, birinci *m* isə yarımçıq tələffüz olunmalıdır: *müəmma* (müəmma), *kommuna* (kommuna) və s.;

b) başqa şərait və məqamda söz daxilindəki *mm*-dən birincisi tam halda tələffüz olunur, ikinci *m* və ondan sonra gələn sait isə ixtisara düşür, tələffüz olunmur: *kom[mu]nist* (kommunist), *kom[mu]tasiya* (kommutasiya), *kom[mu]tator* (kommutator) və s

2) Söz daxilində *m*-dən sonra diş-dodaq samitlərindən *f, v, p* və xüsusən *b* yanaşı gəldikdə, sərbəst üslubda assimilyasiya nəticəsinə uyğun olaraq *m* əvəzinə *n* tələffüz olunmalıdır: *sünbə* (sümbə), *zənbil* (zəmbil), *bonba* (bomba), *lanpa* (lampa), *linfosit* (limfosit), *anper* (amper), *anfiteatr* (amfiteatr).

***§120. N samiti.*** *N* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur:

a) söz başında: *nar, ney, nəm, nitq, nov, növ, nur, nüsxə, naxış* və s.;

b) sözün ortasında:

1 Saitlər arasında: *ana, enerji, ənənə, inilti, sınıq* və s.

2. Saitlə samit arasında: *anla, hansı, mənzum, hönkür, yonqar, bəndə, tənha, kənd, lent, sevinc* və s

3. Samitlə sait arasında: *səhnə, meynə, örnək, dırnaq, durna, çaxnaş, dan* və s.;

c) söz sonunda: *sən, don, yön, yun, gün, qalxan, aydın, sərin, oyun* və s.

***§121. R samiti.*** *R* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə muvafiq tələffüz olunur.

a) söz başında: *rast, reys, rəf, ritm, rol, ruh, rüb, razı, rektor, rədif* və s ;

b) söz ortasında:

1. Saitlər arasında: *aran, geri, bəri, iri, qırıq, qora, körük, quru, qürur* və s.

2. Saitlə samit arasında: *termin, bərk, xırda, körpü, arzu* və s.

3 Samitlə sait arasında: *qatran, sonra, qətrə, tədris, qıvrım, metro, doğru, zümrüd* və s.

4. Qoşa *r* olanda: *cərrah, mücərrəd, sərrast, sərraf, terror* və s.;

c) söz sonunda: *var, ver, şir, gör, dur, qatar, bəşər, aktyor, təşəkkür, cəbr, səbir, metr, litr* və s.



Qeyd. Sonda qoşa *r* ilə yazılan *sirr* sözü ancaq bir *r* ilə tələffüz olunur Bu sözə saitlə başlanan şəkilçi əlavə edildikdə və ya saitlə başlanan söz qoşulduqda hər iki *r söz* ortasında olan qoşa *r* kimi adi halda tələffüz edilməlidir. *sirr – sirrin, sirr açıldı* və s

***§122. Ğ samiti.*** *Ğ* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur:

a) söz ortasında: *sığorta, lüğət, müğənni*

1. Saitlər arasında: *ağac, ağır, cığal, cığır, oğul, uğur, zoğal* və s.

2 Saitlə samit arasında: *ağrı, ağla, nəğmə, mığmığa* və s

3 Samitlə sait arasında: *damğa, çalğı, darğın, çovğun, çılğın, dovğa* və s.;

b) söz sonunda: *ağ, dağ, yağ, dığ, lağ* və s.

Qeyd Söz ortasında kar samitdən əvvəl gələn *ğ* karlaşmış halda *x* çalarlığında tələffüz olunmalıdır *baxça* (bağça), *boxça* (boğça), *saxsağan* (sağsağan) və s.

***§123. Y samiti.*** *Y* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur.

a) söz başında: *yay, yel, yəhər, yiyə, yığcam, yovşan, yol, yön, yuva* və s.;

b) söz ortasında:

1. Saitlər arasında: *qaya, ayaq, ayıq, iyirmi, soyuq, söyud, yuyun, üyütmək* və s.

2. Saitlə samit arasında: *aydın, heykəl, dəymiş, iyrənc, qıyqac, meyvə, söylə, düymə* və s.

3. Samitlə sait arasında: *adyal, əşya, lobya, miqyas, adyutant, xülya, nisyə* və s.

4. Qoşa *y* olanda: *mahiyyət, nəşriyyat, niyyət, səhiyyə, əbədiyyat, əbədiyyət* və s.;

c) söz sonunda: *ay, iy, qıy, meh, zəy, toy, küy, göy, subay, alay, qalay, haray* və s.

***§124. J samiti.*** *J* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur:

a) söz başında. *janr, jalə, jaket, jilet, jurnal, jüri, jmıx* və s.

b) söz ortasında: *əjdaha, qıjıltı, müjdə, pedaqoji* və s.

## MÜXTƏLİF ÇALARLIQLARDA TƏLƏFFÜZ OLUNAN KAR SAMİTLƏR

***§125. P samiti.*** I. *P* samiti aşağıdakı məqam və şəraitdə adi halda, yəni məxrəcinə uyğun surətdə aydın tələffüz olunmalıdır:

a) saitlər arasında: *apar, qıpıq, təpik, qəpik, qapı, ıpək, köpük, küpə* və s.;

b) saitlə samit arasında: *arpa, spirt, qarpız, kərpic, körpü, kırpi, aprel, kuplet, teploxod, teplovoz* və s.

Qeyd Əgər *p*-dən sonra *t, d, s, z, ş, ç* kimi dil samitlərindən hər hansı biri olarsa, xüsusən sərbəst üslubda, *p* səsini azacıq *f* çalarlığında da tələffüz etmək olar *tafdıq* (tapdıq), *tafşırıq* (tapşırıq) və s

II. *P* samiti aşağıdakı məqam və şəraitdə ani-natamam məxrəclə tələffüz olunmalıdır:

a) sözün başında:

1. Saitdən əvvəl: *$^{p}$apaq, $^{p}$ul* və s.

2. Samitdən əvvəl: *$^{p}$lov, $^{p}$lan, $^{p}$roqram, $^{p}$sıxoloq* və s.;

b) söz sonunda·

1. Saitdən sonra: *sa$^{p}$, to$^{p}$, qri$^{p}$, ti$^{p}$, sə$^{p}$* və s.

2. Samitdən sonra *al$^{p}$, qar$^{p}$, tur$^{p}$, qul$^{p}$, qır$^{p}$* və s.

Qeyd Söz başında saitdən əvvəl gələn və eləcə də söz sonunda saitdən sonra gələn *p* səsini bir qədər nəfəsli tələffüz etməli: *phul, phərt, iph, saph* və s

III. Sözün daxilində qoşa *p* olduqda, əvvəlinci *p* adi halda, ikinci *p* cingiltiləşmiş çalarlıqda – *p* kimi tələffüz olunmalıdır: *tappıltı, guppultu, hoppanmaq, şappıltı, düppədüz, hoppanmaq* və s.

***§126. F samiti.*** *F* samiti sözün hər yerində, hər cür məqam və şəraitdə adi halda, yəni öz məxrəcinə müvafiq, aydın tələffüz olunmalıdır:

a) sözün başında: *fal, fayda, fəda, fərq, fil, fikır, fırça* və s

1 Saitdən əvvəl: *foto, futbol, fürsət, füsunkar* və s.

2. Samitdən əvvəl: *fleyta, flor, fleksiya, fransızca, frazeoloji* və s.;

b) sözün ortasında:



1. Saitlər arasında: *afaq, afət, üfüq, zəfər, səfər, iltifat, tüfəng, cəfa, kafedra* və s.

2. Saitlə samit arasında· *aftab, qəflət, ifşa, əfsus, üfüqi* və s

3. Samitlə sait arasında: *qərənfil, delfin, alfa, morfem* və s.

4. Qoşa olduqda: *tələffüz, tənəffüs, şəffaf, müvəffəq* və s

Qeyd. Ümumı qaydaya görə ıkı kar samit yanaşı olanda ikincisi bir qədər cıngıltili çalarlıqda tələffüz olunmalıdır Buna görə də söz ortasında qoşa *f* və ya *f*-dən əvvəl yanaşı kar samit olduqda sonrakı *f* samitini bır qədər cingıltıli çalarlıqda da tələffüz etmək olar *şəffaf, kəşfiyyat, məxfi* və s

c) sözün sonunda:

1. Saitdən sonra: *saf, tərif, şərəf, kef* və s.

2. Samitdən sonra: *sərf, vəsf, kəşf, vəqf, amorf* və s.

Qeyd. Söz sonunda samitdən sonra gələn *f* samıtı bır qədər qısa – yarım kəmiyyətdə, həm də özündən əvvəlkı samitlə qovuşmuş halda tələffüz olunur *kəşf, sərf, vəsf* və s

***§127. K' samiti.*** Rus dilindən alınma bir sıra söz və terminlərdə *k* hərfi ilə yazılan samit səs aşağıdakı məqam və şəraitdə *q* samitinin kar qarşılığı kimi, yəni *ka* məxrəcində *k'* kimi tələffüz olunmalıdır.

a) söz başında:

1. Qalın saitlərdən əvvəl· *k'abel, k'abinə, k'adr, k'alka, k'alori, k'amera, k'amfora, k'ansler, k'apella, k'apital, k'arnaval, k'ataloq, k'afe, k'odeks, k'ollektiv, k'olxoz, k'ombayn, k'ombinat, k'ommunist, k'ommutator, k'ompleks, k'onqres, k'onsert, k'ooperatıv, k'osmos, k'ub, k'ultivator, k'urort, k'ursiv* və s.

2. Samitlərdən əvvəl: *k'vadrat, k'vant, k'vars, k'vas, k'laviatura, k'lassizm, k'lerikal, k'limatoloq, k'linika, k'lişe, k'nopka, k'reyser, k'rem, k'rep, k'reslo, k'ron* və s ;

b) söz ortasında·

1. Qalın saitlərdən əvvəl: *ak'ademiya, alk'aloid, alk'aqol, ak'k'ord, ak'k'umulyator, dek'abr, dek'an, dek'orativ, mik'roskop* və s

2. Samitlərdən əvvəl: *trak'tor, demok'rat, dezinfek'siya, ek'ran, ek'stra, ek'spedisiya, elek'trik, mikrosk'op, dik'tant, dik'tor, dialek't, k'uk'la* və s.;

c) söz sonunda:
1. Qalın saitlərdən sonra: *konyak', blok', kubok'* və s.
2. Samitlə yanaşı: *park', oçerk', k'iosk'* və s.

Qeyd. Tərkibində *ka* olan və indi *k* hərfi ilə də yazılan bir sıra sözlər daha əvvəllər dilimizə keçdiyindən və əvvəllər mətbuatda ərəb əlifbasındakı (ق) *qaf* hərfi ilə yazıldığından, ümumi danışıqda belə də mənimsənilmişdir Buna görə də belə sözlərdə *k* (*ka*) əvəzinə, xüsusən sərbəst üslubda, *q* də tələffüz etmək olar *qarandaş* (karandaş), *qazarma* (kazarma), *qlub* (klub), *qnyaz* (knyaz), *qraxmal* (kraxmal), *qartof* (kartof) və s

***§128. T samiti.*** I. *T* samiti aşağıdakı məqam və şəraitdə adi halda, məxrəcinə uyğun, aydın tələffüz olunmalıdır:

a) söz başında *tam, tabaq, tar, teatr, tez, texnik, tələbə, təbib, tikan, toz, tuğ, tum, tüstü, traktor, tramvay, trest, tribuna, trikotaj, trolleybus, tropik* və s.;

b) söz ortasında:

1. Saitlər arasında· *ata, qatar, qatıq, otur, ötür, qutu, ütü, fətir* və s

2. Cingiltili samitlə sait arasında: *altı, artıq, ortaq, örtuk, təntənə, şırıltı, tırtıl, yumurta* və s

3. Saitlə samit arasında: *yetmiş, teatr, titrək, ötkün, lütf, metro, litr* və s.

4. Sözlərin axırında saitdən sonra gələrsə: *ot, öt, tut, saat, adət, zenit, unut, üyüt, avtomat, dövlət, minnət, zəhmət, əziyyət, səadət* və s.

II *T* samiti aşağıdakı məqam və şəraitdə bir qədər cingiltiləşmiş halda *d* çalarlığında (*ṭ* kimi) tələffüz olunmalıdır:

a) əsil Azərbaycan sözlərinin, eləcə də çoxdan azərbaycancalaşmış alınma sözlərin daxilində kar samitdən sonra yanaşı gələn *t* *yasṭı, isṭi, axṭar, taxṭa, asṭar, usṭa, həfṭə, xəsṭə, məkṭəb, dəfṭər, müxṭəsər* və s.

Qeyd Yeni alınma sözlərdə belə məqamda olan *t* öz məxrəcinə uyğun, adi halda tələffüz olunur *aktiv, traktor* və s

b) söz ortasında olan qoşa *t*-dən ikincisi: *həṭṭa, iṭṭifaq, iṭṭiham, əlbəṭṭə, müṭṭəfiq, müṭṭəhim, Səṭṭar* və s.

III. Söz axırında: *st, şt, ft, pt* səs birləşmələrindəki *t* öz məxrəcində deyil, qısaldılmış halda, özündən əvvəlki yanaşı samitin məxrəcinə uyğun bir çalarlıqda onunla qovuşuq tələffüz olunmalıdır:



**st:** *doss* (dost), rass (rast), *şikəss* (şikəst), *sərbəss* (sərbəst), *dəss* (dəst), *üss* (ust), *manifess* (manifest), *ateiss* (ateist) və s

**şt:** *güzəşş* (güzəşt), *behişş* (behişt), *püşş* (puşt) və s.

**ft:** *liff* (lift), *şriff* (şrift), *landşaff* (landşaft), *neff* (neft) və s.

**pt:** *resepp* (resept) və s.

***§129. S samiti.*** I *S* samiti sözün hər yerində, hər cur məqam və şəraitdə əsas məxrəcinə müvafiq, adi halda tələffüz olunmalıdır:

a) söz başında: *saz, sel, sən, siz, sıx, sol, söz, su, sud, sulh* və s.;

b) söz ortasında: *desant, əsər, isti, qısqanc, dost, kösöv, usta, üsul, tüstü, musiqi, təsəlli* və s ;

c) söz sonunda: *mars, his, irs, səs, sus, süs, kurs, küs, əfsus, kosmos* və s.

Qeyd 1) Söz başında *s* ilə hər hansı bir samit səs yanaşı olduqda başdakı *s* səsini ani halda, yəni sonrakı yanaşı samitin başlanğıc hissəsinə qovuşmuş halda tələffüz edilməsi məsləhətdir *skamya, smeta, staj, stol* və s

2) Son zamanlar alınmış bəzi sözlərin daxilindəki qoşa *s*, adətən, bir *s* halında tələffüz olunmalıdır *rejisor* (rejissor), *komisar* (komissar) və s.

***§130. Ke samiti.*** I *Ke* samiti aşağıdakı məqam və şəraitdə adi halda öz məxrəcinə müvafiq, yəni *k* samitinin kar qarşılığı kimi tələffuz olunmalıdır:

a) əsil Azərbaycan sözlərində və çoxdan azərbaycancalaşmış alınma sözlərdə.

1. Söz başında *ı*-dan başqa hər cür saitdən əvvəl. *kal, katib, kef, kəs, kələm, kim, kitab, kol, kotan, köz, köpuk, kuzə, kul* və s.

2. Söz ortasında saitlər arasında: *çəkic, iki, öküz, hekayə, hökumət, zəka* və s

3. Söz ortasında cingiltili samitdən sonra saitdən əvvəl· *inkar, nankor, erkən, tulkü* və s.

4. Söz ortasında saitdən sonra, cingiltili samitdən əvvəl: *hikmət, çəkmə, tökmə, hökmən, hönkür* və s

5 Təkhecalı sözlərin sonunda *pak, tək, tik, tuk, mülk, müşk, kürk, bərk* və s.;

b) son zamanlarda rus dilindən alınma sözlərdə:

1. Söz başında və ya sözün ortasında incə saitlərdən əvvəl gələrsə: *jaket, bankir, anket* və s.

2. Söz axırında incə saitlərdən sonra gələrsə: *elastik, dramatik* və s.

II. Əsil Azərbaycan sözlərində və çoxdan azərbaycancalaşmış alınma sözlərdə *ke* samiti məqam və şəraitdən asılı olaraq aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır:

a) söz ortasında kar samitlə bitən hecadan sonra gələn heca başındakı *ke* samiti azacıq cingiltililəşdirilərək tələffüz olunmalıdır: *təşkil, muşkül, ötkün, kəskin, yetkin, əskik, küskün, düşkün* və s.

Qeyd Söz ortasında *f, h* samitləri ilə bitən hecadan sonrakı hecanın başındakı *ke* öz məxrəcinə uyğun tələffüz olunur: *əfkar, məhkum, möhkəm, məfkurə* və s.

b) söz ortasında yanaşı gələn *kk*-dən ikincisi azacıq cingiltili tələffüz olunmalıdır: *hikkə, Məkkə, mütəkkə, sikkə* və s.

III. *Ke* samiti aşağıdakı məqam və şəraitdə *y* samitinin kar qarşılığı sayılan *x'* səsi çalarlığında azacıq nəfəsli tələffuz olunmalıdır:

a) çoxhecalı sözlərin sonunda: *çiçəx́* (çiçək), *ərıx́* (ərik), *çürüx́* (çürük), *biləx́* (bilək) və s.

b) söz ortasında örtülü hecadan əvvəlki, qapalı hecanın sonundakı *ke*. *kəxlix́* (keklik), *təx́lif* (təklif), *əx́lil* (əklil), *Əx́bər* (Əkbər) və s.

## ƏSASƏN ÖZ MƏXRƏCLƏRİNƏ UYĞUN TƏLƏFFÜZ OLUNAN KAR SAMİTLƏR

***§131. Ç samiti.*** *Ç* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə uyğun tələffüz olunur:

a) söz başında: *çal, çöl, çək, çillə, çadır, çürük, çovdar* və s.;

b) söz ortasında: *açıq, alçaq, alça, qaçaq, açar, üçün, içəri, küçə, külçə* və s.;

c) söz sonunda: *aç, qaç, iç, keç, üç, heç, biç, qıç, ölç* və s.

Qeyd Söz ortasında samitlə başlanan hecadan əvvəlki hecanın sonundakı *ç* samitini xüsusən sərbəst üslubda, azacıq *ş* çalarlığında da tələffüz etmək olar: *keşmiş* (keçmiş), *qaşqın* (qaçqın) və s.



***§132. H samiti.*** *H* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunur:

a) söz başında: *hal, heç, hava, hesab, həb, həvəs, hikkə, hıçqırıq, hoqqa, hökm, höruk, huş, humanizm, hündür* və s.;

b) söz ortasında: *ahəng, şahid, zehin, möhür, mühəndis, mühit, mühüm, sahman, ehtiyac, töhmət, möhlət, köhnə, səhnə, izhar, tənha, məzhəkə, məhrum, məşhur, məlhəm* və s;

c) söz sonunda *ah, gah, agah, segah, səth, mədh, fəth* və s

Qeyd. Söz sonunda samitdən sonra yanaşı gələn *h* zəifləşir, tələffüz olunmur. Lakin belə sözlərə saitlə başlanan şəkilçi bitişdirildikdə, söz qoşulduqda *h* yarımçıq məxrəclə tələffüz olunmalıdır

***§133. X samiti.*** *X* samiti aşağıdakı məqam və şəraitdə öz məxrəcinə müvafiq tələffüz olunmalıdır:

a) söz başında *xal, xala, xeyr, xeyli, xəz, xəlvət, xiyar, xına, xoş, xumar, xüsusi, xlor* və s.;

b) söz ortasında: *yaxa, axın, mexanik, məxaric, mixək, sıxıntı, toxum, çuxa, çuxur, yuxu, arxa, tərxun, yaxşı, saxsı, məxsus, məxmər* və s.,

c) söz sonunda: *ax, qax, yox, çox, çıx, qırx, tox* və s

***§134. Ş samiti.*** *Ş* samiti aşağıdakı şəraitdə öz məxrəcinə uyğun tələffuz olunur:

a) söz başında: *şad, şeriyyət, şərq, şəhər, şir, şitil, şövq, şölə, şur, şuluq, şüur, şrift, şkaf* və s.;

b) söz ortasında: *maşa, maşın, meşə, nəşə, nişan, fişəng, işıq, aşıq, qoşun, döşək, qurğuşun, axşam, tapşırıq, mənşə, qarşı, yaxşı, arşın, turşu, aşqar, daşqın, məşhur, coşqun, müşkül, nəşriyyat, təşkil* və s.;

c) söz sonunda. *aş, qardaş, zəhmətkeş, atəş, iş, keçmiş, xoş, sərxoş, quş, gümüş, bəxş, nəqş, fərş* və s.

## QRAFİK ŞƏRAİTDƏ TƏLƏFFÜZ

***§135. Qrafik əsasda düzəldilən qısaltma sözlər haqqında*** Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində elə sözlər var ki, bunları ümumiləşmiş halda "yazı əsasında formalaşmış sözlər" adlandırmaq olar. Belə sözlərin tələffüzündə də onların yazılması, yeni hansı hərflərlə formalaşması, yazılmış sözlərin hansı hissələrinin

əsasında qurulması və yazılmış vahidlərin heca təşkil edib-etməməsi nəzərə alınır. Buna görə də belə sözlərin tələffüzü yazı vahidləri ilə bağlı olur və tələffüz qaydaları – normaları qrafik şərait əsasında müəyyənləşir.

Qrafik əsasda formalaşmış belə sözlər son zamanlarda Azərbaycan ədəbi dilində çoxalmış və geniş dairədə yayılmışdır. Hətta belə sözlərin bir qismi ümumi danışıq dilinə keçərək çox işlək sözlərdən olmuşdur. Məsələn, BMT (Birləşmiş Millətər Təşkilatı) sözünü ümumiləşmiş halda işlədir və cümlə, ifadə daxilində tələbata uyğun olaraq bunlara müxtəlif şəkilçilər də bitişdirirlər: BMT-də, BMT-nin, BMT-yə və s

Eləcə də MM, APU, ADU, AMEA kimi qısaltmalar da son zamanlar danışıqda çox işlənən sözlər sırasına daxil olmaqdadır Dilçilik ədəbiyyatında belə sözlərin xüsusi adı da yaradılmışdır Yəni belə sözlər "qısaltma sözlər" adlanır

Bu cür sözləri diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, bunların hamısı eyni əsasda formalaşmamış və eyni qaydada da tələffüz olunmur *Milli Məclis* ifadəsini təşkil edən sözlərin ilk səslərinin birləşməsindən düzələn *MM* qısaltması *m* hərfinin adından, yəni *em* hərfi adlardan[1] düzələn bir vahid halında *emem* sözü kimi tələffüz edilir Buna görə də belə tələffüz "hərfi tələffüz" adlanır.

APU qısaltması da eyni qayda əsasında (yəni "Azərbaycan Pedaqoji Universiteti" adını təşkil edən sözlərin ilk səsləri əsasında) düzəldilmişdir. Lakin bu qısaltmanın tələffüzündə başqa prinsipdən istifadə olunur Belə ki, bu qısaltmanı təşkil edən hərflərdən birincisi *a* və sonuncusu *u* sait səsləri, ortadakı isə *p* samit səsi bildirən hərflərdir. Belə səslər birləşməsi isə iki heca kimi təzahür edir, bu hecaları birləşmiş halda tələffüz edəndə ikihecalı bir sözə oxşar vahid yaranır. Buna görə də belə qısaltmanı təşkil edən hərflər birləşməsi hərfi adlarla *APEU* kimi deyil, hecai vahidlər birləşməsindən düzələn bir söz halında *APU* (A-PU) kimi tələffüz olunur. Belə tələffüz isə hecai tələffüz adlanır.

[1] "Hərfi adlar" dedikdə belə bir faktı nəzərə almaq lazımdır ki, müasir Azərbaycan əlifbasında *k* hərfi əsasən iki səsin işarəsidir Buna görə də qısaltma sözlərdə *k* hərfinin tələffüzündə hansı sözün baş hərfi olması, yəni hansı səsin hərfi işarəsi olması nəzərə alınmalı və bir məqamda *ka*, başqa məqamda *ke* kimi tələffüz olunmalıdır məsələn, *Milli Komitə – MK-eMKa, Kənd Təsərrüfatı Nazirliyi – KTN - KeTeN* (yaxud *KeTeeN*) və s



Hərflər birləşməsindən düzəldilən qısaltma sözlərin tərkibindəki hərflərdən bəzisi müxtəlif məqam və şəraitdə hərfi adı ilə və ya heca vahidi kimi deyil, sadəcə fonetik bir vahid halında – bir səs kimi öz məxrəcinə müvafiq halda tələffüz olunur ki, belə tələffüz sövti tələffüz adlanır. Məsələn, ATN (Azərbaycan Təhsil Nazirliyi), AYB (Azərbaycan Yazıçılar Birliyi) kimi qısaltma sözləri təşkil edən hərflərdən sonuncuları (*N, B*) *öz* məxrəclərinə uyğun səslər kimi, əvvəlki hərflər isə hərfi əsasda tələffüz olunur: *A-Te-eN, A-Ye-Be* və s.

Buradaca belə bir xüsusiyyəti qeyd etməliyik ki, qısaltma sözlərin bir qismi ya lüğəvi əsasda, ya hecai əsasda, ya da hərfi əsasda tələffüz olunur. Bütövlükdə təkcə sövti əsasda tələffüz olunan qısaltma söz yoxdur; sövti əsasdan ancaq bu və ya digər əsasda tələffüz olunan sözlərin tərkibində istifadə olunur

Qısaltma sözlərin bir qisminin tələffüzündə isə təkcə bir əsasdan deyil, bir neçə əsasdan istifadə olunur. Məsələn, ÜDKT (Ümumdünya Kosmos Təşkilatı) qısaltmasının tələffüzü sövti *Ü*, hecai *de*, hərfi *ka*, hecai *te* olmaq üzrə üç əsasa müvafiq normalar birikməsi üzrə qurulur. Buna görə də belə tələffüz "müxtəlif normalar birikməsi əsasında tələffüz" adlanır

Buradan belə bir nəticəyə gəlmək olur ki, qısaltma sözlərin formalaşma yolları, qaydaları, fonetik tərkibi müxtəlif olduğu kimi, tələffüz əsaslarında da müxtəliflik vardır. Buna görə də qısaltma sözlərin hansı əsasda tələffüz edilməsini dəqiqləşdirərkən xüsusən ifadələri, mürəkkəb adları təşkil edən sözlərin ilk hərflərinin birləşməsindən düzələn qısaltmaların fonetik tərkibinin aşağıdakı əlamətlər üzrə nəzərə alınması vacib şərtlərdəndir.

a) Ancaq samit səslərin hərfi işarələrindən ibarət olan qısaltmalar ancaq hərfi əsasda da tələffüz olunmalıdır: *MM – eMeM. BMT – BeeMTe* və s.

b) Hərfi ad ilə səs eyniyyət təşkil etdiyi üçün sait səslərin hərfi işarələrindən ibarət olan qısaltmalar hərfi-hecai əsasda heca vahidləri kimi, yəni sait səsləri bildirən hərflər birləşməsi heca birləşməsi halında söz vahidləri kimi tələffüz olunur: *MEA – Milli Elmlər Akademiyası* və s

c) Həm samit, həm də sait səsləri bildirən hərfi işarələrdən ibarət olan qısaltmalar saitləri bildirən hərflərin məqam və şəraitindən asılı olaraq ya bütövlüklə hecai əsasda, ya bütövlüklə hərfi əsasda, ya

da qismən hecai, qismən hərfi əsasda tələffüz olunur: *MƏR, VVAQ* (*VeVAQ*), *ÜDKT* (*ÜDeKaTe*) və s.

Məhz belə xüsusiyyətləri nəzərə alınaraq müasir Azərbaycan dilindəki qısaltma sözlər formalaşma əlamətlərinə və fonetik tərkiblərinə görə aşağıdakı əsaslarda tələffüz olunur.

***§136. Əsli əsasda tələffüz olunan qısaltma sözlər.*** a) ifadəni təşkil edən sözlərin ilk hissələrinin qovuşdurulmasından düzələn qısaltma sözlər: *raykom, Baksell* və s.;

b) ifadəni təşkil edən sözlərdən birincisinin ilk hissəsi ilə ikinci sözün əsasının birləşdirilməsindən düzələn qısaltma sözlər: *Azərnəşr, Azərkitab, Azərneft* və s.;

c) ifadəni təşkil edən sözlərdən birincisinin ilk hissəsi ilə digər sözlərin baş hərfləri əsasında düzələn qısaltma sözlərdə ilk sözün ilk hissəsi: *Azər TAc, Nax MR* və s.

***§137. Hecai əsasda tələffüz olunan qısaltma sözlər.*** a) sait və samit səslərin hərfi işarələri birləşməsindən tək heca halında formalaşan qısaltmalar təkhecalı söz kimi tələffüz olunmalıdır:

MƏR (Misir Ərəb Respublikası), BİF (Beynəlxalq İstehsalat Federasiyası), BUM (Bakı Universal Mağazası), BOK (Beynəlxalq Olimpiya Komitəsi), TEC (Tələbə Elmi Cəmiyyəti), SES (Su Elektrik Stansiyası).

Qeyd Əgər qısaltmanı təşkil edən hərflər birləşməsində saitdən sonra əvvəlincisi cingiltili, ikincisi kar iki samit olarsa, belə samitlər sövti əsasda, qısaltma isə bütövlükdə bir heca kimi tələffüz olunmalıdır. *ABŞ* (Amerika Birləşmiş Ştatları), *İLP* (İngiltərə Leyboristlər Partiyası), *İRP* (İtaliya Respublika Partiyası) və s.,

b) sait və samit səslərin hərfi işarələri birləşmələrindən iki heca halında formalaşan qısaltmalar ikihecalı söz kimi tələffüz olunmalıdır:

*BDU* (Bakı Dövlət Universiteti)
*APU* (Azərbaycan Pedaqoji Universiteti)
*ATU* (Azərbaycan Tibb Universiteti)
*ADU* (Azərbaycan Dillər Universiteti)
*AHİB* (Almaniya Həmkarlar İttifaqları Birliyi)
*BERİ* (Beynəlxalq Elektrik Rabitəsi İttifaqı)
*ÜDƏF* (Ümumdünya Əmək Federasiyası)
*HƏEK* (Həkim Əmək Ekspert Komissiyası) və s.;

c) hərflər əsasında düzəldilmiş qısaltmaların sonundakı sait səsin hərfi işarəsi özündən əvvəlki samitin hərfi işarəsi ilə birgə sövti



əsasda vahid bir heca kimi tələffüz olunmalıdır· *APDİ, DETPİ, MDU, İMA, BRTTİ* və s.

Belə qısaltma sözlərin əvvəlindəki hərflər məqam və şəraitə görə müxtəlif əsaslarda, sonundakı *Dİ, Pİ, DU, MA, Tİ* isə həmin səslər birləşməsindən ibarət hecalar kimi tələffüz olunur.

***§138. Hərfi əsasda tələffüz olunan qısaltma sözlər.*** a) ancaq sait səsləri bildirən hərflərdən ibarət qısaltmalar: *EA* (Elmlər Akademiyası), *AAÖ* (Asiya-Afrika Ölkələri) və s.

Qeyd. Belə qısaltmaların tələffüzündə, xüsusən sərbəst üslubda, sonuncu saitdən əvvəl bitişdirici *y* çalarlığına yol verilir· *EYA* (*EA*), *OİYA* (*OİA*),

b) samitləri bildirən hərflərdən ibarət olan qısaltmalar.

*MM – eMeM* (Milli Məclis), *MK – eMKa* (Milli Komitə), *BMT – BeeMTe* (Birləşmiş Millətlər Təşkilatı), *BVF – BeVeFe* (Beynəlxalq Valyuta Fondu), *BŞZ – BeŞeZ* (Bakı Şin Zavodu), *VDR – VeDeeR* (Vyetnam Demokratik Respublikası), *GTK – GeTeKa* (Gənclər Təşkilatı Komitəsi), *RNŞ – eReNŞe* (Redaksiya-Nəşriyyat Şurası), *ŞTŞ – ŞeTeŞe* (Şəhər Telefon Şəbəkəsi), *HDD – HeDeDe* (Hərbi Dəniz Donanması) və s

Qeyd 1) Belə qısaltmalarda *m, n, r, l* kimi sonor samitlərdən əvvəl gələn başqa samit səsləri bildirən hərflərin adlarındakı *e* xüsusən sərbəst üslubda qısaldılır, ya da ixtisara düşür· *BeeMTe, VeDeeR* kimi qısaltmaları *BeMTe, VeDeR* çalarlığında da tələffüz etmək olar.

2) Belə qısaltmalarda qeyri-sonor samitlərdən sonra gələn axırıncı samitləri, xüsusən sərbəst üslubda, hərfi əsasda yox, sövti əsasda da tələffüz etmək olar *ŞTŞ – ŞeTeŞ, BŞZ – BeŞeZ* və s

***§139. Müxtəlif normalar birikməsi əsasında tələffüz olunan qısaltma sözlər.*** a) Qısaltmanın əvvəlində iki, ikidən çox yanaşı sait, sonra isə bir və ya bir neçə samit olduqda, saitlə yanaşı gələn samit birləşməsi bir heca halında, başda və ortada olan digər hərflər adlarına müvafiq, sonda yerləşən samit isə sövti əsasda[1] tələffüz olunmalıdır:

[1] Sonda olan *k* hərfi əlaqədar olduğu sözə görə ya *ka*, ya da *ke* kimi tələffüz olunmalıdır

*AAİƏT-A-A-İ-ƏT* (Asiya-Afrika İqtisadi Əməkdaşlıq Təşkilatı), *OİK – O-İK,* (Ordu İdman Klubu), *İİŞ – İ-İŞ* (İqtisadi və İctimai Şura), *AAUMHP – A-A-UM-HeP* (Anqola Azadlığı Uğrunda Milli Hərəkat Partiyası), *AAXHT – A-AX-HeT* (Asiya və Afrika Xalqları Həmrəylik Təşkılatı), *İİNŞ – İ-İNŞ* (İngiltərə-İran Neft Şirkəti) və s.

b) Qısaltmanın sonunda bir neçə yanaşı saıt, onlardan əvvəl isə bir və ya bir neçə samit olduqda, samitlə yanaşı duran sait vahid heca halında, digər hərflər isə adlarına müvafiq tələffüz olunmalıdır:

*CAİ – CA-İ* (Cənubi Afrika İttıfaqı), *BAİ – BA-İ* (Beynəlxalq Astronomiya İttıfaqı), *BAEA – BA-E-A* (Beynəlxalq Atom Enerjisi Agentliyi), *BDİİ – BE-Dİ-İ* (Beynəlxalq Dəmiryolçular İdman İttifaqı) və s

c) Başda saitlərdən sonra gələn samitlərlə yanaşı sait olduqda, başdakı sait hərfi əsasda, sonrakı sait-samit, samit-sait və ya samit-sait-samıt bırləşmələrı heca halında tələffüz olunmalıdır:

*AETMİ – A-ET-Mİ* (Azərbaycan Elmi-Tədqiqat Məlumat İnstıtutu), *ÜAHİF – Ü-A-HİF* (Ümum Afrika Həmkarlar İttifaqları Federasiyası) və s.

ç) Başda sait, sonra samitlər olduqda qısaltmalar sonrakı samitin növünə görə aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır:

1. Sonda qeyrı-sonor samit olduqda həmın samıt sövti əsasda, tərkibi təşkil edən əvvəlki hərflər isə hərfi əsasda tələffüz olunmalıdır·

*ALDP – AeLDeP* (Almaniya Liberal Demokratık Partiyası), *AMDP – AeMDeP* (Almaniya Milli Demokratik Partiyası), *ADKP – ADeKeP* (Almaniya Demokratik Kəndli Partıyası), *ADT – ADeT* (Amerika Dövlətlərı Təşkilatı), *ATS – ATeS* (Avtomat Telefon Stansiyası), *ETŞ – ETeŞ* (Elmi Texnikı Şura), *ETC – ETeC* (Elmi Texniki Cəmiyyət), *ƏDC – ƏDeC* (Ərəb Dövlətlərı Cəmiyyəti), *İMNŞ – İMeNŞ* (İran Milli Neft Şirkəti), *İSFP – İSFeP* (İspaniya Sosialist Fəhlə Partiyası) və s

2. Belə qısaltmanın sonunda sonor samit olduqda hərfi adına müvafiq tələffüz olunmalıdır:

*AXR – AXeeR* (Albaniya Xalq Respublikası), *ÜDGM – ÜDGeeM* (Ümumdünya Gənclər Məclisi) və s.

3. Belə qısaltmanın sonunda eyni sonor qoşa olarsa əvvəlkı sövtı, sonrakı hərfi əsasda tələffüz olunmalıdır:



*ANN – ANeN* (Avtomobil Nəqliyyatı Nazirliyi), *ADYMM – ADeYMeM* (Avropa Dəmir Yolları Məlumat Mərkəzi), *AŞMM – AŞMeM* (Avropa Şurasının Məsləhət Məclisi) və s.

d) Ortada yerləşən bır sait ilə bır neçə samit birləşməsindən düzələn qısaltmalar aşağıdakı çalarlıqlarda tələffüz olunur.

1 Qısaltma söz əvvəl samit-sait, sonra isə bir neçə samit birləşməsindən düzəlmişsə, ilk uç hərf bırləşməsi örtülu-qapalı heca kimi, sonrakı hərflər isə hərfi adlarına muvafiq tələffüz olunmalıdır.

*BÖÇK – BÖÇKa* (Beynəlxalq Ölçü və Çəki Komitəsi), *BEMZ – BEMZe* (Bakı Elektrik Maşınqayırma Zavodu), *MESN – MESeN* (Meşə Emalı Sənayesi Nazirliyi), *ŞATS – ŞATSe* (Şəhər Avtomat Telefon Stansiyası), *ŞATŞ – ŞATŞe* (Şəhər Avtomat Telefon Şəbəkəsi).

Qeyd. Əgər hecadan sonra ıkı, üç hərf olarsa, sonuncu hərf sövtı əsasda tələffüz edilməlidir *ÇOMŞF – ÇOMŞeF* (Çili Orta Məktəb Şagırdlərı Federasiyası) və s

2. Qısaltma söz əvvəldə bir və ya ıkı samit, sonda isə samit-sait-samit bırləşməsindən düzəlmışsə, sait ətrafındakı samitlər bırləşməsi örtülü-qapalı heca kımi, qalan əvvəlkı samit (və ya samitlər) isə hərfi əsasda tələffüz olunmalıdır

*BBOK – BeBOK* (Beynəlxalq Balina Ovu Komitəsi), *BSEC – BeSEC* (Beynəlxalq Siyasi Elmlər Cəmiyyəti), *VVAQ – VeVAQ* (Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı), *VHİM – VeHİM* (Vahid Həmkarlar İttifaqları Mərkəzi), *DYƏT – DeYƏT* (Dəmir Yolları Əməkdaşlıq Təşkilatı), *SHİF – SeHİF* (Seylon Həmkarlar İttifaqları Federasiyası), *FHİŞ – FeHİŞ* (Filippin Həmkarlar İttifaqları Şurası), *CVMAC – CeVeMAC* (Cənubi Vyetnam Milli Azadlıq Cəbhəsi), *ÇVHİM – ÇVeHİM* (Çili Vahid Həmkarlar İttıfaqları Mərkəzi)

d) Saitlə bitən qısaltmalarda saitdən əvvəlki – yanaşı samit sondakı sait ilə bir heca kimi, əvvəlki samitlər isə hərfi əsasda tələffüz olunmalıdır:

*BTMİ – BeTeMİ* (Beynəlxalq Təbiəti Mühafizə İttifaqı), *VMA – VeMa* (Vyetnam Məlumat Agentliyi), *SME – SeME* (Səhiyyə Maarif Evi), *MXİ – eMXİ* (Məişət Xidməti İdarəsi), *FGİ – FeGİ* (Fəhlə Gənclər İttifaqı) və s.

## QRAMMATİK ŞƏRAİTDƏ TƏLƏFFÜZ

***§140. Qrammatik şərait haqqında.*** Qrammatıkada morfologiya və sintaksis olmaq üzrə iki əsas sahə əhatə edildiyi kımi, "qrammatık şəraitdə tələffüz" də əsasən iki şəraitlə əlaqədar tələffüz normalarını əhatə edir:

1. Morfoloji şəraitdə tələffüz.
2. Sıntaktik şəraitdə tələffüz.

Morfoloji şərait sözlərə morfoloji vahıdlərin – şəkilçilərın bitişdirilməsi şəraitıdir. Burada isə bır sıra əlamətdar cəhətlərın nəzərə alınması zərurıdir

Məlum olduğu üzrə, şəkılçılər həm söz köklərinə, həm də şəkilçi qəbul edərək düzəlmiş və ya dəyişilmiş sözlərə bitişdirılir. Deməli, bırıncı halda söz kökünün sonuncu səsi ilə şəkılçının ilk səsi yanaşır və bitışır: *bacı-sı, çiçək-lik, uç-du.* İkıncı halda isə şəkılçi vasitəsi ilə düzəldilmiş, dəyişilmiş sözün sonundakı səsə, yeni sözə bitişdirilmiş şəkılçının axırıncı səsinə başqa bir şəkilçinin ilk səsi yanaşır və bitişir: *bacı-sı-nın, çiçək-lik-lər, zərbə-çi-lər, uç-du-lar* və s

Hər ıkı hal morfoloji prosesdır və bu proses şəkilçini bitışdiyi sözün, xüsusən sonuncu səsin tələffüzünə, bəzən də bu və ya digər şəkılçinin, umumiyyətlə fonetık tərkibinə və tələffüzünə təsir edır. Beləliklə də morfoloji şəraitlə əlaqədar olan tələffüz normaları formalaşır. Məhz buna görə də morfoloji şəraitlə əlaqədar olan tələffüz normalarını, əsasən, aşağıdakı ikı istiqamətdə nəzərdən keçirmək məqsədə uyğundur I. Şəkilçi bitişdirilən sözlərin sonuncu səslərinin tələffüzü. II. Sözlərə bitişdirilən şəkilçilərin tələffuzü

Sintaktik şərait sözlərin sözlərə yanaşması, qoşulması və bitişdırılməsi şəraitıdir Belə şəraitdə də tələffüzə təsir edən bır sıra halların nəzərə alınması zəruridir.

Ümumiyyətlə, sintaksisın əsası sözlərın birləşməsi-yanaşması prosesi ilə bağlıdır Lakin bu proses nəticəsində ancaq sintaktık vahıdlər – söz bırləşmələri, ifadələr, cümlələr deyil, lüğəvi vahıdlər, xüsusən mürəkkəb sözlər də yaradılır. Həm sintaktik vahidlərın, həm də mürəkkəb lüğəvi vahidlərin formalaşdırılma şəraiti həmin vahidlərın ümumiyyətlə tələffüz normalarının da formalaşmasına təsir edir. Belə vahidlərdə xususən yanaşan, bitişən birinci sozün sonundakı səs (bəzən səslər) və ya ikıncı sözun əvvəlindəki səs (bəzən



səslər) müxtəlif çalarlıqda tələffüz olunur, hətta bəzən ixtisara düşür: *kitab al, kitab tap, Əliyar – Əlyar, Əliheydər – Əleydər*

Məhz buna görə də sıntaktık şəraitlə əlaqədar olan tələffüz normalarını əsasən ikı istıqamətdə nəzərdən keçirmək lazımdır·

I. Yanaşı müstəqil sözlərin son və ilk səslərinin tələffüzü

II. Mürəkkəb sözlərın və ifadələrin vahidlərini bitişdirən səslərın tələffüzü

## MORFOLOJİ ŞƏRAİTDƏ TƏLƏFFÜZ

***§141. Saitlə bitən sözlərdə*** Saitlə bitən sözlərə şəkılçi bitişdirıldikdə sözlərın və şəkılçilərin quruluşundan, fonetık tərkıbindən asılı olaraq tələffüzdə bır sıra çalarlıqlara yol verılir

a) Saitlə bitən sözə saitlə başlanan şəkilçi bitişdirildikdə, umumi fonetik qanun üzrə əlavə edilən bitişdirici samitdən əvvəlki heca aşağıdakı çalarlıqlarda tələffüz olunur:

1. Çoxhecalı sözlərdə bitışdirıci *y*-dən əvvəlkı hecada olan açıq sait öz qarşılığı qapalı sait çalarlığında (xüsusən sərbəst üslubda) tələffüz olunur:

**a – ı**· *ana-y-a – anıya, alma-y-a – almıya, qayna-y-ır – qaynıyır* və s

**ə – i**: *nənə-y-ə – nəniyə, tələbə-y-ə – tələbiyə, din-lə-y-ir – dinliyir* və s.

Qeyd İkıhecalı belə sözlərın bırıncı hecası dodaqlanan saitli olduqda, bitışdırıci *y*-dən əvvəlkı hecanın dodaqlanmayan açıq saitini bırıncı hecadakı dodaqlanan saitə müvafiq qapalı sait çalarlığında da tələffüz etmək olar

**o – a – u**: *doğra-y-ır – doğruyur, oğra-y-an – oğruyan* və s.
**u – a – u**: *buğda-y-a – buğduya, tulla-y-ar – tulluyar* və s.
**ö – ə – ü**: *söylə-y-ir – söylüyür, ölkə-y-ə – ölküyə* və s.
**ü – ə – ü**. *küçə-y-ə – kuçuyə, küpə-y-ə – küpüyə* və s.

2. Bitışdirici *s* ya *n* samiti olduqda, sözlərın tələffüzundə qrammatik şəraitlə əlaqədar heç bir dəyişiklik edilmır·

**-n**· *atanın, nənənin, almanın, tələbənin, ölkənin* və s.

-s: *anası, dədəsi, təpəsi, təntənəsi, kölgəsi, sürüsü, qoxusu, yuxusu* və s.

3 İki açıq hecadan formalaşmış və qapalı saitlə bitən sözlərə III şəxsin təkinin nisbət şəkilçisi bitişdirildikdə, sözün sonundakı qapalı sait bir qədər qısaldılmış halda tələffüz olunur: *bacı-s-ı – bacı sı, dayı-s-ı – dayı sı, əmi-s-i – əmi.si, quzu-s-u – quzu su, düyu-s-u – düyü.sü* və s

Qeyd Belə sözlərdə birinci sait uzun tələffüz olunursa, nisbət şəkilçisi qəbul edərkən, ikinci hecadakı sait adi halda tələffüz edilməlidir *ahu-s-u – a husu, dahi-s-i – da hisi* və s.

b) Saitlə bitən sözə samitlə başlanan şəkilçi bitişdirildikdə, söz lüğəvi şəraitdə olduğu kimi tələffüz edilir: *atadan, dünyanın, orduda, altıncı, dinləsin, sürücülər, yeddidir* və s.

***§142. Samit səsə samit səs bitişdirilməsi şəraitində*** Samitlə bitən sözə samitlə başlanan şəkilçi bitişdirildikdə yanaşan samitlər əsasən aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır.

a) Sözün sonundakı cingiltili samit lüğəvi şəraitdə olduğu kimi, yəni karlaşmış halda, şəkilçinin başındakı samit isə öz məxrəcində tələffüz olunmalıdır:

1) Çoxhecalı sözlərin sonundakı *b, d, g, c* samitləri:

**b – ḅ**: *kitaḅda, məktəḅli, kitaḅça, coraḅsız, səbəḅkar* və s.

**d – ḍ**: *azaḍlıq, qanaḍsız, cəllaḍsan, buluḍlu* və s.

**g – g̣**. *ahəng̣dar, ahəng̣siz, pələng̣dir, çələng̣dir* və s.

**c – c̣**: *ağac̣sız, turac̣lar, yamac̣dan, qılınc̣dan, qısqanc̣lıq* və s.

2) Təkhecalı sözlərin axırında sonorlardan, eləcə də *y*-dən sonra yanaşı gələn *d, c, g, b* samitləri:

**d – ḍ**: *kənḍli, cəlḍlik, kürḍlər, qənḍsiz, qeyḍlər* və s.

**c – c̣** *gənc̣lik, dinc̣dir, xərc̣siz, künc̣dən* və s.

**g – g̣**: *rəng̣siz, ləng̣dir, zəng̣dən* və s.

**b – ḅ**: *hərḅçi, qəlḅlər, qərḅlilər, eyiḅsiz* və s.

3) Familiya bildirmək üçün adların axırına bitişdirilən *-ov, -yev* şəkilçilərinin sonundakı *v* karlaşmış halda tələffüz olunduğu kimi, belə familiyaların sonuna samitlə başlanan şəkilçi bitişdirildikdə *v* yenə karlaşmış halda tələffüz olunur: *Həsənoṿ – Həsənoṿdan, Əliyeṿ – Əliyeṿdən* və s

4) İki və ikidən artıq hecalı alınma sözlərin sonundakı (*-tiv*) morfemində olan *v* karlaşmış halda tələffüz olunur: *aktiṿ – aktiṿlik, kollektiṿ – kollektiṿdən, obyektiṿ – obyektiṿlik* və s.



5) Bezi alınma sözlərin sonundakı *q* samiti:

**q – q̣**: *ittifaq – ittifaq̣dan, maraq – maraq̣lı, dəqiq – dəqiq̣lik, məntiq – məntiq̣siz, müttəfiq – müttəfiq̣lər, xalq – xalq̣çılıq* və s

6) Kar samitlə başlanan şəkilçi bitişdirildikdə sözlərin sonundakı *z* samiti:

**z – ẓ**: *qotaẓsız, donuẓçuluq, almaẓsan, dəniẓçilər, yaẓsa, əẓsin, ıẓçi* və s.

b) Öz məxrəcinə uyğun tələffuz olunur

1. Təkhecalı sözlərin sonunda saitdən sonra, yanaşı gələn *b, d* *qablar, qabsız, dibdən, cibsiz, dəbdən, təbdən, tabsız, dadlı, adlar, sədlər, yaddır, yaddaş, odsuz* və s.

2. Cingiltili samitlə başlanan şəkilçi bitişdirildikdə sözlərin sonundakı *z* samiti: *almazdan, dənizdə, səkkizdən, azdır, yazmış, qazdır, sazdan, gözlük, özgə, düzgün* və s.

3. Sözlərin sonunda olan aşağıdakı samitlər.

**v**: *alovlu, alovsuz, kösövdə, novda, divlər, növlu, ovçu, evdən, sevmiş* və s.

**ğ**: *çağlar, buğlu, sağdır, bağlı, yağsız* və s.

**y**: *alaydan, haraysız, harayçı, aylıq, göydə, meysiz, kuylü* və s.

**h**: *allahsız, gunahkar, fərəhli, cərrahdan, gümrahsan, ahlar* və s

**j**: *tirajlı, tirajsız, tirajdan* və s.

**n**: *amansız, dərmandır, qurbandır, canlı, əkinçi, odunluq, günsüz* və s

**l**: *zoğallı, oğulsuz, gözəldir, qəzəllər, almış, gəlsə* və s

**m**: *aləmdə, alimlər, qələmsız, salamlaş, elmli, qəmsiz* və s.

**r**: *qatarda, açarsız, kömürlü, dəmirçi, yerdə, birlik, görmək* və s.

**s**: *həvəsdən, tələsmir, iclassız, iclasdan, asdı, kussün, susmur* və s.

**t**: *ehtiyatlı, minnətsiz, muğamatdan, atlı, şərtlə, otluq* və s.

**p**: *qrupda, qulpsuz, turpdur, çırpsın, sapdan, saplamaq, topsuz, gopçu, səpgi* və s

**f**: *ətrafdan, tərəfdə, tərəflər, insafsız, kifli, saflıq, təriflənək* və s

**x**: *tarixdən, tarixçi, toxluq, yoxluq, çıxsın, axsın, sıxmaq, qırxlar* və s.

c) Başqa məxrəcdə tələffüz olunur

1. Sözlərin sonundakı *k* samiti *y* səsinin kar qarşılığı çalarlığında (*x* məxrəcində).

**k – x́** *çiçək – çiçəx́ li, çiçəx́ siz, külək – küləx́ dən, ək – əx́ miş* və s

2. Çoxhecalı sözlərin sonundakı *q* samiti *x* məxrəcində:

**q – x**: *otaq – otaxda, ocaq – ocaxlı, artıq – artıxdır, qulluq – qulluxçu* və s.

3 Sərbəst üslubda təkhecalı sözlərin axırında saitlərdən sonra yanaşı olan *ç* samiti *ş* məxrəcində, *c* samiti *j* məxrəcində, *p* samiti *f* məxrəcində:

**ç – ş**: *aç – aşdı, saç – saşlı, uç – uşdum, qaç – qaşsın* və s.

**c – j**: *ac – ajsan, gec – gejdir, güc – güjlü, uc – ujdan* və s.

**p – f**: *sap – saflamaq, tap – tafdıq, köp – köfmüş, çöp – çöfdən* və s.

***§143. Samit səsə sait səs bitişdirilməsi şəraitində.*** Samitlə bitən sözə saitlə başlanan şəkilçi bitişdirildikdə axırındakı samitlər aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır.

a) ö z  m ə x r ə c i n ə  u y ğ u n  t ə l ə f f ü z  o l u n u r:

Azərbaycan dilindəki samitlərin hamısı (çoxhecalı sözlərin sonundakı *k, q* samitlərindən başqa), o cümlədən lüğəvi şəraitdə karlaşmış halda tələffüz olunan *b, d, z, c* samitləri də öz məxrəcinə uyğun tələffüz olunur.

**b:** *kitabın, məktəbimizin, səbəbi, hərbi* və s.

**c:** *ağaca, yamacı, əlacı, acıb, güclənir, dincəlir* və s.

**ç:** *açır, qaçar, saçına, uçar, keçər* və s.

**d:** *poladın, qanadı, buluda, uduş, güdər* və s.

**f:** *insafı, ətrafa, tarifə, müəllifin, sələfimiz* və s.

**g:** *ahəngi, tüfəngin, zəngi, rəngi, pələngə* və s.

**ğ:** *dağın, bağı, yığır, sağıcı* və s.

**h:** *günahı, günahını, ahı* və s

**x:** *tarixi, jmıxın, çıxır, axar, qırxıncı, axıntı* və s.

**j:** *tiraji, tiraja, montajın* və s.

**k:** *əkir, çəkir, tikər, tökülür, yükün* və s.

**l:** *marala, gözəlin, çalır, gülər, gələcək* və s.

**m:** *salamı, alimin, qələmə, umur, yumar* və s.

**n:** *oğlanın, ceyrana, utanır, dönüş, yanır* və s.

**p:** *sapın, turpu, qrupun, çırpır, səpir, qopar* və s.

**r:** *açarı, damara, kömürün, surər, görür, dərəcək* və s.

**s:** *iclasın, təşəbbüsü, həvəsimiz, səsini, kəsir* və s.

**ş:** *şabaşın, marşımız, güləşir, bişər, düşürlər* və s.

**t:** *saatın, zəmanətə, kainata, satır, ötən, şərti* və s.

**v:** *alovu, buzovun, evə, ova, sevir* və s.

**y:** *sarayın, harayına, göyər, doyunca, aya* və s.

**z:** *avazın, dənizə, nərgizi, yazır, düzəcək* və s.;

b) b a ş q a  m ə x r ə c d ə  t ə l ə f f ü z  o l u n u r:

1 Çoxhecalı əsil Azərbaycan sözlərinin və azərbaycancalaşmış alınma sözlərin sonundakı *k* samiti *y* məxrəcində:



**k – y**: *çiçək – çiçəyin, dirək – dirəyə, sümük – sümüyü, özək – özəyə, mələk – mələyin, fələk – fələyə* və s.

2 Çoxhecalı əsil Azərbaycan sözlərinin sonundakı *q* samiti *ğ* məxrəcində:

**q – ğ**: *otaq – otağın, bayraq – bayrağa, yığıncaq – yığıncağın* və s.

3. Bir sıra alınma sözlərin sonunda *q* ilə yazılıb *ka* məxrəcində tələffüz olunan *q* tam cingiltiləşmiş halda tələffüz olunmalıdır: *ittifaq – ittifaqın, şərq – şərqə, xalq – xalqın* və s.

Q e y d Yuxarıda izah olunduğu kimi, şəkilçi bitişdirilən sözlərin sonuncu səslərinin tələffüzü, təkcə söz kökünün son səsini deyil, həm də bir neçə şəkilçi bitişdirilmiş sözlərdə əvvəlki şəkilçilərin son səsini də əhatə edir Buna görə də yuxarıdakı tələffüz normaları eyni ilə əvvəlki şəkilçilərin son səslərinə də aiddir və münasib məqamlarda şəkilçilərdəki sonuncu səslər də eyni normalarda müvafiq tələffüz olunmalıdır. *al – aldıq – aldığımız, çiçəx́ – çiçəyin – çiçəx́ lik – çiçəx́ liyə* və s.

***§144. Sözlərə bitişdirilən şəkilçilərin tələffüzü.*** a) ismin çıxışlıq hal şəkilçisi *-dan, -dən* sonu *m, n* samitləri ilə bitən sözlərə bitişdirildikdə, xüsusən sərbəst üslubda *-nan, -nən* fonetik tərkibində tələffüz olunur: *şamdan – şamnan, atamdan – atamnan, qələmdən – qələmnən, qumdan – qumnan, candan – cannan, anandan – anannan, vətəndən – vətənnən* və s.;

b) ikinci şəxs cəmi bildirən xəbər şəkilçisi *-sınız* və *-sız* olmaq üzrə iki variantda işlənir:

1. Birinci variantda *-sınız, -siniz ,-sunuz, -sunüz* şəkilçisinin tərkibində olan *n* samiti ilə ətrafındakı saitlər birləşməsini azacıq uzadılmış burun saiti – sonorlaşmış sait çalarlığında tələffüz etməli *alırsınız – alırsı͡:z, bilərsiniz – bilərsi͡z, görübsünüz – görübsü͡z* və s.

2. İkinci variantda *-sız, -siz, -suz, -suz* əsasən sərbəst uslubda istifadə edilir, həm də şəkilçinin sonundakı *z* samiti karlaşmış çalarlıqda tələffüz olunur: *alırsız̦, olursuz̦, deyirsız̦, gülursiz̦, gəlmisiz̦* və s ;

c) fellərdə gələcək zaman şəkilçisinə I şəxs tək və cəm şəkilçiləri bitişdirildikdə gələcək zaman şəkilçisinin sonundakı *q, k* samitləri ixtisara düşür, bəzən yaxın məxrəcli bir səs ilə əvəzlənir Buna görə də belə fellər tam və sərbəst üslubda aşağıdakı çalarlıqlarda tələffüz olunur

1. Qalın saitli sözlərdə ixtisara duşən *q*-dən sonrakı *a* və ya *ı* saiti tam üslubda bir qədər boğaza yaxın məxrəcdə, yəni *ğ* məxrəci-

nin son pilləsi ilə *a* və ya *ı* qovuşuğu çalarlığında (*'a, 'ı* kimi) tələffüz olunur: *alacağam – alaca'am, yazacağam – yazaca'am, oxuyacağıq – oxuyaca'ıq* və s.

2 Sərbəst üslubda fellərə bitişdirilən gələcək zaman şəkilçisinin sonundakı *q, k* və I şəxsin təkinin şəkilçisinin əvvəlindəki *a, ə* ixtisara duşur, tələffüz olunmur. I şəxs cəm şəkilçisi bitişdirildikdə isə gələcək zaman şəkilçisinin sonundakı *q, k* samiti *y* samiti ilə əvəz olunaraq tələffüz edilir: *yazacağam – yazacam, alacağam – alacam, danışacağıq – danışacayıq* və s.

Qeyd Belə məqamda gələcək zaman şəkilçisinin saiti *a, ə* bəzi sözün tərkibində olan əvvəlki saitlə azacıq uyuşdurularaq qapalı saitlər çalarlığında da tələffüz olunur ki, belə tələffüz sərbəst üslub baxımından məqbul sayılır. *yazacağam – yaza-cam – yazıcam, alacağam – alacam – alıcam, vuracağam – vuracam – vurucam, gedəcəyəm – gedəcəm – gedicəm, görəcəyəm – görəcəm – görücəm* və s,

ç) II şəxsin tək və cəmini bildirən nisbət şəkilçilərindəki *n* samiti sağır n, çalarlığında tələffüz olunmalıdır: *sənin atan – atan,, əlin – əlin,, kitabın – kitabın,, dəftərin – dəftərin,, sizin atanız – atan,ız, əliniz – əlin,iz, dəftəriniz – dəftərin,iz, kitabınız – kitabın,ız* və s.;

d) tək samitlə bitən çoxhecalı sözlərin sonuna bitişdirilmiş nisbət şəkilçisindən sonra saitlə başlanan şəkilçi bitişdirildikdə nisbət şəkilçiləri aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır

1 I şəxsin tək və cəmini bildirən nisbət şəkilçilərinin baş saiti qısa tələffüz olunmalıdır. *qardaşı ma, qardaşı.mızın, kitabı.mı, yoldaşları.mızın* və s.

2 II şəxsin təkini bildirən nisbət şəkilçisinin başındakı sait qısaldılmış halda, sonundakı *n* samitinə bitişən şəkilçinin baş saiti isə *n* samiti ilə qovuşdurularaq sonorlu – burun saiti çalarlığında tələffüz olunur· *sənin qardaşın a – qardaşı.a, qardaşın-ın – qardaşı ın* və s.

3. II şəxsin cəmini bildirən nisbət şəkilçisinin baş saiti və ondan sonra yanaşı gələn *n* samiti adi halda, *n* samitindən sonrakı yanaşı sait isə son dərəcə qısaldılmış halda tələffüz olunur *sizin kitabınız-ı – kitabını zı, müəlliminiz-ə –muəllimini.zə* və s.

4. III şəxsin tək və cəmini bildirən nisbət şəkilçiləri və ona bitişdirilən, saitlə başlanan şəkilçilər adi halda tələffüz olunur. *onun yoldaşına, müəlliminin, onların müəllimınə, dərslərinə* və s.



5. Sözə nəqli keçmiş zaman şəkilçisindən sonra II şəxs xəbər şəkilçisi bitişdirildikdə keçmiş zaman şəkilçisinin sonundakı *ş* samitini ixtisara salmaq və tələffüz etməmək, hər iki üslub üçün normal sayılır: *atmışsan – atmısan, demişsən – demisən, danışmışsan – danışmısan, almışsınız – almısınız – almısız, görmüşsunuz – görmüsünüz – görmüsüz* və s.;

e) indiki zamanın inkarını ifadə etmək üçün inkar şəkilçisinin saitsiz variantı hər iki üslub üçün normal sayılır *al-m-ır, gəl-m-ir, oxu-m-ur, çürü-m-ür, söylə-m-ir, ye-m-ir, iç-m-ir* və s.

Qeyd Tam üslubda əsasən *-ma, -mə* şəkilçisindən istifadə olunur Lakin indiki zaman şəkilçisinin saitlərinə uyğunlaşdırılaraq *-ma, -mə* şəkilçisindəki açıq saitlər bir qədər qapalı çalarlıqda da tələffüz olunur *almayır – almıyır, dolmayır – dolmıyır, dinməyir – dinmiyir* və s,

ə) inkarlıq bildirən *-ma, -mə* şəkilçisinə gələcək zaman, nisbi keçmiş zaman, arzu və əmr formasının şəkilçiləri bitişdirildikdə *-ma, -mə* şəkilçisi sözlərin tərkibindəki saitlərə müvafiq olaraq müxtəlif qapalı saitlərlə, xüsusən *ı, i* saitləri ilə tələffüz olunur

*almayacaq – almıyacaq, gəlməyəcək – gəlmiyəcək, olmayacaq – olmuyacaq, görməyəcək – görmüyəcək, surməyəcək – sürmüyəcək* və s

*almayıb – almıyıb, görməyib – görmüyüb, qurmayıb – qurmuyub, olmayıb – olmuyub, bilməyib – bilmiyib, üzməyib – üzmüyüb* və s.

*almayam – almıyam, gəlməyəsən – gəlmiyəsən, yazmayaq – yazmıyaq, görməyək – görmüyək, solmayasınız – solmuyasınız, bilməyələr – bilmiyələr* və s.

*yazmayım – yazmıyım, getməyək – getmiyək, tutmayın – tutmuyun* və s

Qeyd Samitlə başlanan şəkilçilər (əmr formasında III şəxs şəkilçiləri) bitişdirildikdə inkarlıq şəkilçisi ancaq *-ma, -mə* halında tələffüz olunur· *almasın, gəlməsin, görməsin* və s

6 Zaman və məkanca əlamət anlayışlarını ifadə etmək üçün işlənilən sifətdüzəldici *-kı, -ki, -ku, -kü* şəkilçiləri ancaq *i* saiti ilə *ki* çalarlığında tələffüz olunmalıdır: *axşamkı – axşamki, onunku – onunki, özunünkü – özününki, baxçadakı – baxçadaki, tovdakı – tovdaki, evdəki, kuçədəki* və s.

## SİNTAKTİK ŞƏRAİTDƏ TƏLƏFFÜZ

***§145. Saitlər yanaşı şəraitdə.*** Saitlə bitən sözə saitlə başlanan söz yanaşdırıldıqda, qoşulduqda, bitişdirildikdə yanaşı saitlər aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır·

a) Belə sözlərdən qurulmuş yanaşı cümlə üzvlərindəki və sərbəst söz birləşmələrinin tərəflərindəki yanaşı saitlər tam üslubda öz məxrəclərində müstəqil sözlərin vahidləri halında, sərbəst üslubda isə əvvəlinci sözün sonundakı sait bir qədər qısaldılıb sonrakı sözün başındakı sait çalarlığında onunla qovuşmuş halda tələffüz olunmalıdır:

| Cümlə üzvləri | Tam üslubda | Sərbəst üslubda |
|---|---|---|
| mübtəda-xəbər | *ata alır, izi itib* | *ata alır, izi itib* |
| tamamlıq-xəbər | *topu atır, südü içir* | *topı.atır, süti.içir* |
| zərflik-xəbər | *yaxşı işləyir, göyə uçur* | *yaxşi işliyir, göyu.uçur* |
| təyin-xəbər | *yaxşı işdir, sarı otdur* | *yaxşi.işdir, sarı.otdur* |
| təyin-tamamlıq | *iki əsərini oxudum* | *ikə.əsərini oxudum* |
| təyin-mübtəda | *yeni əsərim budur* | *yenə.əsərim budur* |

| Birləşmə tərəfləri | Tam üslubda | Sərbəst üslubda |
|---|---|---|
| isim-isim | *alma ağacı, qapı açarı* | *alma.ağacı (almağacı)* |
| sifət-isim | *qırmızı alma, yağlı ət* | *qırmıza.alma, yağlə.ət* |
| say-isim | *altı adam, yeddi il* | *altı adam (altadam), yeddi il (yeddil)* |
| əvəzlik-isim | *bu ağac, o adam, elə iş* | *bu ağac, o adam, ele iş* |
| əvəzlik-fel | *nə olar, niyə alır* | *nə olar (nolar), niyə alır ele.dir (eledir)* |

Q e y d . 1) Birləşmədəki tərəflərin yanaşı gələn saitləri yaxın və ya eyni məxrəcli olarsa, sərbəst üslubda birinci tərəfin son saitini ixtisar edib, birinci sözü ikinci söz ilə bitişdirərək bir vahid söz halında da (mötərizədə göstərilən nümunələr kimi) tələffüz etmək olar

2) Cümlənin və birləşmənin tərkibindəki həmin yanaşı sözlərdən biri məntiqi vurğulu və xüsusi intonasiyalı olduqda, sərbəst üslubda da saitlər vurğu və intonasiya tələbatına uyğun çalarlıqda, sözlər isə ayrılıqda, yəni tam üslubdakı kimi tələffüz edilməlidir *Suyu yox, südü içir Yağlı ət?*



b) Belə sözlərin qoşulması və ya bitişdirilməsi ilə düzəldilən tərkiblərin və mürəkkəb sözlərin tərəflərindəki yanaşı saitlər tam üslubda öz məxrəclərinə müvafiq, ya da yanaşı saitlərdən birincisi ikinci saitin məxrəcinə azacıq muvafiq çalarlıqda, bir sözün daxili hissəsi halında tələffüz olunmalıdır. Bunu da nəzərə almaq lazımdır ki, belə məqamda yanaşı saitlərdən biri qısalıb yanaşı saitə qovuşur.*

1. Köməkçi sözlərin qoşulmasından düzələn tərkiblərdə yanaşı saitlərdən ikincisi qısalır.

**idi:** *ala idi – alıi.͡di, dayı idi – dayıi.͡di, surü idi – sürii di, nə idi – nəi.͡di* və s.;

**imiş:** *qardaşı imiş – qardaşii.͡miş, dostu imiş – dostui͡miş* və s ;

**üçün:** *yoldaşı üçün – yoldaşıü͡çün, ana üçun – anaü͡çün, oğlu üçün – oğluü.͡çün, nə üçün – nəü.͡çün* və s;

**ilə:** *oğlu ilə – oğlı͡ilə, hava ilə – havı.͡ilə, özu ilə – özu͡ilə, nə ilə – nəi͡lə* və s.;

**isə:** *dostları isə – dostlarii͡sə, güclü isə – güclii.͡sə. dünya isə – dünyei.͡sə, belə isə – belei.͡sə* və s.;

**ikən:** *dağda ikən – dağdıi.͡kən, küçədə ikən – küçədei͡kən, küsülü ikən – küsülii.͡kən* və s.

2. Söz qoşalığından düzələn tərkiblərdə yanaşı saitlərdən əvvəlincisi qısalır: *ata͡ana, ayrı͡ayrı, uca.͡uca, əyri͡üyru, iki͡iki, altı.͡altı, asta.͡asta, iri.͡iri, iti.͡iti, izi.͡əlaməti, ala.͡ula, incə.͡incə, ağlaya͡ağlaya, uça͡uça, əzə.͡əzə, üzə͡üzə, oxuya͡oxuya, izləyə͡izləyə* və s.

Q e y d Belə tərkiblərdə yanaşı gələn iki eynicinsli sait əvəzinə bir uzun sait tələffüz etmək olar *ata na, iki ki, əzə zə* və s

3. Sabit söz birləşmələrində və murəkkəb sözlərdə yanaşı saitlərdən əvvəlincisi qısalır: *hava.͡almaq, nəzərə͡almaq, zəhlə.͡aparmaq, özünü͡itirmək, asılı͡olmaq, ağzı.͡açıq, əli͡açıq, əli.͡əyri, qanuna.͡uyğun, dili͡uzun, üstü͡açıq, su.͡ilanı, su͡iti, isti͡ot, beşdə͡üç, əlli͡iki, əlli͡üç* və s.

4. Titul, qohumluq bildirən sözlərin qoşulması ilə duzələn tərkiblərdə də yanaşı saitlərdən əvvəlincisi qısalır· *dayı͡oğlu, xala͡oğlu, əmi.͡oğlu, Əli.͡əmi, Abdulla.͡əmi, Hacı͡Əhməd, Abdulla͡ağa, Mirzə͡Abdulla, Molla͡Abbas, Məşədi͡İbad, Ağa͡İsmayıl* və s.

c) Sərbəst üslubda yanaşı saitlər tərkiblərin növlərindən asılı olaraq aşağıdakı çalarlıqlarda tələffüz edilməlidir.

---

* Saitlərin üstünə belə işarə ͡ saitlər qovuşmasını bildirmək üçün qoyulmuşdur

1. Müstəqil söz ilə köməkçi sözün qoşulmasından düzələn tərkiblərdə ya ikinci tərəfi təşkil edən köməkçi sözün başındakı sait ixtisar edilir, birinci tərəfi təşkil edən müstəqil sözün sonundakı sait isə ya iki sözü qovuşdurucu uzun sait kimi tələffüz olunur, ya da köməkçi sözün başındakı sait *y* ilə əvəz edilir, müstəqil sözün axırındakı sait isə iki sözü qovuşdurucu bir sait kimi *e* yaxud *i* çalarlığında tələffüz olunur:

*əmisi ilə – əmisi:lə / əmisiylə, oğlu ilə – oğli:lə / oğliylə, əri ilə – əri:lə / əriylə, qardaşı üçün – qardaşı:çin / qardaşiyçin, yerdə ikən – yerdi:kən / yerdeykən, dağda ikən – dağdi:kən / dağdiykən, gedə idi – gede:di / gedeydi, oxuya idi – oxuye:di / oxuyeydi* və s

Qeyd Şəkilçi halında işlənən *-çün, -di, -miş* ünsürlərini ahəng qanununa uyğun variantlarda da tələffüz etmək olar

2. Saitlə bitən və saitlə başlanan müstəqil sözlərin yanaşdırılması və ya bitişdirilməsi ilə düzəldilmiş tərkiblərin və mürəkkəb sözlərin əksərən birinci tərəfinin son saiti ixtisar olunaraq, hər iki tərəf adətən bir vurğu ilə qovuşmuş halda bir söz kimi tələffüz edilməlidir

*hava almaq – haválmaq, ata-ana – atána, asta-asta –astásta, ata-ata – atáta, Abdulla ağa – Abdulláğa, Molla Abbas – Mollábbas, başı açıq – başáçıq, altı ay – altáy, Hacı Abbas – Hacábbas, ayrı-ayrı – ayráyrı, baha oldu – bahóldu, oğlu oldu – oğlóldu, qızı öldü – qızőldü, nəzərə almaq – nəzərálmaq, ələ almaq – əlálmaq, Əli ağa – Əláğa, xala oğlú – xalóğlu, əmi oğlu – əmóğlu, istiot – istót, əlli iki – əlliki, əlli üç – əllüç, Mirzə Əhməd – Mirzəhməd, iki-üç – iküç, onda üç – ondüç, yeddi il – yeddil, səbirli ol – səbirlól, əylənə-əylənə – əylənəylənə, acı-acı – acácı, elə oldu – elóldu, belə elədi – beléldi, necə oldu – necóldu, özu-özünə – özőzunə* və s

Qeyd 1) Belə sözlərin tələffüzündə birinci tərəfin vurğusu II dərəcəli vurğu halında, ikinci sözün vurğusu isə I dərəcəli vurğu halında vurulur *Əli ağa – Əlağa* birləşməsini xüsusi isim *Əlağa* ilə müqayisə et.

2) Belə tərkiblərin birinci tərəfi saitlə bitən təkhecalı söz olduqda, onun saiti ixtisar edilmir və birləşmə əslinə uyğun tələffüz olunur. *suiti, suilanı* və s. Lakin *nə* əvəzliyi müstəsnadır *nə olar – nólar, nə eylər – néylər* və s.



**§146. *Saitlə samit yanaşması şəraitində.*** Saitlə bitən sözə samitlə başlanan söz yanaşdırıldıqda, qoşulduqda, bitişdirildikdə yanaşı olan sait – samit öz məxrəclərinə müvafiq tələffüz olunmalıdır· *ana-bala, ora-bura, qara saç, dəyirmi stol, altı yuz, dilə tutmaq, qeyri-məqbul, Əli dayı, Zərifə xala, Mirzə Səməndər* və s.

Qeyd. 1) *Hacı* sözü ilə düzələn tərkiblərdə *hacı* sözünün sonundakı *ı*, xüsusən sərbəst üslubda, ixtisara düşür. *Hacı Mürsəl – Hacmürsəl, hacıleylək – hacleylək* və s.

2) Belə tərkiblərdə ikinci tərəfi təşkil edən sözün başında *h* samiti olarsa, xüsusən sərbəst üslubda, ixtisar edilir, birinci tərəfin sonuncu saiti ikinci tərəfin başında olan *h*-dən sonrakı sait çalarlığında həm də onunla qovuşmuş halda tələffüz olunur *Əliheydər – Əleydər, hərbi hissə – hərbissə, ikihecalılıq – ikecalılıq, Mirzə Həsən – Mirzəsən* və s

**§147. *Samitlə sait yanaşması şəraitində.*** Samitlə bitən sözə saitlə başlanan söz yanaşdırıldıqda, qoşulduqda, bitişdirildikdə yanaşı olan samit – sait, xüsusən sərbəst üslubda, bir heca vahidləri kimi bitişdirilir, tərəflər söz vurğusunu əsasən saxlamaq şərtilə qovuşmuş halda, iki vurğulu bir söz kimi, birinci tərəfin sonundakı samitlər isə aşağıdakı çalarlıqlarda tələffüz olunmalıdır

a) lüğəvi şəraitdə dəyişdirilmədən tələffüz olunan hər bir samit bu məqamda da öz məxrəcinə müvafiq tələffüz edilir· *top atmaq – tópatmáq, tələf etmək – tələ́fetmək, üç il – úçil, tox olmaq – tóxolmáq, mutəxəssis olmaq – mütəxəssísolmáq, ağ alma – ağálmá, mal alır – málalír, stol arxası – stólarxasí, duz otur – dűzotúr, üz-üzə – űzüzə́, əl-ələ – ə́lələ́, baş ağrısı – báşağrısí, səndən ötru – səndə́nötrú, zəhmət ilə – zəhmə́tilə́* və s ;

b) lüğəvi şəraitdə sözlərin sonunda karlaşmış halda tələffüz edilən *b, q, d, c, z* belə tərkiblərdə əslinə uyğun, yəni cingiltili halda tələffüz olunmalıdır. *kitab – kitabaldım, ittifaq – ittifaquzrə, müttəfiq – müttəfiqölkə, ağac – ağacaltında, gulünc – gülüncoldu, azad – azadolmaq, otuz – otuzuç* və s.;

c) tərkiblərin birinci tərəfində olan çoxhecalı sözlərin sonundakı lüğəvi şəraitdə *x'* çalarlığında tələffüz edilən *k* belə məqamda *y* çalarlığında, lüğəvi şəraitdə *x* çalarlığında tələffüz edilən *q* isə belə məqamda *ğ* çalarlığında tələffüz olunmalıdır *döşək ağı – döşəyağı, çiçək əkir – çiçəyəkir, otaq alçaqdır – otağalçaqdır, bıçaq itidir – bıçağitidir, qoçaq adamsan – qoçağadamsan* və s ;

ç) tərkiblərin ikinci tərəfində *ilə, üçün, imiş, idi, isə* qoşmaları olduqda, məqamına görə bu qoşmaları *-lə, -çün, -miş, -di, -sə* şəkilçiləri halında da tələffüz etmək olar: *könül ilə – könüllə, mənim uçun – mənimçün, gözəl imiş – gözəlmiş, eybəcər idi – eybəcərdi, müəllim isə – müəllimsə, getmiş isə – getmişsə* və s.;

d) tərkiblərin birinci tərəfində yanaşı samitlərlə bitən sözlərin lüğəvi şəraitdə ixtisara düşən sonuncu samiti belə tərkiblərin tələffüzündə bərpa olunur: *dost olmaq – dostolmaq, sərbəst olmaq – sərbəstolmaq, şrift almaq – şriftalmaq* və s.

***§148. Samitlər yanaşması şəraitində.*** Samitlə bitən sözə samitlə başlanan söz yanaşdırıldıqda, qoşulduqda, ya bitişdirildikdə yanaşı gələn samitlər lüğəvi şəraitdə olduğu kimi tələffüz edilir.

a) Belə tərkiblərin tərəfləri müstəqil cümlə üzvləridirsə, sadə söz birləşməsinin tərəfləridirsə, belə tərəflər qovuşmuş halda deyil, yanaşı – musteqil sözlər halında tələffüz olunmalıdır: *mən danışdım, məktəb qapısı, gümüş qaşıx, çiçəx'dər* və s.

b) Əgər tərkiblərin tərəflərindən biri köməkçi sözdürsə və ya tərəflər əsas vurğulu mürəkkəb sözün hissələrindən ibarətdirsə, belə tərkiblərin tərəfləri qovuşuq halda tələffüz olunmalıdır: *hərkəs, heçkim, onbaşı, uzunboğaz, həmrəy, əlbir, canbir* və s.

***§149. Qısaltma sözlərin qrammatik şəraitdə tələffüzü.*** Qısaltma sözlərin tələffüzündən bəhs edərkən onların müstəqil sözlər kimi qrammatik şəraitdə işlənilməsini də yada salmaq zəruridir ki, bunlar əsasən aşağıdakılardan ibarətdir:

a) qısaltma sözlər cümlə daxilində, ifadə daxilində məqamından asılı olaraq bu və ya digər şəkilçini qəbul edir və ümumi qaydalara müvafiq halda bitişik tələffüz olunur: *AZƏRNƏŞR+ə – AZƏRNƏŞRDƏ*;

b) qısaltma sözlərdən düzəldilən birləşmələrdə hər bir qısaltma söz müstəqil tələffüz olunur Lakin burada da sözlərin sintaktik şəraitdə tələffüz normalarına riayət edilməlidir;

c) ifadə və cümlə üzvləri kimi müxtəlif şəkilçilər qəbul edərək həm qısaltma sözlərdə, həm də digər sözlərlə əlaqələnib işlənildikdə əsasən sintaktik şərait normalarına uyğun tələffüz olunmalıdır:

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin binası.*

*APU-da TEC-in fəaliyyəti bəyənildi*

*ABŞ ilə ÇXR nümayəndələri danışıqlara başlamışlar*



## ƏDƏBİ TƏLƏFFÜZÜN POZULMA MƏNBƏLƏRİ

***§150. Mənbələrdən düzgün istifadə haqqında.*** Orfoepik normaların sabitləşməsi, ümumiləşməsi onun mənbələri, əsasları və vasitələri ilə üzvi surətdə bağlıdır. Burada mənbələrdən düzgün istifadə mühüm şərtlərdəndir; çünki mənbələrdən, vasitələrdən düzgün istifadə edilmədikdə, bu mənbələr və vasitələr tələffüzün pozulma mənbələrinə çevrilmiş olur Məhz bu baxımdan Azərbaycan ədəbi dilinin orfoepik normalarının müəyyənləşdirilməsində istifadə olunan mənbələr eyni zamanda ədəbi tələffüzün pozulmasına təsir edən mənbələrdən sayılır. Buna görə də ədəbi tələffüz normalarını öyrənərkən onun sabitləşməsinə, mənimsənilməsinə mane olan mənbə və səbəbləri bilmək, nəzərə almaq zəruridir.

***§151. Şivələr.*** Bildiyimiz uzrə, Azərbaycan danışıq dili şivələr sistemindən ibarətdir və bu şivələrdə həm fonetik və qrammatik cəhətdən, həm də lüğət tərkibi baxımından ümumxalq dili əsasında formalaşmış ədəbi dildən fərqli bir sıra xüsusiyyətlər vardır Buna görə də belə xüsusiyyətlər özünü yazıda nisbətən az, tələffüzdə isə daha çox büruzə verir Hətta əsasən ədəbi tələffüz normalarına riayət edərək danışmağı bacaran şəxslərin tələffüzündə də bəzən şivə çalarlığı eşidilir

Azərbaycan şivələrinin bir qismində – Quba, Bakı, Şamaxı, Salyan şivələrində müəyyən sözlərdə, şəkilçilərdə dodaq saitliliyi – dodaqlanma və dodaq ahəngi həmin şivələrin əlamətdar xüsusiyyətlərindəndir. Buna görə də həmin şivələrdə danışmağı vərdiş etmiş şəxslər hətta orfoepik normalara müvafiq surətdə danışarkən *hova* (*hava*), *zuğal* (*zoğal*), *yurğa* (*yorğa*), *dövə* (*dəvə*), *alsun* (*alsın*), *gəlsün* (*gəlsin*), *gedün* (*gedin*), *bilirsüz* (*bilirsiz*) kimi şivə xüsusiyyətlərinə də yol verirlər.

Məlum olduğu üzrə, Azərbaycan dilinin bir çox şivələrində, xüsusən Quba, Şəki, Ordubad, Culfa və Təbriz şivələrində bəzi şəkilçilər ahəng qanununa tabe edilmədən ancaq qalın damaq saiti əsasında bir cur işlənir: *gedax* (*gedək*), *getmiyax* (*getməyək*), *verax* (*verək*), *gəzmax* (*gəzmək*), *səpmax* (*səpmək*), *əkırıx* (*əkirik*), *getmışıx* (*getmişik*) və s

Beləcə də şivələrin əksəriyyətində sözlərin sonunda cingiltili samitlər karlaşır, lakin bunlardan fərqli olaraq Bakı və Quba şivələrində söz sonunda olan cingiltili samitlər nəinki karlaşmır, hətta

bir sıra kar samitlər cingiltılilәşir: *yarpağ* (*yarpaq*), *çöreg* (*çörək*), *gedmir* (*getmir*) və s

Bunlardan başqa bir sıra şivələrdə bəzi sözlərin əvvəlindəki saitlərdən əvvəl *h* artırılır: *hindi – indi, hasan – asan* və s.

Şivələrdə çox məhdud xüsusiyyətlərlə yanaşı daha bir sıra belə nisbətən ümumiləşmiş əlamətdar cəhətlər də vardır və bunlar ədəbi tələffüz baxımından məqbul sayılmır. Buna görə də ədəbi tələffüz uğrunda mübarizə aparırkən, nəinki bu və ya digər şivədə məhdud halda işlənilən xüsusiyyətlərə qarşı, hətta nisbətən geniş dairədə, yəni bir sıra şivələrdə işlənilən, lakin ədəbi tələffüz normalarına müvafiq olmayan xüsusiyyətlərə qarşı da mübarizə aparmaq lazımdır. Çünki belə xüsusiyyətlərə az-çox yol vermək ümumi ədəbi tələffüz normalarının sabitləşməsinə mənfi təsir edır.

*§152.* ***Yazı.*** Ədəbi tələffüzə həm müsbət, həm də mənfi təsir göstərən mənbələrdən biri də y a z ı d ı r.

Ümumiyyətlə, yazı ədəbi dilin ümumiləşməsi və sabitləşməsi baxımından çox vacib vasitədir, hətta yazıda – orfoqrafiya qaydalarında sabitlık, vahıdlik olmayanda tələffüzdə də vahıdlık deyil, məhz müxtəliflik olur. Bu baxımdan bəzi alınma sözlərin müxtəlif variantda tələffüzünün məhz yazı ilə əlaqədar olması diqqəti cəlb edir

Məlum olduğu üzrə, müasir şivələrimizdə *qəpik* sözü *qəpik, kəpik, kopik* variantlarında da işlənilir. Beləliklə, əsasən *qəpək, kəpik, köpik* olmaq üzrə üç variantda bu sözün sabitləşməsinin mənbəyini axtardıqda belə nəticəyə gəlmək olur ki, bu variantlar məhz bu sözün ilk dəfə yazıda bir cür yazılmaması və ərəb əlifbasında olan bəzi xüsusiyyətlərlə əlaqədardır XIX və XX əsrlərdə ərəb əlifbası ilə yazılmış mənbələri nəzərdən keçirdikdə belə məlum olur ki, ruscadan alınma *kopek* sözü ərəb əlifbası ilə bəzən ق ilə قپك şəklində, bəzən isə ك hərfi ilə كوپيك, كپك şəklində yazılmışdır Məhz buna görə də muxtəlif şəkildə yazılan bu sözü gah *köpik, kəpik,* gah da *qəpik, qəpək* oxuyaraq belə də mənimsəmişlər

Ərəb, fars dillərindən keçən bəzi sözlərin də tələffüzündə müxtəlif variantların yaranması, güman ki, məhz yazının nəticəsidir Ərəb əlifbası əsasında yazılmış bir sıra sözlərdə sait səsi bildirən xususi işarə (hərf, hərəkə) yazılmadığına görə belə sözlərdə saitlər müxtəlif variantlarda oxunmuş və tələffüzdə də məhz belə variantlar tədricən sabitləşmişdir; məsələn: *mharbə* محاربه, *mbarzə* مبارزه, *mktb* مكتب hərfi tərkibləri ilə yazılmış sözləri *müharibə, məharibə, maharəbə, müharəbə, mübarəzə, mübarizə, mektəb, məktəb* variantlarında oxumuşlar və beləliklə də bu sözlərin tələffüzündə bir neçə variant yaranmışdır.



Belə faktların sayını artırmaq mümkündür Lakin yazının tələffüzə necə təsir etdiyini və yazı ilə tələffüzün əlaqəsini aydınlaşdırmaq üçün bu nümunələr ilə kifayətlənmək olar Buradan isə belə bir nəticəyə gələ bilərik ki, orfoqrafiyada vahidlik olmayanda, tələffüzdə vahidlik pozulduğu kimi, yazılışı düzgün oxumayanda da onu düzgün də tələffüz etmək olmaz. Lakin bu, heç də o demək deyil ki, orfoepiya ilə orfoqrafiya eyniyyət təşkil edir. Ümumiyyətlə, yazı ilə tələffüz arasında ortaqlı cəhətlər olduğu kimi, fərqli cəhətlər də vardır. Dünya xalqlarının yazıları ilə tələffüzləri arasında belə ortaqlı və fərqli cəhətlər isə müxtəlif nisbətdədir. Bu baxımdan müasir Azərbaycan orfoqrafiyası başqa dillərin orfoqrafiyasından xeyli fərqlənir. Belə ki, müasir Azərbaycan orfoqrafiyası ilə orfoepiyası arasında ciddi fərqlər çox azdır, ortaqlı cəhətlər isə çoxdur.

Azərbaycan dilindəki bir çox sözlər və şəkilçilər, demək olar ki, əsasən tələffüz olunduğu kimi yazılır və yazıldığı kimi də tələffüz olunur. Lakin elə sözlər, ifadələr və şəkilçilər də var ki, bunların tələffüzü yazılışından az-çox fərqli olur, yəni onların tərkibində olan səslərin tələffüzü yazıdakı hərflərin ifadə etdiyi səslərlə uyğun gəlmir, ya da yazıda bu və ya digər hərf ilə ifadə edilən səs tələffüzdə ixtisara düşur. Bu baxımdan aşağıdakı nümunələri nəzərdən keçirək:

1. Orfoqrafik qaydaya görə bir sıra sözlərin əvvəlində, ortasında və sonunda yazılan *q* dörd məxrəcdə tələffüz olunur:

a) söz başında adi halda· *qaz, qoz, qış, quzu, qırğı* və s ;

b) söz ortasında qoşa yazılan *qq*-dən birincisi karlaşmış halda, yəni *ka* məxrəcində. *hoḱqa, saḱqal, baḱqal* və s.;

c) sözlərin və şəkilçilərin sonunda yazılan *q* əksərən *x* məxrəcində tələffüz olunur· *papax, otax, ocax, oxumax, oxudux, aldıx* və s ,

ç) əgər *q* ilə bitən sözə saitlə başlanan bir söz yanaşdırılarsa, qoşularsa, *q* əvəzinə *ğ* tələffüz olunur: *Qaçağ Abbas, papağ al, qulağ as* və s.

2 Orfoqrafik qaydaya görə sözlərin və şəkilçilərin tərkibində yazılan *k* sözdən və məqamından asılı olaraq beş məxrəcdə tələffüz olunur·

a) adi halda öz məxrəcində: *kar, kol, kül, əkin, təkər, öküz* və s.,

b) *y* samitinin kar qarşılığı olan *x'* məxrəcində: *çiçəx', ələx', əzməx', gülməx'* və s.;

c) *y* məxrəcində. *çiçəy üzdüm, çörəy aldım* və s.;

ç) qoşa *k*-dən ıkincisi *g* məxrəcində: *hikgə, mütəkgə, mürəkgəb* və s ;

d) bəzi alınma sözlərdə *ka* məxrəcində: *koka-kola, fonetika, redaktor, traktor, direktor* və s.

3 Müasir Azərbaycan dilində işlənən bir sıra sözlərın sonunda samıt səs bildırən ıkı, bəzən hətta üç hərf yanaşı yazılır. Lakın belə sözlərin tələffüzündə müəyyən məqamdan asılı olaraq bu hərflərdən bırı ya ixtisar olunur, ya da başqa bir səslə əvəzlənir:

a) *sədd, hədd, dost, rast* kimi sözlərdə, bır qayda olaraq, sonuncu samıt – hərf tələffüz zamanı ixtısara duşür;

b) *tüfəng, səhəng, ahəng, sevinc, qılınc, qısqanc* kimı sözlərin sonundakı *g, c* tələffüzdə karlaşır.

Bu nümunələrdən aydın olur ki, hər yazılanı eynən tələffüz etmək olmaz. Buna görə də sözün yazılışında istıfadə olunan hərflərin şərait və məqamdan asılı olaraq necə tələffüz edilməsını bilmək zəruridir.

Bəzən yazılış ilə tələffüz arasındakı fərq hətta ədəbi tələffüzdə də variantların yaranmasına səbəb olur. Məsələn, *-dan, -dən* şəkilçisi *n, m* samıtləri ilə bitən sözlərə bitişdirildikdə *-nan, -nən* halında tələffüz olunur (*sən-nən, atam-nan* və s.), lakin başqa səslərlə bitən sözlərə bitişdirildikdə əsasən əslinə uyğun tələffüz olunur (*atadan, bizdən, işdən, dağdan, göldən, çaydan* və s.)

Əlbəttə, bu və ya digər fonetik məqamdan asılı olaraq tələffüzdə belə variantlar qanuni sayılmalıdır. Lakın varıantların həddindən artıq çoxalmasına yol vermək olmaz; çünkı variantların çoxalması tələffüz vahidliyinin pozulmasına, nəticə etıbarılə isə orfoepık normaların pozulmasına səbəb olur.

***§153. Başqa dillər.*** Ədəbi tələffüzün pozulma mənbələrindən birı də başqa – qonşu dildir. Bəzən yaşayış şəraitindən asılı olaraq bir şəxs həm ana dilındə oxuyur, yazır, danışır, həm də qonşu – ikinci bir dildə yazıb-oxuyur, danışır, ya da ikinci dildə ancaq danışır. Belə şərait nəticəsində isə bır sıra sözlərin, xüsusən hər ıki dildə də işlənilən sözlərın tələffüzündə varıantlar yaranır. Bəzən belə şəxslər bu və ya digər sözü qonşu dilin orfoepik qaydasına müvafiq tələffüz edır, bəzən isə hər ıki dilə xas olan tələffüz çalarlıqlarını qarışdıraraq danışır. Əlbəttə, belə vərdış edərək danışanların tələffüzü



eybəcər olur, buna görə də belə təsirə qarşı mübarızədə danışan şəxsin şüurlu münasibəti zərurıdir.

Beləliklə, aydın olur ki, ədəbi tələffüz məsələsində diqqət, nəzarət və şüurlu münasibət əsas şərtlərdəndir. Burada ata və ananın, tərbiyəçilərin, xüsusən müəllimlərin rolu çox mühümdür Məktəbə gələn şagırdlər müəllimlərı nümunəvi bir şəxs kimi tanıyırlar və hətta danışıqda da müəllimlərini təqlid edirlər. Buna görə də müəllimlər ədəbi tələffüz baxımından düzgün, səlis danışmaqla orfoepiya normalarını aşılamalı və eyni zamanda hər yerdə düzgün tələffüzün nəzarətçiləri və təlimatçıları kimi hər cür imkandan istifadə edərək ədəbi tələffüz normalarının pozulmasına qarşı mübarizə aparmalıdırlar

# ÜÇÜNCÜ HİSSƏ

## MÜASİR AZƏRBAYCAN DİLİNİN ORFOQRAFİYASI

### YAZI VƏ ORFOQRAFİYA

***§154. Yazının ictimai mahiyyəti.*** İnsanların ünsiyyət vasitələrindən biri də yazıdır. Yazı dil ilə ifadə olunan fikirləri, duyğuları başqasına bildirmək üçün insanlar arasında işlənən ən mühüm bir ictimai alətdir. Yazının insan cəmiyyətində nə dərəcədə mühüm bir rola malik olduğunu bəşəriyyət tarixinin hər bir pilləsində müşahidə etmək mümkündür.

Ümumiyyətlə, yazının insan cəmiyyətindəki xidmət və rolu aşağıdakılardan ibarətdir:

a) İnsanın obyektiv varlıqla bağlı olaraq doğan düşüncələrini, fikir və təcrübələrini, biliklərini cəmiyyətin başqa üzvünə ətraflı, müfəssəl və aydın bir surətdə anlatmanın ən yaxşı vasitəsi yazı olmuşdur və indi də yazıdır.

Doğrudur, fikir, duyğu və bilikləri başqasına bildirmək üçün özgə vasitələr də vardır Bədən hərəkətləri (jest), üz, qaş, göz, ağız və sairə kimi bir sıra vasitələr də fikir və duyğuların ifadəsinə xidmət etmiş və indi də xidmət etməkdədir. Lakin bunların heç biri yazını əvəz edəcək dərəcədə imkanlara malik deyildir.

b) Demək olar ki, yazı bəşəriyyət üçün tərəqqiyə, inkişafa açılmış geniş bir qapı olmuşdur. Mədəniyyətin surətlə inkişaf etməsi, yayılması yazı ilə birgə başlanmışdır. Mədəniyyətin, insanların təcrübə və fikirlərinin artması və bütün dünyadakı insanlar arasında yayılması üçün yazının yaradılması irəliyə doğru atılmış ən böyük və ilk addım olmuşdur.

c) İnsanların mədəniləşməsində yazının nə qədər mühüm rola malik olduğunu bu gün belə müşahidə edə bilərik. Bu gün yazısız xalq savadsız, elmsiz və mədəniyyətsiz hesab olunur. Yazısız və ya yazının ümumiləşmədiyi bir xalqda fikri inkişafın son dərəcə zəif



olduğunu, mədəni genliyi açıq və aydın surətdə müşahidə etmək mumkündür. Heç təsadüfi deyil ki, M.F Axundzadə "tərbiyəti-millət suhülət ilə müyəssər olmayacaqdır, məgər kəsbi-savad ilə, kəsbi-savad umuminas üçün hüsula gəlməyəcəkdir, məgər xətti-hazırın islah və təğyiri ilə .."[1] deyərək yazının mədəniyyətə malik olmaq üçün, xalqın tərbiyələnməsi uçün nə qədər mühüm rola malik olduğunu nəzərə almış və ömrünün sonuna qədər yazının asanlaşdırılması uğrunda mübarizə aparmışdır.

ç) Yazı insanın düşüncə və fikirlərini, dunyaya və cəmiyyətə olan baxışlarını, kainatı dərk etmələrini, xülasə, insanın butün mənəvi və maddi mədəniyyətini, fikri zənginliklərini, mədəni irsini mühafizə edərək cəmiyyətin tarixi boyu yaşadır; bunları əvvəlki cəmiyyətlərdən alıb sonrakı cəmiyyətlərə yetirir. Bu nöqteyi-nəzərdən yazı, insan mədəniyyətini cəmiyyətdən cəmiyyətə yetirən, cəmiyyətlərin inkişafi tarixini özündə əks etdirən qırılmaz bir bağdır Yazı bəşəriyyət aləmi mədəniyyəti xəzinəsinin əvəzedilməz açarıdır.

d) Yazının ən böyük qiyməti onun ictimailəşdirici xarakterindədir Belə ki, insan cəmiyyətlərinin mədəni əlaqələrini daha da sıxlaşdıran, insanların fikirlərini, mədəni zənginliklərini ortaqlaşdıran ən yaxşı və ən munasib vasitə yazıdır Yazı vasitəsi ilə hər bir yeni kəşf, ixtira, yeni fikir və sair yeniliklər az bir zamanda butün insanların ortaqlı malı halına duşur. Bu cəhət yazının nə qədər ümumiləşdirici və ictimailəşdirici xarakterə malik olduğunu göstərir Bütün milli təzahür formalarına baxmayaraq yazı beynəlmiləl bir xarakter daşıyır və dünyada bütün xalqları, millətləri bir-biri ilə əlaqələndirmək uçün ən yaxşı vasitə olaraq ta qədim dövrlərdən bu günə qədər işlənilməkdədir

Yazı həm keçmiş cəmiyyətləri, həm indiki müxtəlif xalq və millətləri, həm də cəmiyyətin gələcəyi haqqındakı hər cür məlumat və düşüncələri bizə yetirən, bildirən əvəzedilməz ən yaxşı bir vasitədır.

***§155. Dil və yazı.*** Yazı da danışıq kimi insan cəmiyyəti içərisindəki ictimai quruluşların, müxtəlif siniflərin ünsiyyət və mübarizə silahıdır Yazının tarixi dilin tarixini izləyir və heç bir ümumi inkişaf izində dildən ayrılmır. Dil fiziki əlamətləri ilə deyil, ictimai, iqtisadi və istehsalat əlaqələri əsasında qruplaşan ilk insan qruplarından qəbilələrdən, tayfalardan, xalqlardan, millətlərdən umumbəşəriliyə

[1] M F Axundzadə Əsərləri. 3 cilddə, III cild, Bakı, 1988, səh 81

doğru inkişaf etdiyi kimi, yazı da belə xətlə inkişaf edir. Dil kimi, yazı da xətti-obrazlı tipdən hərfi-fonetik tipə doğru inkişaf etmişdir. Buna görə də bir çox alimlər, haqlı olaraq, yazını qrafik dil adlandırmışlar. Lakin bu heç də dil ilə yazı arasında eyniyyət işarəsi qoymaq və (yazı-dil) demək deyildir. Dil ilə yazı arasında bir sıra fərqli cəhətlər, spesifik əlamətlər vardır ki, bunlara görə də dil yazıdan fərqlənir:

a) yazı gözlə görülür, dil isə qulaqla eşidilir;

b) dildə olan hər cür səs yazıda eyni ilə əks olunmur;

c) dildə jest və əllərin köməyindən istifadə olunur, yazıda isə jest və əllər iştirak edə bilmir;

ç) söylənilən söz, ifadə, cümlə tez yaddan çıxar, müəyyən dövr keçdikdən sonra unudular, yazılan söz, ifadə, cümlə isə uzun müddət saxlanıla bilər. Elm və texnikanın ixtiraları indi müəyyən dərəcədə danışığın da saxlanılmasına imkan yaratmışdır, lakin burada yenə yazı vardır *qramofon, maqnitofon* və s.;

d) danışıq dili hazırda qarşı-qarşıya duran insanlara xidmət edir, yazı isə həm əyani, həm qiyabi dildir. Elm-texnikanın ixtiraları səsli dili də müəyyən dərəcədə qiyabi dil halına salmışdır: *radio, telefon* və s.;

e) yazı uzaqda olan insanların arasında ən mükəmməl mədəni əlaqə vasitəsidir; yazının bu xüsusiyyətini nə radio, nə də telefon əvəz edə bilir;

ə) dilin iki təzahür forması vardır: **danışıq, yazı**. Buna görə də dilin iki növü formalaşmışdır: **şifahi dil, yazılı dil**. Şifahi dilin məxsusi qanunları, yəni ümumi dürüst danışıq normaları – o r f o e p i y a s ı olduğu kimi, yazılı dilin də məxsusi qayda-qanunları, yəni ümumi – dürüst yazmaq normaları – o r f o q r a f i y a s ı vardır.

***§156. Müasir Azərbaycan əlifbası.*** Müasir Azərbaycan yazısı mənalı səslərin şərti-qrafik[1] işarələri sayılan hərflər vasitəsi ilə formalaşdırılmış yazıdır.

Dilin fonetik tərkibini təşkil edən fonemlərin yazıda ifadəsi üçün istifadə olunan qrafik işarələrin, yəni hərflərin müəyyən sıra üzrə tərtib olunmuş sistemi ə l i f b a adlanır.

Müasir Azərbaycan əlifbası 32 qrafik işarələr sistemindən ibarətdir. Deməli, Azərbaycan əlifbasını təşkil edən 32 hərfi işarə Azərbaycan dilindəki səslərin əsas – mənalı növlərindən sayılan 32 fonemin qrafik işarəsidir.

[1] Q r a f i k işarələr dedikdə, q r a f i k a sözünün əsasən dilçilikdə işlənilən mənası ilə əlaqədar olaraq yazı üçün cızıqlar vasitəsi ilə düzəldilmiş şərti işarələr nəzərdə tutulur



Müasir Azərbaycan əlifbasındakı hərfi işarələrin hər biri işlənilmə məqamına və vasitəsinə görə iki cürdür:

Ç a p h ə r f l ə r i. Ə l y a z m a h ə r f l ə r i.

Bunların da hər biri quruluşca iki növdür:

B ö y ü k (b a ş) h ə r f, k i ç i k (s ə t r i) h ə r f.

Azərbaycan əlifbasını təşkil edən hərflərin hər birinin məxsusi adı vardır. Bu adlar hərfin hansı fonemin qrafik işarəsi olmasına görə verilmiş adlardır.

Sait fonemlərin hərfi işarələri bu və ya digər saitin adi kəmiyyətdə tələffüzünə uyğun halda adlanır: *A* hərfi, *O* hərfi, *I* hərfi, *U* hərfi, *Ə* hərfi, *E* hərfi, *İ* hərfi, *Ö* hərfi, *Ü* hərfi.

Samit fonemlərin hərfi işarələri isə hərfin bildirdiyi samit səsə *e* saitinin artırılması ilə düzələn hecalarla adlanır ki, burada da samitlərin növündən asılı olaraq *e* saitinin başa və ya sona artırılması nəticəsində adlar iki cür formalaşır:

1) Sonor samitlərin hərfi adları *e* səsinin samit əvvəlinə qoşulması ilə düzəldilir: *eN, eM, eL, eR*

2) Sonor olmayan samitlərin hərfi adları *e* səsinin samit sonuna qoşulması ilə düzəldilir: *Be, Ce, Çe, Fe, Ge, Ğe, He, Xe, Je, Ke//Ka, Qe, Pe, Se, Şe, Te, Ve, Ye, Ze*

Danışıqda, xüsusən tədris prosesində hərf adları ilə səs adlarını fərqləndirmək lazımdır. Buna görə də saitləri bildirən hərflər haqqında danışarkən *hərfi* sözünü, sait səslərdən danışarkən *səsi* sözünü ifadəyə əlavə etmək lazımdır; məsələn

*A* hərfi, *İ* hərfi, *E* hərfi, *O* hərfi

*A* səsi, *İ* səsi, *E* səsi, *O* səsi və s.

Lakin samit səslərdən və bunların hərfi işarələrindən danışarkən hərfləri *e* səsinin qoşulması ilə formalaşmış adları ilə, səsləri isə sondan *ı* səsinin qoşulması ilə formalaşmış adları ilə adlandırmaq lazımdır. Belə halda *hərfi, səsi* sözlərini ifadəyə əlavə etməmək də olar; məsələn: *Be* hərfi – Be, *Bı* səsi – Bı, *eM* hərfi – eM, *Mı* səsi – Mı, *eR* hərfi – eR, *Rı* səsi – Rı, *He* hərfi – He, *Hı* səsi – Hı və s.

Əlifbada hərflər müəyyən sıra ilə yerləşdirilmişdir ki, buna ümumiləşmiş halda ə l i f b a s ı r a s ı deyilir.

Müasir dövrdə hərfi işarələr əsaslı yazıdan istifadə edən xalqların əlifbalarının, demək olar ki, hamısında hərflərin sıralanması

çox oxşardır və belə əlifbalarda *A, B* ilk hərfləri təşkil edir, bu isə qədim dövrlərlə, ilk hərfi əsaslı yazıların yaradılması dövrü ilə əlaqədar olaraq ənənəvi halda sabitləşmişdir. Buna görə də ilk hərflərin adı ilə *alfa, betta* birləşməsindən *əlifba*[1] sözü (rusca *alfavit*, ingiliscə, fransızca, almanca, *alphabet*, ispanca *alfabeto*) düzəldilmişdir

Müasir Azərbaycan əlifbası haqqında daha aydın təsəvvürə malik olmaq üçün buradakı əlifba cədvəlini diqqətlə nəzərdən keçirmək, həm də cədvəldə göstərilən sıra üzrə hərflər sırasını (əlifba sırasını) bilmək zəruridir

**Azərbaycan əlifbası cədvəli**

| Hərflərin sırası | Çap hərfləri | | Əlyazma hərfləri | | Hərflərin adları |
|---|---|---|---|---|---|
| | böyük | kiçik | böyük | kiçik | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | A | a | *A* | *a* | A |
| 2 | B | b | *B* | *b* | Be |
| 3 | C | c | *C* | *c* | Ce |
| 4 | Ç | ç | *Ç* | *ç* | Çe |
| 5 | D | d | *D* | *d* | De |
| 6 | E | e | *E* | *e* | E |
| 7 | Ə | ə | *Ə* | *ə* | Ə |
| 8 | F | f | *F* | *f* | Fe |
| 9 | G | g | *G* | *g* | Ge |
| 10 | Ğ | ğ | *Ğ* | *ğ* | Ğe |
| 11 | H | h | *H* | *h* | He |
| 12 | X | x | *X* | *x* | Xe |
| 13 | I | ı | *I* | *ı* | I |
| 14 | İ | i | *İ* | *i* | İ |
| 15 | J | j | *J* | *j* | Je |
| 16 | K | k | *K* | *k* | Ke//Ka |
| 17 | Q | q | *Q* | *q* | Qe |
| 18 | L | l | *L* | *l* | El |
| 19 | M | m | *M* | *m* | Em |
| 20 | N | n | *N* | *n* | En |
| 21 | O | o | *O* | *o* | O |
| 22 | Ö | ö | *Ö* | *ö* | Ö |
| 23 | P | p | *P* | *p* | Pe |
| 24 | R | r | *R* | *r* | Er |
| 25 | S | s | *S* | *s* | Se |
| 26 | Ş | ş | *Ş* | *ş* | Şe |
| 27 | T | t | *T* | *t* | Te |
| 28 | U | u | *U* | *u* | U |
| 29 | Ü | ü | *Ü* | *ü* | Ü |
| 30 | V | v | *V* | *v* | Ve |
| 31 | Y | y | *Y* | *y* | Ye |
| 32 | Z | z | *Z* | *z* | Ze |

[1] *Əlifba* sözü də ərəb dilində *alfa* əvəzinə işlənilən *əlif* (الف), *betta* əvəzinə işlənilən *ba* (ب) hərfi adlar birləşməsindən düzəldilmişdir; Azərbaycan dilinə də ərəb dilindən keçmişdir



***§157. Hərflər və səslər.*** Əgər biz "Fonetika" bəhsindəki saitlər, samitlər cədvəllərində verilmiş səslərin – fonemlərin miqdarı ilə əlifba cədvəlində verilmiş hərflərin miqdarını tutuşdursaq, belə bir nəticəyə gəlmiş olarıq ki, nəinki ümumiyyətlə Azərbaycan dilində olan səslərin hamısı, hətta Azərbaycan ədəbi dilində işlənilən fonemlər və fonem variantlarının hamısı əlifbada öz əksini tapmamışdır Yəni ədəbi dildə 45 fonem və fonem variantı olduğu halda, əlifbada ancaq 32 hərf vardır. Bəs belə hərflər əsasında qurulan yazı vasitəsi ilə biz öz fikirlərimizi necə dürüst, aydın ifadə edə bilərik? Dildə olan səslərin hamısını yazıda əks etdirmək üçün əlifbanın tərkibində hərflərin miqdarını artırmaq zəruri deyilmi?

Əlbəttə, dildəki səslərə nisbətən hərflərin miqdarı çox məhdud olduqda, məhdud hərflər əsasında qurulan yazı vasitəsi ilə anlaşma çətinləşir. Məhz buna görə də ərəb əlifbasındakı məhdudluq türk dillərində, o cümlədən Azərbaycan dilində yazı işinin çətinliyinə səbəb olmuşdu və bu əlifbanın ya təkmilləşdirilməsi, ya da başqa bir əlifba ilə əvəz edilməsi dövrün ən zəruri tələblərindən birinə çevrilmişdi. Ərəb əlifbası ilə yazılan bir çox sözlərin düzgün oxunması son dərəcə çətin idi və bəzən düzgün oxumaq da, düzgün başa düşmək

də mümkün olmurdu. Xüsusən Azərbaycan dilində sözlərin, şəkilçilərin formalaşması baxımından çox mühüm ünsür sayılan saitlərin çoxunu əks etdirən xüsusi hərflər olmadığı üçün samitlər birləşməsi əsasında yazılmış sözlər müxtəlif mənada anlaşılırdı. Məsələn, ərəb əlifbasında *kaf* adlanan hərf (ک) ilə *lam* adlanan ل hərf birləşməsi halında formalaşan کل sözünü *kol, kül, kal, kəl, gül, göl, gəl, gil* kimi müxtəlif sözlər mənasında başa düşmək olurdu.

Lakin buradan belə bir nəticə çıxarmaq da düzgün olmaz ki, dildə olan hər fonemi, fonem variantlarını və digər səs çalarlıqlarını ifadə etmək üçün yazıda da məxsusi hərfi işarələr yaradılsın və əlifba 50-60 və daha çox hərfi işarələri əhatə etsin. Əgər əlifbada belə "zənginləşdirmə" əməliyyatı aparılarsa, yazmaq, oxumaq işi asanlaşmaz, əksinə, xeyli çətinləşmiş və mürəkkəbləşmiş olar.

Deməli, əlifbada hərfi işarələrin miqdarını həddindən artıq çoxaltmaq da, hərfi işarələrin miqdarını məhdudlaşdırmaq kimi bir nəticə verir, yəni əlifba məqsədə uyğun olmur. Buna görə də hansı əlifbada hərflərin miqdarı əsasən həmin dildəki fonemlərin miqdarına uyğun olarsa, belə əlifba əsasında yazıb-oxumaq işi xeyli asanlaşar. Məhz bu baxımdan müasir Azərbaycan əlifbasının hərfi tərkibini nəzərdən keçirdikdə belə nəticəyə gəlmək olur ki, müasir Azərbaycan əlifbası dövrümüzün ən kamil əlifbalarındandır. Bu haqda daha aydın və dəqiq təsəvvürə malik olmaq üçün müasir Azərbaycan ədəbi dilindəki səslərin əlifbamızdakı hərflərlə necə ifadə edildiyini nəzərdən keçirək.

***§158. Saitlərin hərfi işarələri.*** Azərbaycan dilində əsasən 9 sait fonem vardır və bunlar dilin vahidlərində işlənən saitlərin, demək olar ki, 90 faizini təşkil edir. Qalan 10 faizə bu və ya digər alınma sözdə, dilin öz sözlərinin tərkibində müxtəlif məqamlarda, bəzi qrammatik vahidlərdə müəyyən dərəcədə işlənilən fonemlər və fonem variantları daxildir. Buna görə də belə məhdud dərəcədə işlənilən fonem və xüsusən fonem variantlarını ifadəedici xüsusi hərfi işarəyə o qədər də ciddi ehtiyac yoxdur və əlifbada saitləri ifadə edən 9 hərf Azərbaycan ədəbi dili normaları baxımından kafi sayılır. Bununla belə ədəbi dilin orfoepik normaları baxımından sözlərdəki saitlərin bu və ya digər çalarlıqda tələffüzünü təmin etmək üçün yazıda müəyyən qrafik işarədən və orfoqrafik qaydalardan da istifadə olunur ki, bunlar əsasən aşağıdakılardan ibarətdir.



1. Söz daxilində yanaşı hecalardan birincisində qalın, ikincisində incə saitin hərfi işarəsi olduqda, əvvəlki sait uzadılmış variantda tələffüz edilir; məsələn: *ali* (*a.li*), *sakit* (*sa·kit*), *mane* (*ma ne*) və s.

2. Müəyyən sözlərdə yanaşı yazılan *ov, öz, oyu, ovu* hərfi tərkibləri sait variantı halında Azərbaycan dilində məhdud dərəcədə işlənilən *o͡u, ö͡ü,* diftonqlarını əks etdirir; məsələn: *dovşan* (do͡uşan), *dövr* (dö͡ür), *toyuq* (to͡ux), *sovurmaq* (so͡urmaq), *qovurmaq* (qo͡urmaq) və s.

3. Qısa sait variantları da saitləri bildirən hərflərlə yazılır və məqamdan asılı olaraq qısaldılmış halda tələffüz edilir (bu haqda əlavə məlumat almaq üçün "Saitlərin tələffüzü" bəhsinə bax).

Buradan belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan ədəbi dilindəki sait fonemləri və fonem variantlarını yazıda əks etdirmək üçün 9 hərfdən istifadə olunur.

***§159. Samitlərin hərfi işarələri.*** Müasir Azərbaycan ədəbi dilində əsasən 25 samit fonem olduğu halda, samitləri yazıda əks etdirmək üçün əlifbamızda 23 hərfi işarədən istifadə edilir ki, bunların bir qismi məqam və şəraitə görə formalaşan fonem variantlarını da bildirir.

Məlum olduğu üzrə Azərbaycan dilində umumiləşmiş halda belə bir qanun vardır ki, küylü-cingiltili samitlərin əksəriyyəti müxtəlif məqam və şəraitdə bir az karlaşmış çalarlıqda tələffüz olunur. Bunun nəticəsində də samitlərin variantları yaranır, lakin yazıda hər variant üçün xüsusi hərfi işarə yoxdur. Buna görə də belə bir nəticəyə gəlmək olar ki, əlifbamızda samit səsləri bildirən hərflərdən bəzisi iki səsi ifadə edir; məsələn.

***B*** ∟ ***b*** (yuxarıda), ***b.(p)***    ***D*** ∟ ***d*** (yuxarıda), ***d.(t)***    ***Z*** ∟ ***z*** (yuxarıda), ***z.(s)***    ***V*** ∟ ***v*** (yuxarıda), ***v.(f)***    ***F*** ∟ ***f*** (yuxarıda), ***f.(x)***

Əlbəttə, bu səslərdən biri əsas fonem mahiyyətli, digəri isə variant mahiyyətlidir.

Əlifbamızda samitləri bildirən elə hərflər də var ki, iki və ya üç səsi bildirmək üçün işlənir və bu səslərin hamısı fonem mahiyyətli səslərdir. Bu baxımdan xüsusən *q* və *k* hərflərini ayrıca qeyd etmək lazımdır. Bu hərflərdən *q* ilə yazılan aşağıdakı sözləri nəzərdən keçirək: *qal, qol, hoqqa, toqqa, ittifaq*. Bu sözlərin əvvəlində işlənilən *q* tam cingiltili samitdir. *Hoqqa, toqqa* sözlərinin tərkibində qoşa halda yazılmış *q* səslərindən birincisi kar samit kimi tələffüz olunur, ikincisi isə əvvəlki sözlərin başında cingiltili halda tələffüz

edılən *q* səsindən heç də fərqlənmir. *İttifaq* sözünün sonundakı *q* də *hoqqa* sözündəki birıncı *q* kımi kar tələffüz olunur. Deməli, bu faktlardan aydın görünür kı, *q* hərfi ıki musteqil fonemin hərfi işarəsi kimi işlənir: $Q \angle^{q}_{q} - (k')$

Əlifbadakı *k* hərfi də üç fonemin hərfi işarəsi halında işlənir; məsələn. *kıtab, kıno, kül, kor, kar, həkim* sözlərındə *k* hərfi *g* samitinin kar qarşılığı olan fonemin işarəsi kimi işlənir; *kolxoz, kanal, aktiv, fonetika, iks* kimi sözlərdə yazılan *k* hərfi *q* hərfi ilə ifadə olunan cingıltili samitin (*qol, qal, qan* sözlərində işlənilən *q* məxrəcində) kar qarşılığı olan xususi fonemin işarəsi kimı, yəni *ka* (*k'*) fonemini bildirən hərf halında işlənmişdir. Eləcə də *çiçək, xörək, yemək* sözlərinın sonunda yazılan *k* hərfinın tələffüzünü diqqətlə dınlədikdə belə aydın olur ki, bu da tamamilə başqa bir fonem mahıyyətli səsdir və dilimizdə olan cıngıltılı *y* samitinın kar qarşılığı *x́*-dir Elə buna görə də müəyyən məqamda iki sait arasına düşdükdə bu səs öz cıngiltılı qarşılığı ilə əvəz olunur; məsələn: *çiçək – çiçəyi, çiçəyin, yemək – yeməyə, yeməyimiz* və s.

Deməli, dılımızdə məhdud dərəcədə işlənilən *k'* və *x'* fonemlərının əlifbamızda məxsusi hərfi işarələri yoxdur. Lakın bəzi fonem və fonem varıantları üçün xüsusi hərfi işarələrın olmaması Azərbaycan ədəbi dili ilə yazısı arasında ciddi fərq yaratmır və dilin yazıda dürust ifadəsini də çətınləşdirmir. Çünki belə səslərin yazıda və tələffüzdə fərqləndırılməsi üçün köməkçi işarədən, müxtəlif qaydalardan istifadə olunur və çətınlık aradan qaldırılır. Belə halları nəzərə aldıqda, demək olar ki, müasir Azərbaycan əlifbası müasir Azərbaycan ədəbi dılının əsas xüsusiyyətını yazıda dürüst əks etdirməyə qabil bır əlifbadır.

## ORFOQRAFİYA

***§160. Orfoqrafiyanın mahiyyəti.*** Orfoqrafiya yazılı nitqin normalarıdır Bu normaların konkret dil vahidlərınə görə qanuniləşdirılmiş müxtəlif təzahurlərı isə orfoqrafiyanın qaydalarını təşkıl edir. Buna görə də ümumiləşdirılmiş halda orfoqrafiyaya belə tərif vermək olar: Orfoqrafiya – yazılı nitqdə dil vahidlərının yazılışını tənzimedici qaydalar sistemidir

Yazılı nıtqin normaları və onun müxtəlif təzahürləri sayılan qaydalar isə muəyyən prınsiplər əsasında müəyyənləşdırılir. Bu prinsiplər bir çox xalqların yazı – orfoqrafiya normalarının müəyyənləşdirilməsində istıfadə olunduğuna görə, ümumi prınsiplər kımi nəzərə çarpsa da, hər bır dilin öz daxili qanunları və həmin dildə danışanların ümumiləşdırilmiş tələffüz zövqləri ilə uzlaşdırıldığı üçün xüsusiləşdirılmiş prinsiplər kimi də tanınır.



Bu prinsiplər dilın daxili inkışaf qanunları ilə nə qədər dürüst və dəqiq uzlaşdırılmış olsa, bunlara əsasən verilmiş hər orfoqrafik qayda da ağlabatan bir qanun kımi asanlıqla dərk edilə bilər və tez də öyrənilər. Əslındə orfoqrafiya ümumıyyətın istifadəsi üçün düzəldılmiş əməli məqsədli qaydalar halında asan və sadə olmalıdır. Buna görə də o qədər də əhəmiyyətli təfərrüat fərqlərı olmayan dil vahidlərıni bir neçə qaydaya paylaşdırmayıb bir ümumi qaydada bırləşdırmək daha əlverişli sayılır. Çünki, beləliklə, qaydaların ümumı miqdarı azalmış olur, müstəsna hallar isə xeyli məhdudlaşır

Orfoqrafiya qaydaları hamının məcburı surətdə rıayət etməli olduğu qaydalardır. Buna görə də bu qaydaları elə düzəltmək lazımdır ki, işlədənlər könulsüz, şüursuz məcburiyyət hıssi ilə yox, könüllu məcburiyyət hissi duyaraq işlətmiş olsunlar Yəni dilın düzgün yazı qaydalarını müəyyənləşdirərkən, həmin dıldə danışan millətin ümumıləşdirmiş olduğu ədəbi tələffüz normalarını, daha doğrusu, ədəbi tələffüz zövqünu nəzərə almaq zərurıdir. Belə olarsa, verilmiş orfoqrafiya qaydalarının hamı tərəfindən məqbul sayılıb, bəyənilib və asanlıqla mənimsənilib işləniləcəyinə tam əmınlik yaranır. Həm də belə qaydalar tez sabitləşır və uzun müddət yaşaya bilər

Orfoqrafiya ümumxalq dilinın, vahid mılli dilın, xüsusən bizim dövrümüzdə mədəniyyətımızin ən vacib vasitələrindən bırı sayılan yazılı nıtqin qanuniləşmiş normalarıdır.

## AZƏRBAYCAN DİLİ ORFOQRAFİYASININ PRİNSİPLƏRİ

***§161. Orfoqrafiya prinsipləri haqqında.*** Orfoqrafiya prınsiplərı orfoqrafiya qaydalarının istiqamətləndırici əsaslarıdır Hər bir dilın orfoqrafiya qaydaları dil vahıdlərının orfoqrafiya prınsiplərı ilə uzlaşdırılması əsasında müəyyən edilir. Dil vahidlərı isə çox müxtəlifdır; xüsusən səs, səslər birləşməsi, heca, şəkilçi, şəkılçilər bırləşməsi, sadə, düzəltmə və mürəkkəb sözlər, söz bırləşmələrı, qısaltma sözlər orfoqrafiya qaydalarının muəyyənləşdirilməsi işində nəzərə alınması, orfoqrafik prinsiplərlə uzlaşdırılması zərurı olan dıl vahidləridir.

Orfoqrafiya qaydalarının müəyyənləşdirilməsində istifadə olunan prinsiplər əsasən aşağıdakılardır:

i Fonetik prinsip.
2. Morfoloji prinsip
3. Tarixi-ənənəvi prinsip
4. Fərqləndirici prinsip.
5. Etimoloji prinsip.

Lakin bu və ya digər dilin orfoqrafiya qaydalarını müəyyənləşdirərkən bu prinsiplərin hamısından eyni dərəcədə istifadə olunmadığı kimi, xüsusən əsrlər boyu yazılı ədəbi dil tarixi olan dillərin orfoqrafiya qaydalarının müəyyənləşdirilməsində təkcə bir prinsiplə məhdudlaşmaq da mümkün deyildir. Belə bir cəhəti də yada salmalıyıq ki, müəyyən bir dildəki bu və ya digər vahidin orfoqrafiya qaydasını müəyyənləşdirərkən ancaq bir prinsipə əsaslanmaq zəruri olsa da, bəzən tək bir prinsiplə məhdudlaşmaq olmur, yəni bu və ya digər dil vahidinin, xüsusən bəzi şəkilçilərin, alınma sözlərin və söz birləşmələrinin yazılı qaydalarını müəyyənləşdirərkən eyni zamanda bir neçə prinsipdən istifadə etmək lazım gəlir Məsələn, Azərbaycan dilindəki cəm şəkilçisinin əvvəlində *l* səsinin yazılması morfoloji prinsip ilə əlaqədardır. Lakin *-lar, -lər* halında iki variantda yazılması ahəng qanununun tələffüzdəki təzahürü kimi fonetik prinsip ilə əlaqədardır.

Beləliklə, aydın olur ki, orfoqrafiya qaydalarını təkcə bir prinsip əsasında qurmaq mümkün deyildir. Lakin bunu da nəzərə almaq lazımdır ki, hər bir dilin orfoqrafiya qaydalarını düzəldərkən bir sıra prinsiplərdən istifadə olunsa da, bunlardan biri, ikisi və ya üçü əsas prinsip, digərləri isə yardımçı, ikinci dərəcəli prinsip sayılır.

Müasir Azərbaycan dilinin orfoqrafiya qaydaları, əsasən uç prinsip üzərində, yəni fonetik, morfoloji və tarixi-ənənəvi prinsiplər üzərində qurulmuşdur.

***§162. Fonetik prinsip.*** Son zamanlarda fonetik prinsip ilə yanaşı fonematik prinsip termini də işlənir və bu terminlər iki prinsipi ifadə edir. Fonetik prinsip tələffüz olunan səsin yazıdakı hərflə ifadəsi prinsipi mənasında, fonematik prinsip isə muxtəlif çalarlıqlarda tələffüz olunan səslərin vahid əsası sayılan fonemin yazıdakı hərflə ifadəsi prinsipi mənasında işlənilir Biz isə burada fonetik prinsip terminini hər iki prinsipin birləşməsini ifadə edən bir termin kimi işlədirik Müasir Azərbaycan dili orfoqrafiya



qaydalarının müəyyənləşdirilməsində də fonetik prinsipdən belə geniş mənada istifadə olunmuşdur.

Ümumiyyətlə, bu və ya digər sözün tərkibindəki səslərin tələffüz olunduğu kimi hərfi işarələrlə yazıda əks olunması yazı ilə tələffüz arasında uyğunluğu təmin etdiyi üçün orfoqrafiya qaydalarının daha çox fonetik prinsip əsasında qurulması, əlbəttə, əlverişlidir. Məsələn, Azərbaycan dilində söz köklərinin çoxu bu prinsipə görə yazılır və buna görə də bir çox söz köklərinin yazılışı çətin olmur: *al, alma, at, as, ağ, ata, ana, ol, ot, il, iş, üz, üç, dağ, daş, dil, diş, bal, baş, var, vur, dur, bil, biz, bir, biş, qaş, əl, qol, diz, su, qar, yağış, çay, şal, mal, xal, xala* və s. Belə söz köklərinin yazılışı hətta ayrı-ayrı şivələrdə danışanların yazısında ciddi bir çətinliyə səbəb olmur. Çünki belə sözlərin tələffüzü ilə yazılışı arasında, demək olar ki, fərq yoxdur; hətta belə sözlərin çoxu şivələrin əksəriyyətində bir cür tələffüz olunur

Burada belə bir cəhəti xüsusi olaraq qeyd etməliyik ki, fonetik prinsipi düzgün başa düşməyərək "tələffüz etdiyin kimi yaz" dusturunu çox geniş mənada izah edib, "hər kəs öz şivəsində yaza bilər" nəticəsini çıxarmaq doğru deyildir.

"Sözün tələffüz edildiyi kimi yazılması" anlayışı məhdud mənada işlənilən bir anlayışdır. Burada ümumi ədəbi tələffüz nəzərdə tutulur, həm də bu tələffüzdə, hətta müxtəlif çalarlıqla əlaqədar olan səslər – səs variantları yox, məhz belə səslərin vahid əsası sayılan fonemin yazılması nəzərdə tutulur. Məsələn, müəyyən şəraitdən asılı olaraq bəzi saitlər uzun tələffüz olunur (*a li, sa kit, tə lim*), bəzi cingiltili samitlər karlaşmış çalarlıqda da tələffüz olunur (*ulduz, kitab, azad*) Lakin belə halda çalarlıq mahiyyətli səs variant hesab olunur, əsas fonem isə həmin sözlərdə yazılan hərflərin ifadə etdiyi fonemlərdir (*a, ə, z, b, d*). Buna görə də fonetik prinsipin fonematik mənada da işlənildiyini unutmaq olmaz. Məhz yuxarıdakı nümunələrdə "tələffüz etdiyin kimi yaz" formulunu "tələffüz etdiyin səsin əsası olan fonemin hərfi işarəsi ilə yaz" mənasında başa düşmək lazımdır

Fonetik prinsip bu və ya digər şərait ilə bağlı olaraq sözlərin fonetik tərkibində əmələ gələn dəyişikliyin tələffüzdə qanunilәşmiş növlərini də əhatə edir. Məsələn, bəzən kar samitlərin cingiltiləşməsi (*otaq – otağa, çiçək – çiçəyin*), bitişdirici samitlərin artırılması (*ata-n-ı, ata-s-ı, ata-y-a*), şəkilçi qəbul edərkən bəzi sözlərin kökündəki müəyyən saitin düşməsi (*oğul – oğlu, ağız*

*ağzı*), xüsusən Azərbaycan dili üçün daha çox əlamətdar sayılan ahəng qanunu əsasında şəkilçilərin variantlarla tələffüzü kimi fonetik hadisələrin yazılışı da fonetik prinsiplə əlaqədardır. Çünki belə hallarda sözdə əmələ gələn dəyişiklik tələffüzdə əks olunur və bu da tələffüzə uyğun surətdə yazıya köçürülür.

Belə faktlar bir daha sübut edir ki, fonetik prinsipdən daha çox istifadə etmək ədəbi dil normalarının sabitləşdirilməsi, ümumiləşdirilməsi, həm düzgün yazı (orfoqrafiya), həm də düzgün tələffuz (orfoepiya) qaydalarını asanlıqla mənimsəmək nöqteyi-nəzərindən əlverişlidir. Belə prinsipə əsaslanan qaydaların təlim işində də böyük asanlığa səbəb olduğu şübhəsizdir Elə buna görə də şagirdlərin yazılarında buraxılan orfoqrafik səhvlərin içərisində fonetik prinsip ilə əlaqədar qaydaların pozulduğunu göstərən nümunələr azlığı təşkil edir.

Fonetik prinsipin bir sıra üstünlüklərinə baxmayaraq, demək lazımdır ki, dil vahidlərinin hamısının yazılışını fonetik prinsip əsasında qurmaq mümkün deyildir. Çunki bir sıra söz kökləri morfoloji dəyişikliyə uğradıqda, yəni müəyyən fonetik şəraitə düşdükdə tələffüzcə də az-çox dəyişmiş olur Bəzən yazıda müəyyən sözün fonetik tərkibini mühafizə etmək əslinə uyğunluq, tarixilik, ənənəvilik və s. kimi xüsusiyyətlər baxımından daha əlverişli və məqsədəuyğun sayılır.

***§163. Morfoloji prinsip.*** Məqam və şəraitlə əlaqədar olaraq müxtəlif çalarlıqda tələffüz olunan dil vahidlərinin, xüsusən sözlərin və şəkilçilərin vahid formada, yəni morfoloji quruluşuna uyğun olaraq bir cür yazılmasına istiqamətverici əsas morfoloji prinsip adlanır.

Morfoloji prinsipə görə, orfoqrafiya qaydalarının müəyyənləşdirilməsində, əsasən mənalı vahidlərin – sözlərin (söz kökləri, şəkilçilərlə düzəldilən, dəyişdirilən sözlər və şəkilçilər) orfoqrafiyası nəzərdə tutulur. Belə vahidlərin müxtəlif çalarlıqda tələffüzündə məna dəyişikliyi olmasa da, vahid ədəbi dil normalarının pozulmasına az-çox təsir göstərə bilir. Halbuki dil umumi anlaşma vasitəsi olduğuna görə dil vahidlərinin müxtəlif yox, məhz bir cür formalaşması, bir cür tələffüzü və eləcə də bir cür yazılması dilin əsil mahiyyətindən doğan tələbatdır. Buna görə də məhz morfoloji prinsip dilin əsas mənalı unsurlərinin – sözlərin yazıya vahid şəkildə köçürülməsi qaydalarını istiqamətləndirən ən mühüm prinsipdir. Əgər bu prinsip nəzərə alınmazsa, mənalı dil vahidləri müxtəlif çalarlıqda tələffüz olunduğu kimi yazıya köçürülərsə, yazı da öz mahiyyətini itirər, yəni yazı da həqiqi mənada vahid anlaşma vasitəsi ola bilməz.



Bundan əlavə, yazıda belə müxtəliflik nitqin yazıda bir cür ifadə olunmasını tənzim edən qaydalar sistemi kimi tanıdığımız orfoqrafiyanın əsas məqsədinə, məzmununa uyğun deyildir. Buna görə də eyni vahidin müxtəlif çalarlıqda tələffüzü yazıya köçürülməməlidir.

Eyni vahidin müxtəlif çalarlıqda tələffüzu müxtəlif məqam və şəraitlə əlaqədar ola bilır. Adətən sözün və ya şəkilçinin tərkibində fonetik halda təzahür edən belə çalarlıqlar şivə xüsusiyyəti halında, ədəbi tələffüz norması halında muxtəlif fonetik məqamla əlaqədar olur; məs.: *öy, öv, əv, ev, dəyil, degil, döyl, dö l, deyil, badya, badyə, bayda, qanşar, qənşər, qəyşər, qeyşər, qö.r, qour, qovur, qayıt, qeyit, qeid, qəyit* və s.

Əlbəttə, morfoloji prinsip əsasında bu variantlardan ancaq biri (yəni *ev, deyil, badya, qənşər, qovur, qayıt*) qəbul olunur və yazıda sabitləşir. Buna görə də hər cür morfoloji dəyişiklik və tələffüz çalarlığı bunların vahid yazılışını dəyişdirə bilmir

Sözlərin orfoepik normalar əsasında tələffüzündə də müəyyən çalarlıqlara yol verilir və belə sözlərə şəkilçi bitişdirildikdə bəzən tələffüzdə də dəyişiklik ola bilir; məs : *uç – uş, uşsun, uçar, uşmas, kənd – kəntdə, kəntdi, get – gessin; söylə – söyliyir, söyləmir, başla – başlıyır* və s.

Bəzən şəkilçinin ilk səsini bitişdiyi sözün sonundakı səsin təsiri ilə müxtəlif məxrəcdə – başqa səslərlə əvəzləyərək tələffüz etmək qanunı sayılır; məs. *atlar* əvəzinə *atdar, adamlar* əvəzinə *adamnar, anamdan* əvəzinə *anamnan, ondan* əvəzinə *unnan, atlı* əvəzinə *atdı, canlı* əvəzinə *cannı, qarlı* əvəzinə *qarrı* tələffüz olunur

Beləcə də səs uyuşması, səsdüşümü, səsartımı, yerdəyişmə, fərqləşmə, məxrəcdəyişmə kimi fonetik hadisələr sözlərin, şəkilçilərin müxtəlif variantlarda tələffüzünə təsir göstərir Lakin bu variantların hamısını yazıya köçürmək olmaz. Bu variantlardan bəzisi, xüsusən ahəng qanunu, müəyyən məqamlarda səsartımı, səsdüşümü ilə əlaqədar variantlar müəyyən dərəcədə qanuniləşmiş halda ümumi mahiyyət kəsb etmiş olduğundan yazıya köçürülür. Lakin qanuniləşməmiş variantlar ancaq tələffüzdə qalır, yazıya köçürülmür Məhz belə vəziyyətdə morfoloji prinsipə əsaslanaraq bu variantlardan biri yazı üçün məqbul sayılır, yazıya köçürülərək orfoqrafik qanun halında yazıda sabitləşdirilir Məsələn, yuxarıda nəzərdən keçirdiyimiz söz və şəkilçi variantlarından aşağıdakılar məqbul sayılır və morfoloji prinsip əsaslı orfoqrafik qaydaya görə belə də yazılır.

| Belə yazılır | Belə tələffüz olunur |
|---|---|
| *Kənd, kənddə, kəndli* | *Kənt, kəntdə, kəntdi* |
| *Getsin, getsə idi* | *Gessin, gesseydi* |
| *Başlayır* | *Başdıyır* |
| *Söyləyir* | *Söyliyir* |
| *Adamlar* | *Adamnar* |
| *Atlar* | *Atdar* |
| *Ondan* | *Unnan (Onnan)* |
| *Candan* | *Cannan* |
| *Qarlı* | *Qarrı* |
| *Canlı* | *Cannı* |

Bu variantlardan hansının məqbul sayılması əsasən həmin dil vahidlərinin qrammatik, etimoloji və tarixi xususiyyətləri ilə, eləcə də müasir dildəki vəziyyəti ilə bağlıdır.

Ümumiyyətlə, morfoloji prinsip müxtəlif çalarlıqda tələffüz olunan söz və şəkilçilərin bir cür yazılması prinsipidir. Lakin buradan belə bir nəticə çıxarmaq, əlbəttə, doğru olmaz ki, guya müxtəlif çalarlıqda tələffüz olunmayan sözlərin və şəkilçilərin yazılışı ancaq fonetik prinsip ilə əlaqədardır. Əlbəttə, bir cür tələffüz olunan sözlərin və şəkilçilərin orfoqrafiya qaydalarını müəyyənləşdirmək üçün fonetik prinsipin əsas olması belə vahidləri morfoloji prinsipdən uzaqlaşdırmır. Çünki belə vahidlər tək-tək səslərinə görə deyil, səslər birləşməsindən duzələn mənalı vahidlər olmasına görə fərqlənir və məhz belə vahidlərin bütövlüklə yazılması daha çox morfoloji prinsipə əsaslanır. Daha doğrusu, belə vahidlər səslərlə formalaşaraq təzahür etdiyi üçün, səslərlə yazıdakı hərflərin uyğunluğuna görə fonetik prinsipdə yazıldığını, yazıda mənalı bir vahid kimi əks olunduğuna görə morfoloji prinsipdə yazıldığını söyləmək olar. Burada isə belə bir nəticəyə gələ bilirik ki, sövti tərkibi ilə hərfi tərkibi tam eyniyyət təşkil edən mənalı dil vahidlərinin orfoqrafiyası həm fonetik, həm də morfoloji prinsipə müvafiq olur. Bu iki prinsipi birləşdirən əsas isə müxtəlif məqamda və fonetik şəraitdə necə tələffüz edilməsindən asılı olmayaraq dilin mənalı vahidlərinin təzahür əsasının yazıda vahidliyini, sabitliyini mühafizəetmə prinsipidir

***§164. Tarixi-ənənəvi prinsip.*** Əvvəlki dövrlərdə tətbiq olunan bu və ya digər orfoqrafik qaydanın mühafizə olunması və müasir yazıda davam etdirilməsi ümumiləşmiş halda t a r i x i - ə n ə n ə v i p r i n s i p adlanır.

Müasir Azərbaycan dili orfoqrafiya qaydalarında bu prinsipdən də istifadə olunur Lakin qabaqcadan qeyd etməliyik ki, bu prinsipdən



tam halda öz mənasında deyil, bir qədər şərti mənada istifadə olunur Məhz bu baxımdan yanaşdıqda demək olar ki, tarixi-ənənəvi prinsipdən əsasən aşağıdakı qruplara mənsub dil vahidlərinin orfoqrafiya qaydalarının müəyyənləşdirilməsində istifadə olunur.

1 A z ə r b a y c a n  d i l i n i n  ö z  s ö z l ə r i n i n  v ə  ş ə k i l ç i l ə r i n i n  y a z ı l ı ş ı n d a.

Məlum olduğu uzrə, Azərbaycan dilində yazı əvvəlki dövrlərdə ərəb əlifbası əsasında olmuşdur Buna görə də ərəb əlifbası əsasındakı yazının orfoqrafiya qaydalarını müasir əlifbada davam etdirmək həm mümkün deyil, həm də məqsədəuyğun deyil Çünki bizim ərəb əlifbasını müasir əlifba ilə əvəz etməyimizin başlıca səbəbi ərəb əlifbası əsasında qurulmuş yazının orfoqrafiyasında Azərbaycan dilinin əsas xüsusiyyətlərini əks etdirmək imkanlarının yoxluğu olmuşdur. Ərəb əlifbasında xüsusən sait səsləri bildirən hərfi işarələrin məhdud miqdarı Azərbaycan sözlərinin düzgün yazılışını təmin etməmişdir Buna görə də müasir orfoqrafiyada əsil Azərbaycan sözlərinin yazılışını müəyyənləşdirərkən əvvəlki yazıda, xüsusən saitlərlə əlaqədar orfoqrafik qaydaları eynən təkrarlamağa ehtiyac duyulmur, lakin bəzi sözlərin, şəkilçilərin yazılışında tarixi-ənənəvi prinsipdən istifadə etmək məqsədəuyğun sayılır Bu baxımdan orfoqrafiya qaydalarının aşağıdakı maddələrini xüsusi qeyd etmək olar·

§23. Son səsi d, həm də t ilə deyilib d ilə yazılır; məsələn: bulud, qurd, dörd, kənd, polad və s

§25. Son səsi k, g və ya y ilə deyilən ikihecalı (və ya çoxhecalı) sözlər k ilə yazılır; məsələn: böyük, çiçək, kəpənək, hörumçək, külək, çörək və s

§26. Son səsi ğ, x və ya q ilə deyilən ikihecalı sözlər q ilə yazılır; məsələn: bulaq, qaşıq, qatıq, qonaq, yanaq, yarpaq və s.

§28. Son səsi c, ç, j və ya ş ilə deyilən sözlər c ilə yazılır; məsələn: ağac, qılınc, dinc, kərpic, gec, güc, sac, süzgəc və s

Beləcə də *-maq, -mək, -dıq, -dik, -lıq, -lik* kimi şəkilçilərin sonunda *q* və *k* samitlərinin yazılması əsasən tarixi-ənənəvi prinsiplə əlaqədardır[1]

2. A l ı n m a  s ö z l ə r i n  v ə  ş ə k i l ç i l ə r i n  y a z ı l ı ş ı n d a

Müasir Azərbaycan dilində işlənilən alınma sözlər həm alınma tarixinə görə, həm də mənsub olduğu dilə görə, əsasən, iki qrupa bölünür:

[1] Azərbaycan dilinin orfoqrafiya lüğəti Bakı, 1975, səh 6

a) orta əsrlərdə ərəb və fars dillərindən alınma sözlər və şəkılçilər,

b) muasir dövrdə rus və Avropa dillərindən alınma sözlər və şəkilçilər

Müasir Azərbaycan yazısında istıfadə olunan əlifba əvvəlki dövrlərdə Azərbaycan yazısında istifadə olunan ərəb əlifbasından əsaslı surətdə fərqləndiyinə görə ərəb və fars dillərindən alınma sözlərin ərəb əlifbası əsasında qurulmuş yazılışını eyni ilə müasir yazıya köçürmək olmazdı. Buna görə də "Azərbaycan türk dilinin imlası" kitabında (1934) belə sözlərin ərəb əlifbası ilə yazılışında istıfadə olunan hərflər, xüsusən samitləri bildirən hərflər müasır əlifbadakı qarşılığı ilə əvəzlənmiş, saitlərin yazılışı isə bəzən fonetik əsasda, yəni müasir tələffüzə uyğunluq əsasında, bəzən isə ərəb əlifbası ilə yazılışına uyğun, yəni saitləri bildirən hərəkətlərə uyğun yazılması ilk dövrlərin orfoqrafiya qaydalarında da aydınca qeyd olunmuşdur kı, ərəbcə və farsca zir (ِ) ilə yazılan sözlərdə hərəkə yerinə umumiyyətlə *i* yazılır, ərəbcə və farsca sözlərin birinci hecasında olan pöş (ُ) hərəkəsi əvəzinə bəzən *ü*, bəzən *ö* yazılır

Buradan isə tamamilə aydın olur ki, *qəbz, əmr, əsr, zülm, kəsr, nəbz, hüzn, cəbr, huceyrə, təshih, qəbih, hətta, əlbəttə, müttəhim, xəstə, dəftər* və s. kimi bir sıra alınma sözlərin yazılışı məhz tarixi-ənənəvi prinsiplə əlaqədardır.

Ərəb və fars dillərindən alınma bəzı şəkılçilərin də orfoqrafiyası tarixi-ənənəvi prinsip əsasındadır. Buna görə də belə şəkilçilər Azərbaycan dilinin ahəng qanunu əsasında dəyişdirilmədən, əslinə uyğun olaraq bir cür yazılır: *tarix-i, inqilab-i, cənub-i* və s.

Müasir dövrdə rus və Avropa dillərindən alınma sözlərin yazılışında daha çox rus orfoqrafiyasına uyğunluq nəzərdə tutulur və əksərən sözlər belə də yazılır: *abonement, avtobus, balon, duma, laborant, maqnitofon, telefon* və s.

Bunun isə ikı səbəbi vardır. Birincisi, əlifbanın eyni əsasda olması, ikincisi isə belə sözlərin rus yazılı ədəbi dilindən alınmasıdır.

Lakin buradan belə nəticə çıxarmaq olmaz ki, sözlər tamamilə rus yazısında olduğu kimi Azərbaycan yazısına köçürülür. Burada qarşılıqlı surətdə rus və Azərbaycan əlifbasında olan və ya olmayan hərflərə görə müəyyən dəyişiklik edilir. Əgər rus orfoqrafiyasına görə bu və ya digər sözdə *я, ю, ë, э, ц, щ, дж, ь* hərfləri varsa, belə hərflər Azərbaycan əlifbasına uyğun hərflərlə əvəz olunur: *я* əvəzinə *ya, ю* əvəzinə *yu, e* əvəzinə muəyyən məqamda *ye*, muəyyən məqamda isə *e, э* əvəzinə *e, ц* əvəzinə bəzən *s*, bəzən *ts, щ* əvəzinə *ş*, bəzən *şş, дж* əvəzinə *c* yazılır, *ь* isə yazılmır. Bəzən də Avropa dillərinə mənsub sözlərin əslindəki *g, h, c, ü* kimi səslər rus dilində olmadığına görə, bu səslər rus orfoqrafiyasında *г, дж, ю, х* hərfləri ilə yazılır. Avropa dillərində olan belə səslər Azərbaycan dilində olduğu üçun Azərbaycan əlifbasında da bu səslərin xüsusi hərfi işarələri vardır. Buna görə də belə sözlərin yazılışı rus qrafikasından və orfoqrafiyasından bir qədər fərqli olur Belə sözlərdə həmin səslər əslinə uyğun olaraq Azərbaycan əlifbasındakı *c* (*cemper*), *h* (*hidro*), *g* (*geoloq*), *ü* (*bulleten*) hərfləri ilə yazılır.

Belə bir faktı da qeyd etmək lazımdır ki, məhz rus və Avropa dillərindən alınma bir sıra sözlərin orfoqrafiyasında eynən köçürmə halında təzahür edən tarixi-ənənəvi prinsip ilə əlaqədar olaraq *k* hərfi iki fonemin hərfi işarəsi kimi işlənir ki, bunlardan biri, yəni *ka* ancaq rus və Avropa dillərindən alınma sözlərin orfoqrafiyası və orfoepiyası ilə bağlıdır: *kollektiv, kassa, kvadrat, keks, estetika, etika* və s.

Rus dilindən alınma bəzi şəkılçilər də tarixi-ənənəvi prinsipdə əslinə uyğun, yəni rus orfoqrafiyasına uyğun yazılır: *-ov, -yev, -ova, -yeva* (Əhmədov, Abdullayev, Həsənova, Əliyeva) və s.

Tarixi-ənənəvi prinsip əsasında bu və ya digər mənalı vahidin orfoqrafiyasını muəyyənləşdirərkən, bu vahidlər fonetik və morfoloji prinsiplər baxımından da az-çox nəzərdən keçirilir, hətta bir sıra vahidlərin orfoqrafiyasında iki, bəzən də üç prinsip uzlaşması əsas olur.

## DEFİS İŞARƏSİ (-) VƏ ORFOQRAFİK MAHİYYƏTİ

***§165. Defis işarəsi haqqında*** Defis[1] işarəsi yazıda istifadə olunan ən qısa üfüqi bir xətdir Defis işarəsi bəzən durğu işarələri sırasına daxil edilsə də, işlənilmə məqamına, mahiyyətinə görə daha çox orfoqrafik işarədir Durğu işarələrində məzmun daha çox istiqamətləndirici mahiyyət daşıdığı halda, defis işarəsi sözün

[1] Latınca "ayırma" mənasında olan "d i v i s i o" sözündəndir

quruluş vahidlərinin yazıya köçürülməsi ilə bağlı olan şərti qrafik mahiyyətli bir işarədir. Bununla belə defis sözün və ya onun ayrı-ayrı hissələrinin dürüst anlaşılmasına kömək edən bir işarədir.

Müasir Azərbaycan yazısında defis işarəsindən, əsasən, aşağıdakı məqamlarda istifadə olunur:

1 Mürəkkəbləşmiş sözlərin və ifadələrin yazılışında: *ala-bəzək, az-az, ad-san, qeyri-rəsmi, əks-hucum* və s.

2 Söz hissələri arasında.

a) sətirdən sətrə keçirmədə. *işlə-yir, dola-yır, dinləmiş-dir* və s.;

b) ayrıca yazılan şəkilçinin əvvəlində: *-dan, -çı, -lar, -mı, -dı* və s ;

c) rəqəmlə yazılan saylara bitişən şəkilçilərlə rəqəm arasında *9-cu, 3-cü* və s.

***§166. Defislə yazılan sözlər.*** Müasir Azərbaycan dilinin orfoqrafiya qaydalarına görə, əsasən aşağıdakı növlərdən olan sözlər defislə yazılır

1. Tərkibindəki sözlərdən biri, bəzən də hər ikisi ayrılıqda məna verməyən və ya başqa məna verən isim, sifət və zərflər: *dedi-qodu, iş-güc, yara-xora, kol-kos, geyim-kecim, nəm-nüm, pal-paltar, sir-sifət, sür-sümük, çör-çöp, adda-budda, qarma-qarışıq, kələ-kötür* və s.

2 Eyni sözün əvvəlinə ya *m* səsi artırmaqla, ya sözün tərkibində olan damaq saitlərinin hamısını, ya da ancaq başdakını uyğun dodaq saiti ilə əvəz etməklə düzəldilən qondarma sözü əsas sözə qoşmaqla yaranan sifət, isim və zərflər. *qara-qura, kağız-kuğuz, kasıb-kusub, təhər-töhür, uşaq-muşaq, cındır-mındır, şap-şup, şey-mey, əzik-üzük, əyri-uyrü, az-maz* və s.

3. Hər iki tərəfi *-maz, -məz* şəkilçisi qəbul etmiş fellərdən əmələ gələn sifət və zərflər: *bitməz-tükənməz, dinməz-söyləməz* və s.

4. Tərkibində *qeyri* sözü olan sifət və zərflər: *qeyri-adi, qeyri-qanuni, qeyri-iradi, qeyri-kafi, qeyri-müəyyən, qeyri-mümkün, qeyri-rəsmi, qeyri-səmimi, qeyri-təbii, qeyri-uzvi* və s.

5. Iki sözdən əmələ gəlib birincisi *-i (-yi)* şəkilçisi qəbul edən isimlər: *vəsfi-hal, nöqteyi-nəzər, tərzi-hərəkət, tərcümeyi-hal* və s.

6. Eyni sözün təkrarı ilə əmələ gələn isimlər. *aşıq-aşıq, qoz-qoz, daş-daş, pıç-pıç, top-top, cəh-cəh, civ-civ, cik-cik* və s.

7. Mənaca bir-birinə yaxın, ya uzaq, ya da zidd olan ayrı-ayrı sözlərdən əmələ gələn isimlər. *ab-hava, abır-həya, ağız-burun, ad-san, alğı-satqı, alış-veriş, arvad-uşaq, ah-fəğan, bağça-bağ,*



*baş-ayaq, var-yox, qəpik-quruş, qohum-qardaş, dava-dərman, dərə-təpə, əl-ayaq, gecə-gündüz, naz-qəmzə, nəvə-nəticə, od-alov, səs-küy, səs-səda, təhvil-təslim* və s.

8. Ölçü vahidlərini bildirən isimlər: *qram-kalori, qram-ekvivalent, kilovat-saat, kiloqram-metr, tələbə-saat, ton-kilometr* və s

9 Cəhətlər arasını bildirən isimlər *cənub-qərb, cənub-şərq, şimal-qərb, şimal-şərq* və s.

10. Müxtəlif mənada işlənib, tərkib daxilində bir məfhum ifadə edən isimlərdən əmələ gətirilən tərkiblər: *alim-geoloq, inqilabçı-yazıçı, kapitan-leytenant, kafe-restoran, general-qubernator, general-leytenant, general-mayor, suvarma-meliorasiya* və s.

11. Klassik muğam adlarını bildirən isimlər: *bayatı-qacar, bayatı-əcəm, bayatı-isfahan, bayatı-kürd, bayatı-turk, bayatı-şiraz, mahur-hindi* və s.

12 Eyni sadə və ya düzəltmə sifətin təkrarı ilə əmələ gələn sifətlər *balaca-balaca, dadlı-dadlı, yumru-yumru, yüklü-yüklü, lopa-lopa, pis-pis, yaxşı-yaxşı* və s

13. Mənaca bir-birinə yaxın, ya uzaq və ya zidd olan sifətlərdən düzələn mürəkkəb sifətlər *adlı-sanlı, almalı-armudlu, allı-güllü, bağlı-bağatlı, daşlı-kəsəkli, evli-eşikli, əməlli-başlı, ətli-qanlı, otlu-sulu, pis-yaxşı, saysız-hesabsız, ucsuz-bucaqsız* və s.

14. İki kökdən əmələ gəlib, əlavə əlamət və ya rəng bildirən sifətlər: *ala-babat, ala-bəzək, ala-çiy, ala-qara, al-əlvan, ala-yarımçıq, ala-tala, tünd-qırmızı* və s.

15. İki və daha artıq isimdən əmələ gəlib, bütöv bir anlayış bildirən, arasına *və* bağlayıcısı qoymaq mümkün olan sifətlər: *dil-dodaq* (samitləri), *dil-ədəbiyyat* (fakültəsi), *ticarət-sənaye* (mərkəzi), *fabrik-zavod* (məktəbi), *fəhlə-kəndli* (birliyi) və s.

16. Hər iki tərəfi *-i* (və ya *-vi*) şəkilçisi qəbul etmiş sifətdən əmələ gələn sifətlər: *elmi-kütləvi* (məqalə), *ədəbi-bədii* (məcmuə), *tarixi-ictimai* (hadisə), *ictimai-iqtisadi* (vəziyyət), *ictimai-siyasi* (məsələ), *mədəni-kütləvi* (iş), *siyasi-kütləvi* (iş) və s.

17 Qarşılıqlı əlaqə, münasibət bildirən sifətlər. *Azərbaycanca-rusca* (lüğət), *rusca-azərbaycanca* (luğət), *farsca-rusca* (lüğət) və s.

18. Siyasi cərəyanların, ictimai formasiya, quruluş və s adlarını bildirən sifətlər: *burjua-demokratik* (inqilabı), *icma-qəbilə* (quruluşu), *materialist-dialektik* (nəzəriyyə), *sosial-demokratik* (nəzəriyyə) və s

19. Qeyri-müəyyənlık bildirən miqdar sayları: *iki-üç, on-on beş, əlli-altmış* və s.

20. *-i* şəkilçisi qəbul edib düzəlmiş sifətlə isim birləşməsindən yaranan mürəkkəb sifətlər: *elmi-tədqiqat* (institutu), *hərbi-dəniz* (qüvvələri) və s

21. Tərkibində *-ıb, -ib, -ub, -üb* şəkılçili feli bağlama olan fellər: *bəzənib-düzənmək, itib-batmaq, yazıb-yaratmaq, gedib-gəlmək, oturub-durmaq, çalışıb-çapalamaq* və s.

22 Tərkıbindəki birinci sözü *-ar, -ər, -r*, ikinci sözü isə *-maz, -məz* şəkılçili feli bağlama bırləşməsi: *başlar-başlamaz, istər-istəməz, işlər-işləməz, yazar-yazmaz, gələr-gəlməz, görər-görməz* və s.

23 Eyni sözün (isim, sifət, say və ya zərfin) təkrarı ilə düzələn zərflər *addım-addım, az-az, asta-asta, acı-acı, beş-beş, qarış-qarış, qəmgın-qəmgın, damcı-damcı, dəstə-dəstə, ehmal-ehmal, iki-iki, yazıq-yazıq, gec-gec, parça-parça, sabah-sabah, səhər-səhər, tez-tez* və s.

24. *-a, -ə, (-ya, -yə)* şəkılçili eyni felin təkrarından əmələ gələn zərflər: *baxa-baxa, qaça-qaça, bilə-bilə, gülə-gülə, ağlaya-ağlaya, oxuya-oxuya, işləyə-işləyə, sürüyə-sürüyə* və s.

25. Müəyyən mənaya malik olan söz ilə ayrılıqda başqa məna verən və ya heç bır mənası olmayan sözün yanaşmasından əmələ gələn zərflər: *ac-acına, sayır-bayır, uzun-uzadı, xəbər-ətərsiz, dava-dalaş* və s.

26. Təkrar olunan sözün, yəni ıkinci sözün *-a, -ə (-ya, -yə)* şəkılçisi qəbul etməsi ilə düzələn zərflər. *baş-başa, qabaq-qabağa, qarşı-qarşıya, daban-dabana, diz-dizə, yan-yana, heç-heçə, çiyin-çiyinə* və s

27. Birincisi *-dan, -dən*, ikıncisi *-a, -ə* şəkilçisi qəbul etmiş eyni sözün təkrarından və ya muxtəlif sözün yanaşmasından əmələ gələn zərflər: *axşamdan-axşama, açıqdan-açığa, başdan-başa, başdan-ayağa, vaxtdan-vaxta, ildən-ilə, gizlindən-gizlinə, gündən-günə, haçandan-haçana* və s.

28. Eyni nitq hissəsinə aid olan müxtəlif mənalı sözlərin yanaşmasından əmələ gələn zərflər· *az-çox, açıq-aydın, açıq-aşkar, elə-belə, zor-guc, kor-peşman, ora-bura* və s

29. *-dan* şəkilçisi ilə iki eyni nitq hissəsindən əmələ gələn zərflər· *azdan-çoxdan, altdan-altdan, oradan-buradan* və s.



30. Eyni sadə nidaların təkrarından düzələn mürəkkəb nidalar: *hay-hay, bəh-bəh, pəh-pəh, uy-uy, ha-ha-ha* və s.

31. Qısaltma sözlərə qoşulan şəkılçilər ya qısaltmadakı sonuncu saitlə, ya da samit hərfin adındakı saitlə ahəng qanunu əsasında uyuşdurulur və şəkilçidən əvvəl defis qoyulur: *BMT-də, APU-ya, BDU-nun* və s.

32. Qısaltmanı təşkil edən hərflər yanında konkretləşdirici rəqəm olduqda hərflərlə rəqəm arasında defis qoyulur *İL-18, QAZ-51, TU-144* və s.

33. Saylar ərəb rəqəmləri ilə yazıldıqda saylara qoşulan şəkılçilərdən əvvəl defis qoyulur: *saat 5-ə qədər, ayın 11-də, 3-cü* və s

34. Ayrıca yazılan şəkılçilərin əvvəlinə defis qoyulur *-acaq, -əcək, -yacaq, -yəcək, -dır, -dir, -dur, -dur* və s

***§167. Nöqtə* (.) *işarəsindən orfoqrafik istifadə.*** Əsasən durğu işarəsi kimi işlənilən nöqtə müxtəlif məqamda orfoqrafik işarə halında da işlənilir. Buna görə də orfoqrafiya qaydaları sırasında nöqtənin də orfoqrafik məqamlarını ayrıca qeyd etməyi lazım bilirik.

Nöqtə işarəsi Azərbaycan dili orfoqrafiyasında, əsasən, aşağıdakı məqamlarda işlənilir.

1. Sıra bildirmək üçün işlənilən rəqəmlərdən, hərflərdən sonra nöqtə qoyulmalıdır; məs :

| | | | |
|---|---|---|---|
| *1* | *I* | *A.* | *a* |
| *2* | *II* | *B.* | *b.* |
| *3* | *III* | *C* | *c* |

2. Şəxs adı qısaltma yolu ilə ancaq baş hərflə yazıldıqda baş hərfdən sonra nöqtə qoyulmalıdır; məs.: *M F Axundzadə, S Vurğun, C Cabbarlı, M Ə Sabir* və s.

3 Qısaltma sözlərin birinci parçası söz hissəsindən, digər parçaları isə sözlərin ilk hərflərindən olduqda birinci parçadan sonra nöqtə qoyulmalıdır; məs.· *Azər TAc* və s.

4. Ümumi sözlərdən ixtisar yolu ilə düzəldilən və ancaq yazıda işlənilən qısaltmaların sonunda nöqtə qoyulmalıdır; məs.. *b.k* (bu kimi), *c* (cild), *e n* (elmlər namizədi), *h* (hissə), *və s.* (və sairə), *ad.* (adına), *akad* (akademik), *vət* (vətəndaş), *yol* (yoldaş), *prof* (professor).

***§168. Böyük və kiçik hərflərin orfoqrafik mahiyyəti.*** Əlifbada böyük və kiçik hərflərin olması sadəcə formasına görə fərqlənmə mahiyyətli təsadüfi bir hal deyildir. Bunlar sözün, ifadənin, cüm-

lənin – ümumən dil vahidlərinin yazıda hansı mənada, nə məqsədlə və hansı məqamda işləndiyini dürüst başa düşmək baxımından çox vacib orfoqrafik-semantik mahiyyətli şərti – hərfi işarələrdir. Belə hərfi işarələr isə eyni zamanda orfoqrafiyada fərqləndirmə prinsipindən istifadə etmək üçün də əlverişli imkan yaradır Məsələn, *əsgər, məhəbbət, qəhrəman, mirzə, bülbül* kimi yüzlərlə müxtəlif məfhum ifadə edən sözlərin müəyyən məqamda xüsusi isim mənasında işlənilməsini bildirmək üçün böyük hərfdən istifadə olunur: *Əsgər – əsgər, Məhəbbət – məhəbbət, Qəhrəman – qəhrəman, Mirzə – mirzə, Bülbül – bülbül* və s.

***§169. Böyük və kiçik hərflərin işlənilmə məqamları.*** Müasir Azərbaycan yazısında böyük hərflər, əsasən, aşağıdakı məqamlarda işlənilir

1 Hər bir müstəqil cümlənin başındakı sözün ilk hərfi böyük yazılmalıdır Müstəqil cümlənin başındakı söz dedikdə, əsasən, aşağıdakı məqamlar nəzərdə tutulur:

a) mətnin başlanğıcını təşkil edən ilk cümlənin birinci sözünün baş hərfi; məs.:

*Azərbaycan ədəbi dili dünyanın ən mütərəqqi dilləri ilə ayaqlaşa bilən zəngin, səlis və ahəngdar bir dil səviyyəsindədir,*

b) mətnin ortasında qoyulmuş nöqtə, çox nöqtə, sual və nida işarələrindən sonrakı cümlənin ilk sözünün baş hərfi; məs.:

**Nöqtədən sonra:**

*Bununla hüsni-rəğbət və şöhrət qazanır Bir az keçir, İran inqilabı başlanır* (Ə.Haqverdiyev)

**Çox nöqtədən sonra:**

*Cəza dəstəsi də kişini bərk döyüb. Qəribə danışırlar... Axşamlar şər qarışan zaman Yaqub yüzbaşını köç yolunda tutur* (Mir Cəlal).

**Sual işarəsindən sonra:**

*Nə deyim? Belədir əzəldən işim* (S.Vurğun).

*"Necə? Yoxsa mən xilafi-şər iş görmüşəm? Şəriətin hökmünə əməl eləməmişəm* (Ə.Haqverdiyev).

**Nida işarəsindən sonra:**

Cümlədən əvvəl işlənilən nida sözlərindən və ya xitablardan sonra:

*Heyhat! Onu məhv etdi xəyalən bəşəriyyət* (S.Vurğun).

*Səfər! Papağını götür, burdan get* (Ə.Haqverdiyev).



Əvvəlki cümlənin sonunda·

*İndi nə zamandır, şahdan mərhəmət umasan, ay dayı! Zəhərdən şəfa görmüsən?* (Mir Cəlal)

2. Şerin hər misrasının ilk sözündəki baş hərf böyük yazılmalıdır; məs.:

*Günəş qısqanaraq küsdü gecədən,*
*Boğdu qaranlığı, can aldı yenə*
*Mən heyran qaldığım bu bilməcədən*
*Endim xəyalımın dərinliyinə* .
(S.Vurğun)

3. Xüsusi isimlərin – xüsusi adların ilk hərfi böyük yazılmalıdır.

Müasir Azərbaycan dilində xüsusi adlar həm quruluşca, həm də məzmunca, əlaqədar sahələrə görə çox rəngarəng və müxtəlifdir

Orfoqrafiya qaydalarında bunların aşağıdakı növləri ayrıca qeyd olunmuşdur:

a) Ad, ata adı, soyad və təxəllüs bildirən sözlərin (*oğlu* və *qızı* sözlərindən başqa) baş hərfi böyük yazılır; məsələn: *Mirzə Fətəli Axundzadə, Səməd Vurğun, Seyid Əzim Şirvani* və s.

Qeyd Belə məqamlarda adlardan sonra *ata* adına əlavə olunan *oğlu, qızı* sözü kiçik hərflə yazılır; məs *Əli Məmməd oğlu, Cəmilə Mehdi qızı* və s.

Belə sözlər familiya məqamından işlənildikdə bitişik yazılır: *Azəroğlu, Həsənoğlu* və s.

b) İsmin əvvəlində titul, ləqəb kimi işlənilən mirzə, hacı, şeyx, seyid, şah, sultan sözlərinin də baş hərfi böyük yazılır; məs.: *Mirzə Fətəli, Hacı Qara, Şeyx Nəsrullah, Seyid Əzim, Şah İsmayıl, Sultan Mahmud* və s.

Qeyd Belə sözlər əsas adlardan sonra gətirildikdə sözlərdən ayrı və kiçik hərflə yazılır, məs.: *Nadir şah, Abbasqulu ağa, Fətəli xan, Heyran xanım, Abbas mirzə, Həsən bəy* və s

c) Xüsusi astronomik və coğrafi adların, küçə və meydança adlarının baş hərfi böyük yazılır. Bu xüsusi adlar iki və daha artıq sözdən ibarət olarsa, bütün səslərin baş hərfləri böyük yazılır.

Qeyd Belə xüsusi adlarda obyektin növünü bildirmək üçün qoşulan *ada, boğaz, bulaq, burun, bürc, qala, dəniz, dərya, dərə, düz, düzənlik, yarımada, korpu, korfəz, küçə, göl, meydan, planet, təpə, çay* və s. sözlər kiçik hərflə yazılır

ç) Xüsusi astronomik adlar; məs.: *Ay, Böyük Ayı bürcü, Yer, Günəş, Mars, Xərçəng bürcü* və s

Qeyd *Ay, Yer və Gunəş* sözləri xüsusi astronomik termin kimi işlənilmədikdə kiçik hərf ilə yazılır, məs *Üfüqdən gunəş yavaş-yavaş baş qaldırırdı* və s

d) Xüsusi coğrafi adlar; məs · *Abşeron yarımadası, Ağ dəniz, Azov dənizi, Araz çayı, Boz dağ, Qız qalası, Dardanel boğazı, Yasamal dərəsi, Göy göl, Mil düzu, Muğan düzü, Müqəddəs Yelena adası, Göyçə gölü, Sultan burnu, Sınıq körpü, Şah dağı, Şərqi Avropa düzənliyi*

İki sözdən düzələn və ikincisi xüsusi coğrafi ad kimi işlənən murəkkəb coğrafi adların tərkibindəki sözlər ayrı və baş hərfləri böyük yazılır, məs : *Aşağı Göynük, Birinci Nüyədi, Birinci Çağan, Birinci Şıxlı, Daş Veysəlli, Daş Salahlı, Yaxın Şərq, Yeni Ələt, Yuxarı Ağcakənd, Mərkəzi Avropa, Çay Qaraqoyunlu, Cənubi Amerika* və s

e) Küçə, meydan və meydança adları məsələn *Aşıq Ələsgər küçəsi, Qələbə meydanı, İstiqlaliyyət küçəsi, Gənclər meydançası, Neftçilər prospekti* və s.

4. Tarixi hadisələrin, dövrlərin, sülalələrin, eləcə də qədim yazılı abidələrin, sənədlərin və s. adlarının birinci sözünün baş hərfi böyük yazılır.

a) Tarixi hadisələrin adları; məsələn: *Vətən müharibəsi, Yeddiillik muharibə, Oktyabr sosialist inqilabı* və s.

Bu cür mürəkkəb adların əvvəlinə təyinedici söz əlavə olunduqda onun da baş hərfi böyük yazılır; məs.: *Böyük Vətən muharibəsi, Böyük Oktyabr sosialist inqilabı* və s

b) Dövrlərin, sülalələrin, qədim yazılı abidələrin, sənədlərin adları; məs *Sasanilər dövrü, Orxon-Yenisey abidələri, Səfəvilər sulaləsi* və s

c) Tarixi günlərin, inqilabi bayramların adlarını bildirən ifadələrin tərkibindəki birinci sözün baş hərfi böyük yazılır; məs : *İyirmi səkkiz may, Beynəlxalq qadınlar gunü, Bahar bayramı, Mətbuat günü* və s

Belə adların tərkibindəki miqdar sayları rəqəmlə yazıldıqda, rəqəmdən sonrakı sözün baş hərfi böyük yazılır; məs : *8 Mart, 28 May* və s

5. Ölkələrin, muxtar respublikaların və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin baş hərfi böyuk yazılır, məs. *Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Bakı Şəhər İcra Hakimiyyəti* və s.

6. Yüksək dövlət vəzifələri və fərdi xarakterdə olan fəxri adların tərkibindəki sözlərin baş hərfi böyük yazılır; məs.: *Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikasının Milli Məclisinin Sədri* və s.

7. Akademiya, ali məktəb, elmi-tədqiqat müəssisələri, cəmiyyət, teatr, təşkilat, idarə, muzey və s adların tərkibindəki əsas sözlərin (yardımçı sözlərdən başqa) baş hərfi böyük yazılır; məs.. Azərbaycan Milli Elmlər Akademiyası, Məhəmməd Füzuli adına Azərbaycan Əlyazmalar İnstitutu, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Heydər Əliyev adına Bakı Beynəlxalq Aeroportu və s.

8. Dırnaqda yazılan orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran, düşərgə, yeməkxana, mağaza və s. adlarının birinci sözünün və bunların tərkibindəki xüsusi ismin baş hərfi böyük hərflə yazılır *"İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Yeddi gözəl" baleti, "Azərbaycan" qəzeti, "İstisu" mineral suyu* və s

9. Qısaltmaların və müəyyən hissəsi ixtisar edilmiş sözlərin də yazılışında aşağıdakı məqamlarda böyük və kiçik hərflərdən istifadə olunur.

a) Ümumişlək sözlərin tərkibindəki ilk səsdən başqa digər səslər ixtisar edildikdə, sözün ilk səsi kiçik hərflə yazılır və hərfdən sonra nöqtə qoyulur; məs.: *c.* (cild), *ç v* (çap vərəqi), *b k* (bu kimi), *d y* (dəmiryolu) və s

b) Ad, ata adı, familiya bildirən isimlərin ixtisarla yazılmasında isimlərin ancaq baş hərfi saxlanır və böyük hərflə yazılır, hərfdən sonra isə nöqtə qoyulur; məs : *N Nərimanov, C Məmmədquluzadə, Ü Hacıbəyov* və s.

c) Ümumişlək sözlərin əvvəlindən iki, üç, bəzən dörd səsdən ibarət hissəsi bir heca (bəzən iki heca) halında saxlanılır, qalan

hissəsi ixtisar edilir ki, belə ixtisarlarda saxlanılan hissə kiçik hərflərlə yazılır və sonunda nöqtə qoyulur; məsələn:

*ad* (adına), *yol* (yoldaş), *prof* (professor), *akad* (akademik) və s.

Qeyd Belə ixtisarlar ancaq yazıda ola bilir Tələffüz zamanı sözlərin ixtisar edilmiş hissələri bərpa olunur və sözlər əslinə uyğun tam halda tələffüz edilir

ç) Əsasən iki sözdən ibarət ifadə və tərkibləri təşkil edən sözlərin son hissələrinin ixtisarı və ilk hissələrinin qovuşması əsasında düzəldilmiş qısaltmalar kiçik hərflərlə bir söz halında bitişik yazılır və yazıldığı tərkibdə bir söz halında da tələffüz olunur; məsələn: *raykom* (rayon komitəsi), *univermaq* (universal mağaza) və s

d) Xüsusi idarə, müəssisə və s. adlarını bildirən ifadələrin tərkibındəki sözlərin ilk hissələrinin qovuşdurulması əsasında düzəldilmiş qısaltmaların baş hərfi böyük yazılır; məsələn: *Azərnəşr*, *Azərkitab* və s.

e) Müəyyən idarə, təşkilat, cəmiyyət, ölkə, respublika və b.k obyektlərin adları halında işlənilən ifadələrin, söz birləşmələrinin tərkibində olan əsas sözlərin ilk hərflərindən düzələn qısaltmaları təşkil edən hərflər böyük yazılır; məsələn: *YAP* (*Yeni Azərbaycan Partiyası*), *ÜDM* (*Ümumi Daxili Məhsul*), *AŞPA* (*Avropa Şurası Parlament Assambleyası*) və s

ə) Bir sıra xüsusi mürəkkəb adları təşkil edən ifadələrin söz birləşmələrinin tərkibindəki ilk sözün son hissəsi ixtisar olunur, digər sözlərin isə ilk hərfi saxlanılır və beləliklə də, ixtisarlı – qısaltma söz yaradılır. Belə qısaltmaların əvvəlindəki ixtisarla düzələn söz hissəsinin baş hərfi böyük, digər hərfləri kiçik yazılır və sonra nöqtə qoyulur İfadənin tərkibindəki digər sözlərin ilk hərfləri əsasında düzələn qısaltmanı təşkil edən hərflər isə böyük yazılır; məs.: *VƏHML* (*Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası*), *AzərTAc* (*Azərbaycan Dövlət Teleqraf Agentliyi*) və s.

f) İki sözün birləşməsindən yaradılan bir sıra terminlərin tərkibindəki sözlərin ilk səsləri – hərfləri əsasında düzəldilən qısaltmalar kiçik hərflərlə, həm də bitişik yazılır; məsələn: *kq* (kiloqram), *km* (kilometr), *sm* (santimetr), *ml* (millilitr), *sl* (santilitr), *hl* (hektolitr) və s



## ŞƏKİLÇİLƏRİN YAZILIŞI

***§170. Şəkilçilərin yazılışca qruplaşdırılması.*** Azərbaycan ədəbi dilində işlənilən şəkilçilər ahəng qanunu ilə əlaqədar olaraq yazılışca, əsasən, iki qrupa bölünür:

a) Ahəng qanununa tabe olmayanlar.

b) Ahəng qanununa tabe olanlar

Ahəng qanununa tabe olmayan şəkilçilərin çoxu alınmadır, bitişdiyi sözün son hecasındakı saitlə və ya samitlə uyuşmur və ancaq bir cür yazılır. Bunlardan başqa təkcə bir samitdən ibarət olan şəkilçilər də bir cür yazılır. Buna görə də belə şəkilçilər umumiləşmiş halda b i r  c u r  y a z ı l a n  ş ə k i l ç i l ə r adlanır

Ahəng qanununa tabe olan şəkilçilərin çoxu ancaq saitlər ahənginə tabe olur, bir qismi isə həm saitlər ahənginə, həm samitlər ahənginə, həm də saitlərlə samitlər ahənginə tabe olur

Saitlər ahənginə görə şəkilçilər a ç ı q  s a i t l i  v ə  q a p a l ı  s a i t l i olmaq uzrə iki qrupa ayrılır. Açıq saitli şəkilçilər iki cür yazılır, qapalı saitli şəkilçilər dörd cür yazılır. Samitlər ahənginə tabe olan şəkilçilər sözün sonundakı samit ilə uyuşaraq şəkilçinin başındakı samitin kar və cingiltili olmasına görə fərqlənir. Beləliklə, saitlər ahənginə görə iki cür və dörd cür yazılan bəzi şəkilçilər baş samitinə görə kar və cingiltili olmaq üzrə iki variantda yazılır. Müasir Azərbaycan ədəbi dilində samitlər ahənginə görə iki variantda ancaq *q, ğ, k, g* samitləri ilə başlanan bir neçə şəkilçi *-qan, -ğan, -kən, -gən, -qın, -ğın, -kın, -gin, -qı, -ğı, -ki, -gi* şəkilçiləri yazılır.

Müasir Azərbaycan ədəbi dilində saitlərlə samitlər ahənginə görə iki variantda tələffüz olunan şəkilçilər də vardır. *-maq, -mək, -lıq, -lik, -luq, -lük, -dığı, -duğu, -diyi, -düyü* Nümunələrdən aydın görünür ki, buradakı variantlar da həmin şəkilçilərin tərkibində (əsasən sonunda) olan *q, k* samitlərinin variant kimi işlənilməsi ilə əlaqədardır, həm də bu variantlar saitlərlə samitlərin ahəngi qanunu əsasında törəmişdır. Lakin belə fərqli cəhətlərə baxmayaraq bu variantlarda tələffüz olunan şəkilçilər, əsasən, saitlər ahənginə görə fərqləndiyi üçün onların yazılışı da açıq saitli şəkilçilər, qapalı saitli şəkilçilər halında, i k i  c ü r  y a z ı l a n  ş ə k i l ç i l ə r  v ə  d ö r d  c u r  y a z ı l a n  ş ə k i l ç i l ə r qruplarına mənsub şəkilçilər kimi (variantlar nəzərə alınmaq şərti ilə) müəyyənləşdirilir.

Qeyd Azərbaycan dilində şəkilçilər çoxdur Burada ancaq çox işlənilən sözdüzəldici və sözdəyişdirici şəkilçilərin yazılışını əks etdirən nümunələr verilləcəkdir

***§171. Bir cür yazılan şəkilçilər:***

1 ***-vari*** *qalxanvari, yüngülvari; üzükvari* və s.

2. ***-dar*** *heyvandar, məhsuldar, evdar, əməkdar* və s.

3. ***-daş*** *silahdaş, məsləkdaş, vətəndaş, sirdaş* və s.

4 Şəkilçi halında bitişik yazılan *dək* qoşması (*dağadək, evədək* və s )

5 Sifət düzəldən ***-i*** şəkilçisi: *inqilabi, xarici, qərbi, cənubi* və s.

Qeyd Saitlə bitən sözlərdə *-i* şəkilçisindən əvvəl *v* hərfi artırılır *dairəvi, kütləvi, Gəncəvi, sıravi* və s (bəzən də sözün sonundakı *a* əvəzinə *ə* yazılır: *kimyəvi, dunyəvi* və s.)

6 Feli bağlama düzəldən *-kən* şəkilçisi; *almışkən, oxuyurkən, gedərkən* və s.

7 ***-kar*** şəkilçisi: *xilaskar, tələbkar, təmizkar* və s

8 ***-gil*** şəkilçisi: *xalamgil, bacımgil, əmisigil, Qulugil* və s.

9 ***-laq*** şəkilçisi (məkan ismi düzəldən) *qışlaq, otlaq, çaylaq* və s

10 ***-stan*** şəkilçisi: *Gürcüstan, Türkmənistan* və s.

Qeyd Samitlə bitən sözlərdə ***-stan*** şəkilçisindən əvvəl sözün son hecasındakı saitə uyğun olaraq qapalı saitlərdən biri – *ı, i, u, ü* əlavə olunur *Dağıstan, Özbəkistan, Kurdüstan, Monqolustan* və s

11. Felin icbar növünün şəkilçisi ***-t:*** *anlat, oxut, işlət, yandırt* və s.

12. Ön şəkilçilər ***-na:*** *nabələd, nalayiq, nacins, narazı* və s.: ***-ba:*** *baməzə, baxəbər* və s ; ***-bi:*** *bisavad, bixəbər, biçarə, bihörmət, bihuş* və s.

***§172. İki cür yazılan şəkilçilər:***

1 İsmin yönlük hal şəkilçisi ***-a, -ə:*** *dağa, evə, yola, dilə, üzə* və s Saitlə bitən isimlərdə şəkilçidən əvvəl ***-y*** artırılır: *ataya, meşəyə, güzgüyə* və s.

2. Felin arzu formasının şəkilçisi ***-a, -ə:*** *yaza, gəzə, bilə, gülə* və s Saitlə bitən fellərdə şəkilçidən əvvəl ***-y*** artırılır: *bağlaya, işləyə, oxuya* və s.

3. Murəkkəb zərf duzəldən şəkılçi ***-a, -ə:*** *qaça-qaça, gülə-gülə, deyə-deyə, bilə-bilə...* Saitlə bitən sözlərdə: *ağlaya-ağlaya, deyə-deyə* və s.



4. Felin əmr formasının I şəxs cəm şəkilçisi: ***-aq, -ək:*** *tutaq, gedək, görək, güdək* və s. Saitlə bitənlərdə şəkilçidən əvvəl *y* artırılır· *saxlayaq, dinləyək* və s.

5. Feldən sifət düzəldən şəkilçi ***-aq, -ək:*** *qorxaq, çökək* və s

6. Feldən sifət düzəldən şəkılçi ***-ağan, -əyən:*** *qaçağan, uçağan, gəzəyən, guləyən* və s.

Saitlə bitən fellərə bitişdıkdə şəkilçinin başındakı sait düşür *ağlağan* və s.

7. Fel düzəldən şəkılçi ***-al, -əl:*** *azalmaq, çoxalmaq, düzəlmək* və s

8. ***-an, -ən*** şəkilçisi: *olan, çalan, quran, düzən, gələn* Saitlə bitən sözlərdə şəkılçidən əvvəl *y* artırılır: *doğrayan, dinləyən, işləyən, əriyən* və s

9. ***-anda, -əndə*** şəkilçisi: *alanda, oturanda, görəndə, döyəndə* Saitlə bitən sözlərdə şəkilçidən əvvəl *y* artırılır: *ağlayanda, işləyəndə, deyəndə* və s

10. ***-ar, -ər*** şəkilçisi: *alar, olar, uçar, qaçar, köçər, içər, gülər* Saitlə bitən sözlərdə ***-yar, -yər:*** *doğrayar, süruyər, quruyar, dəyər* və s

11. ***-araq, -ərək*** şəkılçisi: *qaçaraq, uçaraq, yıxaraq, qoyaraq, gələrək, bilərək, gülərək, deyərək* Saitlə bitən sözlərdə ***-yaraq, -yərək*** *saxlayaraq, dinləyərək, sürüyərək, oxuyaraq, deyərək* və s.

12. ***-ası, -əsi*** şəkilçisi· *olası, gedəsi, görəsi.* Saitlə bitənlərdə ***-yası, -yəsi.*** *bağlayası, tullayası, işləyəsi, deyəsi* və s

13 ***-acaq, -əcək*** şəkilçisi: *qalacaq, olacaq, duracaq, qıracaq, gələcək, deyəcək, guləcək, biləcək, dəyəcək, sevəcək* Saitlə bitən sözlərdə ***-yacaq, -yəcək·*** *anlayacaq, quruyacaq, dinləyəcək, süruyəcək* və s

14. ***-da, -də*** şəkilçisi: *bağda, yolda, ulduzda, düzdə, sizdə* və s.

15. ***-dan, -dən*** şəkilçisi: *candan, dostdan, quzudan, surudən, eldən* və s.

16. Fel düzəldən ***-la, -lə*** şəkilçisi: *başla, dişlə, yolla, şirlə* və s.

17. ***-la, -lə*** qoşma şəkilçisi; *atamla, oğulla, qələmlə, gumüşlə, quşla* və s.

18. ***-lar, -lər*** şəkilçisi. *dağlar, yollar, sular, göllər, ellər, dillər* və s.

19. ***-lan, -lən*** şəkilçisi. *bağlan-maq, yağlan-maq, dillən-mək, küllən-mək* və s.

20. ***-laş, -ləş*** şəkilçisi: *yaxşılaşmaq, pisləşmək, kobudlaşmaq, incələşmək, eybəcərləşmək, fikirləşmək* və s

21. İnkar şəkilçisi ***-ma, -mə*** *danışma, oxuma, baxma, qovma, demə, görüşmə* və s.

22. İsim duzəldən ***-ma, -mə*** şəkilçisi: *qazma, basma, tökmə, törəmə, bukmə* və s.
23 ***-maq, -mək*** şəkilçisi: *yazmaq, oxumaq, bilmək, gülmək, söyləmək* və s.
24. ***-madan, -mədən*** şəkılçisi: *yazmadan, oxumadan, bilmədən, dinləmədən* və s.
25. ***-malı, -məli*** şəkilçisi: *oxumalı, yatmalı, görməli, gülməli, bilməli* və s.
26. ***-mayınca, -məyincə*** şəkilçisi: *yazmayınca, bilməyincə, olmayınca* və s.
27. ***-sa,-sə*** şəkılçısi: *alsa, olsa, varsa, yoxsa, görsə, gəlsə, desə* və s.
28. ***-san, -sən*** şəxs şəkilçisi: *alarsan, olursan, görərsən, bilərsən* və s.
29. ***-ca, -cə*** şəkılçisi. *qaraca, xırdaca, quruca, yavaşca, dinməzcə, düzcə, ərəbcə, kürdcə, türkcə, rusca, bizcə, məncə* və s.
30. ***-ça, -çə*** şəkılçisi: *bağça, meydança, gözəlçə* və s.

***§173. Dörd cür yazılan şəkilçilər.***

1. ***-qı, -ğı, -qu, -ğu, -ki, -gi, -kü, -gü*** şəkılçisi: *bıçqı, çalğı, pusqu, durğu, bitki, silgı, sürtkü, bölgü* və s
2 ***-qın, -ğın, -qun, -ğun, -kin, -gin, -kün, -gün*** şəkılçisi: *çaşqın, qızğın, tutqun, yorğun, kəskin, əzgin, ötkün, düzgün* və s
3 ***-dı, -du, -di, -dü*** şəkilçisi: *yazdı, qırdı, oldu, durdu, gəldi, bildi, güldü, gördu* və s
4. ***-dır, -dir, -dur, -dür*** xəbər şəkılçisi: *qışdır, azdır, yoxdur, sudur, gözəldir, təmizdir, sözdür, görmüşdür* və s.
5. Felın icbar növü şəkilçisi ***-dır, -dir, -dur, -dür:*** *yazdır, pozdur, əzdir, süzdür* və s.
6 ***-dıqda, -duqda, -dikdə, -dükdə*** şəkılçisi: *aldıqda, çıxdıqda, olduqda, qurduqda, gəldikdə, dedikdə, bildikdə, sökdükdə, üzdükdə* və s.
7. ***-dıqca, -dikcə, -duqca, -dükcə*** şəkılçisi: *yazdıqca, yığdıqca, olduqca, durduqca, gəldikcə, getdikcə, içdikcə, sökdükcə, güldükcə* və s.
8. ***-dığı, -duğu, -diyi, -düyü*** şəkilçisi: *aldığı, oxuduğu, bildiyi, gördüyü* və s.
9. Sifət düzəldən ***-ıq, -uq, -ik, -ük*** şəkılçisi: *çapıq, pozuq, əzik, sökük* və s.
10. ***-ıb, -ub, -ib, -üb*** şəkılçisi: *alıb, yıxıb, olub, qurub, gəlib.* Saitlə bitən sözlərdə ***-yıb, -yub, -yib, -yüb:*** *deyib, anlayıb, daşıyıb, söyləyib* və s.



11. ***-ıl, -ul, -il, -ül*** şəkilçisi: *yazıl, açıl, doğul, əzil, büzül* və s.
12. Feldən isim duzəldən ***-ım, -um, -im, -üm*** şəkılçisi: *atım, tutum, udum, biçim, büküm* və s.
13 Əmr forması I şəxsin təkinin şəkilçisi ***-ım, -um, -im, -üm*** *qaçım, çıxım, vurum, əzim, üzüm.* Saitlə bitən sözlərdə ***-yım, -yum, -yim, -yüm:*** *yaşayım, qoruyum, söyləyim, sürüyüm* və s.
14. Birinci şəxsın təkinin mənsubiyyət şəkilçisi ***-ım, -um, -im, -üm:*** *canım, yurdum, elim, günüm.* Saitlə bitən sözlərə bitışdırildikdə şəkilçının saiti düşür, *m* qalır: *yuvam, obam, anam, nənəm, bacım* və s.
15. Bırinci şəxsin cəminin mənsubiyyət şəkilçisi ***-ımız, -umuz, -imiz, -ümüz*** *qanımız, yolumuz, dilimız, sözümüz* Samitlə bitən sözlərdə ***-mız, -muz, -miz, -müz*** *anamız, arzumuz, iradəmiz, güzgümüz* və s
16. Feldən isim düzəldən şəkılçi ***-ın, -un, -in, -ün*** *axın, qoşun, biçin* və s.
17. Yiyəlik hal şəkilçisi ***-ın, -un, -in, -ün.*** *ağacın, odunun, yerin, gülün.* Saitlə bitən sözlərdə şəkilçının əvvəlinə *n* samitı artırılır· *dünyanın, ordunun, ölkənin, sürunün* və s.
18. Təsırsiz fel əmələ gətirən şəkilçi ***-ın, -un, -in, -ün*** *çalın, soyun, bilin, görün.* Saıtlə bitən sözlərə bitışdırıldıkdə şəkilçının saitı düşür, *n* qalır. *qorun, sırın* və s.
19. Əmr forması II şəxsin təkının şəkılçisi ***-ın, -un, -in, -ün*** *alın, durun, keçin, köçün* Saitlə bitən sözlərdə ***-yın, -yun, -yin, -yün*** *anlayın, oxuyun, dinləyin, sürüyün* və s.
20. Əmr forması II şəxsın cəminin şəkılçisi ***-ınız, -unuz, -iniz, -ünüz:*** *alınız, oturunuz, əyləşiniz, düşünüz.* Saitlə bitən isimlərdə ***-yınız, -yunuz, -yiniz, -yünüz*** *yoxlayınız, oxuyunuz, deyiniz, sürüyünüz* və s
21. ***-ınca, -unca, -incə, -üncə*** şəkılçisi: *yazınca, dolunca, gəlincə, görüncə.* Saitlə bitən sözlərdə ***-yınca, -yunca, -yincə, -yüncə*** *ağlayınca, pisləyincə* və s.
22. ***-ıncı, -uncu, -inci, -üncü*** şəkilçisi: *qırxıncı, onuncu, birınci, üçüncü.* Saitlə bitən sözlər bitışdırildıkdə şəkilçınin baş saiti düşür: ***-ncı, -nci*** *altıncı, yeddinci* və s
23. Feldən ad duzəldən ***-ınc, -unc, -inc, -ünc*** şəkılçisi· *qaxınc, qorxunc, sevinc, gulunc* və s.
24. İndiki zaman şəkilçisi ***-ır, -ur, -ir, -ür.*** *alır, olur, gəlir, bölür.* Saitlə bitən sözlərdə ***-yır, -yur, -yir, -yür*** *darayır, oxuyur, ələyir, çürüyür* və s

25 Təsirli fel düzəldən *-ır, -ur, -ir, -ür* şəkilçisi: *qaçır-maq, uçur-maq, bişir-mək, köçür-mək* və s.

26. Təsirli fel düzəldən *-ıt, -ut, -it, -üt* şəkilçisi *axıt-maq, qorxut-maq, bərkıt-mək* və s.

27. Feldən isim düzəldən *-ıntı, -untu, -inti, -üntü* şəkilçisi: *qazıntı, qırıntı, ovuntu, əyinti, çöküntü* və s.

28. Feldən ad düzəldən *-ıcı, -ucu, -ici, -ücü* şəkilçisi: *alıcı, qırıcı, vurucu, seçici, sürücü.* Saitlə bitən sözlərdə *-yıcı, -yucu, -yici, -yücü: hesablayıcı, yuyucu, dinləyici, sürüyücü* və s.

29 Feldən isim düzəldən *-ış, -uş, -iş, -üş* şəkilçisi: *çağırış, duruş, oturuş, eniş, görüş, gülüş.* Saitlə bitən sözlərdə *-yış, -yuş, -yiş, -yüş: arayış, titrəyiş* və s.

30. Felin qarşılıq növünü düzəldən şəkılçi *-ış, -uş, -iş, -üş. yazış-maq, vuruş-maq, seviş-mək, görüş-mək* və s.

31. *-lı, -lu, -li, -lü* şəkılçisi: *qarlı, qırlı, dağlı, odlu, duzlu, kəndli, şəhərli, sözlü, gullü, evli, eşikli, məzəli, qaralı, sarılı* və s.

32 *-lıq, -luq, -lik, -lük* şəkilçisi: *daşlıq, otluq, birlik, üçlük* və s.

33. *-mış, -muş, -miş, -müş* şəkılçisi: *yazmış, oxumuş, keçmiş, görmüş* və s.

34 *-mı, -mu, -mi, -mü* şəkılçisi: *azmı, çoxmu, təkmi, cütmü, olarmı, oldumu, görmüşmü, bağdamı, evdəmi* və s.

35. *-kı, -ku, -ki, -kü* şəkilçisi: *axşamkı, onunku, dünənkı, gündüzkü, bizimkı, ogünkü, bağdakı, düzdəkı, özününkü* və s

36. *-sız, -suz, -siz, -süz* şəkılçisi: *saysız, adsız, binasız, susuz, duzsuz, tozsuz, işsiz, sürüsüz, gölsüz* və s.

37. Əmr forması III şəxsin təkının şəkilçisi: *-sın, -sun, -sin, -sün alsın, oxusun, bilsin, görsün* və s.

38. *-sınız, -sunuz, -siniz, -sünüz* şəkılçisi: *qalırsınız, olmuşsunuz, gəlirsiniz, görürsünüz, gedəsiniz, alasınız* və s

39 *-tı, -tu, -ti, -tü* şəkilçisi· *ağartı, xorultu, göyərti, böyürtü* və s.

40 *-çı, -çu, -çi, -çü* şəkilçisi. *yazıçı, topçu, zərbəçi, cütçü* və s

***§174. Mürəkkəb sözlərin yazılışı.*** Müasir Azərbaycan dili orfoqrafiya qaydalarına görə, mürəkkəb sözlər ya bitışik, ya ayrı, ya da yarımbitişik (defislə) yazılır

**I. Bitişik yazılan mürəkkəb sözlər**

1. Miqdar sayı ilə isim və ya sifətdən düzəldilən mürəkkəb sözlər; məs.: *üçbucaq, beşillik, ongünlük, ikıhecalı, birmənalı, yüzillik* və s.



2. İsimlə mənsubiyyət şəkılçili zərfdən duzəldilən mürəkkəb zərf və sifətlər; məs.: *bayramqabağı, rayonlararası, həyətyanı, dənizkənarı* və s.

3. Çıxışlıq halda olan isimlə feli isim tərkibindən ibarət mürəkkəb sözlər; məs : *anadangəlmə, ucdantutma, başdansovma* və s.

4. İkı sadə ismin qovuşmasından düzələn mürəkkəb isimlər; məsələn: *qayınata, qayınana, giləmeyvə, rəsmxət, husnxət, hacıleylək, sacayaq* və s

5. Sadə isimlə felı sifət tərkibındən ibarət mürəkkəb sözlər; məsələn: *aşsüzən, gunbatan, gündoğan, tozsoran, taxıldöyən, susəpən* və s.

6 Sadə isimlə feli isim birləşməsindən düzələn mürəkkəb sözlər; məsələn: *səsvermə, poladəritmə, maşınqayırma, pambıqtəmizləmə* və s.

7 Sadə və ya düzəltmə isimlə mənsubiyyət şəkılçisi qəbul etmiş başqa bır ismın bırləşməsindən duzələn murəkkəb sözlər; məsələn *ayaqqabı, əlyazması, ildönümü, suiti, cansağlığı, dünyagörüşü, əmiqızı, eloğlu, ilanbalığı* və s

8 Sadə və ya düzəltmə sifətlə sadə isimdən düzəldilən mürəkkəb isimlər; məsələn: *ağcaqanad, qaratikan, istiot, yeniyetmə, sarıköynək, xammal* və s.

9. İsimlə *-lıq, -lik, -luq, -lük* şəkilçisi qəbul etmiş sadə və ya düzəltmə sifətdən ibarət murəkkəb sözlər; məsələn *qanunauyğunluq, əliaçıqlıq, qanunvericilik, əliəyrilik* və s.

10. Təkrarlanan felın *ha* vasitəsi ilə qovuşdurulmasından duzəldilən mürəkkəb sözlər; məsələn: *vurhavur, yazhayaz, gəlhagəl, gəzhagəz, yehaye, dehade* və s.

Qeyd. Təkrarlanan fel kar samit ilə bitərsə, *ha* əvəzinə *a* və ya *ə* yazılır, məsələn *basabas, qaçaqaç, tutatut, kəsəkəs, içəiç* və s

11. Sonuna *xana, namə* qoşmaq ilə duzəldilən sözlər, məsələn *qiraətxana, kıtabxana, mehmanxana, vəkalətnamə, "Hophopnamə"* və s.

12. Sadə sifətlə sadə isim birləşməsindən düzəldilən coğrafi adlar; məsələn: *Ağdaş, Ağşəhər, Qaraşəhər, Yenikənd, Göyçay* və s.

13. İkı ismın birləşməsindən duzələn coğrafi adlar, məsələn *Arpaçay, Qusarçay, Qonaqkənd* və s

14 İsimlərə *abad* sözünün qoşulması ilə duzəldilən yer adları, məsələn· *Sabirabad, Cəlilabad* və s

15. İnsan adlarını bildirən mürəkkəb isimlər; məsələn: *Qızqayıt, Əbdulkərim, Əlimərdan, Məmmədəli, Xoşqədəm, Məmmədhəsən* və s.

Qeyd İnsan adlarını bildirən mürəkkəb sözlərdə iki sait yanaşı gələrsə, birinci sözün sonundakı sait ixtisar olunur; məsələn; *Ələkbər* (Əli-Əkbər), *Ələsgər* (Əli-Əsgər), *Hacağa* (Hacı-ağa) və s

16. Tərkibində *zadə* və *oğlu* sözləri olan familiyalar; məsələn: *Əzimzadə, Məmmədquluzadə, Həsənoğlu, Azəroğlu* və s.

17. Rütbə, ləqəb, titul bildirmədən mürəkkəb adın tərkib hissəsi məqamında işlənilən *mir, mirzə, hacı, seyid, şah, sultan, ağa, bəy, xan, xanım, bəyim* sözləri olan mürəkkəb isimlər; məsələn: *Mirbaşir, Mirzəli, Hacıbala, Seyidfatma, Şahsənəm, Sultanəli, Ağabacı, Xanmurad, Xanbacı, Böyükxanım, Balabəy, Bəyimbacı* və s.

18. Sadə sifətlə sadə isim birləşməsindən düzəldılən mürəkkəb sifətlər; məsələn: *ağbirçək, ağsaqqal, balacaboy, bəstəboy, qarasaqqal, sarıbəniz, uzunsaç, uzunburun, dazbaş, ağciyər* və s.

19. Sadə və düzəltmə sifətdən əmələ gətirilən mürəkkəb sifətlər; məsələn: *qarasaçlı, ağsaçlı, qarabuğdayı, uzunboylu* və s.

20. Tərkibində *az, bərabər, bir, düz, eyni, müxtəlif, ümum, həm, çox* sözləri olan mürəkkəb sifətlər; məsələn: *azişlənən, bərabərhüquqlu, düzbucaqlı, eyniqiymətli, ümumxalq, ümumdünya, ümumbəşəri, müxtəlifcəhətli, müxtəliftərəfli, həmkar, həmrəy, həmfikir, çoxcəhətli, çoxişlənən, çoxmənalı, çoxxətli, çoxmillətli, çoxhecalı, çoxuşaqlı* və s.

21. Sadə isimlə *verici, dəyişdirici, düzəldici, edilməz, olunmaz, gəlməz, batmaz, sevər, əmər, edici* və s kimi düzəltmə sifətlərdən əmələ gələn mürəkkəb sifətlər; məsələn: *zərərverici, sözdəyişdirici, sözdüzəldici, əvəzedilməz, məğlubedilməz, əvəzolunmaz, ağlagəlməz, ağlabatmaz, əməksevər, sülhsevər, sudəmər, məhvedici, tənqidedici, təhqiredici, təsiredici, həlledici* və s.

22. Mənsubiyyət şəkilçili sadə isimlə sadə (və ya düzəltmə) sifətdən əmələ gələn mürəkkəb sifətlər; məsələn: *ağzıboş, ağzıaçıq, ağzıbütün, ağzıyırtıq, ağzıgöyçək, qanıqara, ayağıyüngül* və s.

23. Sifətin şiddətləndirmə dərəcəsini bildirmək üçün sözün ilk hecasındakı saitdən sonra *m, p, s, r* ünsürləri artırmaqla düzələn hissəciklər sifətin əvvəlinə bitişdirilir; məsələn: *yamyaşıl, gömgöy, qapqara, qupquru, qıpqırmızı, sapsarı, büsbütün, tərtəmiz* və s.

24 Sadə isimlə *bir* sayının birləşməsindən düzələn zərflər; məsələn· *əlbir, sözbir, canbir, dilbir* və s.



25. Sadə isimlə mənsubiyyət şəkilçili isim və ya zərf birləşməsindən düzələn murəkkəb zərflər; məsələn: *addımbaşı, ayaqüstü, dilucu, dodaqaltı, gözaltı, əlaltı, əlüstü, barmaqarası* və s.

26. Təkrar edilən müxtəlif nitq hissələrinin *ba, bə* vasitəsi ilə qovuşdurulmasından düzələn mürəkkəb zərflər; məsələn: *qarabaqara, dalbadal, ilbəil, əlbəəl, yerbəyer, günbəgün, taybatay, elbəel, aybaay, növbənöv, cürbəcür* və s.

27. Aşağıdakı murəkkəb bağlayıcılar bitişik yazılır: *yainki, yaxud, nəinki, sanki, habelə, halbuki, həmçinin, hərgah, hərçənd, çünki*

**II. Ayrı yazılan mürəkkəb sözlər**

1. Çıxışlıq hal şəkilçisi qəbul etmiş ismə qoşulan sifətdən düzələn mürəkkəb sifətin tərkib hissələri ayrı yazılır; məsələn: *qoldan güclü, dildən iti, ağıldan kəm* və s.

2. Mürəkkəb mıqdar, sıra, kəsr sayları ayrı yazılır; məsələn: *on iki, altmış bir, otuz yeddinci, altmış doqquzuncu, üçdə bir, onda beş* və s.

3. Birinci sözü *o, bu* işarə əvəzliklərindən ibarət olan mürəkkəb sözlər ayrı yazılır; məsələn: *bu il, bu gün, o dəm, o vaxt* və s.

4 Mürəkkəb sual əvəzliklərinin, qeyri-müəyyən əvəzliklərin tərkibindəki sözlər ayrı yazılır; məsələn: *nə cür, nə uçün, hər kəs, heç kəs* və s.

5. İki sadə bağlayıcıdan və sadə bağlayıcı ilə başqa nıtq hissəsindən düzələn mürəkkəb bağlayıcılar ayrı yazılır; məsələn: *belə ki, bununla da, buna görə də, və ya, və yaxud, həm də, daha da, odur ki, tutaq ki, demək ki, madam ki, onun üçün də* və s.

6. Müxtəlif sözlərə *bilmək, etmək, eləmək, olmaq* fellərinin qoşulması ilə düzələn mürəkkəb fellərin tərkib hissələri ayrı yazılır; məsələn: *gedə bilmək, şad olmaq, hökm eləmək, qəbul etmək* və s.

7. Məcazi mənada işlənilən fellərlə başqa nitq hissələrinə mənsub sözlərin birləşməsindən düzələn mürəkkəb fellərin tərkib hissələri ayrı yazılır; məsələn. *başa düşmək, başa salmaq, qulaq asmaq, cana gəlmək* və s.

**III. Defislə yazılan mürəkkəb sözlər haqqında məlumat "defis işarəsi" bəhsində verilmişdir.**

## YAZIDA SÖZ HİSSƏSİNİN SƏTİRDƏN SƏTRƏ KEÇİRİLMƏSİ QAYDALARI

***§175. Sətirdən sətrə keçirilmə haqqında.*** Yazıda sözlərin tərkib hissəsini bütövlükdə bir sətirdə yerləşdirmək cümlənin, mətnin düzgün oxunmasına, duzgün anlaşılmasına xüsusi kömək edir. Lakin hər zaman yazını bu şəkildə qurmaq mümkün olmur Bəzən sətrin sonunda sözü bütövlüklə yazmaq üçün yer qalmır, sözün digər hissəsini sonrakı sətrin əvvəlinə keçirmək lazım gəlir. Belə məqamda mexaniki olaraq sətrin sonuna neçə hərf yerləşsə, sözün əvvəlindən bu qədər də hərfi sətrin sonunda yazmaq, sözün qalan hissəsini isə yeni sətrə keçirmək olmaz. Belə hallarda sətrin sonunda yerləşməyən sözün quruluşu, mənası nəzərə alınmalı, yəni belə sözlər quruluş və məna vahidləri halında parçalara ayrılıb birinci hissəsi əvvəlki sətrin sonunda, ikinci hissəsi isə sonrakı sətrin başında yazılmalıdır Buna görə də müasir Azərbaycan orfoqrafiya qaydasında söz hissəsinin sətirdən sətrə keçirilməsində heca vahidliyi, söz kökü vahidliyi və qrafik vahidlik kimi üç prinsip əsasında aşağıdakı qaydalar müəyyənləşdirilmişdir.

***§176. Heca vahidliyi prinsipi.*** Bu prinsipə əsasən sətirdən sətrə keçirmədə sözün ayrılan hissələri heca vahidləri ilə eyniyyət təşkil etməlidir.

Muasir Azərbaycan yazısında heca vahidliyi prinsipi əsasında sətirdən sətrə keçirmə qaydaları aşağıdakılardır:

1. Söz hissələri yeni sətrə bütöv hecalarla keçirilir; məsələn: *qa-zı, qu-zu, dost-luq, yay-laq, çə-mən* və s.

2. Sözün bircə saitdən ibarət olan ilk hecasını əvvəlki sətrin sonunda qoymaq olmaz, buna görə də ikihecalı belə sözləri *a-da, a-dam, a-ra, a-la, a-na, a-ta, a-çıq, a-cı, ə-ziz, ə-kin, ə-la, e-lan* kimi hecalara ayırmadan bir sətirdə yazmalı. Lakin ilk hecası bircə saitdən ibarət söz üç, dördhecalı olarsa, sətrin sonunda olan yerə görə sözün əvvəlindəki iki hecanı sətrin sonunda yazmaq, qalan hissəni isə yeni sətrə keçirmək lazımdır, məsələn: *ica-zə, eti-raz, aci-zanə* və s.

3 İki və ya çoxhecalı sözlərin bircə saitdən ibarət olan sonuncu hecası yeni sətrə keçirilməz Belə sözlər ikihecalıdırsa, bir sətirdə yerləşdirilməli və *cüz-i, şu-a* şəklində parçalanmamalıdır. Belə sözlər çoxhecalıdırsa, sözün sonundan iki hecanı birlikdə yeni sətrə keçirmək lazımdır; məsələn: *va-qiə, əm-təə, id-dia, mət-bəə, müd-dəa* və s.



4. Tərkibində eynicinsli qoşa samit olan sözlərin saitdən əvvəlki iki samitini nə sətrin sonunda qoymaq olar, nə də o biri sətrə keçirmək olar.

Bu sözləri yeni sətrə keçirərkən qoşa samitdən hər biri hecalardan birinə qoşulur.

| Keçirmək olmaz | Keçirmək olar |
|---|---|
| *a-ddım, add-ım* | *ad-dım* |
| *do-qquz, doqq-uz* | *doq-quz* |
| *sə-kkiz, səkk-iz* | *sək-kiz* |
| *rə-ssam, rəss-am* | *rəs-sam* |
| *sə-hhət, səhh-ət* | *səh-hət* |

5. Bitişdirici (*a*) (*ə*) vasitəsi ilə əməl gələn *qaçaqaç, tutatut, kəsəkəs* tipli sözlər aşağıdakı şəkildə yeni sətrə keçirilir

| Keçirmək olmaz | Keçirmək olar |
|---|---|
| *qaç-aqaç* | *qa-çaqaç, qaça-qaç* |
| *tut-atut* | *tu-tatut, tuta-tut* |
| *kəs-əkəs* | *kə-səkəs, kəsə-kəs* |

***§177. Söz kökü vahidliyi prinsipi.*** Mürəkkəb sözlərin tərkib hissələrini sətirdən sətrə keçirmədə əsasən söz kökü vahidliyi prinsipi tətbiq olunur. Bu prinsipə görə mürəkkəb sözün muəyyən hissəsini əvvəlinci sətrin sonunda qoyub digər hissəsini yeni sətrə keçirərkən tərkibindəki sözlərdən ya əvvəlkinin, ya da sonrakının leksik vahidliyini mühafizə etmək lazımdır. Buna görə də mürəkkəb sözlərin hissələrini sətirdən sətrə keçirərkən aşağıdakı qaydalara riayət etmək zəruridir:

1 Mürəkkəb sözün tərkibindəki ikinci sözün başındakı samit səs heca vahidliyinə görə sətrin sonunda yazılan əvvəlki sözün axırına düşsə də, orada saxlanılmır, yeni sətrə keçirilən sözün baş səsi halında yeni sətrin əvvəlində yazılır Beləliklə də, yeni sətrə keçirilən hissənin söz vahidliyi mühafizə edilmiş olur; məsələn:

| Keçirmək olmaz | Keçirmək olar |
|---|---|
| *bioq-rafiya* | *bio-qrafiya* |
| *diaq-ram* | *dia-qram* |
| *proq-ram* | *pro-qram* |
| *monoq-rafiya* | *mono-qrafiya* |
| *teleq-ram* | *tele-qram* və s |

2. Mürəkkəb sözlərin tərkibindəki birinci sözün son samitini ikinci sözün bircə saitdən ibarət olan ilk hecasına qoşub yeni sətrə keçirmək olmaz. Eləcə də ikinci sözün bircə saitdən ibarət olan ilk hecasını birinci sözün son samitinə qoşub vahid heca halında sətrin sonunda saxlamaq olmaz; məsələn:

| Keçirmək olmaz | Keçirmək olar |
|---|---|
| *di-lucu, dilu-cu* | *dil-ucu* |
| *əvə-zedilməz, əvəze-dilməz* | *əvəz-edilməz* |
| *əvə-zolunmaz, əvəzo-lunmaz* | *əvəz-olunmaz* |
| *kəkli-kotu, kəkliko-tu* | *kəklik-otu* |
| *palta-rasan, paltara-san* | *paltar-asan* |
| *Gu-lağa, Güla-ğa* | *Gül-ağa* |
| *Sabi-rabad, Sabira-bad* | *Sabir-abad* |
| *təsi-redici, tə-siredici* | *təsir-edici* |

***§178. Qrafik vahidlik prinsipi.*** İxtisarla yazılan sözlərin, qısaltmaların, rəqəmlərin, durğu işarələrinin və eləcə də müxtəlif elm sahələri ilə bağlı olan spesifik işarələrin aşağıdakı qaydalar üzrə sətirdən-sətrə keçirilməsində əsasən qrafik vahidlik prinsipi tətbiq olunur

1. Ad və ata adının böyük hərflərlə yazılmış qısaltmaların birini əvvəlki sətrin sonunda qoymaq, digərini yeni sətrə keçirmək, eləcə də qısaltmaların hər ikisini əvvəlki sətrin sonunda qoymaq, familiyanı isə sonrakı sətrə keçirmək olmaz. Bunların hamısı bir sətirdə yazılmalıdır; məsələn. *Ü.-Ə.Hacıbəyov,* yaxud *Ü.Ə.-Hacıbəyov* halında sətirdən sətrə keçirmək olmaz, *Ü Ə.Hacıbəyov* halında bir sətirdə yazmaq lazımdır.

2. Bir neçə hərf birləşməsindən ibarət olan qısaltmaların tərkibindəki hərfin birini (və ya bir neçəsini) sətrin sonunda qoymaq, digərini (və ya digərlərini) yeni sətrə keçirmək olmaz; məsələn:

*APU* qısaltmasını *A-PU* və *AP-U* kimi, *AHİŞ* qısaltmasını *A-HİŞ, AH-İŞ, AHİ-Ş* kimi parçalayıb sətirdən sətrə keçirmək olmaz. Belə qısaltmaları təşkil edən hərflərin hamısı vahid söz halında bir sətirdə yazılmalıdır.

3. Ancaq yazıda işlənilən və bir neçə sözün ilk hərfi əsasında düzəldilib kiçik hərflə yazılan qısaltmaların bir hissəsini sətrin sonunda qoymaq, digər hissəsini isə yeni sətrə keçirmək olmaz. Belə qısaltmalar, eləcə də *kq, km, mm* kimi bitişik yazılan qısaltmalar bir sətirdə, həm də mənaca bağlı olduğu sözün sonunda yazılmalıdır; məs.: *ç v* , ... *kq,* ... *km* və s.



4. Hərflər və rəqəmlərlə düzəldilmiş qısaltmalardakı hərfləri əvvəlinci sətrin sonunda yazmaq, rəqəmləri isə yeni sətrə keçirmək olmaz. Belə qısaltmalar bir sətirdə yazılmalıdır; məs.: *TU-104, İL-18* və s

5. Rəqəm ilə yazılan saylara defis ilə qoşulan şəkilçiləri rəqəmlərdən ayırıb yeni sətrə keçirmək olmaz, yəni

| | | | |
|---|---|---|---|
| *5-*<br>*-ci ..* | *saat 12-*<br>*-də..* | *1905-*<br>*-ci ildə* | *saat 6-*<br>*-ya qədər* |

halında keçirmək olmaz Bunlar bir sətirdə *5-ci…, 12-də…, 1905-ci ildə, 6-ya qədər* tərzində yazılmalıdır.

6. Rəqəmlərdən sonra ixtisarla yazılan ölçü vahidlərini və eləcə də bəzi şərti işarələri rəqəmlərdən ayırıb yeni sətrə keçirmək olmaz. Bunlar bir sətirdə yazılmalıdır; məsələn.

| | | |
|---|---|---|
| *5*<br>*kq* | *150*<br>*km* | *100*<br>*%* |

halında iki sətirdə deyil, *5 kq, 150 km, 100%* tərzində bir sətirdə yazmalı.

7. Açılan mötərizə və dırnağı sətrin sonunda qoymaq olmaz

8. Durğu işarələrini yeni sətrə keçirib sətrin başında qoymaq olmaz.

## MÜNDƏRİCAT


*Giriş* .... 5

BİRİNCİ HİSSƏ

**Müasir Azərbaycan ədəbi dilinin fonetikası**

Ümumi fonetika məsələləri .... 8
Səsin formalaşma mənbələri və əlamətləri .... 13
Azərbaycan ədəbi dilindəki saitlər sistemi (vokalizm) .... 34
Saitlərin əsas xüsusiyyətləri .... 41
Azərbaycan dilindəki samitlər sistemi (konsonantizm) .... 54
Azərbaycan ədəbi dilindəki samitlərin əsas xüsusiyyətləri .... 58
Nitqin fonetik parçaları .... 79
Heca .... 81
Nitq axınında hecaların fonetik tərkibindəki prosеslər haqqında .... 90
Azərbaycan ədəbi dilindəki fonetik hadisə və qanunlar .... 99
Nitq parçalarının mənalı səslənmə (fono-semantik) əlamətləri .... 122
Vurğu .... 123
Avazlanma (intonasiya) .... 135
Durğu (fasilə) .... 137

İKİNCİ HİSSƏ

**Müasir Azərbaycan dilinin orfoepiyası**

Tələffüz və orfoepiya .... 140
Ədəbi tələffüzün mənbələri haqqında .... 149
Tələffüz vasitələri .... 153
Tələffüz şəraiti .... 156
Lüğəvi şəraitdə tələffüz .... 157
Saitlərin tələffüzü. Samitlərlə yanaşı saitlərin tələffüzü .... 159
Yanaşı saitlərin tələffüzü .... 168
Samitlərin tələffüzü. Müxtəlif çalarlıqlarda tələffüz olunan cingiltili samitlər .... 172
Əsasən öz məxrəcinə müvafiq tələffüz olunan cingiltili samitlər .... 179
Müxtəlif çalarlıqlarda tələffüz olunan kar samitlər .... 182
Əsasən öz məxrəclərinə uyğun tələffüz olunan kar samitlər .... 186
Qrafik şəraitdə tələffüz .... 187
Qrammatik şəraitdə tələffüz .... 194
Morfoloji şəraitdə tələffüz .... 195
Sintaktik şəraitdə tələffüz .... 202
Ədəbi tələffüzün pozulma mənbələri .... 207

ÜÇÜNCÜ HİSSƏ

**Müasir Azərbaycan dilinin orfoqrafiyası**

Yazı və orfoqrafiya .... 212
Orfoqrafiya .... 220
Azərbaycan dili orfoqrafiyasının prinsipləri .... 221
Defis işarəsi və orfoqrafik mahiyyəti .... 229
Şəkilçilərin yazılışı .... 239
Yazıda söz hissəsinin sətirdən sətrə keçirilməsi qaydaları .... 248

Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə

# MÜASİR AZƏRBAYCAN DİLİ

I hissə

FONETİKA, ORFOEPİYA, ORFOQRAFİYA

"Şərq-Qərb"
Bakı
2007

Buraxılışa məsul *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələyicisi *Rəvan Mürsəlov*

Korrektorlar: *Fəridə Səmədova*
*Pərinaz Musaqızı*

Yığılmağa verilmişdir 10 05 2007 Çapa imzalanmışdır 19 07 2007
Formatı 60×90 $^1/_{16}$ Fiziki çap vərəqi 16 Ofset çap üsulu
Tirajı 25000 Sifariş 100

DUST 5773-90, DUST 4 482-87

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur
Bakı, Şərifzadə küçəsi, 3

Ш163
Э47

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyevin**
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il
tarixli sərəncamı ilə nəşr olunur.